LƏTİFƏ NURAN

TƏNHA KÖLGƏLƏR

Bakı-2007

Kitabımın işıq üzü görməsində maddi və mənəvi köməkliyini əsirgəməyən, bacım Hənifə xanıma və onun həyat yoldaşı Əli bəyə öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Redaktor: Q.Nəcəfzadə.
Korrektor: Hənifə Əlihəsən qızı.
Komputerdə tərtibatçı: A. Muradova
Naşir: V. Mayılov

LƏTİFƏ NURAN

"Tənha Kölgələr" Roman, hekayə və povestlər. Bakı 2007, "MSV NƏŞR"
276. səh.

Müəllifdən

Mənimlə tanış olmaq istəyən oxucum. Roman hissi həyatım, povest və hekayə adlandırdığımsa mənim ruh dünyamdır. Bəli bu mənəm gəlin tanış olaq. Talehimdən asılı olan «Tənha kölgələri»min Talehinə doğan günəşin nurunu sizinlə paylaşacağım anı ağlıma gətirə bilmirdim.

Amma, nə vaxtsa, «Tənha kölgələr»imin, mənim, tənha kölgənin başı üzərində dolaşaraq, rəsmini bu sözlərlə əks etdirəcəyini bilirdim.
İndi, mənim Tənha kölgələrim sizinlə baş-başa qalıb.

Məni bağışlayın, bunu demək istəməsəm də, axı onlar mənim məhəbbətimin kölgələridir.

Dünya hər gün gözlərini yumub açınca, görürük ki, axı nə gördük yuxuya dönən ömrümüz haqda.

Əzizlərim, çox darıxmışdım, sizlər üçün. Ümid edirəm ki, ruhum sizi incitməz və siz də mənim üçün, mən sizlər üçün darıxdığımdan az darıxarsız.

ISBN 10 9952-8079-6-1
ISBN 13 978-9952-8079-67

© **Hacıyeva Lətifə Əlihəsən qızı, 2007.**

Mən öldüm, düşmənim qaldı
Lətifə Nuran adında , və yaxud müasir həyatın ədəbi xronikası.

Şairə Lətifə Nuranı uzun illərdi tanıyıram. Sakit təbiətli bu qadın, heç vaxt özünü ədəbi məclislərdə, gözə soxmur, başını aşağı salıb öz işiylə məşğul olur, şerlər yazır, kitablarını çap etdirirdi. Bunun nəticəsidir ki, Lətifə Nuran elə bu yaxınlarda Azərbaycan Yazıçılar birliyinə üzv keçərək bu ada layiq görüldü. Lətifə Uzun müddət rəhbərlik etdiyim "Pərvanə" ədəbi məclisinə gəldi sonra isə onu vahid poeziya məclisində ara-sıra gördüm. Demək olar ki, Azərbaycan Yazıçılar birliyində tədbirlərdə mütəmadi olaraq görüşürük. Həmişə Lətifə Nuran kimi sakit təbiətli, az danışan şairlərin şerlərinə diqqətlə baxmışam. Fikirləşmişəm ki, bir qədər diqqətsizliyim üçün sonra peşman ola bilərəm. Elə işlədiyim Azərbaycan jurnalında da bu prinsip məni tərk etməyib. Bəzən əhəmiyyət vermədiyimiz, diqqət yetirmədiyimiz şeylər sonradan həqiqətə çevrilə bilir.

Bəzən həqiqətin böyüklüyü əhəmiyyət vermədiyimiz, hadisələrdədir. Lətifə də bir şair kimi, mənim bu cür diqqət yetirdiyim insanlardan olub. Onun üzündə həmişə bir müqəddəs kədər hakimdir. Bu həyat kədəridir, bəlkə də ona şer yazdıran!

Bəzən obrazlı parlaq, gözqamaşdırıcı şeirlər sıradan işıq kimi sönüb gedir. Amma heç vaxt diqqət çəkməyən kolun dibində bir çiçəyin taleyi, sonradan canlı həyat lövhəsinə, məhz bu prizmadan baxanda çevrilir. Lətifənin kədəri öz şeirlərində şəxsi probleminin fonunda ictimai kədərə çevrilir.

Demək Lətifəyə şeir yazdıran, milyon illərdi insanın içindən pərvazlanan şair kədəridir. Bu müqəddəs kədərdir.

Mən şairə kimi Lətifənin ancaq şerlərini oxumuşdum. Elə ötən il "Azərbaycan" jurnalında onun yeni şerlərini çap

etdirmişdim. Lətifə bu son şerlərində daha professional idi. Onun nəsr əsəri yazmağını bilirdim. Bilirdim ki, onun həyatı, səsi, hərəkət və davranışları nəsrə daha yaxındır.

Bir günsə Lətifə Nuran "Tənha kölgələr" adlandırdığı nəsr kitabının əlyazmasını oxumaq üçün mənə verdi. 200 səhifədən çox olan bu kitabı oxuyanda, mən Lətifədə başqa bir tərəfi, güclü psixoloq olmağını kəşf etdim.

Kitabın "Səs" "Canlı heykəl" "Xocalının ölümü" "Sevgi ehtiras deyil", "Xəyallardan boylanan həqiqətlər" "Şahid" "Ayan" povesti və "Tənha kölgələr" romanı daxil edilib.

Bu əsərləri oxuyanda, insanın mürəkkəb psixoloji aləmini daha doğrusu insan psixoterapiyasını aydın görmək olar. Bu əsərlər insan övladının bu gününə aid deyil, onun doğulduğundan ölümünə qədər keçdiyi nevroloji psixoloji həyatının tərcümeyi-halıdır. Məsələn: "Səs" hekayəsində insanın yaranışı çox maraqlı, orijinal bədii situasiyalarda göstərilib.

İnsan bədəninə daxil olan ruhun əzabları, çırpıntıları və onun hərdən incidilməsi, ruhun ağrıması bu kitaba toplanmış əsas ideya məzmununu təşkil edir.

Dünyanın yaranışı, insanın doğuluşu, bu nitqi əsaslarla Tanrını ideal bir şəkildə göstərilməsi nəsrimizin yeni bir çalarlarının mövcudluğunu göstərməkdədir.

"Yerdən qalxan buxarlar ruh şəklində göylərə əl açdı, Tanrıya yalvardı, ona sığındı, göy üzünün bulanıq aynasını sildi. Hər tərəf solğun görünürdü mələklər tanrının qarşısında diz çökərək dua edirdilər. Tanrı susur, susurdu. Tanrı dinləyirdi: o yer üzünə tamaşa edirdi, dərin-dərin nəfəs alırdı.

Təbiət canlanırdı. Tanrının ovucu içərisindəydi dünya.
O, kövrək təbəssümlə köks ötürürdü. Yer üzü əvvəlki kimi canlanırdı. Onun yıxıldığı yerdən bir körpə dünyaya tamaşa edirdi.

Yer üzündə yaranmışlar bir-bir gələrək əllərindəki çiçəkləri ona sarı atırdılar və heyrətdən donub qalırdılar. Mələklər yer üzünə enərək bu canlı heykələ heyranlıqla tamaşa edirdilər.

Tanrı onun gözlərindən dünyaya baxırdı: "Osa qışqırır, heykəl bədənindən azad olmağa can atırdı"

"Sevgi ehtiras deyil" hekayəsində insanın doğuluşu, ruh və əzab, ruh və can məsələsi irfani şəkildə oxucuya təqdim edilir. "Səmanın ruhu bədəninə sığmırdı" Belə anlarda bir ahla bədənindən çıxıb onun yaralarını öpüb oxşayırdı. Səmanın ruhu dincəlirdi. Bir qədər onun donmuş bədəni üzərində dolandıqdan sonra öz yerinə qayıdırdı. Səma torpağın üstündə üzü üstə uzanıb uyuyurdu" "Xəyallardan boylanan həqiqətlər" hekayəsi də pisixoloji əsərdir. Bu hekayədə səs obrazları çox maraqlıdır. Bu səslər, insanın içindən, ruhundan gəlir. Xeyir və şər qüvvələrinin əbədi mübarizəsindən doğulur.

Ümumiyyətlə işıqla qaranlıq, xeyir və şər tərəflərini əksiklərinin bir-birinə qarşı mübarizəsi, kitaba toplanmış əsərlərin ümumi ideyasına çevrilir. Burada 1-ci, 2ci 3-cü, 4-cü səslər işıqlı xətlərin xeyirin simvolu səsi isə şərin atributu kimi meydana çıxır.

- Səs – ha – ha, ha - səni qorxudacaqlar. Səni sarsıdacaqlar.
- Axı kimdir onlar.
  Sənlə qarşılaşan insanların içindəki səslər.
- Mən onlara uymayacağam.

Səs: - Tək qalacaqsan tək–tək!

- Yox mən tək deyiləm mənim dostlarım var.

Səs: - Onlar yalançıdırlar.

- Sən yalan deyirsən.
- Səs: - Sən onları tanımırsan.
- Yox mən onları tanıyıram, onların qəlblərinin səsini eşidirəm, ruhlarını görürəm.

Burada söhbət maddi dünyadan kənarda, ruhlar aləmində baş verir. Bu kitabda qoyulan psixoloji problemlərin hamısı ruhla bağlıdır. Ruhun əzab çəkməsi onu saflaşdırır.

– Sən öz dünyasında səfil dolaşan dərvişə bənzəyirsən.

- Mən daxilimdə dolaşan ruhların dərdlərini dinləyirəm.
- Onların dərdləri nədir axı?
- İnsan xöşbəxt olduğu qədər də bədbəxtdir.
- Sən necə bədbəxtsənmi, ya da xöşbəxt?
- Mən xöşbəxt olduğum qədər bədbəxt çarəsiz bir insanam.
- Neyçün?
- Çünki xöşbəxtlikdən belə xöşbəxt ola bilmirəm.
- O, hansı xöşbəxlikdir ki, elə?
- İlahi ruhunun dərk olunmasının qarşısında dönüklük gördüyüm zaman.
- Buna görəmi sən əzab çəkirsən?
- Ruhum ölü bir cism gəzdirir.
- Belə nə üçün düşünürsən?
- Mən səni artıq görürəm. Qoy indi mən sənin öyrətdiklərini oxuyum.
- Bunlar sirdir?
- Hə əlbəttə ki,
- Sirr olsun.
- Yalvarıram... yalvarıram.

Yenə həmin əsərdə insanın məninə verilən suallarda müəllif çox ciddi problemlərə toxunur. Bu, ruh və həyat, insan və tanrı arasında olan mükalimələr, insan beyninin gizlinləridir.

5-ci səs – Sən nə üçün ölmüsən?

- Məni sevmədilər.

5-ci səs – Axı nə üçün?

-Məni başa düşmədilər.

5-ci səs – Nə üçün başa düşmədilər?

- Çünki onlar məndən çox-çox uzaq idilər.
5-ci səs – Kim idi onlar.
- Sevdiyim insanlar, doğmalarım belə onlara çatmaq istəyirdim. Onlarsa məndən uzaq olurdular.Məndən qaçırdılar.
5-ci səs – Hara qaçırdılar?
- Əzablar içinə, onlar ruhlarını aldadırdılar. Şər ruhlar görürdü ki, mən onları çağırıram, yalvarırdım, eşitmirdilər mən əzab çəkirdim mən beləcə ölürdüm"

Kitabda verilən "Ayan" povesti də psixoloji əsərdir. Əsərdə Mariya, Mixail, Ayan surətləri, öz xarakteri olan surətlərdir. Burada da müəllif hər obraza xarakter verməyi bacarmışdır. Məsələn, Mariyanın yatmağı, üzündə həyat nişanələrinin dəyişilməsi, psixoterapiyanın əsas obyektidir. Bu əsərdə də insan amili əsas hədəfdir.

"Şahid" hekayəsi 20 yanvar hadisələrindən bəhs edir. Burada da maraqlı asosasiyalar var.

1918-ci ildə Dağüstü parkda şəhidlər üçün salınmış qəbirstanlıqda indi 1990-cı ildə 20 Yanvar şəhidləri uyuyur. Bu şəhidlər arasında bağlılıq əsərin əsas ideyasıdır.

"Tənha kölgələr" romanı da insan xarakterlərinin toqquşması və bu münasibətlərdə üzə çıxan sevgi duyğuları, ayrılıq, həsrət motivləri yeni bir ədəbi müstəvidə xarakterizə olunur.

Lətifə Nuranın bu kitabı haqqında çox yazmaq olar. Amma buna lüzum görmürəm. Mənim bu kiçik qeydlərim bu kitabı tam əhatə etməsə də, əsas söz oxucu münasibətidir. Hər şeyi oxucunun öhdəsinə buraxıram.

Lətifə Nuran bir şerində deyir:
"Mən öldüm düşmənim qaldı
Lətifə Nuran adında.

Bu o deməkdir ki, insanın dostu da düşməni də daxilindədir. İndi işıqla qaranlığın, şər və xeyirin, ruh və canın,

sevgi və həsrətin hər iki halda acısı və şirini də bu kitabın içindədir.

Qoy oxucu bunu özü seçib arasın. Çünki bu kitab həm də insan içinin ruhunun xronikasıdır. Müəllif də həyatın üzünü necə köçürüb bu haqda yaxşı pisi qoy oxucular desin.

Mənsə öz növbəmdə Lətifə Nurana uğurlu yol arzu edirəm.

Şair: Qəşəm Nəcəfzadə

PROLOQ

Mavi dəniz, günəşin parlaq şəfəqləri altında qırçın-qırçın ləpələnirdi. Bahar nəfəsli təbiət, öz yaşıl ömrünü yaşayırdı. Körpə təbəssümünə bənzəyən, parıltılarsa suların üzərində özünü əks etdirdikcə, qayğısız uşaq qığıltısına bənzəyən qağayıların səsi, bu ecazkar mənzərəyə, əsrarəngiz gözəllik bəxş edirdi.

Tanrının, yer üzünə bəxş etdiyi bütün canlı gözəlliklərin, otların, çiçəklərin, dağların, daşların, görən nəymiş sirləri?... Bu qərib hisslərin tənhalığına - daldıqca, ilahi paklığı duyduqca, insanı bakirə duyğular qanadlarına alır, dərk olunan və dərk olunmayan düşüncələrə qapandırırdı…, Sondasa, ayrılığın və sonsuzluğun duyğusunu yaşadıqca insan bu gözəlliklərlə birgə yaranmış qəlbinin fərqinə varır, tanrının yalnız ona bəxş etdiyi ən ali məqamını dərk etdikdə, bütün istəklərinə hakim kəsilirdi. Özünü dərk etmək, tanrısını dərk etmək, ona çatmaq, sevgisini yaşamaq istəyirdi.

Görən.., nə üçün beləymiş.., Tanrısının ruhunu varlığında daşıya bilmək və ona çatmaq arzusu…



I FƏSİL

Dərdli ürəkdən qopan, həsrətli ah, ala gözlərdə donan isti yaşlar, qoynunda çarpazlanan titrək qollar, nəyin həsrətini çəkirdi belə.

Bəli, bu Xəyalə idi sevdiyinin dünyasında, itib batan Xəyalə. O, belə anlarda dənizin kənarına gələr, qəlbinin çırpıntılarına bənzər suların pıçıltıları ilə, baş-başa qalardı. O, zahirən tənha idi, daxilindəsə, onun qeyri adi bir dünyası vardı. Yalnız o, bu həyatda özü istədiyi kimi yaşayırdı, və yaşaya bilmirdi. Xəyalə könlündə boy verən hisslərin hakimiydi. Qəlbininsə, boynu buruq pöhrə bir çiçək kimi qayğısına qalır, ürəyində onun adıyla bağlı, hər an doğulan nəfəsini qoruyurdu ki, sevgilisinin ruhu qarşısında, tab gətirə bilsin…

Xəyalənin gözləri, dəniz kimi dərin mənalı, baxışları isə, onun sonsuzluğu qədər nəhayətsiz kədərlə dolu idi. Bəlkə elə ona görə də o, dəniz həsrətli olmuşdu. Hərdən ona elə gəlirdi ki, bütün canlı-cansız nə varsa hərəkətə gəlir, qarma-qarışıq səslər, kainatı bürüyür, və qulaqbatırıcı səslər onun düşüncəsini, şüurunu belə alt-üst edir ona əzab verirdi. Bu ansa sanki onun ayaqları altından yer başının üstündən göy qaçırdı. O, nəfəsinin sinəsini od kimi yandırdığını hiss edincə, qaçmaq, uzaqlaşmaq, kimsəsizliyə çəkilmək, yalnız dənizin nəhayətsizliyinin, sükutunda uyumaq, suların səsində itib-batmaq istəyirdi.

Beləcə yalqızlığın tənhalığında yaşayırdı Xəyalə…

Qüruba tələsən günəşin süzülən telləri, Xəyaləylə vidalaşdıqca, dənizin ləpələri üzərində parlayaraq, onun ala gözlərindən öpüb qamaşdırır, və sevgi dolu təbəssümünü onun baxışlarında bir daha əks etdirərək ayrılırdı.

Xəyalə, bütün vücuduna dolan axşam mehinin hənirtisini hiss etdikcə, üşüyürmüş kimi, özünə qısılıb sahildən getdikcə uzaqlaşırdı.

Dəqiqələrin bir-birini qovması Xəyaləni narahat etsə də, o vaxtdan asılı olduğunu yaxşı anlayırdı. Yol onu yorsa da, o, mənzilə çatmağa tələsirdi.

O, darvazanı açıb həyətə girdikdən sonra, bir an nəfəs dərib, ətrafa nəzər yetirdi.

Hər dəfə belə olurdu, Xəyalə bütün varlığını çulğalamış, narahat dolu həyacanını yaşamıya bilmirdi. O, həyatını sarmış kimsəsizliyini baş-başa qaldığı dünyasında yaşayırdı.

O, yaşadığı həyətin yuxarı başında göz oxşayan, iki mərtəbəli daş evin birinci mərtəbəsində kirayə qalırdı. Yenə də, onu hər dəfə yolunu səbirsizliklə gözləyən – Mən səni hamıdan çox istəyirəm: deyən Jaləsi gözləyirdi onu. Jalə bu evin sahibi Rahim dayının qızı, Nazəninin gözünün ağı qarası bircə balası idi. Həmişə olduğu kimi, bu dəfə də, Nazənin Xəyalə ilə Jalənin görüşünə xüsusi zövqlə tamaşa edirdi. O, bu mənzərəni, pəncərədən seyr etdikcə, Xəyaləyə işarə edib, Jalənin şıltaq hərəkətlərinə doyunca gülürdü.

- Mən səni çox istəyirəm baax göy boyda.

- Mən də səni sən məni istədiyindən daha çox.

Jalə bu vaxt uşaq çaşqınlığıyla gözlərini döyüb, bir-iki kəlmə höcələyə-höcələyə:

- Baax atam deyir ki, sənə üç dənə də kukla alacam. Onda mən də sənə bu kuklamı verəcəyəm deyib qucağındakı qolu çıxıq, sarışın uzunsaç kuklasını Xəyaləyə göstərəndə, Xəyalə onun qarşısında əyilib əvvəl Jalənin sonra isə qucağında bərk-bərk tutub saxladığı sınıq kuklasının üzündən öpüb:

- Ay yazıq kukla, gör bir nə kökə düşübsən… deyib onun çıxmış qolunu yerinə bərkidərək – Bunu gör nə günə qoymusan sən… deyib Jalənin peşman-peşman baxan gözlərinə

tamaşa etdi. Jaləsə – Yox onu mən eləməmişəm ey… o, özü mənimlə oynayanda qolun sındırıb. Xəyalə bu vaxt özünü gülməkdən güclə saxlayıb, kuklanı tənbeh edirmiş kimi – Ay dəcəl, sən də, Jalə kimi ağıllı ol, eşitdin…, bir də belə etmə, deyib Jalənin sonrasa kuklanın saçını sığalladı. Jaləsə sevincindən atılıb düşərək pəncərəyə sarı baxdıqda anasının Xəyaləyə əl etdyini gördü.

- Gedəy də, Xəyalə bibi, noolar, gedəy, gedəy deyib ayaqlarını yerə döyəclədi. Elə bu zaman qapı açıldı, Qadirlə Rahim dayı həyətə daxil oldu. Bu vaxt Nazənin daha bir an durmayıb tez — pilləkənlərlə aşağı düşərək üzünü Xəyaləyə tutdu.

- Səhərdən mənim başım sizə, sizində sınıq kuklaya elə qarışıb ki, hər şeyi unutmuşuq. Xəyalə, canım, gözüm necə olur olsun, bizə gəlməlisən yoxsa inciyərəm. Atam da Qadir də gəldi. Çoxdandı bir süfrə ətrafında, bir yerə yığışıb oturmuruq- dedi. Rahim dayı onlara yaxınlaşıb

- Xoş gördük qızım, necəsiniz, iş gücünüz necə gedir? Bizi yaddan çıxarmısan, gəlib getmirsən – dedikdə Xəyalə:

- Rahim dayı, Allah eləməsin, inanın ki, mən özüm də çox istərdim, hərdən iş gücü bir kənara qoyub bir müddət şəxsi işlərlə, qohum-əqrəbayla ünsiyyətdə olum. Təəssüf ki, işə adamın başı elə qarışır ki, dincilik nədir onu bilmirsən. Qaldı ki, sizinlə bir anda olsa, dərdləşməyə çox şad olardım. İndisə məni bağışlasaydınız mən gedərdim. Tökülüb qalan bəzi problemlərim var ki, bir iki günə mütləq həll etmək lazımdır- dedi Rahim dayı isə:

- Qızım çətinliyin olsa bizdən gizli saxlama nə köməklik olsa, onu bil ki, əlimizdən gələni əsirgəyən deyilik - dedi və balaca Jaləni qucağına götürüb yanağından öpdü.

Nazəninsə: -Xəyalə, bu heç yaxşı olmadı deyib. Ona narazı baxışlarla baxıb gülümsündü.

Nazənin son dərəcə, incə, zərif, mehriban davranışlı olmaqla yanaşı, həm də, çox ciddi, səmimiyyətlə zəngin xarakter sahibi idi. O, Xəyalənin xatirini çox istəyirdi. Onunla hər dəfə dərd sərini bölüşürdü.

Nazəninin həyat yoldaşı Qadir isə ona layiqli bir ömür gün sirdaşıydı. Qadirlə Nazənin bir-birini görüb tanıdığı dəqiqələrdən, müqəddəs sevgi ilə yanaşı, həm də ən ülvü hisslərlə bir-birinə bağlanmışdılar. Qadirlə Nazənin bu baxımdan öz mənəvi dəyərlərini yaxşı bilir sevgilərinin, ailə həyatının müqəddəsliyini qoruyub saxlamağa çalışırdılar. Onlar, ayrılıqda belə bir anlarını bir-brindən ayrı təsəvvür edə bilmirdilər. Rahim dayı ömür gün yoldaşını çox tez itirmişdi.

Nazənin hələ uşaq ikən bu ağrını, anasızlığın dadını duymuş, acısını yaşamışdı.

Ağır, sağalmaz bəla sayılan, xərçəng xəstəliyindən əzab çəkmiş anasını, o lap erkən yaşlarından itirmişdi.

O vaxt onun on yaşı olardı. Ana nəfəsinin hərarətinə ehtiyacı olduğu anda, ana gözlərinin qayğısına sığındığı dəqiqələrdə, onun baxışlarından ümüdsüzlük boylandığı günlərdə o, özünü, köməksiz, kimsəsiz sanırdı. Və o, ani olaraq düşüncələrini didib parçalayan hisslərdən, səksənərək, qorxu, həyacan içərisində anasının ayaqları altında oturub yalvarıcı nəzərlərlə ona baxırdı. Bir günsə, ananın son nəfəsində, tamarzı baxışlarıyla çıxan – «Nazənin» kəlməsi o, dəhşətli sarsıntını Nazəninin dünyasında yaşatmışdı. Və o balaca qızcığazın ürəyini parçalamışdı. O an, Nazənin anasının doluxsunan gözlərini gördükdə, qəfil bir qışqırtı onun qəlbini yerindən oynatmışdı. Nazənin anasının ölümündən sonra beləcə ürək xəstəliyi tapmışdı.

O zamanlar Nazəninin atası Rahim dayı Xarici dillər institutunda elmi işçi, olmaqla yanaşı, həm də, pedaqoji sahə ilə məşğul olurdu. O, öz elm və biliyini gənc nəslin, təlim-

tərbiyəsinin formalaşması üçün, əsirgəmir və şəxsi intellektual keyfiyyətlərini onların xarakterində öyrədib yetişdirməyə çalışırdı. Bu mənada da, o özünün fərdi keyfiyyətləri ilə Müəllim heyyətinin və tələbələrin hörmətini qazanmışdı. Lakin o, ömür gün yoldaşının həyatından belə tez getməsindən təsirlənmiş, özünə qarşı olan yaşamaq həvəsi, tamam başqa bir hisslə əvəz olunmuşdu. Yalnız və yalnız o gözəl həyatın yadigarı olan Nazənindən savayı. Rahim hər dəfə dostları və yoldaşları ilə söhbət əsasında dedyi sözləri, həyat və yaşamaq anlamının onun gözlərində əl çatmaz müqəddəslik qədər gözə görünməz olduğunu, hər an təkrarlayıb bəzi həqiqətlərlə təsdiqləyirdi. Və hərdənsə, o öz dünyasına çəkilir ailə anlamını, dilə gətirməyə belə qısqanırdı. Və belə günlərdən biri idi. Çay süfrəsi arxasında bir neçə dostu ilə Rahim dayı qayğılardan, problemlərdən söhbət etdiyi məqamda xatirini istədiyi müəllim yoldaşlarından biri onu dilləndirmək məqsədi llə:

- Subaylıq sultanlıq deyil, ay Rahim, onda qalsın ki, bu sultanlıq sənə heç yaraşmır – deyəndə Rahim bu an, onun üçün müqəddəs olan düşüncələrini deməyin məcburiyyətində qalmışdı. Bu söz onun şirin xəyallarından bir an ayırsa da o bir siqaret çıxarıb damağına qoyduqdan sonra, papirosun tüstüsünü sinə dolu köksünə çəkib, aramla etiraflarını onlara bildirərək demişdi. - Danışdıqca bənizinin necə sarsıldığını, dostunun heç də peşmançılığına,bir səbəb olmadığını deyib başını bulayaraq – Fərrux, Fərrux, mənim həyatıma, biganə qalmayın qardaşım. Əgər sən özün dediyin kimi düşünsəydin əlbətdə ki, nə vaxtsa xöşbəxt bir ailənin təməlini qurmuşdun. Əfsuslar olsun… Mən də sənin həyatını xöşbəxt görmək istəyərdim… Amma onu deyə bilmərəm ki, insan kimi, onun ürəyindəki sevgisində bir dəfə doğulur, və bu həyat insana ikinci dəfə qismət olmadığı kimi, o sevgisinin də ikinci dəfə mümkün olmadığını dərk etməlidir.

Bizsə özümüzü, nədənsə, sonralar yalanlarla aldatmağa çalışırıq. Bunun isə özlüyünə varanda, həqiqətən düzgün olmadığını anlayırıq. Fərrux… mən həyat dedikdə, onun yaşantılarını və hisslərini bir ilğıma bənzədirəm, qardaşım. O, ilğımsa, bizim beynimizdə, düşüncəmizdə nə dərəcədə rol oynatdığını, gərək ağlımızla öyrənməyə və nəticə çıxarmağa çalışmalıyıq. Əgər bunun müqabilində hər şey nəticəsiz, olarsa bilmək lazımdır ki, cansız hisslər heç bir zaman öz bəhrəsini vermir.

İnsan qəlbi, o an sevgi hissi ilə çırpınmalıdır. Əgər bu yoxsa, həyat eşqi onun yerini mütləq almalıdır. Belə olmasa əlbətdəki yaşamaqdan söhbət gedə bilməz.

Mənim sevgimsə, gözə görünməzlik adlanan, müqəddəsliyə qovuşmuşdur. Yerini həyat eşqimə, məni daim düşünməyə məcbur edən, qadının nişanəsi, əziz balam Nazənin almışdır. Onu böyüdüb boya başa çatdırım arzuma yetim. Bundan sonra mənə heç nə lazım deyil. O, sevgimsə mənim iç dünyamındır. Mən özümü heç zaman tənha hiss etməmişəm. Fərrux, əziz qardaşım sənsə yenidən həyat qurmalısan. Ən azı gələcəkdə dünyaya göz açan körpənin adıyla, sevgilinin gerçək xəyalını yaşatmağın eşqiylə, yaşamalısan dedi. Rahim Fərruxun vaxtı ilə övladı, olmağından, onu qonşusunun sonsuz adlandırdığını özünə bağışlaya bilməyib, özünü bu ağrıdan əzabdan qurtarmaq üçün zəhər içərək həyatına qəsd edən qadınını yad edərək, ağır-ağır köks ötürdü. Rahim dayı Nazəninə həm ata, həm də ana olmuşdu. O bu illər ərzində əzizi ciyərparası olan qızını böyüdüb boya başa çatdırmışdı. Nazəninsə məktəbi əla qymətlərlə başa vurduqdan sonra, tibb universitetinə, test üsulu ilə, yüksək bal toplayaraq qəbul olmuşdu. Elə həmin illərdə də Qadirlə tanış olub əhd peyman bağlamışdılar... Qadirsə uzaq səfalı, dağ rayonlardan birində böyüyüb boya-başa çatmışdı. Şəhərə oxumağa gəldikdəsə o,

bacısı Gülarəyə və qardaşı Rzaya bərk-bərk tapşırmışdı ki, ata anasından muğayat olsunlar. Və elə həmin ildə, O, Azərbaycan Dövlət Pedoqoji Universitetinin filollogiya fakültəsinə qəbul olmuşdu. Qadirlə Nazənin bu illər ərzində gəncliyinin demək olar ki, şahlıq dövrünü yaşayırdılar. Qadir Nazənindən yeddi yaş böyük idi. Onların xöşbəxtliyinə sevinənlər qiptə, sevinməyənlərsə paxıllıq edirdilər. Günlərinin gözəlliyini həyatın səhifələrinə köçürürdülər beləcə, Qadirlə, Nazənin. Bir günsə, elə bu arzuyla da toy edib Nazənini gəlin apardı, bir neçə ay rayonda qaldıqdan sonra Nazəninin istəyinə görə, Qadir şəhərə, gəldi. Rahim dayının təkidi ilə onlara köçərək… Beləcə xöşbəxt həyat sürürdülər.

***

Xəyalənin doğrudan da görüləsi işi olduğundan Nazənin ona daha bir sö**z** deməyib, Jaləni atasının qucağından alıb, Jalə: Xəyalə, bibiyə sağ ol de gedək deyib, pilləkənlərlə yuxarı qalxdı.

Hər gün, günlər bitdikcə, Nazəninin səbri daralırdı. O, evdə qərar tuta bilmir elə hey var-gəl edirdi. Bir günsə o Xəyalə ilə dərdləşdikdə:

- Xəyalə, evdə oturmaq məni bezdirib, yaman darıxıram, heç bilmirəm ki, nə edim başımı necə qarışdırım. İstəyirəm, işə qayıdım. Xəyalə isə bunun cavabında-:

- Nazlı, bu nə sözdür, necə yəni istəyirəm, əlbəttə ki, işə çıxmağın mütləq lazımdır. Jalə də ki, artıq böyüyüb.

Nazənin gülümsünərək

- Xəyalə mənim dərdim elə Jalənin dərdidir də...

- Necə yəni?

- Bir dəqiqə gözümdən kənar olsa narahat oluram, düzü heç kimə ümüd eləyə bilmirəm onu. Qadirlə də bu haqda

söhbətimiz olub, deyir ki bağçaya qoy mənsə, heç bilmirəm nə edim-?

- Nazənin, əlbətdə ki, Qadir düz deyir burda çətin nə var ki, heç narahat olmağa da dəyməz,

- Xəyalə, Jalə həddən artıq zəif uşaqdı mən də istərdim amma…

- Heç bir şey omaz Nazlı, bir də ki. öz nəzərin üstündə olandan sonra daha nə var ki-?

Nazənin bu vaxt üzünə qeyri-adi bir kədər hopmuş kimi:

- Son günlər yuxumu qarışıq görürəm, hərdən yuxudan ayılanda az qalır ki, həyacandan ürəyim, partlasın. Tez-tez anamı görürəm, g**ö**rürəm ki, gəlir, qapının kənarında dayanıb mənə sonra da Jaləyə baxır. Sonrasa, hönkürtü içində ağlayır və bir söz demədən incimiş kimi ah çəkib geri dönür. Jaləsə elə hey mənim əlimdən tutub dartır və deyir.

- Gedək, gedək, mən getmək istəyirəm… deyir. Mənsə onun əlindən tutub onunla getmək istəyəndə, o bərkdən qışqırmağa başlayır. Bu zaman qorxunc, əcaib bir məxluq peyda olur və o bizim hər ikimizin əlindən tutub qəh-qəhə çəkir.

Nazənin yuxusunu danışanda belə həyacan keçirir, və heyrət dolu nəzərlərlə ona diqqətlə qulaq asan Xəyaləyə baxırdı. Xəyalə artıq dözə bilməyib:

- Nazlı, bəsdir belə düşüncələrlə özünü üzürsən, bu nədir eşidirsən, hər axşam yatarkən, başının altına çörəklə bıçaq qoy, deyilənə görə onda heç bir qorxulu yuxu görmürsən bir də ki, “Bismilahirrəhmanirrəhim” sözünü deyib yat. Belə olanda nə cin nə də şeytan yaxın düşə bilmir insana.

Nazənin bayaqkı həyacanını sanki bir anda unudub gülümsünərək-

- Sənin biliciliyində varıymış ay qız, Düzü mənim belə şeylərə inamım az olduğundan, yəqin əziyyət çəkirəm - dedi. Xəyalənin üzünü ciddi ifadə olaraq-

- Bilirsənmi Nazlı – dedi-Bax inam insanda çox yaxşı hissdir, o hissə, ilahi bağlılıqdan yaranır. Əgər hər hansı bir insan ilahi varlıqlara, deyilənlərə inanarsa həmin ilahi varlıqlar onunla, onun düşündüyü tərzdə davranar, və özünü həmin şəxsin həyatında göstərər. Hər iki halda istər real həyat olsun, istər yuxuda yaşadığımız hissi həyat olsun. yəni insanın istək və düşüncəsindən asılı olaraq iki halda xeyir və şər anlamında özünü göstərir xəbərdarlıq edir.

Nazənin-:

- Maraqlıdır Xəyalə bu hisslər yəni sən dediyin tərzdə kömək edirsə bu yaxşı haldır. Lakin nə edim ki, mən elə ruhda böyümüşəm ki, tam reallıqları dərk etdiyim halda, ona əks olaraq qeyri adi reallıqları qəbul edə bilmirəm.

- Nazlı, sən realist həm də optimist insanın, lakin sənə təsir edən, qeyri adi adlandırdığın, reallığın gözə görünməyən tərəfləridir ki, sən onu qəbul etmirsən.

- Nədir o gözə görünməyən həqiqətlər Xəyalə, düzü mən özümdə istəyirdim ki, bu haqda düşünüm, və yaxud da buna aid bilgilər alım nəsə öyrənim.

Xəyalə onun gözlərinə diqqətlə baxıb ürəyi dolu adamlar kimi rahatlıq duyacağın hiss edib, özünü qəbul etdiyi və yaşadığı kimi, qeyriadiliklərdən söhbət etməyə başladı.

- Nazlı, görürsənmi, biz həqiqətdə hardan gəlib və hara gedəcəyimizin fərqində deyilik. Heç bu haqda düşünmək belə iqtidarında olmadığımızı anlayırıq. Fərq nədir, fərq ondadır ki, real həyatı yaşamaqla öz iç dünyamızda özünə məxsus şəkildə həqiqətlərini dərk edir, və yaşayırıq. Və hər iki dünyanı yaşamaq məcburiyyətində qalırıq. Real həyatımız kimi.

- Yəni necə-?

- Gözlənilməz təsadüflər adlandırdığımız, həyat həqiqətlərilə nə dərəcədə razılaşırıqsa, daxilimizdə baş verən hisslərlə də eyni dərəcədə baş-başa qalırıq. Yəni bu həyatın nə dərəcədə reallıqları ilə barışmırıqsa öz dünyamızda da eyni dərəcədə yaşayır və çox həqiqətləri qəbul etmirik. Bu iki kəsişmə xətdi, bizi hər iki tərəfə çəksə də, eyni dərəcədə düşünüb yaşamağa imkan vermir. Başlayır inamsızlıq, qətiyyətsizlik, dözümsüzlük, bu haldasa, həqiqət adlandırdığımız bir düşüncə bizi, riyakarlıqlarla üzləşdirir. Üzləşdiyimiz hər iki halda yaranan qeyri-adi inamsızlıqlar bizi sarsıdır. Bu həyatın və öz iç dünyamızdakı həyatın ilahi bir qüvvənin qarşısında aciz olduğunu dərk edirik. Necə olsun deyirik, əfsuslar olsun ki, heyfsənirik. Tam həqiqəti bilməyərək, hər iki dünyamızı yarımçıq yaşayırıq. Sondasa, ümüdümüzün qoynunda arzularımızla birlikdə dəfn olunuruq.

- Bəs nədir bütün bu cismani və mənəvi əzablardan qurtarmanın yolu; Xəyalə?

- Nazlı, o qurtuluş yoludur bilirsənmi, o azadlıq, bəlkə də mövcüd olmayıb və olmayacaqdır. O əlçatmaz və ünyetməzdir. Özümüz də arzularımıza çatmadığımız kimi, arzularımız da bizdən çox-çox uzaqlarda özümüzə can atmaqdadır. Nazlı-:

- Bəs gördüyümüz yuxular necə Xəyalə, doğurdanmı bu bir xəbərdarlıqdır, bu ki, başdan-başa möcüzədir, sirdir.

- Nə deyim Nazlı, bir onu bilirəm ki, mən heç nə bilmirəm və bildiklərim, bilmədiklərimin yanında zərrədən də kiçikdir.

Yalnız Tanrı sirli möcüzələrdə gizlənmişdir. Bəlkə də o yuxular bizim ikinci həyatımızdır ki, biz yaşayırıq və bəlkə də nə deyim, nə vaxtsa gördüyümüz yuxularla qarşılaşdıqda, bunun nə vaxtsa bizə xəbərdarlıq edildiyini anlayırıq. Bununla da belə bir nəticəyə gəlmək, olur ki, ürəyimizə daman hisslər

belə ilahi tərəfindən gələn xəbərdarlıqdır. Və biz onun fərqinə yalnız keçirdiyimiz hər hansı hisslərlə, canlı şəkildə rastlaşdıqdan sonra inanırıq.

- Xəyalə sənlə söhbət etdikdə sanki, sirlər aləminə düşürəm. Hərdənsə, sənin keçirdiyin hissləri və yaşadığın dünyanı yaşamaq keçir könlümdən.

- Nazlı, hər bir insanın dünyası özlüyündə bir kainat və sirlər dolu möcüzələr adasıdır. Ən azısa dərviş libası geyib, öz dünyana bir an baş vurub gəzməksə bu, qeyri adi bir dünyanı seyr edib, yaşamaq kimi gözəldir.

- Xəyalə, bu müqqədəs duyğular səndə hardandı. Sən bunları necə dərk edirsən?

- Nazlı, mənə bu duyğuları yaşamağa sövq edən yalnız qərib bakirə hisslərdir ki, onları mənə sevdiklərim bəxş edib. Anamın ruhu, atamın keçdiyi həyat yolu. Sonra isə mənim varlığımın mənası olan Talehim olub. Mən sonralar, bəlkə də çox sonralar anlamışam ki, insan sevərək yaşayırsa, demək, yalnız müqəddəs ruhlarla, yox əgər sevmədən yəni adi cılız düşüncələrlə həyatını qurubsa şər ruhlarla təmasda olur və o ruhlar hər iki halda özünəməxsus şəkildə onun dünyasına hakim kəsilir. Onlar öz fərqli cəhətləriylə insanın düşüncələrinə təsirini göstərir. Xeyir və şər qüvvələri kimi.

- Xəyalə, Xəyalə sənsə öz dünyanda olduğundan da gözəlsən. Mən sənə heyran olmuşam.

- Elə deyil Nazənin, hər bir insan təmasda olduğu insanda özünü tapır. Sanki öz əksini güzgüdə görmüş kimi.

Nazənin bir an susduqdan sonra qəribə tərzdə

- Bəs pis insanlarla qarşılaşdıqda necə?

Xəyalə, deyib güldü.

- Yenə də eyni cür Nazlı əlbəttə ki, o pis adlandırdığın insanın beyninə elə nüfuz edərsən ki, o səni başa düşmək, dərk etmək məcburiyyəttində qalar. Sən buna öz ağlınla nail ola

bilərsən. Və o insanda ən gözəl kefiyyətləri ortalığa çıxararsan. Onda özün, o andaca dərk edərsən ki, onun qarşılaşdığı insanların pisliyindən yaranmış pis adlandırdığın xasiyyətlərin yerini gözəl müqəddəs düşüncələr alır. Və sən onu həmin şəxsin dilindən eşidərsən… Nazlı. Dediyim kimi, sən yenə də özünün onun simasında əks olunduğunu görüb duyarsan.

- Xəyalə bəs neyçün, insanlar bir- birindən bu yaxınlığı, doğmalığı, əsirgəyir, neyçün. Neyçün hamı yaxşı olmur və bu haqda heç düşünmək belə istəmirlər.

- Nazlı bu hiss də bilavasitə, ilahiylə bağlıdır. Yer üzü yaranandan, insanın qarşısında qoyulan iki yol, xeyir və şər, qaranlıq və işıq kimi onun düşüncələrinə hakim kəsilir və onun öz ixtiyarına buraxılır bütün istəkləri. Bax bu an insan özü öz seçimin etdikdə, heç də tanrı günahkar olmur. Çünki ən azı ağıl və düşüncə verilmişdir. Ən azı insana yaxşını pisdən seçmə hissiyyatı, imkanı verilmişdir. Nə isə. Keçək əsas məsələyə. Nazlı yaxşı olardı ki, sən Jaləyə evdə dayə tutasan, ya da ki, uşaq bağçasına qoyasan, yoxsa, sənin üçün çətin olar, darıxarsan. İşsə, insanı doğurdan da ruhlandırır. Biləndə ki, sənə yüzlərlə insanlar ümüd edir sən onların həyata qayıtmağına sağlam yaşamasına görə lazımsan, bax onda həyat eşqiylə yaşayarsan. Onların xöşbəxtliyində rahatlığını taparsan…

- Xəyalə yəqin bilirəm ki, elə sən deyən kimi də olacaq. Günü səhərdən bu haqda nəsə götür qoy etmək lazımdır. Yoxsa ki. doğurdan da, deyəsən mən hələ çox qara-qara fikirlərlə oturub duracağam.

- Mən də elə bilirəm, Nazlı.

- Bir gör söhbət başını elə qatıb ki, vaxtın necə keçdiyini bilməmişəm.

Yəqin indi, Jalə də yuxudan oyanar mən gedim… Sağ ol Xəyalə.

- Sağ ol Nazlı hər halda mənə də bir məlumat verərsən deyib Xəyalə onu ötürdü.

* * *

İki ilə yaxın olardı ki, Xəyalə Nazəningildə qalırdı. Elə əvvəl gündən onun özünə həyan olsun deyə Nazənin bacı kimi qəbul etmişdi. Xəyalə də ona həm ana həm də bacı olmuşdu. Nazənindən fərqli olaraq, o elə özünün dediyi kimi, öz dünyasında yaşayırdı. Lakin o özünü tənha hiss etmirdi. O, Talehsiz bir anını belə düşünə bilmirdi. Onsuz bir an belə həyatını təsəvvürünə gətirə bilmirdi. Sevincli dəqiqələrində də, kədərli anında da yalnız onun ruhu ilə düşüncələrə qapanaraq sakitlik tapırdı. Onun ruhu sevgilisinin ruhu ilə birgə sevinirdi, ağlayırdı, kədərlənirdi. O, sevgilisinin ruhu ilə əl-ələ tutub bütün gözəlliklərə tamaşa edir, səmanı dolaşırdı. Güllü çiçəkli, bağçaları, gəzir, çiçəklərin ən gözəlini qoxuyurdular. Bu anlarda, Xəyalənin gözlərində bütün kainat gül-çiçəyə bürünürdü, gözəlləşirdi. Xəyalə sevgilisi ilə öz dilində Ruh dilində danışırdı. Sonra isə ayrılırdı. İç dünyasında isə dili dualı, əli əsalı, bir dərvişə çevrilib onu axtarırdı…

Xəyalənin Nazəninlə tanışlığı isti yay günlərinə təsadüf etmişdi. Xəyalə gah sevinclə, gah da həyacanla, neçə illər arzusu ilə yaşadığı iş üçün xəstəxanaya üz tutmuşdu. O, Xəstəxananın cərrahiyyə şöbəsinə daxil olduqda, qarşılaşdığı ilk insan elə Nazənin olmuşdu. Xəyalə iş üçün gəldiyini bildirdikdə, Nazənin, onların şöbəsində işləmək üçün ştatda yer olduğunu deyərək elə səhəri gün mütləq gəlməyini, və sənədlərini şöbə müdürünə verdikdən sonra vəziyyətini danışmasını tapşırmışdı… Özü də biləndən sonra ki, Xəyalənin qalmağa elə bir yeri yoxdur. Öz ünvanını ona verib mütləq bu ünvana gəlməyini demişdi. O gündən Xəyaləyə, taleyi xoş

günlərlə birgə dost da bəxş eləmişdi. O, gözəl dost isə Nazənin idi. Xəyalə, şəhərdə yaşayan xalasıgilə gəlib sevincini bölüşdükdə, xalasının da ürəyi sakitləşmişdi…

- Qızım, sənin üçün tək qalmaq, bu çox çətindir. Axı sən niyə belə addım atdın. Hər şeydən əvvəl ailə qurmağın lazım idi, sonrasa iş haqqında düşünərdin demişdi. Xəyalə isə:

- Xalacan, xöşbəxtliyi insan özü əldə etmir, gərək o özü insanın həyatına daxil olsun. Ömrünə nəsib olsun. Lakin bu həyatın qayda qanunlarısa, taleyin oyunu kimi insanın gözləri qarşısında çox səhnələr yaradır, və səni bu rolun ifaçısı olmağa məcbur edir. Mənsə, Xəyalə adlı bir varlığın ruhunu daşıyır, ömrünü yaşayıram. Özümə məxsus qismətimə düşən oynun havası ilə öz rolumu oynayıram və, əlbətdə ki. Tanrının hikməti ilə, deyib başını xalasının köksünə sıxıb, köks ötürdükdə, Xalasının yanağından süzülən iki damla yaş Xəyalənin üzünü islatdı. O, çaşqınlıqla onun gözlərinə baxıb

- Xala, hər şey yaxşı olacaq, mənim işim düzəlsin, ailə qurmaq haqqındasa, yəqin ki, nə vaxtsa bir şey fikirləşərəm deyib onun üzündəki göz yaşlarını əlləri ilə silib: – bağışla məni xala, sənin ürəyini açan bir söz demək əvəzinə gör nələr danışıram dedi:

- Leyla xala isə nə deyəcəyini bilmirmiş kimi, doluxsunmuş gözlərini, ətrafa dolandırıb, Xəyalənin saçlarını sığallayaraq, ah çəkib, başını yırğaladı. Sonra Xəyalənin bayaq dediyi – taleyin oyunu sözlərini təkrar-təkrar titrəyən dodaqlarıyla güclə pıçıldadı.

- Qızım, mən özüm də nə vaxtsa taleyin amansız oyununa düşdüm. Fəqət, mənə ağır gələn, mənim əziz-lərimin doğmalarımın həyatına biganəliyim, və onlara qarşı amansızlığım oldu. Bu, bir həqiqətdir. Və mən elə ona görə də, bütün ömrüm boyu əzablar içində yaşamalı oldum. Mənəvi əzablar içində… Mən, bu həyatdakı rolumu, mənfi obrazda

oynamışam, qızım. Bununla da əzizlərimin, doğma-larımın həyatını zəhərlədim, bunun fərqinə varmadan, əhə-miyyət vermədən, həyatımdan zövq aldım, xöşbəxtliyimdən başımı itirdim,

- Xala axı sən neyləmişdin ki, niyə belə düşünürsən, niyə özünə qarşı bu qədər amansızsan? Bəlkə bu sənə belə gəlir, sənin heç də dediyin kimi günahın olmayıb dedikdə Xəyalə bu an xalasının ümüdsüzlük arxasından boylanan baxışlarını görüb daha bir söz deməyib susdu. Leyla arvadsa-:

- Yox qızım, hər bir insan özünü yaxşı tanıyır. İstər pis olsun, istər yaxşı - deyib düşüncələrə daldı...

II FƏSIL

Elə bu vaxtlar idi. Leyla ömrünün bahar çağlarını yaşayırdı. Onda onun on səkkiz yaşı olardı. O, olduqca gözəl uca boylu, dolu bədənli, ala gözlü sarışın saçlı, ağ bənizli cazibədar bir qız idi. Leyladan üç yaş az fərqli olan bacısı Xumarsa heç də ondan geri qalmırdı. Onlar, səfalı dağ rayonlarından birində yaşayırdılar. Onlar ağ göyərçinlər kimi, həmişə cüt gəzərdilər. Leylayla Xumar ev işlərini görüb qurtardıqdan sonra, təbiətin qoynunda dincəlmək üçün gəzməyə çıxır, bu gözəlliyə doyunca tamaşa edərdilər. Güllü çiçəkli dağları gəzər, bulaqları qayaları, seyr edərdilər. Beləcə qayğısız günlər keçirərdilər. Onlar. Nadir dayı və Güllü xala da övladlarına baxıb fərəh hissi duyardılar.

Belə bir gözəl günlərdən biri idi. Leyla nədənsə özünə heç yerdə rahatlıq tapa bilmir, o evi sanki bir məhbəs kimi görür, ürəyi sıxılırdı. Və bununla bərabər Xumarın dərsdən gec gəlməyindən də ixtiyarsız olaraq əsəbləşirdi. Onun yolunu səbirsizliklə gözləyirdi. Elə bu anlarda Xumarın həyətdən şən səsini eşidəndə tez qapıya çıxıb, ay qız harada qalmısan gəl çıx də deyib, hikkə ilə içəri keçib qapını örtükdə, Xumar piləkənlərlə tez-tez çıxaraq, içəri keçdikdən sonra sumkasını başı üzərinə qaldırıb gülə-gülə atılıb düşərək fırlanaraq özünü divanın üstünə atdı. Leyla üzündəki donuq ifadə ilə-

- Ay qız, bir özünə gəl, de görək nə xəbərdi axı. Xumarsa əlindəki sumkanı divanın üstünə qoyub qeyri-adi parlaq dolu baxışla- :

- Leyla, imtahanların, hamısını əla qiymətlərlə başa vurdum, eşidirsən, əla qiymətlərlə, - deyə sevinərək onu qucaqlayanda Leyla ürəyi sıxılırmış kimi onu özündən kənar edib-:

- Ağəz onda mənim niyə əzib suyumu çıxarırsan? Nə olsun ki - deyib istehza ilə onu süzdü.

- Elə atan anan da belə deyir.

Xumar təəccüblə

Necə yəni ata, anan bu nə sözdür?

Leyla səsini qaldıraraq.

- Nə söz olacaq, guya bilmirsən ki sənin oxumağın özünə qalacaq, onlar səni başlarından bir yolluq edəcəklər.

- Necə yəni-?

- Ərə verəcəklər, diplomunda ki, ha- ha- ha- sənin cehizlərin olacaq.

Xumarınsa artıq qərarı tutmayıb, hövsələsi daraldıqdan sonra özünü saxlaya bilməyib-:

- Bilirsən Leyla, sənə baş qoşanda gərək sən ağılda olasan.

- Pah atonnan adə, bilməmişdik Xumar xanım, alim olacaqmış.

- Bilirəm, sənin vəziyyətini mən yaxşı bilirəm, yəqin sənin kimi məndə traktor vurmuş üç, dörd alsaydım belə də düşünərdim. Dərdimdə ki, əstafürüllah. Ər dərdi olardı… kış-kışdar olsun - deyib Xumar qulaqlarını çəkdi.

Leylasa səbri tutmayaraq:

- Bəsdi Xumar, sən Allah zarafatı boşla, bezdim, ürəyim sıxılır, elə bil havam çatmır. Bütün işləri görmüşəm, yaxşı olar ki, sən də çay çörəyini ye iç, bir az gedək çay kənarına ürəyim partlayır - deyib narazı-narazı mızıldandı.

Xumar onun doğurdanda, narahat olduğunu, deyəsən indi-indi duymuşdu.

- Nə deyirəm ki, təki xeyir olsun dedi:

- Amma yaman sözlü adama oxşayırsan Leyla -deyib mənalı-mənalı onu süzdü.

Leylanınsa doğurdan da əhvalruhiyyəsi pozulmuşdu. Elə buna görə də Xumar marağını narahatçılıqla bildirib-:

- Leyla, düzünü, de, axı nə olub bizim ki, bir-birimizdən gizli heç bir sözümüz yoxdu - dedikdə Leylanın üzünün bir an da boğuq ifadə alması Xumara daha nələri demədi-

Sonra isə o, Xumarın üzünə qəmli-qəmli baxıb-:

- Xumar, sən özün bilirsən ki, anamın, atamın sözü həmişə bizim üçün qanun olub. Mən özümdə heç vaxt onların bir sözünü iki eləməmişəm. İndisə mənim üçün bu çox ağırdı.

- Axı indi nə olub ki, Leyla deyə Xumarın sanki ürəyi yerindən oynadı.

- Xumar, Nazim adlı bir oğlanla bir-birimizi sevirik.

- Nə olsun ki?

- Necə nə olsun, bununla iş bitmir. Nazimin anası bizə elçiliyə gəlmişdi. O anamla söhbət etdikdən sonra atamın razı olub olmadığını bilməkdən ötrü yenə gələcəyini deyib.

- Qonşunun oğlu Nazimi deyirsən? O, çox ağıllı oğlandır.

- Nə olsun Xumar, Nazimin anası getdikdən sonra onunla olan söhbəti anam atama deyəndə o da daş atıb başını tutub ki, bu söhbəti bir də təkrarlamasın. Sonra isə o, Həsən kimdir ki, mənim qızıma elçi də düşsün mənim onun yoxsul komasında çürüyəsi qızım yoxdur. Gedib öz tayını axtarıb tapsın dedi. Anamsa Leylayla Nazim bir-birini sevirlər dedikdə onun necə özündən çıxmağı heç gözlərimin önündən getmir. Xumar, atam anamı hədələyib deyəndə ki, əgər, qızın mənim sözümü üstündən keçərsə özünü ölmüş bilsin sonrasa, qəzəbindən yerə-göyə sığmayaraq, mən bu papağı başıma nahaq yerə qoymuram arvad, eşidirsənmi, gözünüzü silin mənə, yaxşı-yaxşı baxın mənə də Nadir deyərlər! Gözüm dönəndə, nə Allahı tanıyıram, nə də onun bəndəsini dedi. Nadir kişi doğurdan da elə öz dediyindən də artıq dəlisov bir insan idi. O,

son dərəcə əsəbiydi, hirsi tutanda onun qarşısına heç bir insan keçə bilməzdi. Onun xasiyyəti də sanki öz boy buxununa ölçülüb biçilmişdi. Yekəpər uca boylu, iri qara gözlü, qaynar baxışlı, son dərəcə zəhimli, sağlam cüssəli bir insan idi. Şəxsiyyətini hər şeydən üstün tutan, sözü keçən, namuslu, özünə görə, adlı sanlı, sayılıb-seçilən kişilərdən biri idi.

Xumar, Leylanın sözündən sonra, daha bir kəlmə söz deməyin lüzumsuz olduğunu anlayıb düşüncələrə dalmışdı. O, bir azdan narahat halda soruşdu.

- İndi nə fikirdəsən, Leyla

- Bilmirəm Xumar, bilmirəm deyib Leyla çiyinlərini çəkərək, pəncərədən həyətə sarı fikirli halda baxdı sonra

- Axır ki, bu arvad gəlib çıxdı deyib keçib divanda oturdu, və laqeyd-laqeyd başını divana söykəyib; gözlərini tavana zillədi. Elə bu vaxt Güllü arvadın səsi gəldi.

Xumar cəld yerindən, qalxıb, pilləkənlərlə aşağı düşdü. Və o, anasının qarşısına qaçıb onun boynunu qucaqlayıb üzündən öpdükdən sonra anasının halsız olduğunu görüncə soruşdu.

- Ana hardan gəlirsən, bu nə haldır? Rəngin ruhun saralıb.

Güllü arvadsa, nəfəsini dərərək, həyətdə o qoyulan dəmir stolun üstündə oturduqdan sonra,

- Mənə bir stəkan su ver bala dedi: Xumar həyətin obaşından, su gətirib anasına verdi. Güllü arvad suyu alıb içdikdən sonra, qayğılı baxışlarla dərindən ah çəkib

- Ay bala, insan ömrü nə vəfasızmış-

deyib stəkanda qalan sudan sinəsinə əlləri ilə çəkib sərinləsin deyə yaxasının bir qədər açıb əlindəki, yaylıqla özünü küləklədi.

- Bədbəxt Nulufərin yasından gəlirəm. Yazığın ruhu da, o dünyada od tutub yanacaq heç olmasa, balalarını, böyüdüb boya başa çıxara bilsəydi.

Nulufər üç uşaq anası idi, iki oğlu bir qızı qalmışdı. Onun əri mexonizator, özü isə bağda fəhlə işləyirdi. Qazancları dolanışıqların güclə ödəyirdi. Bir günsə onu qəfil ölüm, elə iş başında yaxalamışdı. O, yarımçıq ömrünü, beləcə başa vurmuş, arzusu istəyi gözlərində dəfn olunmuşdu. Onun körpələrinin taleyi isə, hər kəs kimi Güllü arvadı da düşündürüb ağrıdırdı. Bununla belə o – Torpağın üzü soyuqdu, o bədbəxtlər də, birtəhər böyüyəcəklər deyib gileyli-gileyli köks ötürdü. Bu vaxtsa Nadir kişinin həyətə daxil olması, sanki, həyətindəki-abı havasını dəyişdi. O, xoş əhval ruhiyə ilə Salamməleyküm deyib Güllü arvadı gördükdə, - yenə nədir, fikir dəryasında qərq olmusan, ay arvad, zalımın qızı, dünya belə gəlib, belə də gedəcək ey - deyib gəlib onun yanında oturaraq, əlindəki, iri dənəli qara təsbehi o tərəf bu tərəfə şaqqıldadaraq-:

- Ay qızım, bir çay gətirginən, deyib şapqasını stolun üstünə qoyub cibindən dəsmalını çıxarıb, alnının, boyun boğazının, tərini sildikdən sonra qaşlarını dartıb arvada sarı baxaraq dedi.

- Ay Güllü, ha çalış vuruş, dünyanın işləri kimi, insanların dərdi də düzələn deyil. Sən canın bir də ki balalarının qaydına qal deyib yan- yörəsinə nəzər yetirdi.

- Leyla hanı gözümə dəymir? deyib üzünü yorğun ifadə aldı. Güllü arvadsa deyəsən bu sözlərdən sonra bir az eyni açılmışdı. O, Leylanı bir iki ağız səsləyərək evdə olsun gərək deyib-:

- A qız, a Leyla, harda itib batmısan deyib onun ardınca səsləndi. Elə bu vaxt Xumar padnosda, pürrəngi çayı heyva mürəbbəsi ilə birlikdə süfrəyə gətirdi. Sonrasa onların narahat olmamasına görə, - Ana Leyla başı ağrıdığına görə, bir az

üzanıb dincəlmək istəyirdi. Yəqin ona görə sizin səsinizi eşitməyib, bəlkə də yatmış olar - deyib keçib özü də onların yanında oturdu.

Nadir kişinin ciddi xüsusiyyəti ilə yanaşı eyni zamanda, ürəyinin yumşaqlığı da var idi. Onun təbiəti dəniz təlatümünə bənzəyirdi. Özünə uyğun coşqunluqla bərabər sakit dəqiqələrində də onu tanımaq olmurdu. Bu onlarda onunla söhbət etmək nə qədər xoşuydusa, bir o qədər məsuliyyətli idi. Onun özünə məxsus kəlamları, ibratamiz sözləri, insanı keyfiyyətləri, onun dünya görüşünü açıqlayırdı. Və hər bir insan ondan görüb götürməyə çalışırdı. O, qızlarını, çox istəsədə, bir o qədər onlarla ciddi davranırdı.

Evdə qərar tuta bilməyən Leyla, həyətə düşüb onların yanına gəldi.

- Salam ata, deyib stolu çəkib oturdu.

Nadir kişisə – A bala, bu nə vaxtın yatmağıdır hay… deyib çayı içib qurtardıqdan sonra şapkasını stolun üstündən götürüb başına qoyaraq evə çıxdı. Leylasa narahatlıqla üz gözünü turşudub-:

- Darıxıram ana, Xumarla çay kənarına getmək istəyirəm deyib onun üzünə baxaraq gözlərini süzdü.

Güllü xala-:

- Ay bala, günün gedər çağıdı, darıxmalı nə var ki, get televizoru yandır bax. Bacınla söhbət elə.

- Eh, ana anacan, qurban olum sən allah, qanımın qara vaxtı sən də başlama mən dedim ki, getmək itəyirəm, vəssəlam atamı özün birtəhər başa salarsan deyib ayağa durdu sonra Xumara baxıb

- Dur, dur gedək az, day ürəyim partdadı. Xumar bir onun bir də anasının üzünə maraqla baxa-baxa anasının dur ay qızım Leylanın bu namərdliyi görək bizim başımıza nə oyun açacaq - dediyi kəlmədən sonra ayağa qalxıb könülsüz-

könülsüz, artıq, qapıya çatmaqda olan bacısının ardıyca getdi. Güllü arvadsa

- Tez qayıdın ay qız, yubanmayın ha, atanızında acığı tutar. Öz üzünüzə də, mənə də söz gətirməyin. Deyib onların ardıyca qayğılı baxışlarla süzdü.

Leylayla Xumar, həyətdən çıxdılar.

Dumduru, göz yaşı kimi şəffaf sular çay boyunca axıb gedirdi. Onun səsi, nəğməsi insanı özünə cəlb edirdi. Ona baxan gözlər yorulmurdu. Onu duyan hər kəs qeyri adi zövq alırdı. Bir qədər çaydan aralı qoşa söyüd ağacları, bu mənzərəyə xüsusi gözəllik bəxş edirdi. Ağacların bir-birinə dolaşmış, budaqları başını aşağı əyib, sanki gizlincə, bir-biriylə əl-ələ tutub titrəşən yarpaqların pıçıltısını gizlədirmiş kimi, onların məhrəm, ülvü, sirli dünyasından xəbər verirdi.

Leylayla Xumarsa hər dəfə bura gələndə, bu qoşa söyüd ağacının altında, oturur, və qayğısız uşaqlıq çağlarından söhbət açardılar. Söyüd ağacının yarpaqları isə, onların çiyinlərinə tökülən saçlarını öpüb oxşayar, hərdən də, çubuq barmaqlarıyla onları qarışdırardı.

Leylayla Xumar bir qədər söhbət edib deyib güldükdən sonra, yenidən, sahil boyu gəzişər, yorulduqdan sonra isə, çayın kənarında oturub, ayaqlarını suya salaraq, əllərinin altındakı, xırda çay daşlarını, qolları gəldikcə uzaqlara atardılar. Sonra isə, suyun səsini dinləyərək sonsuzluğa tamaşa edərdilər.

Ürəkdən-ürəyə yol var deyənlər, heç də yanılmayıblarmış. Elə həmin gün Nazim anası ilə Leylanın elçiliyi haqqında gedən söhbətdən sonra, qanı qaraldığından, sükan arxasına nə vax keçdiyini heç özü də hiss etməyərək, sürətlə Leylagilin küçəsindən keçərkən, onu Xumarla, üzü aşağı çaya sarı gəldiyini görəndə, özünü saxlaya bilməyib, maşını elə o anda çayın kənarına sürüb saxladıqdan sonra, onlara sarı getmişdi.

Həsən kişinin gözünün ağı qarası, olan, yeganə övladı Nazimi,tanıyan hər bir kəs, onun ağlına, dərrakəsinə heyran qalırdı. O, bu vaxta qədər, bir dəfə də olsun nə atasınının, nə də anasının bir sözünü iki eləməmişdi.

Leylaya qarşı olan istəyindən sonrasa, o özü-özünü də sanki tanıya bilmirdi. Elə ona görədə anasına son dəfə dediyi

- Sizin yolunuzda canımdan keçməyə hazıram ana, amma mənim ailə həyatıma qarışmayacağınıza söz verin deyərək, elə bu fikirlə də, Leylayla danışmağı və bu barədə qəti qərara gəlməyini düşünmüşdü.

- Bir bax, deyə Xumar Leylaya uzaqdan görünən qaraltını göstərib – görən kimdir elə bil, düz bura gəlir dedikdə, Leylanın bu an sanki ürəyi yerindən oynadı. O, tez ayağa qalxıb əlini gözünün üstünə tutub, gələn qaraltıya tərəf boylandı. Sonra isə o, ürəyinin şiddətlə çırpındığını hiss etdikdə özünü saxlaya bilməyib.

- Odur Xumar, özüdür ki, var. Nazimdir - dedikdən sonra həyacanını gizləyə bilməyib ixtiyarsız olaraq, ona tərəf yüyürdü. Xumar, bu an tələş və qorxu içərisində nə edəcəyini bilmirdi.

- Salam Leyla,

- Salam Nazim,

Bayaqdan, hər birinin ürəyində sanki heç zaman bitib tükənməyəcək sözlərini düşündükləri halda, onların istər-istəməz elə bil dilləri lal olmuşdu, və qəlblərində bir- birindən gizli qalan şübhələrinə son qoyulmuşdu. Yalnız sevgi dünyasında, xöşbəxtliyini yaşamaqdan savayı.

- Leyla, əzizim

- Nazim.

Onlar bax beləcə səssizliyin qoynunda qalmaq, bu anları, illərlə yaşamaq, bu hissləri hərarətli baxışlarla oxşamaq, bakirə duyğuların qoynunda, öz dünyalarını yaşamaq

istəyirdilər. Leylasa bir anda, onun hisslərinə hakim kəsilən, qorxusunu düşündükcə, ani olaraq Nazimə baxdıqda Nazim bu baxışları tutaraq, onun gözlərinə diqqətlə baxıb-:

- Leyla, əzizim de görüm indi nə düşünürsən?

Leyla, bu an sanki danışmağa qorxur, əgər danışsa belə hər şeyin alt-üst olacağından ehtiyat edirmiş kimi susurdu, sonrasa ürəyi tab gətirə bilməyib

- Nazim, mən səni sevirəm, məni səndən yalnız ölüm ayıra bilər - deyib başını onun sinəsinə sıxdı.

Nazimsə onun üzünün, gözlərinin nurunda, itib bataraq, qüvvətli qolları arasında onu köksünə sıxıb dodaqlarından öpərdi. Leyla onu xəyallarına qovuşduran, sevgilisini gözlərini baxışlarıyla öpərək -

- Nazim, əzizim deyib, Xumara sarı qorxaq nəzərlərlə baxıb, onun əlindən tutaraq, söyüd ağacına tərəf addımlayırdılar.

- Nazim, atamı yola gətirmək mümkün olmayacaq bunu bilirsənmi?

- Leyla onda biz nə etməliyik. O, yəqin ki, öz səhvi ucundan sənində bir vaxt səhfini bağışlayar deyib bir siqaret çıxarıb yandırdı.

- Nazim sən hansı səhfdən danışırsan?

- O sənin xöşbəxtliyinə qarşı etdiyi səhvi kimi sən də öz xöşbəxtliyini heç kimi düşünmədən itirməməklə atdığın bir səhv addımla.

- Nazim, qurban olum məni başa sal görüm sən nə demək istəyirsən axı

- Leyla mən səni götürüb, buradan birdəfəlik çıxıb gedəcəyəm - dedikdə Leylanın dili topuq çalaraq-:

- Bəs bəs… atam-anam deyib sonra daha bir kəlmə də danışmadı.

Artıq gün axşama gedirdi, sərin meh əsdikcə, ətrafa yayılan suların ətri, insanın qəlbinə xoş sərinlik bəxş edirdi. Onlar, sahildən getdikcə uzaqlaşırdılar.

Hər gün dəqiqələr, öz hökmünü sürürdü. Leylanın getdikcə, səbri tükənirdi qəlbindəki sevgi hissi, onun ruhunu sardıqca, ürəyinin atəşi onu yaxıb yandırırdı. Bir günsə bütün varlığına hakim kəsilən, həsrəti onun bu evdən birdəfəlik çıxıb getməsinə səbəb oldu. O, anası ilə öpüşüb görüşdükdən sonra gizlində ağlayıb ürəyini boşaldaraq, Xumarla vidalaşıb bir daha geri dönməməyi qərara alıb, elə həmin gün də Nazimlə vədələşdiyi yerdə görüşərək, oradan birdəfəlik uzaqlaşdılar.

O gün, işdən bir qədər gec gələn Nadir kişi, özünü yorğun hiss edirdi. O. Güllü arvadla söhbət edir, olanları keçənləri yada salırdılar. Güllü arvadsa, qış üçün hazırlıq görərək əlində corab toxuya-toxuya əriylə şirin-şirin söhbət edirdi. Bir azdan o Xumarı səsləyib yenə də Leylanı məzəmmət edib.

- Xumar ay Xumar, bacını durğuz, yenə gün batan çağı yatmasın. Sonra bir süfrə rahlayın dedi.

Xumarsa çaşqın halda nə deyəcəyini belə bilməyib, guya Leylanı yuxudan durğuzmağa gedirimiş kimi evə qalxdı və bir azdan geri qayıdıb üzü pörtmüş halda – Ana Leyla evdə yoxdur dedi. Güllü arvad bu vaxt hirslə – Get ay qız, o yanmışı çağır gəlsin, yəqin yenə də qonşuya keçib, deyəndə Nadir kişi sərtliklə onun üzünə tərs- tərs baxıb-:

- "Qızını döyməyən, dizini döyər" -onu öz başına böyütdün Güllü, taxsır sənindir deyib Xumarın üstünə qışqıraraq.

- Di get ay qız, o, küçüyü bura çağır dedi.

Xumar nə edəcəyini bilmirdi. O tez qaçıb küçə qapısına yaxınlaşmaq istəyirdi ki, bu vaxt, qapının möhkəm açıldığını

gördükdə ayaqları sanki yerə yapışdı. Gələn qonşunun qızı idi. O nəfəsi tövşüyə-tövşüyə-:

- Xumar, xəbəriniz varmı, deyirlər ki, Nazim Leylanı götürüb qaçıb deyəndə Xumarın bir anda rəngi ağappaq ağardı və qapıya söykənərək ağlamaqdan özünü güclə saxlayıb gözlərini atasının və anasının sərt baxışlarına dikdi. Bu an onların həyətinə bir neçə adamın doluşduğunu görüb. Güllü arvad ayağa qalxıb –: Allah özün xeyirə cala, bu nə deməkdi - deyib heyrətlə gələn adamlara baxdı. Xumarsa daha bir söz deməyib gələn adamlardan bacısının qaçrılıdğını eşidəndən sonra, anasının özünə divan tutduğunu görüb hönkür-hönkür ağladı. Güllü arvad. İki əlləri ilə dizinə və başına döyəcləyir. – bu nə müsibətdi düşdük ay Allah deyə qızını qarğayırdı. Nadir kişisə bütün bunlardan sonra, gözləri hədəqəsindən çıxmış halda heç kəsi düşünməyib acığını Güllü arvadın üstünə tökərək, gücü qurtarana qədər döyməyə başladı… Və o arvadı təpikləyə-təpikləyə həyətin o baş, bu baş sürütdəyərək yalnız onu öldürdükdən sonra ondan əl çəkdi. O, ağlı başından çıxmış halda qonşuların üstünə cumub – Xumar hanı, hanı o itin küçüyü hardadır o, deyə qışqırırdı. Qonşularsa Xumarı bu hadisə baş verən andan gizləmişdilər. Bu dəhşətli fəciənin şahidi olan qonşular qorxu içərisində əllərini başına söykəyib yerə çönmüş, Nadir kişiyə, sonrasa, həyətdə hərəkətsiz halda sərilib üz gözü qan içində qalmış Güllü arvada tamaşa edirdilər.

Bu hadisədən bir neçə ay olardı ki, keçmişdi. Bu vaxt ərzində bu həyətdə hər şey dəyişilmişdi. Nadir kişi qəsdən adam öldürdüyünə görə, on beş il azadlıqdan məhrum edilmişdi. Xumarsa anasının ölümündən sonra, bir müddət bibisi qızı ilə, sonrasa tək tənha qalmışdı. Bir müddət ərzində Xumar həyatının ən dözülməz anlarını yaşayırdı, iztirab, tənhalıq, qüssə həyacan, onun düşüncələrinə hakim kəsilmişdi. O, gah Leylanı, gah Nazimi, gah da ki, anasının qatili atasının

hərəkətlərini gözlərinin önündə canlandır-dıqca onları bağışlamır, hərdən də özünü qınayırdı. Onu belə anlarda darıxmağa qoymayan qonşusu Raya xalasa, həmişə ürək dirək verər, təsəlli olsun deyə olmuş hadisələri misal gətirərək ona təskinlik verərdi. Bir günsə Xumar evdə tək olduğu vaxt qapının zəngi onu fikirlərdən ayırdı. O, gedib qapını açdı o cavan bir oğlanın əlində məktub dayandığını görüb soruşdu.

- Kimi istəyirsiniz?

Oğlan əlindəki məktubu ona verərək – bu sizə çatacaq deyib ona sevgi dolu baxışlarla nəzər yetirdi. Xumarsa özünü bu baxışların təsirindən qorumağa çalışırmış kimi tez tələskənliklə məktubu ondan alaraq sağ olun deyib qapını örtdü. Xumar məktubun üzünü oxumağa macal tapmamış, Qonşu Raya xalanın onu çağırdığını eşidib geri döndü. O əlindəki məktubun və paçtalyonun ona dikilmiş baxışlarının təsirindən hələ də çıxmayıbmış kimi, fikirli-fikirli onun üzünə və bir də əlindəki,yazıya baxdı.

Raya xala orta yaşlarında olan və yaşına görə samballı, odlu alovlu bir qadın idi. O, olduqca dilli dilavər sözünün ağası olan, hər bir kəsdən öz yaxşılığını və köməkliyini əsirgəməyən bir insan idi. O harda olursa olsun, getdiyi yerdə, oturduğu məclisdə elə bir hərəkət elə bir söhbət edərdi ki, bu hamının yaddaşında qalardı və bu hadisəni misal çəkərək, onu tanıyanlar, Raya xala demişkən deyə yeri gəldikcə onun dediyi sözlərdən ibratamiz fikirlərdən misal gətirərdilər. Raya xala həm də, türkəçarənini bilən, savadlı el həkimiydi. O, bu məqsədlədə çox insanlara, xeyirxah, əməlləri ilə təmmənasız yardım edib, xəstəliyi olanlara şəfa vermişdi. Sağlığında isə, Güllü arvadla bacıdan artıq olmuşdular. O, yenə də əhdinə sadiq qalaraq, Xumara Güllü arvadın bircə balasına tez-tez baş çəkər onun dərdinə şərik olurdu.

O, Xumarın əlində məktubu gördük də isə

- Ağız olmaya o başı batmışdandı, hay? deyib hirs ilə soruşanda Xumar peşman-peşman başını yırğalayıb- Hə atamdandı. Raya xala deyib, göz yaşını saxlaya bilməyib ağladı.

Raya xalasa

- Aç görək, bədbəxt oğlu bədbəxt nə yazır? dedi. Onlar evə qalxıb, divanda oturduqdan sonra, Xumar əlləri titrəyə-titrəyə zərfi açıb məktubu oxumağa başladı.

Salam Xumar.

Mənim əziz balam yəqin bu məktubu alanda da, oxuyanda, mənə qarşı qəzəbini azda olsa cilovlamağı çalışacaqsan, və mən bu məktubu hansı ürəklə yazdığını düşünəcəksən. Bəlkə də haqlısan, qızım sənin məni bağışlamağını heç vaxt bir anda belə düşünməyirəm. Çünki ən azı sənin həyatını zəhərləmişəm, ananın qatili olmuşam. Mən özümsə mənəvi əzab çəkməklə yanaşı, təkcə ananın ölümünə görə Leylanı ölənə qədər bağışlamayacağam. O, mənim iyirmi beş illik həyatımı məhf etdi. El içində məni rüsvay etdi, papağımı yerə soxdu, nəslimizin adını batırdı… nə isə. O mənim üçün yaşayır. Güllünü deyirəm, Leylasa mənim gözümdə çoxdan ölüb. Xumar əgər bu sətirləri oxuduqca mənə acığın artarsada oxu, axıra qədər. Mənim balam hər gün ananın ruhuna qarşı dua edirəm, Tanrıdan onun məni bağışlamasını diləyirəm və bilirəm ki nə vaxtsa o məni bağışlayacaq. Sənsə Xumar, məni bağışlamasanda, unutma. Bundan sonra, qalan ömrünü sənin xöşbəxtliyin üçün əsirgəməyən atanı yad et.

Xumarın bu sözlərini, göz yaşları içərisində dinləyən Raya xala yanaqları pörtmüş halda ah çəkərək

- Neyləsin ay qızım kişi xeylağıdır. Mən qadınlığımla belə müsibətə dözməzdim. O ki, ola Nadir kimi adam olsun. Hayıf ondan hayıf deyib Raya arvad yanqıyla köks ötürüb. Əlləri ilə sinəsini ovxaladı. Günlər həftələri, həftələr ayları əvəz

edirdi… Bu müddət ərzində Xumar hər an onu düşündürən sualların cavabını arıyıb axtarır nə edəcəyinin fərqinə varmırdı.O, vaxtı ilə Leylanın ona istehza ilə dediyi sözlər qulaqlarında əks səda verdikcə o, qulaqlarını əlləri ilə bərk-bərk tutur, arzularının yarımçıq qalmasına və artıq bütün bu düşüncələrin belə acı xəyal olduğun düşününcə dözə bilmirdi. O iş güclə başını qarışdırar günlərini beləcə bir-biri ilə əvəz edirdi.

Bir günsə yenə də qapının zəngi çalındı. Bu gələn paçtalyon oğlan idi. O yenə də əlində məktub qapıda dayanmışdı. Xumarı görüncə

- Xumar xanım bu məktub sizə çatacaq. Rusiyadandır dediyi sözdən sonra o, Xumarın sarsılmış heyrət dolu baxışlarına dözə bilməyib – sağ ol deyib ordan uzaqlaşdı.

Bəli bu məktub Leyladan idi. O, atasından üzür diləyir, onu bağışlamalarını istəyirdi. O, yazırdı

- Anacan, bilirəm ki, günahkaram, amma bununla belə, siz də yəqin ki, mənim xöşbəxtliyimi istəyirdiniz. Anacan, mən indi doğrudan da çox xöşbəxtəm. Bir oğlumuz da olub. Dörd aylıqdır. Məktubu sizə gec yazdığıma görə məni bağışlayın. Düzü atamdan həmişə ehtiyat edirdim. İndi yəqin ki, oda məni bağışlayar. Başa düşər. Çox istiyərdim ki, heç olmasa Xumarın həyatına biganə qalmayasınız onunda mənim kimi pis vəziyyətdə qoymayasız. Mənə cavab yazmayın bir aydan sonra Nazimlə gələcəyik.

Sağ olun sizin Leyla.

Məktubu oxuduqdan sonra, Xumarın simasında təəssüf hissi əks olunurdu. O, yorğun-yorğun addımlarla gəlib həyətdə stulda oturdu.

Sən saydığını say gör fələk nə sayır deyiblər. Elə bu an Xumarın bibisi qızı özünü, həyacanla həyətə salıb, ağlaya-ağlaya onun üstünə qaçdı.

- Xumar, dünən dayımın yanından bizə adam gəlmişdi. Deyirdi ki, aministiya alacağını eşidib, həyacan keçirdibmiş, və onun adı siyahıda olmağını biləndən sonra paraliç keçirdib, indi vəziyyəti olduqca ağırdır. Allah eləməsin, əgər bir şey olsa Xumar onun son sözünü eşitmək istəmədiyinə görə əlləri ilə onun ağzını tutub-:

- Sus-sus, Nahidə, sus - deyib dizləri üstə yerə çöküb, donmuş halda hərəkətsiz qaldı.

Bu hadisədən, üç gün idi ki, keçmişdi. Nadir kişini xəstəliyi ilə əlaqədar olaraq həbsxanadan evə gətirmişdilər. O, beləcə bir neçə gün, dinib - danışmadan qaldıqdan sonra, gözlərini Xumarın solğun bənizinə zilləyərək, canını tapşırdı.

Nadir kişinin yasına gələn adamlar, Xumarla və onun qohumlarına, baş sağlığı verirdilər. Camaat, gah gizlin, gah aşkar Leylanın üzü dönüklüyündən söhbət edirdilər. Onun bu qədər vəfasızlığını bağışlamırdılar. Hüzürsə artıq yarı qırx olmaq üzrə idi. Elə bu məqamlarda, kiminsə:

- Leyla gəldi deyə bərkdən səsi eşidildikdə hamı təəccüblə və maraqla həyətə boylandı.

Nazimlə Leyla körpələri ilə birlikdə, Həsən dayı gilə gəldikdə, sanki nəsə kədərli bir hiss onların ruhuna hakim kəsilmişdi. Nazim qucağındakı körpəni Leylaya verərək yeyin addımlarla evə daxil oldu. O, atasını, çarpayıda uzanmış halda görüb üstünə qaçmışdı.

Həsən kişi birtəhər dikələrək çarpayının başlığına söykənib qollarını açıb onun üstünə gələn oğlunu görüncə sevincinin həddi hüdudu olmamışdı. Ata oğul bir-birinə sarılıb öpüşüb görüşdükdən sonra hal əhval tutur. Leylada öz növbəsində Həsən dayı ilə görüşüb sonrasa Nazimin üzünə

baxaraq – Anan hardadır görən? Deyib soruşanda Həsən kişi bir qədər duruxduğunu görüb daha bir söz deməyərək susmuşdu. Həsən kişi çarpayıdan oğlunun köməkliyi ilə qalxıb gələrək stula oturduqdan sonra nəvəsini qucağına götürüb üz-gözündən öpdü.

- Harda qalmısız ay oğul, bu qədər vaxt ərzində heç evdən-eşikdən ötrü darıxmırdız?- deyib onu məzəmət elədi.

Nazimsə gülümsünüb başını aşağı saldı sonra Leylaya üzün tutub,

- Leyla bir çay gətirsəydin deyib söhbətə başladı. Anam hardadır, niyə belə düşmüsən ata. Xəstəliyin nədir de. Səni ürəyin istəyən həkimə aparım, müayinədən keç dedi.

- Yox ay oğul, heç bir şey lazım deyil. Məni narahat eləyən, elə sənin fikrin idi, sən də ki, Allaha şükür ki, gəlib çıxdın, gec də olsa.

- Bu nə deməkdir, gec də olsa…

Oğul anan indi Leylagilə yas yerinə gedib.

- Nə olub ki,? – Nadir kişi rəhmətə gedib. Elə bu günlərdə onun qırxıdır. Nə deyim.

- Ata, sözlü adama oxşayırsan daha nə olub axı, allahın əcəlidir biz nə edə bilərdik ki?

- Yox ay oğul, onun ölümü Allahın əcəliylə olmadı.

- Ata, məni bir düzgün başa sal, görüm ki, daha nə olub?

Hər şey sizdən sonra oldu. Leylanın qaçdığını görən Nadir Güllü arvadı elə həmin gün də döyüb öldürdü. Yazıq arvad onun zərbələrinə dözə bilməyib canın tapşırdı deyib dərindən ah çəkdi.

Leyla dəmlədiyi pürrəngi çayı süfrəyə gətirdikdə, Nazimlə Həsən dayının son sözünü anlaşılmaz tərzdə eşitdisə də nəsə başa düşmədiyi üçün-:

- Nazim, nə olub ki, Həsən dayı siz Allah məndən gizlətməyin deyib sual edici nəzərlərlə onlara diqqətlə baxdı.

Həsən kişisə bir qədər duruxdu, sonra

- Qızım, bir üzü gəlimli, bir üzü gedimli dünyadır. Özünü toxdaq tut deyib susdu. Leyla Nazimin üzünə tutulmuş halda baxaraq Nazim-:

- Leyla, anam sizdədir, yaxşı olardı ki, indi biz də orda olaq.

Leyla daha bir söz deməyə iqtidarı qalmayıb qapıdan necə çıxdığını belə hiss etmədi. O, bir andaca həyətə düşüb evlərinə tərəf yüyürdü. Qapılarına çatdıqda, taybatay açıq olan darvazalarının qarşısında topa adamları görüb dözə bilmədi və həyətə girərək

- Ata- atacan-deyib ürək yanğısı ilə qışqırdı. Yas yerinə gəlmiş adamlar onu sakitləşdirməyə çalışırdılarsada, bacarmırdılar. O özünü hara gəldi çırpır yeri göyü qarğayırdı. Yas yerində səslənən sözləri eşidəndə, anasının yoxluğunun da onun ucbatından olduğunu bilib – Allahım, mənə ölüm ver ki, bu sözləri eşitməyim deyib nalə çəkirdi.

Bu sarsıntı, Leylanın, həyatı kimi, iç dünyasını də dəyişib alt-üst etdi. Onun şən, çılğınlığından əsər əlamət qalmadı. O, atasının ilini başa vurduqdan sonra, bir daha bu həyətə qayıtmadı. Nazimgil isə bir müddət burda qaldıqdan sonra, evlərini satıb, şəhərə köçdülər.

Xumarsa yenə də, tək tənha qaldı.

Xəyalə, xalasını dinlədikcə, sanki o həyatın acılarını bir daha yaşayırdı. Buna baxmayaraq, o, xalasının üzüntülərinə son qoymaq məqsədiylə ona toxdaqlıq verib uşaq kimi onun üz-gözünü sığallayıb – Xalacan, qurban olum. Özünü üzmə, axı sənin nə günahın var ki, bu qədər əzab çəkirsən deyib sonra-

- Söz ver ki, hər şeyi unutmağa çalışacaqsan bundan sonra, yaxşı şeylər haqqında düşünəcəksən. Sənə əzab verən

bütün fikirləri çıxar başından dedi. Leyla arvad sanki yuxudan ayılmış kimi səksənib, Xəyalənin ürəyinə yeni bir dərdin yol tapacağından ehtiyat edərək.

- Yox- yox qızım, sən Allah mənə fikir vermə mən doğurdan da deyəsən başımı itirmişəm. Söz verirəm bir daha bu haqda bir kəlmədə danışmayacağam dedi. Xəyaləsə onun mənəvi iztirabına belə dözməyib

- Xala, mən elə demək istəmirəm.

Bilirsənmi, istəyirdim ki, sən bu hadisənin yaxşı tərəfini düşünüb yaşıyasan. Çünki sən günahkar deyilsən.

III FƏSİL

Çarpayıda hərəkətsiz halda uzanan Xəyaləni çoxdan şirin yuxu aparmışdı. O, bu səssizliyin tənhalığında, bu dünya ilə cəzalanmış, mələyi xatırladırdı. Onun simasında əks olunan cizgilər bu qəribəliyə qeyri adi ifadə verir, insanı düşündürürdü. Onun məsumluğu hər kəsi təsirləndirməyə bilmirdi.

O, yuxudan ayrılarkən ətrafına bir an nəzər saldıqdan sonra, üşüyürmüş kimi çiyinlərini sıxdı. Sonra isə çarpayıdan qalxıb pəncərənin önündə dayanaraq, gözünü könlünü oxşayan, səmaya bir müddət beləcə tamaşa etdi. O, hər dəfə belə anlarda, saatlarla səmaya tamaşa edərdi. Sonra isə o, onun ruhuna yaxın olan bədii kitablardan birini götürüb oxuyardı. Xəyalə bir zamanlar, talehinə biganə qala bilmədiyi, obrazların həyatını oxuduqca, göz yaşı tökürdüsə, indi o, bir anlıq olsa da, özünü obrazların ruhunda hiss, edərkən, daha təəcüblənmirdi. İndisə o, həmin kiabları oxuyarkən heç bir şey eşitmir, və heç bir şey görmürdü. Qeyri adi səslər onun düşüncələrini alt-üst edir, beləcə başqa bir dünyanı yaşadırdı. O, bu dünyasından fərqli olaraq, hərdən uşaqlıq illərini xatırlayır. O, günlərin, kədərli sevincli, anlarını yaşayırdı.

Onda Xəyalənin, on on iki yaşları olardı. Onun atası çörək maşını sürməklə, ailəsini birtəhər dolandırır, Xəyalədən başqa üç övladının da qayğısına qalırdı. Xəyalənin ögey anası Durna arvdsa, evdə dərzilik edər ərinə ailəsinin dolanmasında kömək edərdi.

Durna arvad, son dərəcə qıvraq, uzun boy, uzunboğaz, çoxdanışan və həddən artıq zirək bir kənd qadını idi. Onun xasiyyətidə zirəkliyinə çəkdiyindən, gün doğandan gün batana qədər hər şeyə danışar, yerli yersiz Xəyaləni incidər, adi xırda bir iş üstündə həşir qoparardı. O, Xəyaləni yamanladıqca ərini

söyər, və uşaqlarının halına acıyırdı. Bir gün də belə günlərdən biri idi. Xəyalənin atası işdən yenicə gəlmişdi. O əlində nəsə bükülü bir bağlamanı Xəyaləyə verib.

- Al qızım, sənin üçün almışam deyib, sonra həyətin o başında olan su krantı altında əllərini yuyub evə qalxdı.

Elə bu vaxt, Durna arvad, əllərini unlu-unlu belinə qoyub hikkəylə

- Ağız Xəyalə narkom kimi nə durmusan? Dədən ölmüşü görən kimi, çiçəyin çırtdadı di tez ol, su gətir tök əlimə, xəmir yoğururam deyib hirslə çörək tasını götürüb eyvanın altına keçdi.

Xəyaləsə daha bir söz deməyib, əlində yenicə açıb baxdığı, atasının ona aldığı donu, bir əlində tutub, o biri əlinə ləyəni götürüb Durna arvada qorxaq nəzərlərlə baxa-baxa gəlib çatdıqda, Durna arvad unlu əlləri ilə onun əlindəki donu göydə qapıb, var gücü ilə guya o tərəfə atırmış kimi, bir az kənarda, yanan ocağa sarı tulladı, və qışqıraraq-:

- Sən yetim deyilsən, yetim mənim balalarımdı deyib ləyəni onun əlindən alıb suyu özü tökərək, xəmiri şapbıldada-şapdıldada bir əli ilə yoğurmağa başladı. Elə bu vaxt, Xəyalənin atası səsə çıxdıqda bir göz qırpımında alışan donu görüb heyrətindən gözləri hədəqəsindən çıxdı. Durna arvad ərini gördükdə özünü daha saxlaya bilməyib qışqırdı.

- Məni qana salan ləçər, deyib əllərini dizlərinə çırpdı. Xəyaləsə daha özünü saxlaya bilməyib, pilləkənin ayağında oturub hönkür-hönkür ağladı. Onu görən atası, pilləkənlərlə aşağı düşdü. O, Xumarın yadigarı, bircə balasını, canından artıq istəyirdi. Durnayasa onun qəlbi sınıq olduğunu dönə-dönə tapşırmışdı ki. onunla işi olmasın. Bununla belə Durna arvadın həyasızdığını gördükdə, daha dözə bilməyib, onun üstünə yeridi. Və o arvadı kələyi kəsilənə qədər vurdu.

Xəyalə, belə bir ağrılı həyat sürürdü.

Durna arvad hər dəfə uşaqlarını tənbeh etdikdən sonra bunu bəhanə edib, Xəyalədən acığını beşqat artıq çıxardı. O, Xəyaləni kələyi kəsilincəyə qədər işlədər Yarı qarnı ac, yarı tox dolansın deyə, bir tikə çörəyi də ona minnətlə verərdi. Xəyaləsə bütün bunlara dözürdü. O, hər səhər gecənin tez düşməsinə görə allaha dua edərdi. Və axşam düşəndə, yerinə girən kimi onu yuxu aparırdı.

İllərsə öz işini görürdü. Xəyalə onuncu sinifi əla qiymətlərlə başa vurduqdan sonra, elə həmin il, ali məktəbə tibb universitetinə daxil oldu. Və o, oxuduğu müddətdə, Bakıda əmisigildə qaldı.

O, vaxtlar, Xəyaləyə əmisi əlindən gələn, köməkliyi əsirgəmirdi. Bəlkə də elə ona görə də, əmisi arvadının gözü onu götürmür, hər dəfə ona söz atırdı. Xəyalə onunla hal-əhval tutanda ağızucu dinərək, mızıldanardı.

Xəyalə oxuduğu illərdə əxlaqı və gözəl keyfiyyətləri ilə, müəllimlərin və tələbə dostlarının hörmətini qazanmışdı. Ona bu illər ərzində neçə-neçə oğlan qəlbini açsada o, heç birilə yaxınlıq etməz, və qəti cavabını bildirərdi. Lakin, qrup yoldaşı olan, Rüfətdən başqa. O, Rüfətin xatirini əziz dost və qardaş kimi istəyirdi. Rüfət isə ona qarşı, tam əksi olaraq qəlbində müqəddəs bir sevgi hissini daşıyırdı. Lakin o, bununla belə Xəyaləyə bir söz deməyə cürət etmir, susurdu. Ona qarşı davranışlarında belə ehtiyat edir, adi bir sözdən belə onun qəlbinə toxuna biləcəyindən qorxurdu və Xəyaləyə qarşı olan sevgisini sirr olaraq saxlayırdı. Xəyalə isə, onunla hər dəfə söhbət etdikə, qəribə bir hisslə baş- başa qalar, nə düşündüyünü belə ağlına sığışdıra bilmirdi.

Rüfətsə, hər dəfə Xəyaləni gördükdə, ürəyindəki etirafı, baxışlarında itsər-istəməz biruzə verirdi. Rüfət Xəyaləni, sevirdi, özü də, ülvü bir məhəbbətlə.

Həmişə o, dərsin sonunda Xəyaləni gözləyər, və dayanacağa qədər onunla söhbət edə-edə gedərdi. Bir günsə belə bir hadisənin şahidi olduqda, onun özünü saxlaya bilməməsi Xəyaləyə çox həqiqətləri açıqladı.

Onun tanımadığı bir gənc oğlan Xəyaləyə yaxınlaşıb, çox qəribə tərzdə onun qolundan tutaraq və qısqancılıqla-:

- Dayan, səninləyəm, - eşidirsən dediyi sözü Rüfəti özündən çıxarmışdı.

Xəyalənin o an-:

- Çək əlini avaranın biri avara - dediyi sözdən sonrasa o, oğlanın yaxasından tutub əməlli başlı onu əzişdirmişdi. Oğlansa onu hədələyərək-:

- Yaxşı baxarıq əclaf deyərək, öz jiqulisinə oturub ordan uzaqlaşmışdı.

O anda Xəyalə nə edəcəyini heç özü də bilmirdi. Rüfətsə, çaşqınlıq içərisində-:

- Xəyalə de görüm bu oğlanı tanıyırsan, ya yox! Deyə soruşanda, Xəyalənin tutulmuş halda dediyi-:

- Yox Rüfət, amma çoxdandı ki, bu, oğlan mənə göz verib işıq vermirdi. Onu tanıyan qızlarsa onun çox varlı bir adamın oğlu olduğunu deyiblər. Nə bilim, deyirlər ki, dəlisovun axmağın biridir. Bu sözdən sonra Rüfət ani olaraq şübəhəli tərzdə

- Bəs o, nə üçün sənə bu tərzdə yaxınlaşdı. – deyə soruşdu. Osa, Bilirsənmi Rüfət o, bir neçə dəfə mənim qarşımı kəsib, nəsə demək istəyirdisə də, mən ona imkan verməmişəm. İndisə məni sənlə bir yerdə gördüyündən, qəsdən belə hərəkət etdi yəqin ki, o, elə bildi ki, nə isə, deyib Xəyalə susdu. Rüfət bu an, həyacanlanmış halda üzü allandı, nəsə demək istəyərkən sanki boğazı qurudu və daha bir söz deməyib, cibindən siqaret götürüb, içindən bir papiros çıxarıb yandırdı.

Onlar bir müddət beləcə dinib danışmadılar. Bir azdan, onların gözlədiyi avtobus gəlib çıxdı. Xəyalə Rüfətin gözlərinə baxmağa belə cürəti çatmayaraq, onunula əl-ələ görüşüb ayrıldı.

O, bir anda baş verən bu hadisənin təsirindən, özünü itirmişdi. Nə düşünəcəyini belə sanki dərk edə bilmirdi.

Rüfətin ona dikilən baxışlarınısa unuda bilmirdi. O, Rüfətin bayaq ki, hərəkətlərini fikirləşdikcə, qəlbindən gələn səsləri dinləyərək, onun acısını yaşayırdı.

- Rüfət Rüfət, mən səni bir dost kimi, istəyirəm. Sevgi hissinisə ağlıma belə sığışdırmıram. Sənisə… axı mən necə aldadım səni, özümü yalan hisslərlə… Bunu bacara bilmərəm, və nə sənə nə də özümə bu riyakalığı arzulamıram. Rüfət. Mən sənin pak, ülvü hisslərinin qarşısında necə riyakar ola bilərəm axı?…

Xəyalənin ötən anlar, gözlərinin qarşısında canlandıqca, o, bədəninin süstlüyünü duyur, həzin düşüncələr içində yuxuya gedirdi.

Xəyalə, söyüd ağacının altında oturub, kitab oxuyur. Bu zaman onun boynunu, boğazını oxşayan isti bir nəfəsin hənirtisi, onu düşüncələrdən ayırır. O, arxaya çevrildikdə, onun tellərini öpüb oxşayan Talehi görür. Taleh əlindəki gül dəstəsini, Xəyalənin oxuduğu kitabın üstünə qoyub, onun yanında oturur, və bir qədər ona həsrətlə baxdıqdan sonra yavaşcadan pıçıldayır.

- Xəyalə… necəsən. Mənsiz darıxmırsanki? Bu vaxt Xəyalənin gözlərindən yaş süzülür başını onun sinəsinə qoyub.

- Talehim, bilsəydin ki, sənsiz mənə nə qədər çətindir.

- Xəyalə…

O getmək istədikdə

- Taleh, əzizim, getmə, yalvarıram. Məni də özünlə apar. Taleh… Taleh… Osa getdikcə uzaqlaşaraq, gözdən itir…

Xəyalə hıçqırıq səsinə oyanıb, ətrafına nəzər yetirdikdə, həç kəsin olmadığını görüncə, sarsılmış halda, əllərini dodaqlarına qapayıb, səsi çıxmasın deyə içində hönkürürdü.

Sübhün şəfəqləri, ətrafa səpələndikcə, Xəyalənin otağının pəncərəsinə düşən parıltılarıyla oynayırdı. Göz qamaşdıran təbəssümüylə, Xəyalənin üz gözündə gəzib, onu oyadaraq, gülümsəməyə məcbur edirdi. Xəyalə belə anlarda qeyri adi ovqatla yerindən qalxıb, qollarını geniş açaraq, tellərini əllərilə darayıb kürəyinə tökərək, gözləriylə, günəşin oynayan şəfəqlərini öpürdü.

Belə anlarda qollarını bədəninə sarıyaraq, səhərin ətrini qoxuyaraq dərindən ah çəkdi.

- Taleh kaş indi sən yanımda olaydın. Bilsəydin ki, sənin nəfəsinə, hərarətinə nə qədər ehtiyacım var. – deyə pıçıldayırdı.

Saat yeddiyə qalırdı.

Bir azdan Xəyalə işə getməliydi. O, əlüzünü yuyub, səhər naharını yeyib içdikdən sonra işə tələsdi. O, Eyvanın qarşısında Nazəninlə rastlaşarkən onun, narahat olduğunu gördükdə

- Sabahın xeyir Nazənin, gözlərin niyə qızarıb yuxusuz adama oxşayırsan… dedi.

Nazəninsə ağlamsınmış halda.

- Sabahın xeyir Xəyalə, bu gecə Jalə səhərə qədər yatmayıb, qızdırma içərisində elə hey zarıyıb:

- Bəs indi necədir?

- Bir az yaxşıdır, Xəyalə smes vurmuşam qızdırması azalıb. Elə indicə gözünə yuxu gedib.

- Nazlı gözün üstündə olsun. Özün də get bir az, dincəl.

- Hə, düz deyirsən, Xəyalə gedim bir az gözümün acısını alım.

- Sağ ol Nazlı.

- Sağ ol Xəyalə.

* * *

Xəyalə, kabinetinə keçib, xalatını asılqandan götürüb geyinərək, yerində oturdu sonra, qeydiyyvat dəftərini nəzərdən keçirdi.

Xəyalə yüksək elmi biliyi ilə, tibb aləmində, özünə məxsus yerlərdən birini tutmuşdu. Onun isdedad və bacarığı nəticəsində, bir neçə ağır aperasiyalar uğurla başa çatmışdı. Və bununla yanaşı, xüsusi təyinatla çağrışları qəbul edərək, başqa tibb ocaqlarında da, ciddi əməliyyatların öhdəsindən gəlmiş, layiqincə yerinə yetirmişdi. Ona ümid bəsləyən neçə-neçə xəstənin həyata qayıtmasında, Xəyalə əlindən gələn bacarığını, əsirgəməmişdi. İndi isə düz bir saatdan sonra əməliyyat otağına gedib, on beş yaşlı bir xəstəsinin aperasiyası üçün, hazırlaşacaqdı.

Bir azdan hər şey öz qaydasında idi. Xəstəyə keyləşdirici iynə vurduqdan sonra əməliyyat otağına gətirib aperasiya olunan stula çıxarıb yenidən narkoz verdikdən sonra Xəyalə aperasiyaya başladı. Yarım saat çəkən əməliyyat, uğurla başa çatdı. Və bir azdan xəstəni yerinə gətirdikdən sonra tibb bacısı xəstənin valideyinlərinin onu görmək istədiyini dedi.

O, hər dəfə beləcə gərgin işdən sonra daxilən rahatlanar, ona öz təşəkkürünü bildirən xəstənin yaxın qohum əqrabaları ilə sevincini bölüşərdi.

Artıq iş başa çatmaq üzrə idi. Telefon zəng çaldıqda, o dəstəyi götürüb həyəcanla danışdı.

- Alo, kimdir necə siz nə danışırsınız. Ola bilməz deyib dəstəyi yerinə qoydu və tez tələsik ayağa qalxıb, tibb bacısını çağırdı.

- Səidə tez ol, Xəlili çağır de ki, gəlib məni aparsın.

Xəlil təcili yardım maşınını sürürdü. O Xəyalənin həyacanlı olduğunu görüb soruşdu.

- Xəyalə xanım, xeyir olsun ağlayırsınız nədir? deyə narahatlığını bildirdi. Xəyaləsə –Xəlil Nazəninin qızı Jalə inana bilmirəm. Hec cür inana bilmirəm. Mənə zəng vurmuşdular. Onun yatıb ayılmadığını dedilər deyib əllərrini üzünə tutub ağladı.

O, artıq evə çatdıqda ev adamla dolu idi. Nazənin yarıhuşsuz vəziyyətdə divanda uzanmış halda qalmışdı. Hüzürə gələn adamlarsa, bir- bir onun başına toplanır. Onun bu vəziyyətdən çıxmasını gözləyirdilər. Xəyaləsə onu bu halda gördükdən sonra, daha özünü saxalaya bilməyib hönkürtü ilə ağlayıb onun boynunu qucaqladı. Sonra isə ona lazım olan tibbi yardım göstərib, sakitləşdirməyə çalışdı. Nazənin bənizi solmuş halda gözlərini açıb, Xəyaləni gördükdə Jalə daha yoxdur. Xəyalə yoxdur deyə sarsılmış bir yanqı ilə inildədi.

* * *

Rahim dayı Nazəninin, üzüntüsünə dözmürdü. O, körpə Jalənin ayrılığını düşündükcə özünə yer tapa bilmirdi Son vaxtlar öz səhətinin yaxşı olmamasına görə öz xahişi ilə işdən çıxmağı qərara almışdı.

Bu haqda o Qadirlə oturub söhbət etdikdə, Qadir onun haqlı olmadığını və bir müddət müalicə olunduqdan sonra, qayıtmasını desə də, Rahim dayı…

- Yox oğlum, özümə heç yerdə yer tapa bilmirəm. Jalənin ölümündən sonra, Nazəninin üzünə baxanda gözlərim ağrıyır yaşamaq istəmirəm. Heç bir şey haqqında düşünə

bilmirəm bundan sonra qayıtmaq mənim üçün çətin olar. Bəlkə bir az sakitləşdim deyə belə olsa daha yaxşıdı.

O gündən də Rahim kişi mehrini evə-eşiyə, həyətə-bacaya bağladı. O, həyətdə, saldığı bağ-bağça ilə, məşğul olur, ağaclara qulluq edir başını qarışdırırdı.

Qadir, Nazəninin darıxmaması üçün, işdən, gəldikdən sonra onu gah konsertə, gah da teatra aparırdı. Bir gün belə bir gəzintidən gələrkən, onunla bir yerdə işləyən Coğrafiya müəlliməsi, Zeynəb xanımla rastlaşdı və ayaq saxlayıb salamlaşaraq hal əhval tutduqdan sonra ayrıldılar. Elə həmin gündən də, Zeynəbin ürəyində, Qadirə qarşı qeyri səmimi hisslər baş qaldırdı o, necə olursa olsun onun şəxsi həyatına mane olmaq və onun düşüncələrinə nüfuz etmək istəyi, arzusu ilə yaşayırdı.

Zeynəb qırx yaşlarında lakin, yaşından çox cavan təsir bağışlayan bir qız idi. Onun qeyri ciddi xarakteri, davranışı, söhbət əsnasında yersiz atmaca sözləri, ironiyaları hamını əsəbləşdirir, hər kəsi özünə məxsus qıcıqlandırırıdı. O, evin ikinci qızı olmağına baxmayaraq, iddialı son dərəcə amiranəlik eşqiylə hər kəsə qarşı olan münasibəti, onun doğmalarını belə bezdirmişdi. Və elə buna görə də o, bacısından sonra ərə getməmiş onun adını tutan olmamışdı. Atasının onları lap erkən yaşlarından atıb getməsi, anası ali savadlı omasına baxmayaraq, ehtiyac üzündən alverçiliklə məşğul olmasına şərait yaratmışdı. Və o bu həyat tərzinə baxmayaraq qızlarını böyüdüb boya başa çatdırmış həmdə oxudub, ev-eşik sahibi etmişdi. Zeynəb istər anasının, istərsə də bacısının xasiyətindən fərqli olaraq, təmiz adına layiq olmağı bacarmamışdı. O elə bu məqsədlədə işdə, inistitutda söz-söhbət yaratmaq məqsədiylə, Qadirə yaxınlaşar naz-qəmzə ilə ona suallar verərdi. Belə günlərdən birində, o həmişə olduğu kimi, keçrilən tədbirlərdə, banket zamanı Qadirin yanında oturmaqla kifayətləndi. Sonra isə o, məclisin

getdiyi dəqiqələrdə niyyətini həyata keçirmək məqsədi ilə, orda əyləşən müəllim tələbə heyyətinin nəzərini özünə cəlb etməklə, tez-tez əyilib Qadirin qulağına nəsə deyir, ətrafa diqqət yetirərək, ona nəzər yetirib, yetirməməyinə fikir verir, sonra, Qadirin ona qulluq etməsindən xüsusi zövq alırdı.

Məclisin sonunda, Qadirin onu ötürməsini xahiş edərkən tələbələrin qarşısında onun qoluna girib, dayanacağa qədər qəh-qəhə çəkərək özünü göstərmişdi.

O gün Qadir çox narahat idi. Ürəyi sıxılır, başı gicəllənirdi. Xöşbəxtlikdən, elə həmin gün, rayondan anasıgil gəlmişdi. O, həyətə girdikdə, eyvanda iri stolun ətrafında bütün ailə üzvlərini, doğmalarını, görüb ani olaraq onu narahat edən fikirləri unutdu. Onlarla görüşüb hal- əhval tutduqdan sonra üzünü qardaşına tutub

- Rza de görüm işlərin nə yerdədir. İnstitutda, necə çətinlik çəkmirsən ki? soruşdu. Rzasa özünə məxsus ədayla, sinəsini irəli qabardıb qaşlarını qaldıraraq köhnə kişilərə məxsus tərzdə

- Pis deyil işim, Allaha şükürlər olsun. İnisitutu da bitirməyə bir şey qalmayıb, görək də, neyliyə bilərik, deyəndə, Qadirin atası Səməd kişi oğlunun sözünə qüvvət verirmiş kimi boğazını, arıtlayıb –dedi.

- A kişi mən ona dedim ki, inisitutu qurtar sonra, səni əməlli başlı işə düzəldim. Onsuz da bizim rayonda ağranoma ehtiyac var. Yoxsa ki, gedib tutub elə bir işin ucundan ki, pah atonnan, desinlər ki, kişinin oğlu da bir iş görür.

- Rza pörtmüş həmdəki, əsəbi narahatlıqla özünü sındırmayıb üzünü Qadirə tutub dedi.

- Atam istəyir ki, mən birdən- birə alim adı alım vallah bu söz buna bənzəyir hələlik fəhləçilik edək sonrasınasa Allah kərimdir.

Atası -:

- Ay oğul, bir söz də deyəndə bunun xətrinə dəyir. Sənin hər işin yarımçıqdı a bala. İnstitutu da qiyabi oxuyallar? Mən belə şeyə yaxşı baxmıram. Sənin öyrəndiyin nə olacaq, fəhləçilik…? Deyib əlini havada yellədi. Səməd kişinin ömür gün yoldaşı Nigar xanım yerində qurcalanıb

- Siz Allah, dayanın sizin söz söhbətiniz qurtaran deyil ey… dedi: Sonrasa narahat halda, mətbəxə sarı baxıb,

- Ağız a Nazənin gəl özün də otur, həlak oldun ki, a bala deyib, tənbeh edici nəzərlərələ qızı Gülarənin üzünə baxdı. Gülarə pərt olmuş halda gözlərini yerə dikdi.

Rahim dayı isə, Nigar arvaddan

- Ay bacı deyin görək bu bəyin toyunu nə vaxt edəcəysiniz. Səməd səhərdən uşağı sıxma boğmaya salıb deyə soruşdu. Nigar arvadın üzünü xoş təbəssüm alaraq.

- Nə bilim ay Rahim qardaş, bir qonşu qızı var, gözüm tutub, yaxşı işdi gücdü qızdı, başı aşağı, ağıllı dosta qismət olmalı baladı. Rza sözümə baxsa ya qismət nə deyim dedi.

Nazəninsə əlində çay süfrəyə gətirərək onların sözünə münasibətini bildirərək dedi.

- Ay ana, kimi istəyir, qoy onu da alsın.

Nigar xalasa-:

Ay bala, nə deyirəm ki, kim olur olsun təki, xöşbəxt olsunlar mənim deyəcəyim budur ki, əsli kökü olsun. Özümüzə layiq olsun ey.

Nazənin daha bir söz deməyib Rzanın bayaqdan tutqun ifadə almış üzünə baxıb, göz vurub gülümsündü. Xəyaləsə Gülarənin necə oxuması haqda soruşduqda Gülarə

- Xəyalə bacı, bu il məktəbi qurtaran kimi sənədlərimi inisituta verəcəyəm görək nə olur dedi

Xəyalə-:

- Əgər ciddi yanaşsan, yəqin ki məqsədinə nail olacaqsan. Gülarə darıxma dedi və bu vaxt telefonun zəngi

onların fikrini yayındırdı. Nazənin dəstəyi götürdü və Xəyalə səni soruşurlar deyib sonra isə o, telefonda danışarkən təcili gələcəyini bildirib dəstəyi yerinə qoydu.

Xəstəxananın bütün işçiləri narahatçılıq dolu təlaş içindəydi.

Əməliyyat otağında isə, həyacanlı dəqiqələr öz hökmünü sürürüdü. Xəyalə son dərəcə ağır və məsuliyyətli bir, cərrahiyyə əmelliyyatı aparırdı. O gün, qəza hadisəsi nəticəsində yaralanmış, üç nəfər yaralının eyni vaxtda aperasiyası gedirdi. Onun həmkarları ilə yanaşı kalleqası Tərlan Həsənzadədə bu əməliyyatda iştirak edir əlindən gələni əsirgəmirdi.

Bir neçə saat davam edən, əməliyyat başa çatdıqdan sonra, xəstələrin ikisini şəfqət bacılarının və sanitarların köməkliyi ilə palataya gətirdilər. Onlardan birininsə, kəllədaxili travma nəticəsində, aldığı beyin zədələnməsindən iki saat sonra elə əməliyyat stulunda da keçinmişdi. Xəstələrdən biri, bud sümüyünün sınığından, o birisi isə qara ciyərin və dalağın əzilməsindən aperasiya olumuşdu. Təəssüflər olsun ki, bu əməliyyatdanda biri uğursuz başa çatmışdı. Qara ciyərindən zədə almış xəstənin sağalacağına çox az ümid bəsləyən həkimlər, qara ciyərdən, əməliyyatdan sonra onun bir neçə gün yaşayacağını demişdilər.

Tərlan Həsənzadəylə kabinetdə, bayaqkı keçrilən uğursuz əməliyyat haqında gedən söhbəti Xəyalə bir daha ürək ağrısı ilə düşündükdən sonra o həmin xəstəyə baş çəkmək məqsədi ilə, palataya daxil oldu və onun səhəti ilə maraqlandıqda dəşəhtli bir an onu sarsıtdı.

Onun üçünsə o xöşbəxt an, o xöşbəxt dəqiqələr artıq gəlib çatmışdı. Onun işığı özləyən gözləri indi Xəyaləyə dikilmişdi.

O gün anası ona, getmə ay oğul qurbanın olum demişdi. Osa cavabında illərlə həsrətini çəkdiyi və yalnız şirin xəyallarda onunla yaşadığı, istəklisinin görüşünə tələsdiyini demişdi. Sonrasa o,

- Anacan əgər qismət olsa səni tezliklə sevindirəcəyəm demişdi. Nədənsə heç özüdə fərqinə varmadan, qeyri adi kədər hissiylə anasının ona dikilən gözlərinə baxıb içdən ah çəkmişdi.

Xəyalə xəstənin yoxlayarkən onun gözlərinə baxmaq istədikdə, qəfil bir ağrının ürəyinin içində qıvrıldığını hiss edincə bir qışqırtı onun sinəsindən boğuq, qırıq- qırıq səsləndi.

- Rüfət, Rüfət bu ola bilməz deyib əllərilə üzünü tutdu.

Onu bəlkə də ilk dəqiqələrdə Xəyalə tanımış olsaydı, yəqin ki, bu aperasiyanı o, apara bilməyəcəkdi. O gün xəstənin üçü də al qan içindəydi üz gözləri tanınmaz hala düşmüşdü.

Bu günsə, Rüfət Xəyalə ilə bağlı dünyasının son gününü, son dəqiqəsini yaşayırdı.

O, Xəyalənin üzünə bir müddət tamaşa etdikdən sonra. Baxışlarını onun gözlərində saçlarında gəzdirib pıçıltı ilə güclədə olsa qırıq-qırıq səsləndi.

- Xəyalə… mən, səni, sevirdim səninlə xöşbəxt olmaq mənim ən müqəddəs arzum idi. Məni bağışla dedikdən sonra gözlərini Xəyalənin gözlərinə dikərək, həsrətli baxışlarla can verdi və bir neçə dəqiqə beləcə qaldıqdan sonra əbədiyyətə qovuşdu.

Xəyalə işdən yenicə qayıtmışdı. O, özünə yer tapa bilmirdi. Otaqda o tərəf - bu tərəfə var gəl edir, daxilindəki səslərlə baş-başa qalırdı.

- Rüfət, axı niyə belə oldu, sən niyə belə etdin?. Bəs indi yazıq anan nə edəcək sənin yoxluğun…, aman Allah, o bu dərdə necə dözəcək.

Xəyalə Rüfətin həyatından az da olsa məlumatı var idi. Onun evin tək oğlu olduğunu, və atasının bir başqa qadına

uyaraq, onları atıb getdikdən sonra, anasının min bir əzabla oğlunu böyüdüb boya başa çatdırmasını da yaxşı bilirdi. Onun nəfəsi tövşüyürdü. Xəyalə yanan sinəsini, əlləri ilə döyəcləyə-döyəcləyə, ovuşduraraq…

Ağlayırdı yana- yana ağlayırdı.

- Yox o bu dərdə dözsəydi, Nazənin dözməzdi, dözməsəydi Rahim dayı dözməzdi. Dözməsəydim, mən dözməzdim… Torpağın üzü soyuqdu. Nə acı həyatmış tanrım. Sevdiyimi anamı, nəhayət məni sevən bir insanı itirmək… bu ki, dəhşətdir… bu ki,… yox-yox mənim ürəyim daş parçasıymış, mən bir daş parçasıymışam.

Mən neyçün yaşayıram… aman Allah necə yaşayıram neyçün, neyçün… O, sarsılmış halda müvazinətini itirib, yerə yıxıldı.

Bu vaxt Nazənin Xəyaləni çağırdıqdan sonra onun səsi gəlmədiyini qapısının açıq olduğunu görüncə

- Ay qız səninlə deyiləm hardasan, yatmısan nədi deyib içəri keçərəkən Xəyaləni, bayılımış halda yerdə hərəkətsiz sərili qaldığını görüb qorxmuş həyacanlı bir tərzdə tez ona yaxınlaşıb, başını qolları arasına alaraq

- Xəyalə, Xəyalə – deyə onun üzünü şillələyərək, ayıltmağa çalışdı.

- Axı sənə birdən-birə nə oldu, Xəyalə canım gözüm, ayıl, ayıl deyərək onu sirkələyərək, qışqırdı.

Bir azdan Xəyalə yarı huşsuz halda onun səsinə ayılıb gözlərini açdı. Sonra o, Nazəninin köməkliyi ilə qalxıb stulda oturdu. O, Nazəninin yaralı, dərdli ürəyini bir də ağrıtmamaq üçün.

- Mənə nə olmuşdu ki, Nazlı deyə soruşdu.

- Sən Allah mənə baş qoşma, yəqin günorta çörək yeməmişdim ona görə də başım gicəllənib, keçib gedər dedi.

* * *

Yay ayının axırları idi. Payızın nəfəsi sanki hiss olunurdu. Təbiətə elə bil süst sakitlik çökmüşdü. Hərdən ara sıra əsən meh, öz ruhiyəsi ilə, insanın ruhunu oxşayırdı. Nazəninin belə anlarda bağda saatlarla oturub, bu xoş dəqiqələri yaşayar, təbiəti daha yaxından hiss etməkdən zövq alırdı.

Gülarə Nazəningildə qalırdı. O, məktəbi bitirdikdən sonra, incəsənət insitutuna daxil olmuşdu. O özünə məxsus şuxluqla söhbət edər. Nazənini darıxmağa qoymazdı. Qadir işdən gəlincə bütün işlərini səhmana saldıqdan sonra, Qadirlə birlikdə gəzintiyə çıxardılar.

Bu gün də belə günlərdən biri idi. Rahim dayının son günlər keçirdiyi gərginlik hissi, onun səhətinə olduqca mənfi təsir göstərmişdi. Buna görə də Nazənin narahatçılığını bildirib dedi:

- Ata sən dincəlməlisən ən azı bir iki ay heç olmasa müalicə almalısan. Ev şəraiti sənin indki vəziyyətində olduqca, sənə pis təsir bağışlayır. Sanatoriyada isə bu tam əksinə olacaq dedi: Qadirsə:

- Nazənin, düz deyir. Rahim dayı sizə doğrudan da, əməlli başlı müalicə lazımdır. Bu haqda, inad etmək yox, fikirləşsəniz daha yaxşı olar. Gülarəsə yenədə şən əhval ruhiyyə ilə elə sanatoriyalara dəyər. Rahim dayı elə bizdə gedib bir-iki ay qalıb dincəlsəniz, o səfalı yerləri gəzsəz bilirsən necə yaxşı olar? Hələ atamı demirəm, sevinər. Rahim dayı bu anın necə gəlib keçdiyini inan ki, bilməzsiz dedi.

Rahim dayı isə.

- Sağ olun ay bala narahat olmayın siz Allah. Ömrümü yaşayıb, günümü keçirmişəm. Təki sizə heç bir şey olmasın. Ağrı acı nədir, bilməyəsiz deyib özünü qıvraq tutaraq əlavə etdi.

- Qaldı ki, mənim səhətimə görürsünüz ki, maşallah cavan oğlan kimiyəm. Nə ağrı olsa ona qalib gələcəyəm dedi.

İş vaxtının qurtarmasına az qalırdı. Xəyalə qeydiyat jurnalında, qeydlər aparır, hərdən də qol saatına baxıb darıxdığını hiss edirdi. Fikirləşəndəsə çoxdandı xalası gilə getmədiyini düşünüb elə bu istəklə də ayağa durub xalatını çıxarıb asılqandan asdı. Özünə, güzgü qarşısında əl gəzdirdikdən sonra, redikulunu götürüb otaqdan çıxdı.

O,, dayanacaqda, avtobus gələn səmtə baxdığı an, kiminsə əlinin onun çiyinlərinə toxunduğunu hiss etdikdə, arxaya çevrilib baxarkən gözlərinə inanmadı

- Nərgiz

- Xəyalə…

Onlar tələbəlik illərində olduğu kimi qucaqlaşıb öpüşüb görüşdülər.

- Ay səni Nərgiz, o çağların, səsli-küylü Nərgizi. De görüm Orxan necədir.

- Yaxşıdır Xəyalə, vaxt vardı deyirdik, biz heç bir zaman ayrılmayacağıq. Eh Xəyalə, sən demə bütün bunlar hamısı o illərin arzusu istəyi imiş.

- Elədir Nərgiz amma nə etməli, bu da həyatın, bir qayda qanunudur. Bizsə bu qanunlara tabeyik. Əlbətdə ki, heç bir həqiqətə qarşı zidd gedə bilmərik. Cəhd etsək belə ən azı bizim itstəklərimiz elə istək olaraq qalacaq. Çünki heç bir şey əbədi olmadığı kimi əbədi olacaq münasibətlərin sonunu düşünmək də məqsədə uyğun olmadığını dərk etməliyik. Nərgiz indisə bizə gedəcəksən, eşidirsənmi? Nərgiz tərəddüd içərisində,

- Yox, yox Xəyalə inan, inan ki, çox istəyərdim. Amma ayrılmaq məcburiyyətindəyəm. Xəstəxanaya gəlmişdim özümü yoxlatdırmağa… Nə bilim bəlkə bir də qayıdası oldum deyib,

Xəyalə mütləq gələcəyəm. İndisə vaxtdır, tələsirəm deyib gələn avtobusa əl etdi.

Xəyalə elə bu an sumkasından kağız- qələm çıxarıb, ünvanı qeyd edərək Nərgizə verib dedi.

- Al bunu Nərgiz, gözləyəcəyəm, mütləq gələrsən, eşidirsənmi? - deyib onunla görüşüb ayrıldılar.

Xəyalə xalasıgilə çatıb qapının zəngini basdı. Qapını Leyla xalanın nəvəsi on beş yaşlı Kamal açdı.

- Salam Kamal,

- Salam Xəyalə bibi keçin içəri.

Xəyalə içəri, kalidora keçdikdən sonra soruşdu-:

- Anan hardadı, Kamal. Bəs Leyla xala hanı gözümə dəymir.

Kamal duruxmuş halda nə edəcəyini bilmirdi. Xəyalənin ona dikilən sual dolu baxışlarını gördükdə daha özünü saxlaya bilməyib doluxsunmuş halda başını aşağı salıb - Nənəm qocalar evindədir… anamsa işdə deyib susdu.

Xəyalənin ayaqları sanki yerə yapışmışdı. O, nə deyəcəyini belə unutmuşdu sanki. Kamalın peşman baxışlarını görüncə,

- Nənənə gedib baş çəkirsizmi Kamal deyə soruşdu. O, boğazı qurumuş halda

Atam Krımdan qayıdandan sonra onunla gedəcəyəm. Xəyalə bibi deyəndən sonra nəsə demək istədisədə çaşqın halda susdu.

Xəyalə daha burada qalmağın lüzumsuz olduğunu, başa düşüb, Kamalla sağollaşdıqdan sonra, Xalası qaldığı qocalar evinin ünvanını öyrənib ora yollandı.

IV FƏSİL

Sükütu, ab-havası və səssizliyi ilə insanın ruhuna sakitlik bəxş edən, və düşündürən, qocalar evi, kənardan qeyri adi görünüşü ilə diqqəti cəlb edirdi.

Hərdən, adama elə gəlirdi ki, buranın kövrək qəlbli sakinləri, ömrü, boyu yaşadığı, fərqinə varmadığı həyat yolunun sevincini və kədərini indi duyur, indi dərk edir, yaşayırdılar. İç dünyasında belə, bundan sonra yaşanacaq əbədi dünyaları haqdasa artıq düşünməyin lüzumsuz olduğunu anlayırdılar. Ömrü boyu, çəkdikləri acıları, indi canlı ölümləri ilə əvəz olduduğunu dərk edirdilər.

Buranın sakinlərinin, hər birinin gözlərində gizlənən peşmançılıq, varlıqlarını şam kimi əridir, bu həyatın həqiqətləri ilə göz- gözə dayanırdılar.

İnsanı öz dünyasından qoparırdı qocalar evi. Sanki onun ətrafında dolaşan küskün ruhlar belə, bura gələnləri gözləyir, onların başı üzərində dolaşıb öz doğmalarını axtarırdılar.

Bura gələn hər bir insansa, bu qeyri adi hissin duyğu və düşüncəsinə hakim kəsildiyini dərk ediridi.

Leyla xala, on beşinci otaqda onunla bərabər, iki yaşlı qoca ilə birgə qalırdı.

Onlardan birinin yetmiş üç, o birininsə altmış səkkiz yaşı var idi. İllərin o üzündən bəri simalarında iz salmış yorğunluq, gözlərindəsə dünya boyda bir kədərin, işartısı əks olunurdu. Düşüncələrindən isə həyat eşqinin, saralıb solmuş səhifələri canlandıqca sanki onlar yenidən hər şeyin baş verəcəyindən qorxur, uşaq kövrəkliyi ilə dodağını büzüb, yorğana qısılaraq, hər şeyə göz yumub yatmaq istəyirdilər.

Leyla xala isə, tamam əksinə olaraq düşünür və yaşayırdı. Onun ağlamaqdan gözlərinin nuru azalmışdı. O, bu həyat işığına həsrət qalmışdı.

Xəyalə xalasının yatdığı otağa daxil olduqda, onu çarpayıda uznamış vəziyyətdə görüb yatmış olduğunu zənn etdi. Yaxınlaşdıqda xalasınının əllərini ona sarı uzadıb

- Ay bala sən kimsən, - deyə soruşduğu sözdən sonra Xəyalə hönkürdü və səsini içində boğmağa çalışaraq

- Xalacan mənəm Xəyalə. Necəsən xala dedi. Leyla arvadın saralıb sozalmış üzündə sevinc işartısı gəzişdi o titrək əllərini Xəyalənin saçlarında, üzündə gəzdirib, kövrək bir hisslə

- Xəyalə mənim balam bu sənsən deyib ağladığını hiss etdikdə

- ağlama mənim balam Allaha şükür nə var ki. Özün necəsən işlərin necə gedir. Buranı necə gəlib tapdın deyə soruşdu.

Xəyalə sarsılmış halda

- Məni bağışla xala, gərək mən bunu çoxdan biləydim. Heç ağlıma da gəlməzdi ki, nə vaxtsa səninlə burada görüşəcəyəm. Sizə getmişdim. Kamal mənə çox şeylər dedi xala. Tezliklə atam gələcək dedi. Yazıq uşağın peşman baxışları gözümün önündən getmir. O, sonra atası ilə gəlib səni yoxlayacağını dedi xala. Leyla arvadsa köks ötürüb

- Yazıq balam deyib başını yırğaladı.

- Xala gərək sən mənim yanımda qalaydın. Sənin bura gəlməyində, mənim də günahım var dedi. Xəyalə

- Yox qızım günah özümdədir. Günahsız ata anamın ahı, bilirdim ki, nə vaxtsa məni tutacaq.

- Niyə belə düşünürsən axı sənin nə təqsirin vardı ki?

- Yox qızım ata qarğışı başqa şeydir. Anamın ölümü, Xumarın həyatı, mən oldum günahkar mən. Leyla xala sanki illərdən bəri ürəyində yığlıb qalan dərdi sərini deməyə, danışmağa səhflərini etiraf etməyə, doğma, onu başa düşə biləcək bir insan axtarırdı.

Osa Xəyalə idi. Qarşısında dayanan günahsız, talehsiz Xəyalə.

- O illər, elə bil hamıdan, doğmalardan belə, üz döndərmişdim qızım. Yalnız özüm haqda düşünürdüm. Elə bil ki, Allahın qəzəbinə keçmişdim. Heç kəs məni maraqlandırmırdı. Nazimin atasının dəfnində belə can dərdi getdim rayona. Sənin ananla, Xumarla orda, elə yas yerində görüşdüm və onun məndən incidiyini başa düşdüm. O, haqlı idi. Bununla belə o mənə bir kəlmə belə incikli söz deməmdi. Onun həyatı haqdasa, bir kəlmə söz soruşmağa belə dilim gəmədi. Mənim ürəyim özümdən asılı olmayaraq sanki daşa dönmüşdü.

Üstündən çox az vaxt keçdikdən sonra mən Xumarı yenə də hüzür yerində gördüm. Bu dəfə Nazimin anası rəhmətə getmişdi. Bu görüşdəsə mən Xumarın hamilə olduğunu gördüm. Qonşudan onun haqqında söz soruşduqda o, Xumarı Raya adlı bir qadının himayədarlığı ilə paçtalyon bir oğlana ərə verdiyini dedi. Bu hadisədən üç il idi ki, keçmişdi. Bir günsə mənə belə bir teleqram gəldi ki, Xumar ağır vəziyətdədir durma gəl. Mən heç bir şey başa düşmədim düzü. Nazimi götürüb getdim rayona.

Sən demə, mənim bədbəxt bacım sənin anan Xumar çayda palaz yuyarkən, leysan yağan yağış ona aman veməmiş, sel onu daşlara çırparaq həyatına son qoymuşdu. Onu bu dəşəhətli ölümün pəncəsindən heç kəs qurtara bilməmişdi.

Leyla arvad danışır, danışdıqca da nəfəsindən qalxan yanqı onun sinəsini sanki qarsıdırdı. Onun göz yaşlarısa üzündən süzülərək, boynunda boğazında dolaşaraq, sinəsindən üzü yuxarı buxarlanırdı. O, yaşla dolu gözələrini qurulayaraq, dərindən ah çəkib sözünə davam etdi.

- Mən onun son nəfəsində çatdım. O, təkcə bu sözləri deməyə gücü çatdı.

Xəyaləni sənə tapşırıram Leyla. Ondan muğayət ol dedi. Mənsə

- Yox, sən yaşayacaqsan. Xumar, əziz balanı atıb getməyəcəksən deyəndə, onun donmuş baxışlarının üzümə dikdiyini gördüm. O gün Xumar, qollarım üstündə canını tapşırdı.

Mənsə onun son vəsiyyətini belə yerinə yetirmədim.

O bir az dayanıb köks ötürdükdən sonra sözünə davam etdi.

- Mənim bu cəzaya layiq olduğumu görürsənmi Xəyalə –dedi.

Xəyaləsə

- Xala yalvarıram belə danışma axı sənin nə günahın vardı ki, deyib başını aşağı salıb onun peşman üzünə baxmamağa çalışdı.

- Qızım, mən o vaxtdan bir müddət keçdikdən sonra, səni özüm saxlamaq üçün atandan istədim. Osa

- Xəyalə mənim yeganə övladımdır. Mən onsuz yaşaya bilmərəm deyəndə, daha bir söz deməyə cürətim çatmadı. Və o gündən bir daha ora qayıtmadım.

Xəyalə onun həyacanlandığını görüb sakitləşdirməyə çalışırdısada bacarmırdı.

O, Leyla arvadın, sarsılmış halını görüncəsə ürəyi sanki param- parça olur onun fikrini yayındırmağa çalışırdı.

- Xala bəs Nazim dayı ilə bağlı nə deyə bilərsən. - Qızım, söz vaxtına çəkər elə bu vaxtlar olardı. Mənim bədbəxt balam Arazı deyirəm. O vaxt onun beş yaşı olardı inadkarın biri idi. Atasının əlindən tutub, ata gedəy, gedəy gəzməyə deyib ağlayırdı. Mənimsə hövsələm yox idi elə ona görə də dedim

- Ay Nazim sən Allah bunun səsin kəs, götür hara deyir apar dedim. Nazim də elə o dəqiqə Arazın səsini kəssin deyə geyindirib, onun ən çox sevdiyi yerə dənizə apardı.

Dərd gələndə, batmanan gəlirmiş deyiblər ay bala. Arazın istəyi ilə Nazım onun əlindən tutub katerə çıxarkən, bu zaman güclü küləyin təsirindən, dalğalanıb şahə qalaxan sular, katerə dəyib Arazı öz qoynuna alıb aparıb. Bu vaxt Nazim özünü itirərək, özü də suya atılıb. O, üzməyi bacarmırdı. Arazı xilas etməyə cəhd etsədə bacarmayan Nazim bu oyunun qurbanı oldu.

O gündən də gözümün yaşı qurumadı qızım dedi.

Xəyalə

- Bəs bura gəlişinə Kamran nə dedi xala

- Kamran biləndə ki, mən özum bunu istəyirəm. Bunula belə yenə də evdə olan söz sovdan olduğunu başa düşdüsədə mən ona çox yalvardım ki, bu belə deyil. Axır ki, bir müsibətlə mənim bura gəlməyimə razılıq verdi. Mən onsuzda bilirdim ki, o evdə, oğlumla gəlnimə də əziyyət verirəm.

- Xala bəlkə bunu siz özünüz belə fikirləşirdiz bəlkə heç onların günahı yox idi.

- Səndən nə gizlədim qızım. Son günər gəlnimin tənələrinə dözə bilmirdim. Birdən də özümə qəsd etmək istəyirdim. Lakin, gözümün qarşısında Kamranın vəziyyəti, el qınağı dururdu.

Kamran mənim bura gəlməyimə razı deyildi. Mənsə onun evdə olan söz söhbətdən bir kəlmədə olsun başa düşməyini istəmirdim.

Xəyaləsə

- Xala bundan sonra mən tez-tez baş çəkəcəyəm eşidirsən, darıxma indisə bir az dincəl deyib ona yerinə uzanmağa kömək etdi.

* * *

Artıq hava qaralmışdı. Çöldən ayın əksi pəncərənin şüşəsində özünü əks etdirdikdə Xəyaləni qeyri adi hisslər öz qoynuna alırdı. O, beləcə içərisindəki səslərlə baş-başa qalıb saatlarla sükutun səsini dinləməklə bir an da olsa sakitlik tapmır. Duyğu və düşüncələrini sakitləşdirməyə çalışırdı. O, bir saat olardı ki, Xalasının yanından qayıtmışdı.

Xəyalənin gözləri önündə, başqa, qərib bir dünya, o illərin arxasında qalan xatirələri çözələdikcə, yaddaşında qalan səhifələri vərəqləyir, xəyala dönən həqiqətlər canlanırdı.

O, üşüyürmüş kimi, qollarını qoynunda sıxıb özünə sığınaraq anasının simasını, gözlərinin önündə özünün düşündüyü, yaratdığı kimi canlandırırdı.

O, ağlayırdı. Gözlərindən süzülən yaşlar, boynuna, boğazına dolandıqca müqəddəs hisslərlə baş-başa qalaraq, sonra isə tələbəlik dünyasını kövrək duyğularında düşünür, yaşayırdı.

- Xəyalə vaxt vardı ki, biz heç bir vaxt bir-birimizi unutmayacağıq deyirdik.

- Nərgiz, Nərgiz, məni həmişə yaşadan elə sizlə bağlı xatirələr deyilmi? Mən yaşadığım, düşündüyüm bu həyat adlı ömürdə, yalnız özümü unutdum Nərgiz, özümü. Taleyimi, anamı, tələbəlik illərini düşünərək özümü o an tapıram. Nərgiz sonra isə, sonra isə, ayrılıqlar. Aramızda yaranan ayrılıqlar. Bəlkə də bu ayrılıqları yaradarkən tanrı, özümüzü dərk etməklə sevgi hissinin şirinliyini anladırmış bizlərə. Bu şirin əzabsa, həsrətin ağrılı- ağrısız anlarının ürəyimizdə, qəlbimizdə necə boy verdiyini bizə dərk etdirmək üçünmüş. Mən bu ömrü, bu həyatı, bu taleyi, hisslərimdə yaşayıram mənim Nərgizim. Mənim dünyamdakı həyatdasa ayrılıq yoxdur. O, mövcud deyildir. O heç zaman doğulmayacaq. O heç zaman bu dünyadakı ayrılıq kimi aramızda öz ömrünü yaşamayacaq

Xəyaləni düşüncələr öz qanadlarında ötən illərə aparırdı.

* * *

Birinci kurs, başa çatmaq, üzrə idi.

Xəyalə, Nərgiz, Nərmin hər dəfə olduğu kimi, dərsdən sonra bu gün də gəzintiyə çıxmışdılar. Nərminin sakit təbiəti, Nərgizi həmişə hövsələdən çıxardardı. O, özünə məxsus ədayla

- Ay qız bəsdi içində çəkdiyin. Bəlkə eşqə, düşmüsən hə. Bizdən sirr saxlayırsan yoxsa.

Nərminəsə elə təmkinlə

- Əgər belə olmuş olsa da yenə də özüm dərdin çəkərəm sizə qıymaram –dedi:

- Buyur

Xəyalə onun sözünü ağzındaca qoyub

- Nərgiz sən özündən danış Nərminlə işin olmasın deyən də o

- Orxanı deyirsən? Mənim problemim onsuzda çoxdan həll olunub. Onu ata anasının əlindən elə alım ki, özü də mənə afərin desin!

Deyərək amiranə tərzdə əlini havada yelləyib, qaşlarını oynatdı.

Nərmin gülüb

- Necə yəni.

- Necə necə yəni. Əla, rahat. Gedib başqa şəhərdə yaşayacağıq.Vəssalam.

Xəyalə

- Məgər bunu Orxanın valideyinlərinin ünvanına görə düşünürsən.

- Hə, əlbətdə ki, Orxanın anası öz bacısı qızını ona sırımaq istəyir. Orxan özü demişkən, bu da ki, keçməyəcək. Bir də ki, bu mümkün olan iş deyil – deyib sonra səsini alçaldaraq.

- Axı biz bir-birimizi sevirik deyəndən sonra üzünü Nərminə tutub

- Sən heç bilirsən sevgi nədir? Deyə ciddi görkəm alaraq soruşdu…

Nərmin uşaq sadəliyi ilə gözlərini uzaqlara dikib.

- Bilirəm, amma onu da bilirəm ki, atam məni kimə getməyimə razılıq versə, onada gedəcəyəm dedi. Nərgiz əlini ağzına tutub pıqqıldayaraq

- Sən sevgini belə dərk edirsən ay yazıq?

Xəyalə

- Nərgiz, Nərminin də sözündə, həqiqət var, sən elə niyə düşünürsən.

Nərmin:

- Bilirsinizmi qızlar, mən ümumiyyətlə həyatı reallıqları qəbul edir və yaşayıram. Sevgi haqqında bir söz deyə bilmirəm. Lakin onu yaxşı bilirəm ki, Ata ananın xeyir duası ilə qarşılıqlı hörmət əsasında qurulan ailə həyatı möhkəm olur. Hər zaman sevgilərin sonu yalan, uğursuz, nakam və sair deyimlərini peşmançılıqlarını eşitdikcəsə, onlara, sevənlərə yazığım gəlib. Sarsılmışam, qorxmuşam. Ailədə olan qarşılıqlı hörmət əsasında olan sevgi hissiylə iki sevən kəsin arasında olan sevginin nə qədər fərqli olduğunu anlamışam - dedi.

Nərgizsə özünə məxsus ironiya ilə:

- Ağəz, bəlkə o müqəddəslik haqqında bir söz deyəsən!

Nərmin:

- Nərgiz o müqəddəslik var, və mövcuddur. İstər alim olsun, istər həkim, istər fəhlə olsun, istərsə də prizident. Əgər onların ailə adlı kainatında qarşılıqlı hörmətdən yaranan sevgi yoxdursa, əlbətdə ki, o kainat boş, dünyalarısa viranəlikdən ibarət olar.

İnsanın sevgisinin dəyəri o zaman bilinir Nərgiz. Ailədə olan sevgi adlı bir hissi yaşadıb yaşasınlar.

Nərgiz

- Nərmin sənin sözündən belə çıxır ki, guya sevərəkdən qurulan həyatda bu hisslər olmur, yaxudda ki, sənin o dediyin qarşılıqlı hörmət hissi baş qaldırmır? Belə çıxmır ki, kiminsə tabeliyində olub, qəlbinin səsinə belə qulaq asmaqdan ailə qurandan sonra, öz hisslərini dərk etmək istəmədən rəsmi şəkildə yaşayırsan?

Mən sənin fikrinlə heç də razı deyiləm.

Nərmin:

- Elə deyil Nərgiz, sevgi anlamı mənim üçün bəlkədə ən müqəddəs, ülvü bir anlamdır. Bəlkə də, bu paklığı qorumaq üçün mənim qəlbimdə, qorxu hissi yaranmışdır. Bilmirəm. Təkcə onu bilirəm ki, sevgidən yaranan dəşəhtli qısqancılıq nifrət, ayrılıq qorxusu bu həyatda qalmır. O sevgilərisə gecədə ayın ətrafında yanıb sönən ulduzlara bənzədirəm, ailə həyatını isə, bütövlüyünü qoruyub saxlayan aya.

Nərgiz redikulunu çiynində aşırıb əlinə götürərək… bir ədayla.

- Ağəz Xəyalə, görürsəndə, bu gün Nərmin mənim qarşımda necə at oynadır.

Xəyalə-:

- Nərgiz hər bir kəsi öz qərarları öz prinsipləri var. Hər kəs öz özünün qəbul etdiyi tərzdə əqidəsinə əsaslanır. Eləcədə Nərmin. Onun haqsız olduğunu heç bir əsaslarla sübut edə bilməzsən, çünki ən azı hər əsasın özünün mənası və tutarlı dəlilləri var. Bununla yanaşı, hər bir inasının yaşam tərzindən asılı olmayaraq dünyaya qeyri adi baxışları var.

Tanrı dünyanı sevgidən yaratmadımı. Hər zərrənin belə, bütün canlı varlıqların, qeyri adilikləri ilə bir-birindən fərqləndiyi kimi, sevgilərində düşüncələrində bir- birindən fərqlənir. Lakin bir müqəddəslikdə özünü tapır. O müqəddəsliksə, ilahi bir hissi olan sevgi adlı varlıqdır.

Nərgiz-:

- Ağılımı əlimdən aldın a ceyran. Ağəz indi nə demək istəyirsiz. Deyirsiniz indi mən, o yetim oğlu yetimi, ürəyimdən çıxardıb atım?

Bu mümkün olan iş deyil. Qaldı ki, o dediyiniz müqəddəslik, elə bu gun, bu dəqiqə, bu saat keçirdiyim dünyadır ki, o, özü mənim ürəyimin içində atılıb düşür özüyçün. Bir tuppultusuna qulaq as. Deyib yaxasını bir az aşağı çəkib, ağ qara bənzər sinəsini qızlara nümaiş etdirirmiş kimi, əlini ürəyinə qoydu sonrasa səsini qaldırıb.

Siz deyən sözlər mənim ağlıma batmır ey - deyib Xəyalənin qoluna girib özünə sarı çəkib sıxdı.

- Ağəz, yeri gəlmişkən Rüfət getmə gözümdən, gedərəm özümdən deyirsən.

- Nərgiz, sən Allah zarafatı boşla getsin. Sən özündə yaxşı bilirsən ki, mən Rüfəti bir dost, yoldaş kimi xatirini çox istəyirəm. Qalan şeylərsə, sənin uydurmalarından başaqa bir şey deyildir.

Nərgiz

- Pah atonan əşşi. Gəl indi bunlarnan dil tap əsəbləşmə. Ağəz Nərmin bəlkə sən də deyəsən, görüm ki, başının üstündə fırfıra kimi fırlanan o, sarı gədə kimdi. Bəlkə sən də onu qardaş kimi istəyirsən?

Ağəz elə Həvva nənəmiz də rəhmətlik kişiyə, Adəm atamıza qardaş gözüynən baxırdı, axırı nooldu… qardaşı oğraş çıxdı. Bəlkə mən bilmirəm, siz olardan da müqəddəssüz. Bəlkə bu sevgidi-zaddı, onu elə iblis əmimiz ixtira eləyib salıb bu camaatın ürəyinə. Bəlkə elə mən onun itmiş bacısıyam düşmüşəm sizin aranıza.

Bəlkə -

Xəyalə səbri tükənmiş halda əlini onun ağzına qapayıb. Sənin bu bəlkələrin məni lap hövsələdən çıxartdı ay qız bəsdi də.

Bəlkə indi bir az mumlayasan deyib nəfəsini dərindən aldı. Nərmin qəh-qəhə çəkib güldükdən sonra -

- Xəyalə Nərgiz sarı kürən dediyi mənim əmimin oğludu. O, hər dəfə dərsdən çıxanda, gec qalanda mənim qarşıma çıxır. Amma sənin Orxanın doğurdan da yaxşı oğlandı. Mənim arzumsa sizin xöşbəxtliyinizi görməkdir.

Nərgiz-:

- Onun həddi nədir ki, yaxşı olmasın öz başına zaddı bəyəm. Bir də ki, xöşbəxtlik istəknən olsaydı, mənə görə əziyyət çəkməyə sənə rəva görməzdim.

Xəyalə

- Nərgiz, zarafatından qalmırsan. Ara qızışdırmağına da ki, söz ola bilməz.

Nərgiz olduqca şən, zarafatçıl, xaraktercə odlu alovlu bir qız idi. Ziyalı ailəsində böyümüşdüsədə, son beşillik iddiasıyla, hər an özünün xüsusiyyətlərini biruzə verirdi.

Nərminsə, evin böyük qızı idi. İki bacı idilər. Bununla belə o, öz xüsusiyyətləri ilə, qızlardan fərqlənirdi. O, sakit təbiəti ağlı və ləyaqəti ilə onu tanıyanların arasında xüsusi hörmət qazanmışdı.

* * *

Nərmin, indi görən sən haralardasan, dediyin xöşbəxt ailə həyatını qura bilmisənmi, deyə Xəyalə düşüncələrdən ayrılırdı. O, hər zaman olduğu kimi o xatirələri həzin həqiqəti ilə ürəyinə köçürürdü və pıçıltıyla deyindi:

Sükutu içirdin, gözlərimdən
Keçirdin ruhumdan,
Sənsizliyin pıçıltısıyla

Oxuyurdun könlümdən, ayrılıq
Havasıyla, ayrılıq, ölüm
Qədər məhrəm,
Ömür ayrılıq kimi şirin.

* * *

Günəşə sarı açılan pənəcərə, Xəyalənin iş otağının idi.

O, həmişə olduğu kimi, bəzi qeydlər aparır. Xəstələrin təyinatını birdə nəzərdən keçirirdi.

Bu vaxt baş tibb bacısının otağa daxil olması onu fikrindən bir anlıq ayırdı.

- Salam doktor

- Salam Cahan xala deyib Xəyalə onun narahat olduğunu, gördükdə

- Gözümə bir təhər dəyirsiz, nəsə bir hadisə baş verməyib ki, deyə soruşdu. Cahan arvadsa, dərindən köks ötürüb:

- Ay qızım, Cahan xaladı da gördüyün kimi, yaş ötür, ömür bitir. Nə də muradım hasilə yetir.

Deyib dərdli adamlar kimi başını yırğaladı.

Xəyalə

- Allah eləməsin, Cahan xala nə dərdiniz var ki, məndən saxlamayın, siz Allah

- Ay qızım bala dərdi yamandı. Qızımı deyirəm, onun gözlərinin tutulması mənim də işıqlı dünyamı qaraldıb. Başım heç yerə sığmır.

Xəyalə

- Cahan xala, bəs bu vaxta qədər mənə niyə deməmisiz. Mən elə bilirəm ki, bu elə də ciddi bir problem deyil. Sadəcə olaraq gecikdirmək olmaz.

Mənim, Moskvada tanışlarımdan biri, yüksək savadlı, avtolmoloqdur. Mən onunla bu haqda danışaram.

İnanıram ki, heç birimizi, Allah peşman etməz.

Cahan arvad artıq nə demək istədiyini bilmirdi. Çaşqın halda nə demək istəyirdisə də Xəyalə

- Narahat olmağa dəyməz. Cahan xala, hər şey yaxşı olacaq. Səbirli ol deyib içəri daxil olan tibb bacısını dinlədi.

- Doktor, sizi xəstəniz soruşurdu.

- Hansı xəstəni deyirsiz

- Qəza hadisəsi nəticəsində yaralanan xəstəniz.

- Nihadı deyirsiz? Sağalıb deyəsən o gün xəstəxananın həyətində gəzişirdi.

Cahan arvad onun sözünə qüvvət verərək.

- Allah adamın dənəsini üzmüyəndə üzmür. Onun ayaqlarının sağalmasına heç mənim ümüdüm yox idi.

Allah sənin ömrünü uzun etsin, dadına çatsın, xöşbəxt olasan ay bala. – dedi. Sonra isə birlikdə həmin xəstəni yoxlamaq üçün otaqdan çıxdılar.

Cahan xala, iyirmi beş il idi ki, bu xəstəxanada tibb bacısı vəzifəsində çalışırdı. Onun xatirini hamı çox istəyirdi. Ümumiyyətlə iki qız, bir oğul anası idi. Ərinin səhətinə görə, vaxtından əvvəl, iş qabiliyyətini itirdiyinə görə evdə oturması, Cahan arvadın bu illər ərzində işdən çıxmamasına səbəb olmuşdu. O, bunu özünə dərd eləmirdi. Lakin qızının, müalicə olmadığına görə gözünün zəifləməsinin, tutulmasına gətirib çıxarması onu sarsıdırdı.

Onlar palataya daxil olduqda, qeyri adi sakitliyin, və xəstələrin səsiz səmirsiz dinib danışmadığını gördükdə, Xəyalənin də sanki nəsə bir söz deməyə gücü çatmırmış kimi dodaqları kilidlənmişdi.

- Cahan arvadsa onlarla həm yaşıd, dost kimi salamlaşıb dedi:

- Maşallah nə sakitlikdi adamın qulağı batır ay balam. Bu da sizin əziziniz, xilaskarınız Xəyalə xanım.

- Xəyalə:

- Salam necəsən, özünü necə hiss edirsən? deyib Nihada yaxınlaşdı.

- Doktor, düzü sizi gözləyirdim. İndisə özümü çox yaxşı hiss edirəm. Doktor əgər icazə versəydiniz tezliklə çıxardım.

İnanın ki, daha dözümüm qalmayıb deyə cavab verdi.

Xəyalə

- Darıxma Nihad üç gündə döz sonra doğurdan da sən özünü yaxşı hiss edəcəksən deyib tibb bacısına bəzi tapşırıqlar verdi sonrasa üzünü ona tutub.

- Bizi unutmayasan a,

- Doktor siz nə danışırsınız. Heç bu günləri unutmaq olar istər acı olsun istərsə də şirin. Məni yenidən həyata qaytaran ürəyimdə yaşamaq eşqini yenidən alovlandıran müqəddəs bir insanı necə unutmaq olar dedi.

İş vaxtının qurtarmasına az qalırdı. Xəyalə narahat düşüncələr içərisində, fikirlərə dalmışdı. Nərgizlə görüşüb ayrıldıqdan sonrasa özünə yer tapa bilmirdi. O, sanki hər dəqiqə, hər saniyə onun yolunu gözləyirdi.

Bu an, qapının tıqqıltısı onu fiklərdən ayırdı.

- Buyurun.

İçəri orta boylu, dolu bədənli, son dərəcə sadə görünüşlü bir həkim daxil oldu. Bu Tərlan Həsənzadə idi.

- Salam Xəyalə xanım

- Salam doktor. Buyurun əyləşin.

O, tərəddüd içərisində,

- Bilirsinizmi Xəyalə xanım sizinlə bir məsələ haqqında danışmaq istəyirdim -dedi:

- Eşidirəm sizi doktor, nə məsələdir ki, deyə marağını gizlətmədi.

O, nəsə demək istədiyi halda susdu.

- Bəlkə birlikdə çıxaq deyib qol saatına baxdı və evə getmək istəmirsiz. İş saatı çoxdan qurtarıb dedi:

Xəyalə -

- Hə mən özümdə getmək üçün hazırlaşırdım deyib ayağa durdu.

Payız son günlərini, ayrılıq anlarını yaşayırdı. Torpaq, hava, su, ağaclar, təbiətdə nə varsa, soyuqqanlığa meyilli olmuşdu. Payız mehinin soyuq öpüşlərindən ağaclar başını yırğaladıqca, bənizi solub saralan yarpaqlar üşüyür, ömrünə vida edirmiş kimi, qırılıb rüzgarın qolları arasında üzüqoylu yıxılaraq torpağın üstünə sərilib can verirdilər.

Özünün bənzərsiz, rəngbərəng ayrılıqları ilə təbiəti düşündürürdü payız.

Başı aşağı əyilmiş söyüd ağaclarının telləri, yarpaqların vida nəğməsinə oynayırmış kim havada yelləndikcə, Xəzələ dönmüş yarpaqlar onların başı üzərində frlanaraq, yollarına döşənib sarı, qırmızı, yaşıl rəngdə, ala bəzək xalı toxuyurdular.

Onlar artıq gəlib parka çatmaq üzrəydilər. Xəyalə Tərlanın təkidi ilə, bir az dincəlmək üçün bura gəlişinə etirazını bildirmək istədisədə, buna özünündə ehtiyacı olduğunu başa düşdüyünə, və son günlər işdən doğurdanda baş açıb dincəlmədiyindən yorulduğuna görə razılaşmışdı.

Bir azdan Tərlan yaxınlıqda ağacın altındakı skameykanı göstərərək

- Bura daha münasibdir. Xəyalə xanım burada oturmaq pis olmaz dedi. Onlar gəlib həmin skamyada oturdular.

Quşların qulaq cingildədici səsləri ətrafa yayıldıqca, qışın gəlməsini bildirməkdən ötrü, xəbərərdarlıq kimi səslənirdi. İnsanda qeyri adi təbbəssüm hissini oyadırdı.

Tərlan sükutu pozaraq

- Darıxımırsız ki, Xəyalə xanım deyə soruşdu

- Əksinə elə bil, ürəyim bir az sakitləşdi. İndi özümü yaxşı hiss edirəm deyə Xəyalə razılığını bildirdi.

- Xəyalə xanım. Mən hər zaman düşünmüşəm ki, insan istər fiziki, istərsə də mənəvi cəhətdən, rahatlığını itirmiş olarsa, ona mütləq pisxoloji mənəvi baxımdan dinclik və istirahət lazımdır. O, cümlədən bütün istək və arzularını nəzərə almaq şərti ilə bunu həyata keçirmək mütləq vacibdir.

Xəyalə:

- Düzdür, əlbətdəki hər bir kəsn sağlamlığı onun öz əlindədir. Adətən insan özünü ruhən, fiziki cəhətdən narahat hiss edərsə, qətiyyən sağlam düşüncə tərzindən söhbət gedə bilməz. Eləcədə başqa prinsiplərdən yaranan problemləri nəzərə almaq şərtilə, buna yanaşsaq demək olar ki, ən azı həyat tərzində insan sağlamlığında böyük rolu olduğunu qeyd edərdim dedi

Tərlan:

- Xəyalə xanım əgər biz, istəklərimizi real həyatımızda, həyata keçirməyin problem olmasını qəti surətdə qəbul etmiriksə, niyə görə də biz bu haqda danışmamalıyıq deyib mənalı-mənalı onun üzünə baxdı. Xəyalə isə nəzərlərini yayındıraraq

- Doktor, siz nə demək istəyirsiniz. Yəni biz bu haqda doğurdan da danışmalıyıq deyib, qəribə susqunluqla qaşlarını dartdı.

- Biz bunu həyata keçirməliyik. Xəyalə xanım bilirsizmi, həyata keçirməliyik deyib onun əllərini ovucları arasında tutdu. Xəyalə çaşqın halda ələrini güclə geri çəkərək, üzünə dağılmış saçlarını hamarlayıb, baxışlarını ətrafa dolandıraraq susdu. Tərlansa bir cüt göyərçin uçurulumuş kimi, əllərini açıq hərəkətsiz halda dizlərinin üstündə qoyaraq sözünə davam etdi.

- Xəyalə xanım icazə verin sizə sən deyə müraciət edim və sizdə mənim elə adımı deyin.

- Buyurun.

- Xəyalə, qəlbimdə çoxdan bəri saxladığım bir hissi, bu gün sənə demək qərarına gələrkən, yüz dəfə tərəddüdlər keçirdim. Nəhayət ki, buna gücüm, casarətim çatdı.

Mən çox istərdim ki, sən öz tənhalığını mənimlə keçirəsən. İnanıram ki, səni də məni də narahat olmağımıza bir səbəb olmayacaq.

Xəyalə onun fikrini yayındırmaq məqsədilə sözü başqa səmtə yönəldərək.

- Tərlan, mən elə bilirəm ki, işdə səhətimiz yaxudda tənhalığımız üçün bir elə də ciddi səbəb yoxdur. Buna görə də narahat olmağa dəyməz. Xəstələrimizin sağalıb həyata qayıtması sevincindən böyük nə ola bilər ki, bizi yaşadan zövq verən, həyatı sevdirən bu hiss deyilmi.

- Bəs özümüz Xəyalə xanım. Biz öz dünyamızı belə yaşaya bilərikmi. Ən azı öz hisslərimizdən belə zövq ala bilirikmi? Əsla yox.

- Tərlan niyə belə deyirsən axı…

Xəyalə tutulmuş halda susdu.

- Özünüzü aldatmayın Xəyalə xanım. O bir az, duruxduqdan sonra

belə deyil Tərlan, təkcə onu bilirəm ki, mən özümü aldatmıram –deyib gözləri dolmuş halda susdu.

Tərlan

- Mənsə belə istəməzdim. Lakin sənin də mənim də qarşılıqlı sevgiyə ehtiyacımız var. Xəyalə

O bundan sonra nə deyəcəyini sanki, unutmuşdu. Xəyalənin keçirdiyi hiss həyacan, sanki damarların axan qanı dondururdu. Tərlanın son anda dediyi

- Xəyalə mənim sənə qarşı olan münasibətimi yəqin ki, hiss edirsən. –sözündən sonra. O ayağa durub, həyacanını gizlətməyə çalışaraq

- Tərlan, daha vaxtdır gedək deyib qol saatına baxdı.

Tərlansa hövsələsi daralmış tərzdə, daha ciddi görkəm alıb titrək səslə

- Xəyalə mən hər dəqiqə sənin haqqında düşünürəm, hiss edir, yaşayıram. Məni sənə bağlayan daha müqəddəs bir hiss var ki, mən həmişə onun arzusu ilə yaşayıram. Mənimlə ailə qurmaq istəyərdinmi? Deyib ondan cavab gözləyirmiş kimi susdu.

Xəyaləsə bir kəlmə söz deməyə cürəti çatmırmış kimi. - Tərlan xaiş edirəm gedəyin dedikdə Tərlan onun qollarından tutub, əllərini bir titrəyişlə sıxdı, sonra onun gözlərinə baxıb -

- Mənə bir kəlmə söz de. Xəyalə dedi. Xəyaləsə nəfəsi təntimiş halda

- İndi bu haqda mən heç bir söz deyə bilmərəm Tərlan deyib başını aşağı saldı. Osa

- Gözləyərəm Xəyalə nə qədər desən gözləyərəm. Amma mənim sənə qarşı olan, sevgimdə, məhəbbətimdə, gələcəkdə hər ikimizin həyatının mənası olduğunu yəqin bilməlisən. İnan ki, mən özüm də bu haqda səni görəndən sonra düşünüb qəti qərara gəlmişəm. Və hər ikimiz bundan sonra peşman olmayağacımız haqda düşünməliyik dedikdən sonra ovucları arasında titrəyən əllərini dodaqlarına sıxıb öpdü.

Xəyaləsə, bundan sonra təsirlənmiş halda təkcə, iki kəlmə söz deyə bildi.

- Gedək Tərlan.

Tərlansa

- İcazə versəydin səni evə qədər ötürərdim deyib, sevgi dolu baxışlarını bir an belə ondan ayırmadı. Artıq hava

soyuyaraq üzü axşama dönürdü. Parkdan getdikcə uzaqlaşan gənclər içərisində Tərlanla Xəyalə də, ara - sıra görünürdü.

Bu gün o, çox narahat və qayğılı idi. Çarpayıda üzüqoylu uzanmış halda düşüncələrə dalmışdı. Sanki, onun üçün hər gün bir əzabla doğulurdu. Bu şirin əzablarsa onun gözlərindən yaş kimi süzülür, ruhundan süzülən həzin misralara çevrilirdi. Dodaqlarında pıçıltı ilə gəzişirdi.

Daha ürəyimi heç nə ovutmur
Bu istək, yenə də gecədən keçir
Sevgimdə, qəlbimdə daha boy atmır
Bu gecə boynuma yeni don biçir

Yatıram üstündə əzablarımın
Bu əzab mənim tək, özünü tapmır
Gücüdə qalmayıb barmaqlarımın
Daha gözlərimdə sığala yatmır.

O, yumruğunu düyünləyərək, sanki bütün düşüncələrini barmaqları arasında sıxır- sıxır bundan sonra necə düşünüb yaşayacağını belə fikirləşmək istəmirdi.

Tərlan- Tərlan, əgər sənin dediyin kimi hər şey belə asanlıqla başa gəlsəydi nə vardı ki, səninsə öz dünyan var. Mənim ürəyimdən xəbərsiz. Sənin bundan xəbərin yoxdur. Onun ürəyi köksünə sığmır, çırpınırdı. O, kürəyi üstə çevrilib qollarını başının arxasına qoyub xəyallara daldı.

Bu xəyal dünyasında isə onun yolunu əzizi sevgilisi gözləyirdi.

- Xəyalə

- Taleh

- Bağışla əzizim, bir az gecikdim mənim vəfalım.

- Yox Xəyalə bu belə deyil sən mənim vəfalımsan, əzizim məndən vəfalı…

- Niyə belə düşünürsən Talehim.

- Mən sənə bəxş etdiyim, ayrılıq adlı əzabların qoynunda uyuyuram Xəyalə.

- Taleh, əgər mənə rəhmin gəlirsə bir də belə demə eşidirsənmi.

- Məni bağışla əzizim, indisə bir az dincəl.

- Taleh, Taleh eşidirsənmi? Mən yalnız sənin ruhunla yaşayıram, səni düşünürəm səni hiss edirəm.

- Niyə bir söz demirsən Taleh mənə niyə belə əzab verirsən.

- Xəyal

- Mənə bir söz de Talehim.

- Mən səni xöşbəxt görmək istəyirəm Xəyal.

- Səni sevirəm Taleh getmə əzizim

Taleh!

Xəyalə onu ruhunu dərk etdikcə, sanki bədəni donur damarlarında qanı buza dönürdü. Bənizi ağrıyırdı. Bu an Ruhunun bədənindən çıxdığını hiss edirdi.

İndisə Xəyalənin sərgərdan dolaşan ruhu onun ruhu ilə birgə uçurdu.

- Xəyalə əlini ver mənə

- Taleh məni özünlə apar.

- Bir bax ora bax

- Gözəldir.

- Burda hər şeyi sənin adınla, çağıranda gözəldir. Xəyal.

Bu an Talehlə Xəyalənin ruhu işıq sürəti kimi ənginliklərlə uçurdu. Sonra isə, onların gülüş səsləri ətrafa yayılaraq kainata səs salırdı sanki. Yorulduqlarını hiss etdikdən sonrasa geri qayıdırdılar.

- Xəyalə sən hardasan

- Mən burdayam

- Səni sevirəm Xəyalə

- Mən səni sevirəm

- Mən sənsiz yaşamıram

- Mən sənlə yaşayıram

- Gələcəyəm…

- Getmə, getmə Taleh.

Xəyalənin ruhu onun donmuş bədəninə qayıtdıqdan sonra, o, şirin bir nəşə ilə dərindən nəfəs alıb dincəlirdi. Bütün bədəninin sakitləşdiyini hiss edirdi.

Nəhayətsiz göylər sirlə dolu qaranlığa bələnirdi. Göyün üzünə səpələnən ulduzlar, Xəyalənin işıq süzülən pəncərəsinin təbəssümünə həsrətlə tamaşa edib, hərdən göz vururdular. Aysa, buludların arxasından çıxaraq hürkək- hürkək onun pəncərəsində öz əksinə baxırdı. Xəyalənin su pərisi kimi, yatışını gördükdə isə, heyran- heyran onun simasına tamaşa edərkən özünü unudur, onu qısqanırdı.

O, yatıb qaldığından işə gecikmişdi. Tələm-tələsik evdən çıxaraq işə tələsdi. O, yol boyu Nərgizi düşünürdü. Nərgizin siması onun gözləri önündə canlandıqca ürəyinə nəsə dammış kimi qəlbini qeyri adi həyacan qoynuna alırdı.

Nərgiz indi görən sən haralardasan o gün sən niyə belə kədərliydin. Axı sən tezliklə gələcəyini demişdin deyə düşünürdü.

Nərgiz Xəyalədən ayrıldıqdan sonra atasıgilə rayona getmişdi.

Nərgizin atası pensiyaya çıxmış, anası isə yenə də işini davam etdirirdi. Nərgiz isə artıq altı ay olardı ki, beş yaşlı oğlu ilə atası evində qalırdı. O, Xəyalədən ayrılarkən verdiyi sözəsə hərdən ürəyində peşmançılıq çəkir. Lakin bunun nə vaxtsa olacağını da başa düşürdü. O bu istəklə də, Xəyaləyə məktub yazmaq üçün stol arxasına keçdi. Və qələm dəftər götürüb düşüncələrə daldı.

Sonra isə o, ürəyinin rahatlığını alan ona əzab verən sözləri vərəq üzərinə köçürdü.

Salam Xəyalə.

Bu məktubu sənə çox tərəddüddən sonra yazmağın vacib olduğunu anladım. Məni bağışla Xəyalə, səni nigaran qoyduğum üçün və sənin dərdi sərini bilmədən soruşmadan ayrıldığım üçün. O gün mənim üçün çox çətin idi. Dərdimizi bölüşmək. Xəyalə əzizim mənim bu məktubuma cavab yazma. Çünkü, tezliklə mən gələcəyəm mütləq sənə, verdiyin ünvana gələcəyəm Xəyal.

Nərgiz bu sətirləri yazdıqca sarsılır, əlləri əsir sanki, onun damarlarında qanı donurdu.

O, göz yaşlarını saxlaya bilməyib acı-acı ağladı.

- Xəyalə heç zaman istəməzdim ki, kimsə mənim acılarımı yaşasın. Fəqət talehin oyunu, mənim sevincimi, kədərlə-gülüşümü, göz yaşıyla əvəz etdi. Orxandan sonra mən bütün bunlara dözə bilmədim. Hə mənim əziz bacım. Orxandan sonra

Nərgiz həyatında baş verən hadisələri təfərrüatı ilə yazırdı.

O, Orxanla ailə həyatı qurduqdan sonra həyatında baş verən dəyişikliklər, onun xöşbəxtliyini bədbəxtliklə əvəz etdi. Orxanın anasının Nərgizə qarşı olan amansızlığı, hərdəfə onun qoşulub qaçmasının başına qaxılması, tənələri, yerli yersiz çəkişmələri axır ki, Orxanla Nərgizin ayrılmasına, və ən dəhşətlisi isə faciyəsinə səbəb oldu. Bir gün o deyən də ki,

- Orxan, apar bu itin qızını mənim evimdən, o bu evə gəldiyi gündən mənim rahatlığım əlimdən alınıb. Əgər bu dəqiqə onu burdan rədd eləməsən bir şüşə nöyütü başımdan töküb kibridi vuracağam dedikdən sonra Orxan daha bir söz deməyərək əlacı kəsilmiş halda Nərgizi hamilə vəziyyətdə zil maşınına oturdub, əsəbi, fikirli halda sürdükdə, sürəti saxlaya

bilməyərək qarşıdan gələn jiquli maşını ilə tuqquşmuşdu. Elə hadisə yerindəcə jiqulinin sürücüsü ilə birlikdə, bir nəfər sərnişində o an yerindəcə həlak olmuşdu.

Bu hadisədən sarsılmış və bərk qorxmuş Nərgizsə sancıları qalxaraq, xəstəxanaya çatmağa macal tapmamış uşağı yarımçıq doğulmuşdu.

Hadisə olan vaxt isə polis işçiləri ilə o an Orxanı məsuliyətə cəlb edərək, qollarına qandal vurub şöbəyə aparmışdılar.

Nərgizin körpəsi isə xöşbəxtlikdən heç bir zədə almadığına görə sağ qalmışdı. Nərgiz doğum evində yeddi gün qaldıqdan sonra, evlərinə anasıgilə gətirmişdi.

Nərgizin düçar olduğu bu ağır xəstəliksə, o hadisədən sonra baş vermişdi.

Nərgiz getdikcə vəziyyətinin ağırlaşdığını hiss etdikcə, oğlundan, anasından, atasından nəhayət canından artıq sevdiyi Orxanından əbədi olaraq ayrıldığını düşünür, və bunun acısını yaşaya-yaşaya, bu hissin həqiqət olduğunu dərk edir sarsılırdı.

O başını yuxarı qaldırarkən anasının Zaurla birgə, ona tutulmuş halda baxdığını görüncə isə nəsə, ürəyinə dammış kimi, stuldan qalxaraq

- Ana sözlü adama oxşayırsan xeyir olsun dedikdə, Zaurun onun üstünə qaçıb boynunu qucaqladığını görüncə gözlərinin yaşını saxlaya bilməyən anasına diqqətlə nəzər yetirərək

- Ana Zaur niyə belə edir deyə soruşdu.

Anası əlindəki zərfi ona sarı uzadıb.

- Qızım Orxandan gəlib, al oxu gör nə yazır bədbəxtin balası. Nərgiz ürəyinin quş kimi uçduğunu hiss edib, Zaurun üz gözündən sevinclə öpərək, tez zərfi alıb açdı sonra isə stulu çəkib oturaraq içindən məktubu çıxarıb oxumağa başladı.

- Salam Nərgiz

Yəqin ki, məni bağışlayarsan ən azı səni çətin vəziyyətdə qoymağımı heç zaman istəmədiyim üçün. Nərgiz necəsən. Mənim əziz balam. Zaur necədir. Özünüzdən muğayət olun. Əzizim, səni oğlumu çox sevirəm və tezliklə qayıdacağam. Sizin xöşbəxtliyiniz üçün əlimdən gələni əsirgəməyəcəyəm. Nərgiz məndən bütün qohum əqrabaya salam söylə.

Darıxma

Öpürəm .Zauru və səni.

Orxan.

Nərgiz bu sətiriləri oxuduqdan sonra Zauru köksünə sıxaraq, göz yaşlarını saxlaya bilməyərək

- Yox Orxan, dediyin xöşbəxtlik mənə qismət olmayacaq.

Saray xala qızını bu vəziyyətdə görüb özünü, saxlaya bilməyib dedi.

- Qızım, özünü də üzürsən, balanında ürəyinə dağ çəkirsən. Atana da mənə də yazığın gəlsin bala bəsdir daha, deyib başını yırğalayaraq, Zaurun əlindən tutub otaqdan çıxdı.

Nərgiz isə, yenə də öz dünyasında dərdlərini bölüşdüyü Xəyaləylə baş-başa qaldı.

V FƏSİL

Təyyarə hava limanından yerə enirdi. Kamranın Krım səfəri başa çatmışdı. O, təyyarədən çıxıb ətrafa nəzər saldıqdan sonra, pilləkənlərlə aşağı endi. Onun əlində tutduğu çamadanlar olduqca ağır idi.

Kamran bir qədər getdikdən sonra çamadanları yerə qoyub mavi rəngli taksiyə əl etdi. Sarıbəniz, arıq bir taksi şoferi maşını onun qarşısında saxladıqdan sonra yerə düşüb, onun əlindəki, çamadanları alıb baqajda yerləşdirdikdən sonra maşına oturub

- Hara gedəcəksiniz deyə ünvanı soruşdu.

Artıq, taksi şəhərin küçələri ilə şütüyürdü. Kamransa elə hey, nə haqdasa düşünür, hərdən də qol saatına baxırdı. Sürücü isə, sükutu pozaraq, hərdən ona suallar verirdi.

- Şəhərdən çoxdanmı çıxmısız?

- Xeyir bir ay olar.

- Yəqin ki, çox darıxmısız.

- Düzdür, darıxmışam bir aysa elə bil bir il kimi gəlib keçdi. İstirahət etməyimə baxmayaraq bir dəqiqə belə iş yadımdan çıxmır elə nə isə bir yenilik haqda düşünürdüm.

İş adamı belədir də, deyib taksi şoferi dərindən köks ötürüb, gözlərini qıyaraq bir daha yola nəzər saldı. Bir azdan Kamran, qarşıdakı binanı göstərərək,

-Gəlib çatdıq deyərək işarə etdiyi yerdə maşını saxlatdırdı. O çamadanları alıb şöferə öz minnətdarlığını, bildirərək pulunu verdikdən sonra evinə tələsdi.

Qapının zəngindən Kamal bildi ki, atasıdı. Onun özünə məxsus, qapının zəngin çalmaq parolu vardı.

"Kişisiz evin çırağı ölgün yanar" deyərlər. Elə bil Kamranın gəlişi belə evin abu havasını da bir anda dəyişdi. Ev-eşiy, dar divar, çil-çiraq belə adamın üzünə gülürdü. Kamalın

sevincinin həddi hüdudu yox idi. Lalə isə özünə məxsus ədayla tez əl ayağa düşüb, çay-çörək hazırlayaraq Kamranla söhbət edirdi.

Kamran

-Bilirisiniz sizin üçün necə darıxmışam deyib Lalənin bayaqdan süfrəyə gətirmək üçün qızdırdığı yarpaq dolmasının ətrini qoxudu. Sonra isə o Lalənin çiynini qucaqlayıb saçlarından öpdü.

-Bilirsiniz sizin üçün, sənin bişirdiyin xörəklər üçün necə qəribləmişəm deyib yemək otağına keçərək Kamala üzünü tutub dedi.

-Oğlum, de görüm dərslərin necə gedir deyə soruşudu.

Kamalsa özünə məxsus qürurla

-Ata, dərslərimi yaxşı oxuyuram qiymətlərimin hamısı beşdir. Bir arzum var ən böyük arzum.

-Nə arzudur ku elə deyə Kamran oğlunu mehriban baxışlarla baxdı elə bu vaxt Lalə əlində çörəklə birgə duzu süfrəyə qoyaraq söhbətə qatılıb mənalı-mənalı:

-Kamran onun arzusu Hərbiçi olmaqdır mənsə bunu istəmirəm bilirsənmi niyə, ona görə ki, min bir əziyyətlə onu böyüdüb boya-başa çatdırmamışam ki, sonra da gözüm yollarda, ürəyim xar-xarada qalsın ki, nədir nədir oğlumun arzusudur deyib mətbəxə keçdi.

Kamran isə, oğluna göz vuraraq Laləyə işarə edib.

-Bu sənin fikrindi Lalə

Mənimsə istəyim onun öz arzusuna çatmasıdır deyə cavab verdi. Kamal isə daha bir söz deməyib pörtmüş halda başını aşağı saldı. Kamran əlini onun çiyinlərinə vuraraq.

-Ey nə fikirləşirsən, sən təki dərslərini yaxşı oxu, eşidirsən qalan işlərlə sənin işin yoxdur dedi, sonra, Lalənin bişirdiyi xörəkdən iştahla yeməyə başladı.

Çörək yeyilib süfrə yığışdırıldıqdan sonra Kamran narahatçılıq içində Kamaldan soruşdu.

-Oğlum heç gedib nənənə baş çəkmisizmi?

Kamal özünü itirmiş halda kəkələyə-kəkələyə təkcə bu sözü deyə bildi.

-Ata… mən… anam

O, anasının sonrada atasının üzünə peşman-peşman baxdı. Lalə isə elə bu vaxt nəsə bir şeyi bəhanə edirmiş kimi o biri otağa keçib, bir qədər keçdikdən sonra qayıtdı. Televizoru işə saldı və nə deyəcəyini bilməyib mətbəxə keçdi. Kamransa bu vaxt ürəyinin sıxıldığını hiss edib yerində qurcalandı və cibindən bir papiros çıxarıb damağına qoyub yandırdı, sonra iki üç qullab vurub, siqaretin acısını ciyərlərinə çəkdi. O, özünə yer tapa bilmirdi. O, ayağa qalxıb ürəyini ovuşdura-ovuşdura balkona çıxdı və ətrafa göz gəzdirərək binaların pəncərələrindən bəxtəvərcəsinə gülümsünən, qaranlıq gecənin qoynuna nur kimi axıb dolan işıqlara tamaşa edirdi. Onun çiyinlərində dünya boyda bir yük vardı sanki. Kamran anası ilə keçirdiyi günləri xatırladıqca düşüncələrə dalır özünə bütün bu anlardan sonra heç bir şeyi bağışlamayaraq acı təəssüf hissi keçirirdi. O son günlər anasının necə əzab çəkdiyini yaxşı bilirdi, və onun üçün bu evdə yaşamaq çətin olduğunun səbəbinində məs Lalə olduğunu başa düşürüdü. Bununla belə Leyla xala oğluna heç bir söz demir necə olursa-olsun yaxşı şeylər haqda danışmağa cəhd edirdi. Lakin,əslində isə bu belə deyildi. Leyla xala ömrünün, hər bir ötən anlarını xatırladıqca göz-lərindən süzülən yaşlar Lələnin dodaq altı mızıldanmağına səbəb olur. Onun, dözülməz tənələrinə məruz qalırdı.

Lalə isə elə hey deyinərək

-Bircə ölüb itsəydi canım rahat olardı – dediyi sözləri onu daha da yandırıb yaxırdı və o, olduqca tez bu evdən

getməyin lazım olduğunu düşünürdü. Elə o bu fikirlədə oğluna yalvarıb yaxararaq deyirdi.

-Ay oğul başına dönüm, evdə tək qalıb darıxıram məni qocalar evinə yazdır. Orada mənim kimi yaşlı qocalar var danışarıq, gülərik keçmişimizi xatırlayarıq. Mən də darıxmaram qurbanın olum deyərdi. Ürəyindəsə oğlunun gəlininin həyatına narahatçılıq gətirməyəcəyi haqda düşünüb daşınırdı.

Kamransa bütün bu sözlərdən sonra, sanki anasının kövrək qəlbi ovunsun deyə, başı ilə razılığını bildirib onun qəlbi sakitləşsin deyə bir söz demirdi.

Bununla belə o, anası ilə söhbət əsasında bu sözləri deyirdi.

-Anacan, sən bu evin ağsaqqalısan niyə belə fikirləşirsən. Bəs bizi necə düşünmürsənmi ki, sənsiz bizim üçün də asan olmayacaq. Bu haqda gəl bir də danışmayaq, ana yalvarma deyib onun ağ gümüşü saçlarına oxşayıb öpürdü. Leyla xala isə bu vaxt uşaq kimi dodağını büzüb ağlaması onun ürəyini parçalayırdı. Lalə isə bu anlarda söhbəti başqa səmtə yönəltmək istəyirdisə, Kamranın qəzəbli baxışlarını görüncə, dili dodağı əsir, və qaynanasına qarşı kini birə min artırdı.

Bayaqdan fikirlərə qərq olan Kamranı, oğlunun səsi yayındırdı.

-Ata burada sənə soyuq deyilmi deyə soruşdu. O,

-Yox oğlum, sizin soyuqluğunuz məni elə yandırmayıb ki, mənə bir də soyuq olsun eşitdiyi söz isə Kamalı sarsıtdı. O, bənizi saralmış halda evə keçib anasını, peşmançılıqla dolu, sualedici nəzərlərlə süzüb yataq otağına keçdi.

O, gecə, Kamran, ilan vurmuş kimi səhərəcən yerində çabaladı.

Dan yeri söküldükcə onun nəfəsi təngiyir, elə bilirdi ki, ürəyinin içindən asılan ağır bir daş, o tərəf bu tərəfə yelləndikcə, sinəsini döyəcləyir və ona əzab verirdi.

Lalə isə, iynələr üstündə yatırmış kimi, yarı yuxlu vəziyyətdə zarıyırdı.

Sübh tezdən, yuxudan oyanan Lalə nə qədər cəhd edirdisə də onun gözlərindən yayına, lakin hər an Kamranın mənalı baxışlarıyla rastlaşanda özünə yer tapa bilmir əzab çəkirdi.

Kamransa, onu elə belə anda itdiham edərək,

-Lalə Lalə, mən sənin bu qədər daş ürəkli olduğunu bilmirdim. Yanılmışam…. Sənlə ailə qurarkən özümü dünyanın ən xöşbəxt insanı sayırdım. İnanırdım buna. Sənəsə, bu xöbəxtlik yalnız öz həyatın üçün lazımıymış.

Lalə isə bu zaman özünə haqq qazandırırmış kimi dili dodağı titrəyə-titrəyə

-Kamran başa düş, mənim bir günahım yoxdur. Anan özü belə istəyirdi, eşidirsənmi… Mən isə özün yaxşı bilirsən, iş adamıyam. Bütün qayğılar iş-güc problemlər, ona baxa bilmirdim. Bu o demək deyildir ki, mən ona pis gəlin olmuşam deyirdi

Kamransa-

-Axı sənin ailə qayğısından savayı nə işin ola bilərdi ki, ərinin narahatçılığından, anamın əzablarından savayı, hansı problemlərin ola bilərdi ki. Lalə?

Əgər sən, sən istəyirdin, sən məni sevsəydin yəqin ki, indi məni bu vəziyyətə gətirib çıxarmazdın Lalə. Ən azı, sən özünə bir insan kimi hörmət qazanmadınsa bu mənim günahım deyil. Nə etmək, mən də bundan sonra çalışaram ki, səni elə belə, olduğun kimi başa düşüm.

İstəklərimiz qarşılıqlı olsun. Hər kəs özünü sevmək, öz xöşbəxtliyinə çalışmaq prinsipi ilə dedikdən sonra anasının yanına getmək üçün evdən çıxmışdı.

Kamalsa elə buna bəndimiş kimi, anasının üzünə baxmadan, evdən maşının açarını götürüb atasının dalısıycan qaçmışdı.

Lələ isə, əllərini üzünə qapayapaq, nə deyəcyini bilməyib, peşman-peşman divana söykənmişdi.

Qocalar evinin pəncərəsindən süzülən, solğun işıq zolaqları, qərib-qərib yollara boylanır, sonra isə çilik-çilik olub ətrafa səpələnirdi. Ayaq səsinə, insan nəfəsinə, xoş sözə, doğma baxışa tamarzı qalan qocalarsa, sanki səksəkə içərisində həsrətlə kiminsə gələcəyinə inanır, ümidlərini yollardan yığmırdılar.

Leyla xala da beləcə, səbirsizliklə Kamranın nə vaxtsa gələcəyinə inanır, gözləyirdi.

Kamran isə oğlu ilə birlikdə artıq qocalar evinə

Gəlib çatmışdılar. Onlar maşını bir qədər kənarda saxlayıb, düşdükdən sonra, Qocalar evinin, həyətinə daxil olarkən ilk rastlaşdığı xidmətçilərdən birinə yaxınlaşaraq Leyla xanım hansı palatada yatdığını soruşdu sonra, pilləkənlərlə qalxdılar.

Bir qədər qapıdan aralı, iri dəmir çarpayıda uzanmış Leyla xala, düşüncələrə dalmış halda göz qapaqlarını aram-aram açıb yumurdu.

Ondan bir az kənar olan çarpayıda isə, sinəsinin sümükləri qabarıq şəkildə irəli çıxmış, arıq, sısqa üzündə keçdiyi həyat yollarına bənzəyən, əyrim-üyrüm qırışların, nişanəsi olan, uzun arıq əllərinin qurumuş çubuğa bənzər barmaqlarının üzərində göyərmiş damarlarında, ürəyinin döyüntüsünü əks etdirən qocasa, qaysaq bağlamış dodaqlarını güclə tərpədərək pıçıldayırdı.

-Darıxma qızım, oğlunda gələr, nəvəndə gələr darıxma. Nə qədər olsa öz canının parasıdı səni unutmaz deyirdi, qırıq-qırıq danışdıqca nəfəsi tövşüyür, hərdən də dərindən ah çəkərək

balaca, bir azda işığı azalmış gözlərini qıyaraq Leylaya sarı boylanırdı. Qarı sanki bütün bunlarla özünə təskinlik verirmiş kimi, əlində oynatdığı balaca güllü yaylığı gah açır, gah da qatlayıb başını qarışdırıdı. Sonra isə köks ötürərək sözünə davam edirdi.

-Eh qızım, fikirləşirdim ki, mənim də bir övladım olsaydı, bəlkə də həyatda xöşbəxt bir insan olardım. Qocalıq başımın üstün alanda, onlar mənə dayaq durardılar. Son nəfəsimdə belə bir arzum istəyim qalmazdı. Tamarazı getməzdim bu dünyadan. Öləndə, məni yerdən götürənim olardı. İndi təəssüflənirəm qızım, desən ki neyçün, çünki hər şey yalanmış bu dünyada, yalan… deyib, qarı başını yorğun-yorğun yırğaladı və küskün nəzərlərlə ətrafa boylanıb acizanə susdu. Leyla arvadın bundan sonra sanki narahatçılığı birə min artdı. O, yerində qurcalanıb-

-Sən nə dedin yəni sənin övladın heç olmayıb? Deyə soruşdu qarı dərindən ah çəkib sözünə davam etdi.

-Qızım, üç dəfə, ailə həyatı qurdum. Hər dəfə də, başım min bir müsübət çəkdi. Birinci yoldaşımla ailəli həyatım beş il çəkdi. Bu müddət ərzində bir dəfə də olsa ondan bir inciklik çəkmədim. Yaxşı insanıdı. Bəxtəvər günlərimiz vardı. Lakin bu bəxtəvər günlərimizsə çox sürmədi, arzularım gözümdə qaldı. Tanrı mənə bir övladı çox gördü. Sonra isə onun, ərimin anasının bacısının təkidi ilə mənim də razılığımla yoldaşım evləndi. Bir evdə yaşayırdıq. İllər ötdü onların övladları uşaqları oldu. Mənəsə orada yaşamaq, getdikcə çox ağır gəlirdi. Baxmayaraq ki, onların mənə qarşı münasibətləri bir elə də pis deyildi. Lakin mən dözə bilmirdim. Bir günsə, ərimə demədən ordan qayıtdım üstündən bir neçə il ötdü. Küskünləşdim. Belə yaşamaqda məni getdikcə, üzürdü. Nəhayət yenidən ailə qurmaq məcburiyyətində qaldım. Çünki…. Nə isə bu dəfə qurduğum ailə həyatının mənim talehimə xöşbəxtlik

gətirəcəyinə nədənsə daha çox inanmağa çalışırdım. Üç uşaq üstünə getmişdim. Onları çox sevirdim. Onlarsa məni hec cür qəbul etmək istəmirdilər. Hər gün ağlayıb mənə qarğış edib, lənətləyirdilər. Sanki onların analarının ölümünə mən bais olmuş kimi özümü günahkar hesab edirdim. Onlar özləri də belə düşünürdülər. Və mənim orda bir gün bir saat belə qalmadığımı istəməyərək qapıları taybatay açıb, qışqırırdılar. – Rədd ol, çıx get bu evdən eşidirsənmi deyə qonşuların belə məni təhqir etməsini istəyirdilər.

Mən bundan sonra daha dözə bilmirdim. Ordan da çıxmaq qərarın ərimə demədən gəldim. Və çıxdım…

Qarı, dərindən köks ötürüb, üzünün qırışları arasıyla süzülən göz yaşlarını silərək, taqətdən düşmüş kimi susdu. Leyla arvadın ürəyindəki yara sanki yenidən sızıldadı. O, qalxıb yerində oturaraq qadına sarı çevrilib soruşdu.

-Bəs sonra necə oldu?

Qarı dərindən ah çəkib.

Qızım onun adı Bilal idi. O mənə çox zülümlər etdi. Hər dəfə keçmiş həyatımı başıma çaxır, döyür-söyürdü. Hər gün içir, evə sərxoş vəziyyətdə gəlirdi. Evə baxmırdı almırdı, gətirmirdi. Hətda uşaqlarını belə görməyə gözü yox idi. Deyilənə görə isə onun arvadı uşaqların anası elə bu əzablara dözməyib ordan çıxıb getmişdi. O evdə olmayan vaxtsa uşaqların anası bir gün gəlib balalarınıda götürüb, ordan birdəfəlik çıxıb getdi. Onun azğınlaşan xisləti getdikcə sərtləşdikcə, mən daha dözə bilmirdim. O sərxoş halda döyərkən məni onun əlindən qonşular aldıqdan sonra atamın evinə qayıtdım və bir daha geri qayıtmadım. Ata ocağındasa yad bir insan kimi yaşamaqdansa, səfil bir həyat sürməyi üstün tutdum.

Buda axırı deyib, susdu. Bu zaman qapının səsi, Leyla arvadla, qarını bu qaraltı dünyadan, acı düşüncələrdən bir daha ayırdı.

Kamranla Kamal otağa daxil oldular. Leyla arvad isti, doğma həniri hiss etdikdə, toranlaşan gözlərini səs gələn tərəfə zillədi, bu vaxtsa Kamalın həyacanla dediyi

-Nənəcan nənə deyə kəlməsindən sonra özünü saxlaya bilməyib səslədi.

-Balam mənim. Kamalım deyib onun boynunu qucaqlayıb üz gözündən öpdü.

-Oğlum nə yaxşı ki, gəldin, bəs anan hanı hə… deyə soruşduqda Kamran onun gözlərinin görmədiyini bilincə özünü saxlaya bilməyib hönkürdü. O, anasının qarşısında peşman-peşman dayınıb,

-Salam ana, mənəm Kamran deyib başını onun köksünə sıxıb ağladı. Ana bala görüşüb öpüşdükdən sonra Kamran anasının əllərindən öpə-öpə dedi. –Ana bundan sonra daha burada qalmayacaqsan. Elə günü bu gun səni burdan aparacağam eşidirsənmi? dedi. Leyla arvad acizanə tərzdə,

-Oğlum başına dönüm ay bala axı niyə narahat olursan. İnan ki, burda mənim üçün yaşamaq daha rahatdır. Sən də gəlib gedəcəksən. Bir özünü də məni də fikirləş axı…

Kamran bu sözdən sonra daha da sərtliklə qəti cavab verərək dedi:

-Yox ana bundan sonra hər şey, elə sənin və mənim istədiyim kimi olacaq. Bu haqda düşünmək belə istəmirəm. Bu günsə, qocalar evinin müdürü ilə danışacağam və səni evə aparacağam.

Leyla arvad daha bir söz deməyin lüzumsuz olduğunu anlayıb başını aşağı salıb acizənə susdu.

Elə o gün də, Kamran qocalar evinin müdürü ilə danışıb anasını evə gətirdi.

İş vaxtının sona yetməsinə yarım saat qalırdı. Xəyalə yeni gələn xəstəni müainədən keçirib, təyinatını yazdıqdan sonra, xalasını yoxlamaq arzusu ilə işlərini səhmana salıb işdən bir az tez çıxmağı qərara alıb, qocalar evinə yollandı. Onu qocalar evinin həyətində ilk olaraq qarşılayan tibb bacısı, sevindirdikdə isə Xəyalənin sevincinin həddi-hüdudu olmadı.

-Salam

-Salam xanım, səhf etmirəmsə siz Leyla xanımın yanına gəlmisiniz.

-Bəli

-O artıq burda qalmır.

Necə yəni, nə olub ki?

-Heç narahat olmayın dünən onu oğlu gəlib burdan birdəfəlik apardı. Xəyaləsə eşitdiyi şad xəbərdən sanki tutulub qalmışdı. O, daha bir kəlmə belə deməyib, qızla sağollaşdıqdan sonra ordan uzaqlaşdı.

O, xoş təəsüratdan yaranan əhval ruhiyə ilə necə gəlib evə çıxmışdısa sanki xəbəri də olmamışdı. Həyətə girdikdəsə Gülarəni görüncə, ixtiyarsız olaraq onunla, qucaqlaşıb görüşüb sonra sevincini bölüşərək olanları bir an içində danışa-danışa gözlərindən sevinc yaşları süzülərək

-Bilirsənmi Gülü, bu gün mənim üçün ən xöşbəxt günlərdən biridir demişdi. Gülarəsə onun sevincinə şərik olaraq

-Elədir. Xəyalə bacı, Allah sizi həmişə sevindirsin demişdi.

Xəyaləsə

-Gülü, de görüm sən necə imtahanlarını verə bildinmi?

-Hə Xayalə bacı, artıq bir iki gündən sonra dərslər başlayır. Yüksək bal toplamışam, deyəsən mən də öz arzuma çatmışam.

-Təki hər bir insan, arzusuna çatsın Gülü. Bütün yaxşı insanlar müqəddəs istəklərinə, arzularına nail olsun Gülü..

-Amin Xəyalə bacı.

Xəyalə Gülarə ilə söhbət edib ayrıldıqdan sonra, öz otağına gəlib işığı yandırdı. Bu gün, balaca otaq Xəyalənin gözlərində sanki çilçıraqlı saraya çevrilmişdi. O, bir anda evdə səliqə səhman yaradıb, xörək bişirdi, süfrə bəzədi. Sanki kimisə gözləyirmiş kimi tez-tez qapıya sarı baxaraq şirin xəyallara daldı. Xəyalə bu gün beləcə şən qayğısız Xəyalə idi.

* * *

Leyla arvad evə gəlməyinə narazı olsa da, o doğma ocaq həsrətli olmuşdu. Aradan ötən bu neçə vaxt ərzində o, elə qəribsəmişdi ki, hisslərini biruzə verməyə çalışmasa da bunu açıq aşkar onun sözündə söhbətində başa düşmək olurdu.

Kamran da artıq özünü narahat hiss etmirdi. İstər işdə, istərsə də evdə ona qarşı olan münasibətdən aldığı təsürat daha onu narahat etmirdı.Lalə də son günlər dəyişilimişdi. O, peşmançılığını etiraf edirmiş kimi, Leyla xalanın və Kamranın qulluğunda durur, gözlərində gizlənən gizli kədəri gizlətməyə çalışırdı. Kamalınsa, sevincinin həddi hüdudu yox idi. O, nənəsi ilə söhbət edir, məktəbdə baş verən hadisələrdən danışırdı.

Beləcə, sakit rahat bir şəraitdə bir neçə il yaşadıqdan sonra Leyla xala həyata vida deyərək, gözlərini əbədi yumdu.

Kamran anasının vəsiyyətini yerinə yetirərək onu nənəsinin qəbrinin yanında dəfn etdi.

Leyla arvadın dəfnindən yeddi gün idi ki, keçirdi.

Xəyalə, xalasının ölümündən sonra özünü heç cür ələ ala bilmirdi. Anasızlığın ağrı acısını o, sanki indi daha dərindən duyur anlayırdı. O, anasının faciəli surətdə ölümünü də məhs xalasının dilindən eşitmişdi. Xəyalə bütün bunları düşündükcə, ürəyi ağrıyır, və qəhərdən boğulurdu. Atası ilə söhbət etdikdə

isə, bu hiss daha da dərinləşir, kövrəkləşmişdi. Atasısa onun bu halını görüncə

-Qızım, daha bəsdir qayıt evimizə bala. Mənim də gözüm bu yollardan yığılısın. Ananın ruhu da nigarandı bala. Hər gecə yuxuma girir.

Gözü yaşlı küskün. Onun da ruhu şad olar qızım dedikdə, Xəyalə çaşqın tərəddüd içərisində

-Ata, nə edim ki, bacarmıram. Mən daha burda yaşaya bilmərəm ata. Bu mənim üçün çox çətindir. Qəriblikdəsə yaşamaq, bəlkə də ayrılıq adlı ağrıdan yaranan yaralara məlhəm ola biləcək bir hissi yaşadır, həsrətə çevrilən şirin bir istəyin xatirinə təsəlli verir. Bura gələrkənsə, yenidən yaralarım qövr edir ata. Talehin qismətinə yazılan yazıyla hələ də barışa bilmirəm. Gərək o zaman mən də onunla birgə, o qəzada məhf olaydım deyərkən atasının üzünə ani olaraq gözləri sataşanda Xəyalə ürəyinin içində nəyinsə qırıldığını hiss etdi. O, atasının solğun məzlum, peşman simasını görüncə susdu. Başını aşağı salıb

-Məni bağışla ata dedi

Artıq hüzür yarı qırx olmuşdu.

Xəyalə şəhərə qayıtmalıydı. O, yır-yığış edib hazırlaşırdı. Birdən duruxmuş halda fikirli-fikirli ətrafa nəzər saldıqda qapının ağzında bayaqdan ona tamaşa edən Durna arvadı gördükdə çaşqın bir vəziyyətdə onun üzünə baxdı. Durna arvad elə bu vaxt buna bəndimiş ki, Xəyaləni məzəmət edirmiş kimi başını qayğılı-qayğılı tərpətdi və dedi

-A bala səhərdən sənə tamaşa edirəm. Bu nə hazırlaşmaqdı, bu nə yır-yığışdı

Xəyalə

-Anacan artıq gecdir getməliyəm bilirəm ki,

Durna arvad onun sözünü ağzında yarımçıq qoyub

-Sən nə bilirsən bil mən də onu bilirəm ki, səni qoyan olsa elə ac-acına yola düşəcəksən. Di tez ol bala xörək hazırdı. Atan da nigarandı ye iç sonra yola düş –dedi.

Xəyalə

-Yaxşı ana narahat olma.

Onlar çay çörək yeyib içdikdən sonra Durna arvad Xəyalənin fikirli olduğunu görüncə ürəyi durmadı soruşdu.

-Ay bala qadan alım, niyə belə fikirlisən nə sözün var de başına dönüm.

Xəyalə bu sözləri eşitcək sanki dərdi təzələnmiş kimi dərindən ah çəkib – heç elə belə dedikdə

Durna arvad əl çəkməyib yenidən soruşdu.

-Qızım, mən sənin ananam məndən sözmü saxlayırsan bala? Xəyaləsə bunu eşidərək gözləri doldu daha da kövrəkləşib dedi.

-Yox ana Allah eləməsin səndən niyə söz saxlayıram ki, Amma...

Durna

-Hə nə amma…

-İstəyirdim şəhərə yola düşməzdən qabaq Nəcibə ilə Talehin qəbrini ziyarət edim sonra gedim. Durna arvad doluxsunmuş halda,

-Allah mərdimazarın evin yıxsın indi sənin nə vaxtın idi ki, dərd çəkəydin ay bala deyib Nəcibəni səslədi. Qız gəldikdən sonra, onu kənara çəkib nəsə astadan dedikdən sonra Xəyaləyə sarı baxıb.

-Gedin qızım, amma bir az yönünüz bəri olsun dedi.

Xəyalə nə edəcəyini bilmirdi. Nitqi tutulmuşdu sanki. O stulu çəkib oturduqdan sonra anasının otağını kədərli baxışlarla süzdü. Hər şey öz qaydasındaydı. Nənəsindən qalan sandıq, divar saatı, döşəkçələri, nə vardısa hamısı anasının ayağı dəyən palazlar hər şey hər şey.

Təkcə anasından, savayı. O üşüyürmüş kimi, çiyinlərini çəkdi.

Ayaqları yerə yapışmışdı sanki. O, bir anlıq burda həmişəlik qalmaq heç yerə getməmək. Yalnız bu qərib qüssəli dünyanı, tərk eləməmək yaşayıb doğma daş-divarların qoxusunu hiss etmək istəyirdi.

Ruhunu saran həsrət, gözlərindən süzülən yaşlara döndükcə, dodaqlarında səyriyib ölən dualar kimi o, yox olmaq istəyirdi. Və sözə çevrilən ağrılarını beləcə pıçıldayırdı.

Dualarımda yaşayan adın
ağrılarımdır ana,
Sənsizliyim kimsəsizliyimdir ana,
Məzarının yanındaca bənövşətək,
Bitməyi də bacarmadım, hər nəfəs çıxan ahımda,
itməyi də, bacarmadım
Ana.. ruhum yanır, varlığımın əzabıyla.

Nəcibənin səsi, Xəyaləni bir anın içində acılı şirinli xatirələrindən ayırdı.

-Bacı gedəkmi?

-Hə Nəcibə mən bu dəqiqə – dedi

Nəcibə elə eynən Xəyaləyə oxşayırdı. Uca boylu, dolu bədənli, yaraşıqlı. Hər kəsin ilk andan diqqətini cəlb edən ağlı kamalıyla heyran edən bir qız idi. Onlar, yenicə çörək bişirməyə, başlayan Durna arvadla sağollaşmaq istə-yərkən, yerini rahatlayan Durna arvad, kəsdiyi xəmiri kün-dələyə-kündələyə qayğılı-qayğılı başını bulayıb ah çəkdi və,

-Bala gedin, amma tez qayıdın dedi. Sonra tutuqunlaşan göyün üzünə bir qədər baxdıqdan sonra topa
buludları göstərib dedi:

-Göyün qaş-qabağı açılmır ki, açılmır. Yağışa düşərsiniz eşidirsiz di tez olun deyib onları tələsdirdi.

Məhəbbət nağılı

Payızın ilk ayları olduğundan, yağış ara vermirdi. Şimşəyin çaxması göyün gurultusu, sanki yeri göyü sirkələyir, təbiətə qeyri adi gözəllik bəxş edirdi. Yer ayağının, göy başının üstündən qaçdıqca Xəyalə öz dünyasının, şirin-şirin hisslərini dadır yaşayırdı. Ona elə gəlirdi ki, o, mələklər kimi uçur sevgilisinə çatmağa can atır ruhu isə, şirin əzab içində ona qovuşmağa tələsirdi. Lap az qalmışdı. Sevgilisinin ruhu da onu beləcə gözləyirdi. Şıdırğı yağan, yağışlar soyuq barmaqları ilə, Xəyalənin üzünü döyəclədikcə, sinəsindən süzülən damlalar, onun ürəyini yandırırdı. O, koftasının yaxasını bir qədər açdıqdan sonra, üzünü göyə sarı tutub sanki imdad diləyirmiş kimi, dodaqlarına dəyən yağış damlalarını içdikcə sakitləşir və onun sinəsindən süzülən yağışlar bədənini islatdıqca ruhunun dincəldiyini hiss edirdi.

O gün də beləydi görüşüb ayrıldığı ilk gün. O gün də beləydi, Talehlə ayrıldığı müsibətli gün.

VI FƏSİL

Beşinci kursun, son imtahanlarına hazırlıq gedirdi.

Tələbələr iki bir, üç bir gəzişir, əllərindəki dəftərləri, şparqarkaları, nəzərdən keçirir, söhbətlər aparırdılar. Onlarla birgə Xəyalə də bu imtahana ciddi hazırlaşırdı. O, həmişə olduğu kimi, yenə də narahat idi. Onun ən yaxın rəfiqəsi Nərminsə, sakit bir guşəyə çəkilib imtahana düşə biləcək sualların cavablarını dəftərçəsində qeyd edir, yazır, öyrənirdi.

Beləcə bir müddət, həyacanlı dəqiqələr sürdüyü anlarda Xəyalə, sanki səbri tükənmiş halda Nərminin yanına gəlib, bir stul çəkib onun qarşısında, yorğun-yorğun oturdu və onun fikrini yayındırmaq məqsədi ilə dedi

-Elə yorulmuşam ki, Nərmin inan ki, bir həftə üzüquylu dincəlsəm, yorğunluğum çıxmaz.

Nərminsə elə buna bəndimiş, əlini saxlayıb qələmi yerə qoyaraq, əllərini bir-birinə sürtüb ufuldaya-ufuldaya dedi:

-Ürəyimdən xəbər verdin Xəyalə, məni demirsən. Aclıq da ki, bir tərəfdən, başım hərlənir –deyərək stolun üstündən dəftər kağızı yığışdıraraq:

-Yaxşı olar ki, gedək bufetə, bir stəkan çay içək, şirniyatla. Sonrasa görək necə olur deyib cəld ayağa durdu. Xəyaləsə.

-Gedək Nərmin deyə onun qoluna girib otaqdan çıxdılar.

Nərgizin səsi yenə də auditoriyanı başına götürmüşdü. O qızlarla bərkdən-bərkdən söhbət edir, nə haqdasa danışır, onları güldürürdü.

Xəyalə onlara yaxınlaşaraq

-Salam qızlar necəsiniz –deyə soruşduqda, qızlar hərə özünə məxsus ədayla bir ağızdan dedilər:

-Xəyalə gəl bir qulaq as, gör bizim Leyli, Məcnundan ötrü necə dəli divanə olub. Ağəz Nərgiz elə döyül? - hə deyib qəh-qəhə ilə gülüşərək Xəyaləyə göz vurdular.

Xəyalə isə halını pozmadan

-Bilirsinizmi qızlar. Biz elə həmin siz deyən Leylini aparmağa gəlmişik dedikdə, qızlardan qopan səs küyə, qulaqlarını əlləri ilə qapadı.

-O o o…

-Gör a aa…

-Qızlar qoymayın, Leylini qaçırtdılar.

Nərgiz isə həmişəki şuxluqla - Yaxşı qızlar, qoy siz deyən olsun, görüşərik deyib, Nərminlə Xəyalənin qoluna girib, ordan uzaqlaşdılar.

Xəyalə - Gedək Nərgiz bayaqdan Nərminlə səni gözləyirik, acından öldüm. Amma bir az tez çıxaq yaxşımı?

Nərgiz - Niyə belə tez, hara tələsirsən ki?

Xəyalə - Bu gün rayona getmək istəyirəm. Evdən zəng vurublar atam xəstədir. Mütləq gedib baş çəkməliyəm. Yoxsa ki, nə dərs oxuya bilərəm, nə də ki, yaza bilərəm. Fikrim çox dağınıqdır.

Nərgiz –dedi

Nərgiz - Onda nə durmusunuz, cəld olun deyib addımlarını yeyinlətdilər.

Artıq gün axaşama gedirdi. Nərgizlə Nərmin yol boyu Xəyaləylə söhbət edə-edə onu əvvəl evlərinə, sonra isə vağzala qədər ötürdülər.

-Xəyalə çalış tez qayıt eşidirsən?

-Hə Nərgiz əlbətdə ki,

-Darıxacağam Xəyal, deyib, Nərmin məsum baxışlarla onu süzdü.

Qızlar öpüşüb görüşdükdən sonra ayrıldılar.

Xəyalə avtobusda bilet aldıqdan sonra dördünücü sıraya keçib yerində oturdu. Və hələ də onu müşayət edən Nərminlə Nərgizə avtobusun pəncərəsindən tamaşa edib gülümsünürdü.

Göyün üzü, getdikcə tutqunlaşırdı. Ara sıra topa buludlar, bir-birini qovduqca göyün köksünə qılınc kimi sancılan şimşəklərin ağrısından buludlar parçalanaraq yer üzü sanki göz yaşına bürünürdü.

Buludlar sanki bu hönkürtü ilə ürəyini boşaltdıqdan sonra, bir-birinə qovuşaraq sonsuzluğa sarı uçurdular. Belə anlardasa, Xəyalənin qəlbi daha da kövrəkləşir. Göylərə dikilən baxışları küskünləşərək, intizarla dolurdu.

O, avtobusun şüşəsindən, yağış damcılarına baxdıqca, bitib tükənməyən arzulara qapanır, düşünürdü. Bu ansa onu bir səs öz şirin dünyasından ayırdı.

-Xanım qız, burada əyləşmək olarmı? deyən uca boy, qara qaş, qara göz bir gəncin başı üzərində dayandığını görüncə, ani olaraq çaşqınlıq içində duruxdu və sonra

-Buyurun, deyib susdu.

O, ani olaraq, gözlərini ətrafa dolandırıb, gəncin üzünə ötəri nəzər yetirdikdən sonra, yenidən pəncərədən çölə tamaşa etdi.

O, hələ də bilmirdi ki, qəlbində, beynində bütün varlığında, ruhunda nələr baş verir. Bu hisslərdən xəbərsiz idi sanki. Nə baş verdiyini dərk etmirdi, anlamırdı Xəyalə. Sadəcə, məhrəm hisslər içərisində itib batmışdı. O, istər-istəməz bu fikirlərdən ayrılmaq üçün sumkasından bir kitab götürüb vərəqləməyə başladı. Lakin, beynində doğan suallara cavab axtarırmış kimi ürəyi tələsirdi onun. Bu vaxt oğlan onun üzünə diqqətlə baxıb dedi.

-Xanım, üzr istəyirəm cəsarətimə görə, sizinlə tanış olmaq olarmı? Xəyalə tərəddüd içərisində ətrafa nəzər yetirib

bir söz demədən, yenidən kitabın səhifəlirin bir-bir vərəqləməyə başladı. Oğlansa,

-Yolunuz çox uzaqdır, güman edirəm ki, bu sizin üçün də pis olmaz. Söhbət edərik, darıxmarıq dedikdən sonra, bayaqdan sevgi dolu baxışlarla ona tamaşa edən gəncin doğmalığını hiss edincə, Xəyalənin sanki ürəyi yerindən oynadı yanaqları allandı və xəfif təbəssümlə çiyinlərini çəkib, razılıq əlaməti olaraq başını aşağı saldı. Oğlan bir az da cəsarətlənib dedi.

-Mənim adım Talehdir, bəs sizin? Xəyalə sanki sehirlənmiş kimi, baxışlarını ixtiyarsız olaraq kitabdan çəkib gəncin gözlərinə dikdi və tez də yayındırıb,

-Mənimsə Xəyalə deyə cavab verdi. Taleh onun səmimiliyindən qəlbində bir rahatlıq duyduqdan sonra söhbətə başladı.

-Yəqin ki siz hardasa oxuyursunuz.

-Bəli, tibb universitetində beşinci kursda.

Çox gözəl. Çox şadam, mənsə Bədən Tərbiyəsi İnistitutunda oxuyuram… Artıq sonuncu ildir deyib bir qədər keçdikdən sonra yenidən soruşdu.

-Rayona nə yaxşı gedirsiniz. Özü də imtahanlar başlanan vaxtı

Xəyalə

-Bilirsiz, heç desəm ki. imtahanlara belə hazırlaşa bilmirəm. Üç gün olar ki, evdən mən zəng vurubllar ki, atam xəstədir. Heç olmasa dedim ki, gedim baş çəkim. Yoxsa heç cür rahat ola bilməyəcəyəm deyib əlindəki kitabı örtüb sumkasına qoydu sonra, bayaqdan avtobusun şüşəsini döyəcləyən, şıdırğı yağan yağışa tamaşa etdi. Gəncsə daha bir söz deməyib fikirli halda susdu.

Mənzilə çatmağa düz bir saat qalırdı. Oğlan qol saatına baxıb duruxmuş halda, köks ötürüb, yenə söhbətə başladı.

-Xəyalə xanım, mən istəyirdim ki, bizim tanışlığımız, daimi olsun. Siz necə bilirsiniz?

Xəyalə nitqi tutulmuş halda nə deyə biləcəyini belə unutmuşdu sanki, o, bir söz belə deməyərək başını utancaq tərzdə sinəsinə sarı əyərək, baxışlarını ondan gizlətməyə çalışdı.

Gənc bundan sonra, ürəkdən sinə dolu ah çəkib rahat nəfəs aldı, yalnız ona sevgi dolu nəzərlərlə baxmağın və onu his etməyin necə gözəl olduğunu düşünürdü.

Getdikcə güclənən yağış, gah doluya çevrilir gah da ağ çubuq şəkildə avtobusa dəyərək səs salırdı.

Artıq mənzilə çatmağasa yarım saatdan az vaxt qalırdı.

Oğlan səbri tükənmiş haldə, yenə də qol saatına baxıb, çaşqınlıq çərisində soruşdu.

-Siz neçə gündən sonra, şəhərə qayıdacaqsınız. Xəyalə xanım. Mən çox istiyərdim ki, biz, birlikdə geri qayıdaq. Mən özüm də tez qayıdacağam deyib onun üzünə sualedici nəzərlərlə baxdı.

Bu an Xəyalə, qəlbində qeyri adi, müqəddəs bir hissin baş qaldırdığını hiss edincə, ixtiyarsız olaraq titrək bir səslə

-Yaxşı deyib gözlərini oğlandan yayındırdı.

Taleh ilk dəfəydi ki, bu yolun bir göz qırpımında gəlib keçdiyini düşünürdü. Və hər dəfə nə qədər tez çatmağa can atırdısa, indi o, bir o qədər bu yolun uzanmasını bitib tükənməməsini istəyirdi.

-Hə Xəyalə xanım deyəsən gəlib çatdıq deyərək oğlan Xəyalənin ayaq altına qoyduğu salafan sumkalarını götürüb ayağa qalxdı.

Onlar avtobusdan yerə düşdükdən sonra bir müddət çaşqın halda bir birinə qısıldılar. Ara vermədən yağan yağış, demək olar ki, onları bir anın içindəcə islatdı. Onlar hər ikisi

tamam su içindəydilər. Taleh Xəyaləni evlərinə qədər ötürdü. Xəyalə iri dəmir darvazanı göstərib dedi.

-Bu da bizim ev deyib onun əlindəki sumkaları almaq istədikdə, oğlan onun əllərindən bərk-bərk tutub üzünü onun üzünə söykəyib çaşqın halda tezdə geri çəkildi.

Xəyalə üzündən süzülən yağış damlalarını bəhanə edirmiş kimi gözlərini yumub,

-Sağ ol Taleh deyib üşüyürmüş kimi çiyinlərini çəkib sumkaları onun əlindən aldı.

Talehsə maraqlı təəccüblə

-Bir gör, bizimlə sizin evinizin arasındakı məsafə bir o qədər də çox deyilmiş. Bəs niyə biz, bir-birimizi tanımamışıq deyib bi iki küçə aralıdı görünən binanı göstərərək dedi:

-Bax o ev bizimdir. Görürsənmi, biz bir-birimizə necə də yaxın olmuşuq. Sonrasa dedi:

-De görüm hansı gün. Qayıdacaqsan?

Xəyalə

-Bilirsənmi, Taleh səni evə dəvət etmədiyim üçün məni bağışla…

Mən…

Taleh onun sözünü kəsmək üçün əllərini onun dodaqlarına toxundurub

-Sus, bir söz belə demə, mənim gülüm. Belə də olmalı idi. Hə, indi de görüm hansı gün

Xəyalə

-Beşinci gün saat üçdə qayıdacağam deyib. Onun üzünə həsrət dolu baxışlarla baxdı. Sonra isə, ani bir həyacanla dayanmadan aramsız yağan yağışa baxıb

-Axı indi sən necə gedəcəksən tamam su içindəsən dedi uşaq sadəlövhlüyü ilə onun pencəyində əlini gəzdirdi. Talehsə təbəssümlə dolu baxışlarını onun saçlarında, üz gözündə gəzdirib pıçıltı ilə dedi.

-Xəyaləm, sənin sözlərinin, baxışlarının hərarəti məni sona qədər ötürəcək və məni üşüməyə qoymayacaq deyib onun bum-buz olan əllərindən öpüb sağollaşaraq qaranlıq küçə ilə, üzü yuxarı yeyin addımlarla uzaqlaşdı.

***

O, yanan sinəsini əlləri ilə ovuşduraraq üzünü göyə sarı tutub hıçqırıq içində deyirdi.

-Bax belə, mənim Talehim…. İndi isə, sənin sözlərinin və baxışlarının hərarəti məni üşüməyə qoymur. Və sona qədər bu sevginin hərarəti altında yol gedir, yaşayır, nəfəs alıram. Bu gün isə, yenə də sənin görüşünə gəlmişəm, mənim Talehim, mənim əziz Talehim. İndi o, sevgilisinin, qara mərmər üzərinə həkk olunmuş şəklinə tamaşa edir, öpür, oxşayır, əzizləyirdi. O, sevgilisinin, qəbri önündə dizi üstə çöküb, yağan yağışların səsinə qoşulub həzin pıçıltılarla məzar daşını öpüb oxşayırdı.

-Talehim, axı neyçün bizm qovuşmağımız, ayrılığımız yeri, göyü bu qədər ağrıdır. Sənin, mənim kimi, niyə bizim görüşümüz, leysana, tufana, yağışa bələnir. Neyçün axı.

Bizə ayrılığımızımı anladır?…

Yox talehim, yox mənim əzizim. Bizim ayrılığımız- dan yaranıb göylərin göz yaşları. Bütün kainat, sənin və mənim həsrətimizin şərqisini bu dillə oxuyur. Mənim əzizim.

Ürəyimi yaxıb-yandırır sənsizliyim Talehim, mənim sevgilim.

Həsrətni yox bilib, bu
Dünyanı keçdim də keçdim
Göz yaşımı sevgim bilib
İçdim də içdim, bədənimi
Zindan bilib, mən ruhumu
Məzarına biçdim də biçdim

Xəyalə yanan köksünü, əlləri ilə ovxayıb, üzünü göylərə tutub yağışın altında ağlaya-ağlaya, göynəyə-göynəyə pıçıltı ilə zümzümə edirdi.

Onun iztirablarına dözə bilməyən Nəcibə, qoluna girərək

-Dur gedək bacı dur. Sən Allah özünü bu qədər üzmə. Özünü toxtaq tut. Səbr et. Xəyalə təntiyərək ayağa qalxıb, ürəyinin yanğısın söndürmək üçün, onun daş üzərinə çəkilmiş əksini öpüb, oxşayır, süzülən yağış damıcılarını dodaqları ilə Talehin dodaqlarına söykəyərək içirdi.

O, ayaqlarını güclə sürütdəyərək, Nəcibəylə birlikdə məzarlıq getdikcə uzaqlaşırdı.

Ara, sıra bir-biri ilə toqqaşan buludlar ətrafa səs saldıqca, sanki göyün ürəyi boşalır, yağış aram-aram səngiməyə başlayırdı.

İndi o, yol boyu, iç dünyasına qapılaraq, hissləri ilə baş-başa qalaraq, ruhuna hakim kəsilən sevgilisinin Talehinin ruhu ilə söhbət edirdi.

-Talehim mən gedirəm, sənsə…

-Xəyal, mənim Xəyaləm, sevgilim, sus eşidirsənmi? Tamam su içindəsən. Mənim gülüm. Sən necədə gözəlsən Xəyal. Bu gözəllik haqqında düşünürsənmi? Xəyal. Bu gözəlliklər haqqında düşün mənim Xəyalım. Səni xöşbəxt görmək mənim ən müqəddəs istəyimdir. Səni xöşbəxt görəndə mənim ruhum dincəlir Xəyal. Mənə əzab vermək istəmirsənsə, səndə əzablı düşünücələrə qapanma gülüm. Sən ki, mənim həyatımı yaşayırsan sevgilim.

-Talehim, axı neyçün bu belə olmalıydı…? Neyçün?

-Xəyalə mənim ruhumu hər an yanında hiss etmirsənmi?

-Hiss edirəm Taleh, hiss edirəm fəqət…

-Sus, Xəyal, bir daha, bir daha bizim sevgimiz haqda düşün, eşidirsənmi….

-Taleh

-Xəyalə

-Məni tənha qoyma əzizim

Artıq onlar evə gəlib çatmışdılar. Xəyalə əzizləri və qohum-əqrabaylarıyla öpüşüb görüşdükdən sonra şəhərə yola düşdü.

Yol boyu isə, Talehin qəbr daşı üzərindəki şəkli onun gözlərinin qarşısından getmir, ürəyini yandırıb yaxır, düşüncələrə qapanırdı.

VII FƏSİL

Xəyalə dalğın fikirlər qoynunda, çarpayıda yarı yuxulu vəiyyətdə uzanmışdı. Bir azdan onu qapının səsi, düşüncələrədən ayırdı.

O, yorğun-yorğun çarpayıdan qalxaraq gedib qapını açdı. Gələn Gülarə idi… O, Gülarəyə yer göstərib, özü də stulu çəkib oturduqdan sonra soruşdu.

-Necəsən Gülü, həmişə sən gələsən. Nazənin necədir. Sizin üçün elə qəribsəmişəm ki,

Gülarə

-Bizi demirsən Xəyalə bacı. Biz özümüzdə səndən ötrü darıxırdıq. İnanırsanmı, Nazənin bir dəfə də olsun mənim adımı doğru düzgün çağırmayıb. Xəyalə-Xəyalə deyib, dilindən düşməyib adın.

-Gülarə, mən özümdə bu boşluğu hiss etmişəm, yaşamışam. Mənim də üz gözüm sizə elə öyrəşib ki, ayrı qala bilmirəm.

-Xəyalə bacı gözümə yaman fikirli dəyirsiz. Nəsə bir şey olub eləməyibki?

-Heç Gülü, fikir vermə, keçib gedər. Hər dəfə rayona gedəndə də, qayıdanda da, bir müddət belə hal keçrirəm. İndi isə hər şey yaxşıdır. Sənlə söhbət edirəm. Fikrim dağılır. Hə, yeri gəlmişkən dərslərin necə keçir. Bir narahatçılığın yoxdur ki?

-Xeyir Xəyalə bacı, heç bir narahatçılığım yoxdur. Hə bəs Nəcibə necədir. İnisituta girmək haqda fikirləşmirmi?

-Çox istəyir Gülü özüdə ki, arzusu, tibb unversitetinə daxil olmaqdır. Dərslərinidə ki, əla qiymətlərlə oxuyur.

Görək də-

-Xəyalə bacı, ən əsası odur ki, məqsədin olsun. Yaxşı olar inşaallah.

Xəyalə, söhbət əsasında, çay dəmləyib süfrəyə gətirdi. Onlar şirin söhbət edərkən Gülarə nəsə yadına düşürmüş kimi duruxurdu, sonra isə

-Gör bir necə yadımdan çıxıb Xəyalə bacı. Sizə Nərgiz adlı bir xanımdan məktub gəlib deyərək çaydan bir qurtum içdikdən sonra ayağa qalxıb

-Mən gedim həmin məktubu gətirim, deyib otaqdan çıxdı və bir az keçmiş zərfi Xəyaləyə gətirib verdi. Elə qapının ağzındaca tələm-tələsik dedi:

-Xəyalə bacı, siz Allah məni bağışlayın. Qadirgil işdən gəlib yaxşı olar ki, mən gedim deyib sağollaşdıqdan sonra tez də geri döndü.

***

Məktub, Nərgizdən idi. Xəyalə həyacan içərisində, əlləri titrəyə-titrəyə zərfi açıb, bir andaca məktubu oxudu. Sonra isə o, sarsılmış vəziyyətdə oturub, başını qolları arasına alıb stola söykənmiş halda bir müddət beləcə hərəkətsiz qaldı.

Bir azdan, Nazəninin səsi,

-Salam Xəyalə

-Salam əzizim necəsən, gör bir neçə vaxtdır ki, görüşmürük.

-Xəyalə gözümə birtəhər dəyirsən?

-Heç Nazlı, soruşma.

-Məndənmi sirr saxlayırsan?

-Bu nə sözdü, Nazlı yadındamı səninlə Nərgiz adlı rəfiqəm haqqında söhbət etmişdik.

-Hə nə olub ki,

-Yazıq qız, indi ağır bir xəstəliyə düçar olub. Həkimlər xərçəng xəstəliyi olduğunu deyiblər. Elə buna görə də, yaxın günlərdə bizim xəstəxanaya müraciət edəcək. sonra da yazır ki,

yoldaşına, Orxana törətdiyi cinayətə görə on beş il iş kəsiblər. Oğlu ilə anasıgildə qalır.

Onun üçün indi necə çətin olduğunu düşündükcə, dəhşətə gəlirəm Nazlı. Xəyalə danışdıqca gözünün yaşını saxlamağı bacarmırdı. O, peşmançılıq hissi ilə başını ağır-ağır dəbərdib ah çəkdi və

-Balğışla məni Nazlı – deyib özünü toxtatdı.

Nazəninsə nə deyəcəyini belə bilməyib imkansızca onu dinləyirdi. Xəyalə gözlərinin yaşını silib Nazəninlə özü üçün çay süzdü.

Sonrasa

-Nazı sənin işlərin necə gedir. Qadir, Rahim dayıgil necədirlər. İndi özünü necə hiss edirsən? Deyə soruşdu.

Nazənin

-İndi özümü çox yaxşı hiss edirəm. Qadir də işə gedir, atamda yaxşıdır. Düzü son günlər çox darıxıram. Heç bilmirəm ki, neyləyim. Səndə ki, bizi atıb getmisən. Bütün kallektiv biləsən ki, sənin üçün necə də darıxıblar. Hər dəfə səni soruşurdular. Sən də ki, gəlib çıxmaq bilmirsən ki, bilmirsən. Bizi də intizarda qoymusan, bir nəfəri də…

deyib mənalı-mənalı, gülümsünüb gözlərini qəsdən Xəyalədən yayındırdı. Xəyalə marağını gizlədə bilməyib soruşdu.

-Necə yəni bir nəfər, o kimdir ki, elə

Nazənin

-Tərlanı deyirəm. Tərlan həkimi deyib qaşlarını dartdı və yenə gülümsünüb çaydan bir qurtum içdi.

Xəyalə

-Düzü o özü də mənim üçün, çox maraqlı bir insandı. Nazlı. O özü son vaxtlar sözləri və hərəkəti ilə məni düşündürməyə vadar edirdi. Sanki o özü bunu qəsdən belə edirdi.

Nazənin

-Sən özün bunu nəyə görə etdiyini, yəqin ki, başa düşməmiş olmazsan. Əgər onu sənə qarşı münasibətində daha çox yaxınlıq varsa bu da pis deyil. Mən bilən evli də deyil.

Xəyalə

-Nə olsun ki, Nazlı düzü mən özüm də bunu his etmişəm onun mənə qarşı olan istəyini, fəqət bütün bunların mənim üçün bundan sonra əhəmiyyətsiz olduğunuda yaxşı bilirəm.

Nazənin.

-Axı niyə belə düşünürsən, Xəyalə. Bunun nəyi pisdir ki, əgər belə olsa mən çox sevinərəm, o özü də çox gözəl insandı. Xəyalə bu vaxt nəyisə xatırlayırmış kimi, dərindən ah çəkib gözləri doldu.

-Eh Nazlı, əgər hər şey sən deyən kimi olsaydı, nə vardı ki, Talehdən sonra azmı olub. Belə yaxşı insanlar. Lakin mənim iç dünyamdakı həqiqətlərsə, tamam başqa bir istəklərlə yaşayır. Nazlı mən artıq real həyatla barışa bilmirəm. Məni başqa cür düşünməyə qoymur.

Nazənin

-Bilirsənmi Xəyalə, mən səni çox gözəl başa düşürəm. Lakin həyatı həqiqətləri belə qəbul etməyini isə qətiyyən dügün hesab etmirəm. Axı sənin düşündüyün həyat yolu, heç fikirləşdiyin qədər də düzgün deyil. Çünki həyat başqa, qismətsə başqa bir şeylər tələb edir. Bütün insanların sənin də, mənim də. Bizsə bütün bunları reallıqları ilə qəbul edib yaşamalıyıq!

Xəyalə.

-Nazlı bütün bunları, mən də bilmirəm nə edim ki, özümlə bacarmıram. Əgər kiminləsə ailə həyatı qurmuş olaramsa, onun həyatına yalnız bədbəxtçilikdən savayı bir şey gətirmərəm Nazlı.

Nazənin

-Axı niyə elə düşünürsən?

Xəyalə

-Çünki sevmədiyim insanla, yaşamaq mənə çox çətin olar. Özümü, və onu aldatmaqsa, bu dəhşətlidir. Nazlı. Elə buna görə də, ən azı rahat yaşamaq istəyirəm.

Nazənin

-Eh Xəyalə, Xəyalə nə deyim, hələ sən çox gəncsən. Elə buna görə də, gələcək xöşbəxtliyini belə, sevdiyinə qurban vermək istəyirsən. Bu çox gözəl hissdir. Lakin mən arzu edirəm ki, nə vaxtsa öz həyatın haqda da, gələcəyin üçün düşünəsən və o hissi real həyatında da yaşayasan. Xəyalə

-Riyakarmı olum.

Nazənin

-Yox Xəyalə, sən həyatında baş verən bütün dərinlikləri, gələcəkdə həyat qurduğun insana danışdıqdan sonra, inanıram ki, o səni başa düşər hisslərinə toxunmaz.

Xəyalə

-Bəs mənim Talehimin nə günahı vardı?

Nazənin bir qədər duruxduqdan sonra

-Xəyalə, mən sənin müqəddəs hisslərinə, kiminsə toxunmasını heç zaman istəmərəm. Bunula yanaşı sənə həyatda lazımdır -deyib susdu.

Xəyalə bir az fikirə gedərək yenidən Nazənini mehriban baxışlarla süzüb sözünə davam etdi.

-Nazənin, biz bir-birimizin kim olduğunu və nə üçün yaşayıb, düşündüyümüzü yaxşı dərk edirik. Bununla belə mənim nağıla bənzər bir dünyam vardı. O dünya isə, yenə də var olaraq mənim ruhumda, düşüncəmdə, Taleh və Xəyal adlı ömrünü yaşamaqdadı.

İllər arxasından, ayrılıq adlı bir sükut axsada, mən o sükutun səsində dinləyirəm o nağılı. Nazlı

Nazənin

-Əgər sənin üçün çətin deyilsə, o nağıl haqda mənə azda olsa danış.

Xəyalə.

Xəyalə, bir az duruxduqdan sonra üzünü qeyri adi kədərli bir ifadə aldı. Sanki, nədən başlayıb, nədən qurtaracağının ağrısını yaşıya-yaşıya söhbətə başladı.

-O gün, Talehlə ayrıldıqdan sonra evə qayıtdım. Harda olduğumu belə unutmuşdum sanki. Özümü hələ də dərk edə bilmirdim. Hisslərimə hakim kəsilməksə, bu çox çətin idi. Tamam su içindəydim. Yalnız bunu hiss edirdim ki, üşüyürəm. Onunla bağlı hislər, varlığıma hakim kəsilmişdi dilim ağzım tutulmuşdu, sehirlənmişdim sanki. Atamsa doğrudan da, möhkəm soyuqlamışdı. Atamı müayinədən keçirdikdən sonra, xəstəliyinə görə üç gün orda qalmalı oldum. Sonra isə onunla vədələşdiyimiz kimi beşinci gün dediyi saatda görüşdük. O, mənim üçün aldığı biletin nömrəsini dedikdən sonra avtobusa minib öz yerimizdə oturduq. O, bir neçə gün ərzində məndən ötrü darıxdığını deyirdi. Mən özüm də ondan ötrü çox darıxmışdım düzü.

Xəyalə danışdıqca o günlər yenidən gözlərinin qarşısında canlanırdı.

-Salam Xəyalə

-Salam Taleh

-Necəsiniz?

-Yaxşıyam. Sağ olun.

-Bir az da gec gəlsəydin avtobus dəbərəcəkdi.

-Bəs sən

-Mənmi? Mənim səbrim artıq tükənmişdi. Sizə gələcəkdim

-Bizə?

-Hə necə bəyəm gəlmək olmazdı?

-Bilmirəm.

-Atan necədir. Xəyalə

-Atam bərk soyuqlamışdı. İynə, dərman təyin etdim. İmtahanlar başlamasaydı qalıb, özüm atamı müalicə edəcəkdim. Düzü çox narahatam.

Darıxma Xəyalə, yəqin ki, tezliklə yaxşı olar.

Bir az keçdikdən sonra Xəyalə

-O gün sizə görə də çox narahat oldum Taleh. Necə gedib çatdın

Oğlan gülümsünüb.

-Bilirsən Xəyal, sən demə bizim evlə sizin evin arasında bir o qədər də uzaq məsafə yoxuymuş. O, gün, anamla bütün gecəni sənin haqqında söhbət etmişik. Xəyalənin utandığından yanaqları allandı. Gəncsə, hər vəchlə onu söhbətə tutmaq və ona qarşı Xəyalənin hisslərini belə öyrənməyə can atırmış kimi, həyacan keçirirdi.

Bir az keçmiş o, qızın qulağına sarı əyilib pıçılıtı ilə dedi.

-Sən necə, heç mənim haqqımda düşünmüsənmi? Deyə soruşduqda. Bu an sanki Xəyalə ruhunun bədənindən uçunduğunu hiss etdi. Və bir söz deməyə cürəti çatmayaraq, məsum baxışlarla Talehin üzünə baxdı. O, sehirləndiyini, bəkə də indi dərk etmişdi.

***

O vaxtlar yazın ilk ayları olduğundan, yağış ara vermədən yağırdı. O günkü görüşdənsə bir neçə gün idi ki, keçirdi.

Xəyalə dərsdən çıxarkən, dayanacaqda Talehin onu gözlədiyini gördü. Xəyalənin bütün varlığını sanki bir həyacan çulğalamışdı. Xəyalə dayanacağa gəlib çatdıqda Taleh ona sarı

yeyin addımlarla yaxınlaşıb salamalaşdıqdan sonra Xəyalənin əllərindən tutdu.

-Salam Xəyalə

-Salam Taleh

-Nədən bildin burada olacağımı?

-Ürəyim xəbər vermişdi əzizim. Bu sözdən sonra Xəyalə çaşmış vəziyətdə başını aşağı dikdi.

-Taleh

-Tələsirsənmi, Xəyalə?

-Evə gedirdim.

-Əgər istəsəydin bir az gəzib dincələrdik. yaxınlıqda park var, evdə bir narahatçılığın yoxdursa gedək xahiş edirəm. Sonra isə mən özüm səni evinizə qədər ötürərəm dedi:

Xəyalə qeyri ixtiyarı olaraq

-Nə deyirəm ki, deyib tərəddüd etmədən cavab verdi.

Talehin sevincinin həddi-hüdudu yox idi. O, tez qarşıdan gələn taksiyə əl edib saxlatdıqdan sonra, hər ikisi maşına oturub oradan uzaqlaşdılar.

Xəyalə sanki sehirli bir aləmə düşmüşdü. O bir söz demir, dinib danışmırdı. Talehsə düşdüyü gözəl bir dünyanı yaşayırmış kimi, Xəyaləyə, və bir də onları aparan yola tamaşa edirdi.

Bir azdan şoferin səsi onları şirin duyğulardan ayırdı

-Qərdeşim, hara aparaciyəm süzi…- deyə soruşduqda Taleh

-Sahilə deyə, - cavab verdi. Taksi şəhərin küçələri ilə şütüyüb onları istədikləri ünvana gətirib çıxartdı.

Onlar maşından düşüb parka sarı addımladılar. Bir az gəzişdikdən sonra gəlib bir skamyada oturdular. Taleh Xəyalənin əllərini yenidən ovucları arasına alıb gözlərinə baxmağa çalışırdı.

-Xəyalə nə fikirləşirsən deyə soruşdu. Xəyaləsə hürkək nəzərlərini ondan yayındıraraq əllərini onun ovucları arasından kənara çəkib.

-Bilmirəm deyib sevgi və həyacan dolu baxışlarıyla, dənizə sarı baxdı.

Talehsə, Xəyalənin nə dediyini artıq hiss edir. Onun dünyasını yaşayırdı. O, ürəyinin indi necə şiddətlə döyündüyünü hiss etdikcə özünü daha xöşbəxt sanırdı. O, Xəyaləyə sarı əyilib çiyninə tökülən saçlarını oxşayıb öpərək həyacanla dedi:

-Xəyalə əgər bilsəydin ki, səni düşünərkən belə, bütün vücudum sarsılır. Sənin əsirin olduğunu dərk edirəm. Özümə yer tapa bilmirəm. Xəyaləsə, bədəninin sanki, nanə yarpağı kimi titrədiyini görüncə, yanaqları qıpqırmızı olurdu. Və başını aşağı dikib bir söz belə deyə bilmirdi.

Taleh Xəyalənin ona qarşı biganə olmadığını duyunca, qəlbində nə vaxtdan bəri saxladığı, sevgisini dilə gətirməyin vaxtı çatdığını hiss etdi.

O, sevgi hərarəti ilə alovlanan baxışlarını, Xəyalənin üzündə, gözündə, dodaqlarında, saçlarında, bütün varlığında dolandıraraq, acizanə, titrək bir səslə dedi:

-Mən səni sevirəm Xəyalə. Sonra o, cibindən siqaret qutusunu çıxarıb, içindən bir papiros götürüb əlində oynadaraq yenidən sözünə davam elədi.

-Mən bunu sənə, bəlkə də səni gördüyüm ilk andan demək istəmişəmsə də, cürət eləməmişəm. Düzü, sənin qəlbinə toxuna biləcəyimdən ehtiyat etmişəm və səni itirməkdən qorxmuşam.

İndisə mənim talehim sənin ixtiyarındadır. Xəyalə, eşidirsənmi? Deyib papirosu damağına qoyub yandırdı. Ürəyinin atəşini söndürmək üçün iki-üç qullab vurub, sinədən köks ötürdü. Bu həyacansa Xəyalənin ürəyinin içində onu

yandıran gizli bir eşqin əksiydi. Lakin o, bununla belə hey susur-susurdu. Onların qarşısından iki bir, üç bir, keçib gedən gənclərin ardıyca qoğal, semişka gəzdirən uşaqların səsi ətrafı başına götürmüşdü.

Onlardan biri Xəyalə ilə Taleh oturan skamiyanın yanına gəlib bir nəfəsə.

İsti bulki,simiçka götürün dedikdə, Taleh uşağı yaxına çağırıb Xəyalə və özüyçün bulki götürüb pulunu verdi. Sonra isə o, əlindəkiləri Xəyaləyə verərək -dedi:

-Mən bu dəqiqə gəlirəm əzizim deyib yaxınlıqdakı köşkdən iki dondurma alıb tez də geri döndü.

***

Bu anlar Xəyalənin gözləri qarşısında canlandıqca, sanki o günləri yenidən yaşayırdı.

Nazənin bütün olanları xatırlamaq Xəyalə üçün necə ağır olduğunu yaxşı bilirdi. Ona görə də o, daha dözə bilməyib dedi:

-Özünü üzmə Xəyalə, eşidirsənmi? Hər bir insanın qismətində, uğursuzluqlar olur. Bu o demək deyildir ki, sən öz həyatını, yalnız xatirələrdə yaşayasan. Talehin ruhuda səni bağışlamaz. Tək ona görə ki. sən özünlə birgə onun ruhunu, çəkdiyin əzablarla incidirsən Xəyalə dedi.

***

Sərin meh, çiçəkləri, otları sığallayıb oxşadıqca, ətrafa yayılan xoş ətir insanı bihuş edirdi. Yazın ətrini qoxuduqca hər bir kəs özünə məxsus zövq alırdı.

Xəyalə iş otağında oturub, qeydlər aparırdı. O, baş tibb bacısına bəzi tapşırıqlar verməklə yeni aperasiya olan xəstələrə baş çəkmək məqsədi ilə, ondan xəstələrin ümumi vəziyyətini öyrənərək, onları müayinədən keçirmək üçün palataları bir-bir

gəzir, xəstələri narahat edən ağrılarını soruşurdu. Onlarla söhbət edir, hər birinin qayğısına qalır, əlindən gələni əsirgəmirdi.

O, xəstələrlə beləcə təmasdan sonra özünü dünyanın ən xöşbəxt insanı sanır. Rahat nəfəs alırdı. Kiməsə bir kömək, kiməsə bir yardım etdikdən sonra sanki bütün üzüntülərni unudur, qayğısız uşaq sadəlövhlüyü ilə sevinirdi.

Son vaxtlarsa, işdəki uğurları onu daha da ruhlandırır, yeni-yeni arzu və istəklərlə yaşadırdı.

O, bunula belə, əldə etdiyi naliyyətlərlə kifayətlənmir. Əksinə elmi, tibbi nöqteyi nəzəriyyədən yaradıcılıqla məşğul olurdu. Onun cərrahiyə ilə bağlı, kəşfləri, elmi sübutları ədəbi mövzuda öz samballılığı ilə fərqlənir diqqəti cəlb edirdi.

Xəyalə, bahar fəslini çox sevirdi. Bəlkə də elə buna görə o, özünü daha şən əhval ruhiyədə hiss edirdi.

Elə bu günlərdə Moskvadan gələn teleqramsa onun ikiqat sevincinə səbəb olmuşdu. Cahan xalanın, qızının xəstəliyi haqqında Moskvada yaşayan həmkarı avtamoloq Cəbrayıl Cəbrayilzadəyə etdiyi müraciətinə görə, gələn teleqramdakı çağrış onu sevindirmişdi.

Artıq iş vaxtının sonu idi. O, bu gun daha tez evə getmək istəyi ilə yır-yığış edib,üst başını qaydaya salıb iş otağından çıxdı.

Nazənin düşüncələrə qərq olmuş halda həyətdəki çəpərin qarşısında dayanıb, bağçadakı yenicə tumurcuqlayan ağaclara, tamaşa edirdi.

Qapının zəngi çalındıqda o, Xəyalə olduğunu bilərək,

Tez qapıya sarı getdi. Qapı açıldıqdan sonra Xəyalə, qeyri adi sevinc hissi ilə Nazəninlə öpüşüb, görüşüb dedi:

-Necəsən Nazlı, inan ki, bu gun bütün günü səninlə söhbət emişəm. Nazəninsə elə bu sözə bəndimiş kimi incik halda

-Eh, sən elə öz dünyanda mənimlə danışıb söhbət eləyirsən. Ay qız bir insafın olsun, heç olmasa məni hövsələdən çıxarma deyib əlini yellədi.

Xəyalə

-Düz deyirsən Nazlı günahkaram. Düzü vallah mən özüm də dincəlmək istəyirəm ama neyləyim ki, iş.

Nazənin qeyri ixtiyari olaraq səsini qaldıraraq onun sözünü ağzındaca qoyub dedi:

-Ay qız yəni bizim işimiz-gücümüz yoxdur bəyəm.

Deki, işdən başqa daha mühüm işlərim var deyim hə,

Xəyalə gülə-gülə

-Hansı işdir ki, o elə ay Nazlı

-Hansı iş olacaq ki, oturub dörd divarlara baxmaqdan savayı nə işin ola bilər ki, deyib gözləri süzdü.

Xəyaləsə gülərək qollarını geniş açıb onu qucaqlayıb üzündən öpərək dedi:

-Nazlım mənim, canım gözüm, çox yorulmuşam, dincəlmək istəyirəm. Bu gün sənə çox ehtiyacım var Nazlı. Sevincimin uğurlarımı bölüşdürmək üçün

-Gedək Xəyalə

-Gedək

Onlar pilləkənlərlə qalxıb, son dərəcə səliqəylə bəzədilmiş, göz oxşayan qonaq otağına daxil oldular.

Beləcə bir müddət şirin-şirin söhbət etdikdən sonra Nazənin, qaynı Rzanın yaxın günlərdə toyu olacağını dedi:

Xəyalə

-Görən özünün sevdiyi qızdır, yoxsa ki ata anası evləndirir? Deyə soruşduqda Nazənin

-İndiki cavanları bilmisən. Xəyalə, onlar ata-ana sözünə baxan deyillər. Əslində belə də olmalıdır. Rzaya gəldikdə isə, yəqin ki, özü sevib seçdiyi qızla evlənər dedi:

Xəyalə

-Hər bir gənc qərarı özü verməlidir. Bu elə yoldur ki,qismətini heç kim bilmədiyi kimi, sonra necə olacağından da xəbərsizdir. Və elə ona görə də ən azı xöşbəxt olması üçün, peşman olmamağa görə özü həyatını həll etməlidir. Nazlı. Bəs Gülarə hardadır, gözümə dəymir.

Nazənin

-Nə deyim Xəyalə son zamanlar, onu yaman fikirli görürəm.

-Nə olub ki, görən.

-Düzü, mən özüm onun hislərinə toxunmamağa çalışıram. Onu incidə biləcəyimdən ehtiyat edirəm. Amma yenə də çox narahat oluram Onunçün.

-Bəlkə nəsə bir problemi var?

-Yox Xəyal, mənsə belə deməzdim. Sevən adama oxşayır. Yox-yox heç də narahatçılığım buna görə deyil. Əvvəl axır biriylə həyat qurmalıdır. Məni qorxudan onun aldana biləcəyidir. Mən onun heç də azadlığının, sərbəstliyinin əleyhinə deyiləm. Sadəcə olaraq onun evə son vaxtlar gec gəlməyi məni çox darıxdırır. Nə isə – deyib Nazənin fikirli halda köks ötürdü. Sonra isə soruşdu.

-Xəyalə rayondan necə bir xəbərin varmı?

-Hə yaxşıdırlar, tez-tez zəng edib hal əhval tuturam deyə Xəyalə cavab verdi. Elə bu vaxt telefonun zəngi aramsız çağırdıqda Nazənin dəstəyi götürdü.

-Salam, bəli Xəyalə xanımın evidir. Kimdir soruşan? Bu dəqiqə

Xəyalə dəstəyi Nazənindən aldıqda Nazənin mənalı nəzərlərlə ona baxıb göz vurdu və

-Tərlandır deyib keçib kresloda oturdu.

Xəyalənin, danışan zaman keçirdiyi həyacan Nazəninin gözündən yayınmırdı.

-Xeyirdimi Xəyalə, sənə nə oldu ay qız, rəngin bir anda qaçdı deyib, telefonla danışıb qurtardıqdan sonra sarsılmış vəziyyətdə divana çökən Xəyalənin yanına gələrək əllərindən tutdu. Onu soyuq tər basmışdı. Və o özünü ələ almağa belə bacarmayaraq göz yaşı içində pıçıltı ilə bir neçə söz dedi:

-Nazlı…. Nərgizi ağır vəziyyətdə bizim şöbəyə gətiriblər. Sabah onun aperasiyasını, Tərlanla birlikdə aparmalıyıq deyib susdu.

***

Belə də oldu elə səhəri gün, Nərgizin aperasiya əməliyyatı başlandı. Üç saat gedən əməliyyat sona çatdı.

Xəyalə özünü çox narahat hiss edirdi. O, Nərgizə tez-tez baş çəkir, onun narkozdan nə vaxt ayılacağını gözləyirdi. Nərgiz üç gün reanimasiya şöbəsində qaldıqdan sonra ayıldı. Və onu plataya köçürdülər.

Xəyalə onun aperasiyasının müsbət nəticə verməyəcəyini əvvəlcədən bilsə də o buna məcbur idi. Ən azı onun bir neçə ay yaşaması üçün əlindən gələni əsirgəmədi.

Nərgiz xəstəliyi haqqında ondan soruşduqdasa Xəyalə ona ürək-dirək verərək, tezliklə sağalıb ayağa duracağını deyərək ona, ümüd verirdi.

Soyuq qış günlərindən biri idi. Bəlkə də ilk dəfəydi ki, Bakıya belə qar yağmışdı Hər tərəf ağappaq qar örtüyünə bürünmüşdü. Yollar buz bağlamışdı. Demək olar ki, nəqliyyatın gedişi-gəlişi bir neçə gün müddətinə dayandırılmışdı. Təkcə, hərdən ara-sıra görünən çörək maşınlarından savayı. Onlarınsa təkərlərinə zəncir bağlandıqdan sonra hərəkət etməyə icazə verilmişdi. Çörək butkalarının qarşısında dayanan adamlarsa nə vaxt çörək maşınının gələcəyini, bu soyuq qış günlərində əllərini hovxura-hovxura ayaqlarını yerə döyəcləyə-döyəcləyə səbirsizliklə gözləyirdilər.

Bu müddət ərzində Nərgiz bir ay xəstəxanada qalıb müalicə olunduqdan sonra həkimin məsləhəti ilə evə qayıtdı. O, tam olmasada özünü əvvəlkindən yaxşı hiss edirdi.

Həkim Tərlan Həsənzadənin yazdığı təyinata əsasən Nərgiz bir neçə ay evdə qaldıqdan sonra yenidən müalicəsini davam etdirməkdən ötrü geri qayıtmalıydı.

Təbiətsə qış ömrünü yaşamaqdaydı. Getdikcə göyün üzü bəyazlaşdıqca, səmanın solğun-solğun işıqlanan eyni açılmağa başlayırdı.

Qar əridikcə, yol boyu əriyən sulara qarışıb axırdı.

Səmanın soyuq baxışları arxasından, günəş ara-sıra gülümsünür, öz ilıq şüaları ilə yerin-göyün qaş qabağını açmağa çalışırdı. Bir neçə gün beləcə, günəş buludların arxasında gizlənir gah da ki, qarın üzərində bərq vurub, əksi ilə gözləri sevindirirdi. Həftənin sonu idi. İş başa çatmaq üzrə idi. Xəyalə öz otağında oturub fikirli-fikirli qəzetləri gözdən keçirirdi. O, bunu fikrini dağıtmaq üçün edirdisə də, diqqətini bir yerə toplaya bilmir, narahat düşüncələr qoynunda xəyallara dalırdı.

Bir az keçmiş saata baxdıqdan sonra getməyə hazırlaşırdı ki, qapı döyüldükdən sonra Tərlan Həsənzadə otağa daxil oldu. Mehriban baxışlarla onu nəzərdən keçirib – dedi:

-Salam Xəyalə xanım. Yəqin ki, evə getməyə hazırlaşırsınız. Birgə çıxsaydıq pis olmazdı

Xəyalə yorğun-yorğun

Düzü özümü bu gün çox narahat hiss edirəm. İçimdə sanki bir boşluq yaranıb. Özümə yer tapa bilmirəm deyib pəncərənin önünə keçərək həyətə sarı baxdı. Tərlansa bütün bu sözləri sevdiyi insanın, Xəyalənin dilindən eşitdikcə sanki o, bu sözlərə cavab olaraq çoxdan üəyində saxladığı ən müqəddəs sözləri deməyin vaxtı çatdığını düşünə-düşünə

-Xəyalə sənininləyəm, eşidirsənmi, bu gün mən sənininlə gəzmək, dinlənmək və sənə ürəyimdə saxladığım, sözləri demək istəyirəm deyib ondan cavab gözləyirmiş kimi. Gözlərini Xəyalənin kürəyinə tökülən saçlarına dikdi.

Xəyalə elə o an, üzünü ona sarı çevirib dərindən köks ötürərək

-Gedək dedi:

Tərlan son dərəcə həssas təbiətli bir insan idi. O, elə buna görə də, Xəyalənin qəlbini incidə biləcəyindən ehtiyat edir, ürəyindən keçən sözləri, yüz ölçüb, biçdikdən sonra ona deyirdi. Ondan hər an öz sevgi və qayğısını əsirgəmirdi. Bununla belə o, Xəyaləyə qarşı olan sevgisini deməyə cürət etmirdi.

Onlar artıq şəhərin küçələri ilə addımlayırdılar.

Kafelərdən birinin yanından keçdikdə Tərlan ayaq saxlayıb dedi:

-Xəyalə xanım, bəlkə bir az gedib oturaq, çay içək.

Xəyalə tərəddüd etmədən razılıq əlaməti olaraq çiyinlərini çəkib

Nə deyirəm ki, deyə cavab verdi. Onlar gələrək kafedə oturdular. Tərlan stolun üstündə qoyulan menyunu gözdən keçirərkən afisant qız onlara yaxınlaşıb

-Xoş gəlmisiniz. Nə təklif edəcəksiniz deyə soruşdu.

Tərlan, bir neçə yeməklə birgə çay gətirməyini afisanta bildirdikdən sonra. Xəyaləylə söhbət etməyə başladı. O, artıq, ruhunun, qəlbinin sözllərini etiraf etməyin məcburiyyətində qaldığını yaxşı dərk edirdi.

Xəyalə xanım, mən istəyirəm ki. siz özünüzü daha sərbəst hiss edəsiniz dedikdə. Xəyalə tərəddüd etmədən cavabında

- Narahat olmayın.

Biz ki, yoldaşıq, həmkarıq və ən azı mən tanıdığım, şəxsiyyətinə hörmət etdiyim bir insanla üzbəüz oturmuşam deyə cavab verdi.

Bu söz Tərlana nə dərəcədə toxundusa da o, bir anda olsa bunu biruzə verməyərək yenidən onun qəlbinə sirayət edə biləcəyi bir tərzdə özünü duruldub dedi:

-Xəyalə xanım, sizin qəlbinizə toxuna biləcəyimdən ehtiyat edib, sizə qarşı olan münasibətimi, həqiqəti saxlamaq məcburiyyətində qalmışam. Əslində isə bu heç də belə deyil. Mən sizi ilk dəfə görən andan qəlbimdə baş qaldıran ülvü hisslərlə sizə qarşı olan sevgiylə yaşamışam. Və yəqin etmişəm ki, mənim arzularım nə vaxtsa gerçəkləşəcək. Siz mənim istəklərimə qarşı etinasız olmayacaqsınız. Və bu gün də mən bunu sizə demək məcburiyyətində qaldığım halda siz məni başa düşəcəksiniz. Mən elə bilirəm ki, mənim sizə qarşı olan sevgim, məhəbbətim, hər ikimizə, həyatda xöşbəxtlik gətirəcək. Gözəl həyat yaşayacağıq –dedi.

Xəyalə onu hisslərinə hörmət əlaməti olaraq yalnız bu sözləri deməyi, özünə qərar verdi.

-Tərlan bəy, mən sizi başa düşürəm, və bununla belə, tərəddüdsüz olaraq çətin bir vəziyyətdə qalmağıma səbəblər vardır ki, bu da bizim gələcəkdə tutduğumuz mövqeyə əsas olaraq, həyat yolu ilə bağlıdır. Buna görə də ən azı düşünməyə görə mənə vaxt lazımzdır. Mənə elə gəlir ki, siz özünüz də mənə qarşı olan istəyinizdə, nələrisə düşünmüsünüz, və qərar verməyə tələsməmisiz.

***

Tərlan ani olaraq durğunluqdan sonra

-Hər halda mən sizdən müsbət cavab eşidəcəyimə ümüd edirəm, Xəyalə xanım deyib. Bayaqdan qarşısında soyuyan çayı yenisi ilə əvəz etməsi üçün afisant qızı çağırdı.

VIII FƏSİL

Günlər, aylar bir-birini əvəz edir, təbiət qış ömrünü yaşayırdı. Nazənin son günlər özünü narahat hiss edirdi. O, analıq məzuniyyətinə çıxmışdı. Nazənin hamiləlik dövrünü ağır keçirdiyinə görə, çox vaxt yataq şəraitində olurdu. Elə buna görə də Xəyalə ona tez-tez baş çəkər təziqini ölçər, səhəti ilə maraqlanırdı. Nazəninin vəziyyəti isə, getdikcə demək olar ki, pisləşməyə doğru gedirdi. Qan azlığı, zəiflik ürək fəaliyyətinin çatışmamazlığına gətirib çıxarırdı.

Qadirin, Rahim dayının təkidinə baxmayaraq o, - xəstəxana şəraitində yataqda qalsam halım daha da pisləşər. Yaxşısı yenə evdir. Hərdən durub gəzirəm. Qızlar gəlir, məni darıxmağa qoymur. Xəyalə də ki, tez-tez müayinədən keçirir – deyə cavab verirdi. Nazəninin inadı isə, heç də onun səhətinin qorxusuz ötüşəcəyinə inam yaratmırdı. Amansız talesə… onun həyatında öz hökmünü beləcə verdi.

Gülarənin dərsdə, Xəyalənin işdə olması onun bu ağır dəhşəti yaşamasına səbəb oldu. O, evdə vaxtından olduqca tez körpəsini itirməklə, güclü qan axmadan əbədi olaraq həyata vida deyərək gözlərini yumdu.

Rahim dayının gözləri qarşısında olan bu dəhşətli hadisə isə, onun ürəyindən yan keçmədi. O, təcili yardıma zəng etmək istədiyi zaman, bir kəlmə belə, söz deyə bilməyərək, infarkt keçirərək keçinmişdi.

Bu faciəni kim eşidirdisə, sarsılır, nə deyəcəyini belə bilmirdi.

Qadirin həyatında baş verən bu fəlakət isə onun, xasiyyətini belə dəyişmişdi. O nə edəcəyini, nə deyəcəyini belə bilmirdi.

Rahim dayının, həyatının mənası olan, Nazlısının və ciyərparasının qırxını verdikdən sonra, bu evdə qala bilməyib,

Qadir birdəfəlik baş götürüb, yerini-yurdunu da heç bir kəsə demədən çıxıb getdi.

***

Soyuq külək, buz dili ilə, yeri-göyü yalayırdı.

Qollarını göyə sarı açan ağaclar, sanki tanrıya dua edir, küləyin nəfəsi dəydikcə havalanaraq yırğalanırdılar. Onları sığallayan yarpaqların həsrətiylə bir-birinə toxunub ərafa qəribə hıçqırığa bənzər bir səs salırdılar. Küləksə, soyuq nəfəsi ilə yeri-yurdu üşütdükcə, bir-biri ilə oynayan, toza-torpağa bürünən çör-çöplər, sanki bu soyuq nəfəsə daha tab gətirə bilməyib bir-birindən qaçıb uzaqlaşırdılar.

Ruzgarın amansız, şıltaqlığını, talehin oynadığı bütün bu oyunların dadını duyub yaşamağın nə olduğunu bilən Xəyaləsə, belə anları daha çox xoşlayırdı. O da öz dünyasında təbiətlə baş-başa qalıb, özünə məxsus tərzdə hesablaşırdı. Üzü küləyə qarşı, qara geyimli, qəbirsanlığa tərəf addımlayansa Xəyalə ilə Gülarə idi.

Kənardan hər bir insana, hüzn dolu kədər, bəxş edən qəbirsanlıqsa alqırmızıyla bəzədilmiş məzarlarıyla, ürəkləri param-parça edib ağrıdırdı. Bu qəbrlərsə, qarşısından ötən hər bir kəsi dayanmağa məcbur edərək, üzərində həkk olunmuş surəti ilə sanki dil açıb danışırdılar. Rahim dayının, Nazəninin, onun körpəsinin, Jalənin qəbirləri önündə, ayaq saxlayan, onu tanıyan və tanımayanlar belə, sarsılmaya bilmirdi. Müqəddəs ziyarətgah sandıqları, bu qəbirlərin önündə isə Xəyalə ilə Gülarə hər dəfə gəlib, qarşılarında diz çökərək yana-yana ağlayırdılar.

Xəyalə ürəyinin yanğısını söndürməmək üçün gah ağı deyir, gah da onların ruhu qarşısında sanki tanrı ilə üz-üzə duraraq gileylənirdi.

-Nazlım mənim. Sən niyə belə etdin. Bizi niyə yandırdın? Axı sən vəfasız deyildin Nazlı. Gülarə isə gözünün yaşını silərək

Qadir tərki vətən oldu Nazlı.

Yazıq qardaşım. O səni çox sevirdi Nazlı.

Xəyalə

-O gün yer də, göydə, qan ağlayırdı bu zülümə. O gün hər kəs xəbərsizdi sizin ölümünüzdən. Sizin həyatınız sirli bir kainatıymış Nazlı. Yarandığı kimi də bir anda yoxluğa qovuşan, sirli bir kainat. Siz yoxluq adlı bir həqiqətin olduğunu dərk etməyə qadir olan varlıqlar idiniz. Bizsə, bu acı həqiqətləri görə-görə yaşayan yoxluq adlı canlı varlıqlarıq Nazlı.

Gün axşama gedirdi. Xəyalə ilə Gülarə onların müqəddəs ruhlarının gölgələri ilə bir müddət baş-başa qaldıqdan sonra vidalaşaraq ordan, ayrıldılar.

Külək ara sıra, yağan yağışı pəncərənin şüşəsinə toxundurduqca, qəribə naxışlar diqqəti cəlb edirdi. O, istər-istəməz düşüncələrində yaratdığı cizgilərə bənzədirdi, bu naxışları. Bu naxışlarsa daha çox göz yaşlarına, yox daha çox, ürəyində, beynində iz salan xatirələr və daha çox nələrə-nələrə… Hərdən də kiprikləri ilə döyəcləyib, gözlərindən doğulan bakirə ağrılara bələnib, sınıb tökülən duyğulara bənzəyirdi.

Bəlkə, buymuş tənhalığın səsi, bəlkə buymuş dilsizliyin, səssizliyin yaranışı. Bəlkə də… Bu qəribəliklər kainatı sardıqca, təbiət dondan-dona girdikcə insan hisslərindən yaranan kainat, öz dünyasına bənzəyən sehrin qarşısında uşaq kimi sadəlövh, müdrük insan kimi düşüncəli olurdu. O, dünyanı dərk etmirdi. O özünü dərk edirdi. Tanrı, adlı bir sözün qüvvəsinə sığınırdı. O baxışları ilə bu mənzərəni oxşayır, kirpikləri ilə sığallayıb öpürdü.

Xəyalə bu gün çox dalğın idi.

-Salam doktor, deyə bu səs onu öz dünyasından ayırdı.

-Salam xalacan deyə Xəyalə pəncərənin önündən çəkildi. Və qollarını göylərə qaldırırmış kimi, geniş açan Cahan arvad onu köksünə sıxarkən, sanki ona nəvazişini hiss edirərkən Xəyalə, kövrəkləşib uşaqlaşırdı.

Cahan arvadsa gözlərində sevinc yaşları içində deyirdi.

-Əziz balam. Allah səni bizə çox görməsin. Allah ömrünü uzun eləsin qızım. Mənim balamın həyata qayıtmağına sən səbəbkar oldun. Dünya işığına həsrət qalan balamın gözlərinə nur gətirdin… Xöşbəxt ol qızım deyə onun üz gözündən öpürdü.

Doğurdan da Cahan xalanın qızının aperasiyası uğurla başa çatmışdı. Teleqramı isə elə özü, Cahan arvadın qızı gözlərinin sarığı açıldıqdan sonra vurdurmuşdu.

Xəyaləsə onun sevincinə şərik olaraq

-Cahan xala, siz nə danışırsınız? Sizin qızınızın sağalmağı xöşbəxtlik deyilmi. Allah tala sizin dualarınızı qəbul edib.

Cahan xala, buna görə mən özüm də ona çox şükür edirəm ki, mən də peşman olmamışam dedikdən sonra soruşdu. – Bəs qızınız nə vaxt gələcək Moskvadan?

Cahan xala

-Atası ilə qardaşı dünən yola düşdülər. Qızım deyib ki, gələn kimi birinci Xəyalə bacımı görməyə gedəcəyəm.

Xəyalə

-Çox şad olaram, Cahan xala dedi. Elə bu vaxt Tərlan doktor içəri daxil olub salam verdikdən sonra, onların, sevincinə şərik olub göz aydınlığı verdi.

***

Tərlan Xəyalənin dünyasına yaxınlaşdıqxca, onu da tez duyur daha tez hiss edirdi. Xəyalə də eləcə onun qayğılı anlarında narahat olur, onu mənən başa düşür, fikirlərini bölüşməkdə köməkliyini əsirgəmirdi.

-Gözümə narahat dəyirsən Tərlan

Tərlan əllərini saçlarına fikirli-fikirli çəkərək

-Yadındamı Xəyalə bizim bir xəstəmiz vardı. Daha doğrusu sənin rəfiqən. Nərgiz xanımı deyirəm.

Xəyalə həyacanlı təəccüblə soruşdu.

-Nərgiz? Nə olub ki, sən Allah tez de görüm.

Tərlan təəssüf hissi ilə başını yırğalayıb dedi:

-Bizim apardığımız əməliyyat sonra onun səhətində yaxşılığa doğru bir dəyişkənlik olmayıb. Əksinə daha da vəziyyəti pisləşib, ağırlaşıb. Bu bir həqiqətdir ki, hələ də tibb elmi bu xəstəliyin qarşısını almaqda aciz olduğunu sübut etməkdədir. Xərçəng, adlı bu bəlanın kökünün, rüşeyminin nəyə bağlı olduğunu hələ də aşkar edə bilmir. Və buna görə də neçə-neçə insanlar bu bəlanın qurbanı olur.

Xayalə səbri tükənmiş halda

-Tərlan, indi o hardadır?

-Bu gün onu bizim şöbəyə gətiriblər. Yenidən aperasiya olmaq ehtimalı olsada, onun səhəti haqda heç də, qənaətbəxş bir söz deyə bilmərəm. Bəlkə də, nə demək olar, o indi son dəqiqələrini yaşayır.

Mən onu müayinədən keçirərkən yalvarıcı baxışlarla gözlərini üzümə tikib –Xəyalə-Xəyalə deyə zarıyırdı.

Xəyalə

-O, indi hansı palatadadı Tərlan? Mən onun yanına getmək istəyirəm deyib acı təəssüf hissilə gözləri doldu.

Tərlan

-Gedək Xəyalə, amma söz ver ki, həyacanlanmaya-caqsan, eşidirsəmi?

-Gedək Tərlan gedək deyib Xəyalə onunla birgə otaqdan çıxdı.

Nərgiz, çarpayıda yarıhuşsuz vəziyyətdə uzanıb, gözlərini tavana zilləmişdi. Xəyalə ona yaxınlaşdıqda, Nərgizin həyat eşqi ilə dolu olan ac baxışlarını gördükdə özünü saxlaya bilməyib hönkürtü lə ağladı.

Nərgizsə onu hiss etdikdə gözlərini ətrafa dolandırıb, sonra Xəyalənin üzünə sakit-sakit baxdı. O, sümükləri çıxmış sarı göyümtül rəngə çalan əllərini Xəyaləyə sarı uzadıb iki dəfə xışıltılı səslə.

-Xəyalə, Xəyaləcan - deyib gözlərini onun gözlərinə zilləyərək qurumuş, qaysaq bağlamış dodaqlarını bir-birinə bərk-bərk sıxdı.

Xəyaləsə onun bu görünüşünə dözə bilməyərək, başını sinəsinə əyib özünü sakitləşdirməyə çalışırdı.

Nərgizin simasını görən hər kəs, onun xəyali bir insan olduğunu zənn eləyirdi. Onun, yastığına tökülən tel-tel ağarmış, saçları, qabarıq şəkilə irəli çıxmış sümükləri, tənəgənəfəsliklə aramsız enib qalxan sinəsi, xırıltılı nəfəsi daha nələr demirdi.

Ertəsi gün, onu aperasiya etmək üçün əməliyyat otağına gətirdilər. İki saat yarım keçən əməliyyatdan sonra onu reanimasiya şöbəsinə köçürdülər. Nərgiz burada üç gün qaldıqdan sonra, Xəyalənin qolları arasında, həyata vida söylədi.

***

Nərgizin ölümünən sonra, Xəyalə neçə gün idi ki, evdə xəstə yatırdı. O, bütün bədəninin halsızlaşdığını hiss etdikcə, taqətsiz olur. Bütün günü arxası üstə uzanmaq istəyirdi. O, elə bu anlarda, ötən hadisələri yaddaşında canlandıraraq, onların ağrı acısını bir daha yaşamaq istəyirdi.

Elə bu vaxt qapının tıqqıltısı onu fikirlərdən yayındırıb durmağa məcbur etdi. O qapını açdıqda Tərlanın bir dəstə güllə qarşısında dayandığını görüncə, istər-istəməz gülümsündü.

Tərlan gülləri Xəyaləyə verdikdən sonra içəri keçdi. Xəyalə ona yer göstərərək əlində saxladığı çiçəkləri güldana qoyub, dedi:

-Əyləşin Tərlan nə zəhmət çəkmisiz bir iki gündən sonra işə çıxacağdım onsuzda.- deyib güldana su töküb gülləri qoyduqdan sonra özüdə keçib oturdu.

Tərlan mənalı təbəssümlə

-Xəyalə xanım, olmasın azar, işə çıxarsınız özü xəstə olduğunuzu heç bir kəsə demədən

Xəyalə

-Siz nə danışırsınız Tərlan, nə xəstəlik, elə də ciddi bir şey yoxdur. Sadəcə olaraq Nərgizdən sonra özümü heç cür ələ ala bilmirəm, buna görə də bir az dincəlmək istəyirəm. Yəqin ki, bir, iki günə ötüb keçər deyə cavab verdi.

Tərlansa

-Yəqin bilirəm ki, bunun da günahkarı mənəm Xəyalə

-Siz nə danışırsınız Tərlan, məyər mənim əziz dostumun, rəfiqəmin haqqında mənə deməyə bilərdiniz? dedi:

Tərlan

-Onun vəziyyəti haqqında sizə danışarkən bəlkə də çox həssas olmamışam. Xəyalə

-Əksinə Tərlan, əksinə deyib ayağa durdu və

-Mən bu dəqiqə çay dəmləyim deyərək bayaqdan qazın üstündə qaynayan çaydanı götürdü. Bir azdan o, dəmlədiyi pürrəngi çayı süfrəyə gətib yenidən söhbətini davam etdi.

Tərlan söhbət əsasında, Xəyaləyə qarşı olan hisslərini açıqlamaq məqsədi ilə bəzi suallar verir və çox şeydən ehtiyat edərək hərdən də susurdu.

Xəyalə

-Tərlan işdə nə yenilik var?

-Bilmirsənmi Xəyalə, mənim üçün hər gün ola biləcək yenilik, məhs sənin özünlə bağlı ola biləcək bir andır. Sənsə mənə bunu da çox görürsən. Məni tək qoyursan.

Xəyalə tərəddüd içərisində yanaqaları qızararaq ,

-Mən sizin xatirinizi dünyalara qədər istəyirəm Tərlan dedikdə, Tərlan onun nə demək istədiyini bilərək qəsdən sözünü yarımçıq qoyub

-Xəyalə, mən bu gözəlliyi, sevgimi, sənli həyatı yenə xatirələrdə yaşamaq istəmirəm. Bilirsənmi mən arzularımın, sənli həyatımda gerçəkləşməyini daha çox istəyirəm və tez. Mən səni sevirəm Xəyalə. Gəl özünə də, mənə də əzab vermə deyərək ona heyranlıqla baxdı. Xəyalə yaxşı bilirdi ki, Tərlan adlı bir hiss, onun qəlbinə hakim kəsilir. Onu düşündürür, narahat edirdi. O, bunun sevgi hissindən çox-çox uzaq olduğunu da dərk edir və bəlkədə Tərlanın onu daha yaxşı başa düşə biləcəyi tərzdə, onun keçirdiyi tərəddüdlə dolu düşüncələrini bilməyinin arzusu ilə yaşayırdı.

Tərlansa nə olursa olsun təki Xəyalənin onun olmasının, onunla yaşamasının həsrətiylə yaşayardı. Bir az keçmiş Tərlan qol saatına baxdıqdan sonra dedi:

-Xəyalə xanım, icazə verin mən gedim. Sizəsə tezliklə sağalmaq və mənim gözümü yolda qoymamağı arzulayıram.

Xəyalə onu ötürdükdən sonra sanki, ağır bir yükün çiyinlərindən götürüldüyünü hiss etdi. Nəfəsi genişləndi. Peşmançılıq hissi azaldı. Qəlbində özünü qınayırmış kimi Talehli düşüncələri ilə baş-başa qaldı.

O, çiçəkləri mənalı baxışlarla süzərək, ləçəklərini oxşaya-oxşaya, acı-acı gülümsünüb pıçıldadı.-Bu ola bilməz… Talehinmin yerini heç bir kəs əvəz edə bilməz.

Qəlbində yaranan boşluğu yalnız onunla bağlı xatirələr və yalnız onunla bağlı sevgilər dolaşa bilər. Başqa heç cür ola

bilməz…. Ola bilməz deyib əlləri ilə qulaqlarını qapayıb, gözlərini yumaraq, sanki heç bir şey, eşitməmək, heç bir canlı görməmək, yalnız və yalnız Talehinin, sevgilisinin ruhu ilə baş-başa qalmaq istəyirdi.

***

Xəyalə axırıncı kursun, sonuncu, yay imtahanlarına hazırlaşırdı. O, kitab oxuyur və bəzi qeydlər aparırdı. O, təklikdən, bezirmiş kimi, tez-tez pəncərədən həyətə baxır, hərdən də ah çəkərək, köks ötürürdü. Elə bu anlarda qapının döyüldüyünü eşidincə uşaq sevinci ilə yüyürüb qapını açdıqda Talehin hər dəfə olduğu kimi, əlində gül-çiçək dəstəsi ilə dayandığını görərək ürəyində saxladığı sözləri bir nəfəsə gülləri onun əlindən alıb deyirdi:

-Nə yaxşı ki, gəldin ürəyimin partlamasına azca qalmışdı. Gülə-gülə keç evə əzizim deyib

Tahlehsə özünə məxsus ədayla gülü Xəyaləyə verdikdən sonra

-Salam əzizim, elə bilirsən ki, təkcə sən darıxırsan? Deyib keçib oturdu.

Xəyalə qaşlarını dartaraq

-Hə necə bəyəm, uşaq kimi gözlərini süzdürdü.

Taleh gülümsünə-gülümsünə

-Yox əzizim sən mənim qədər darıxa bilməzsən

Xəyalə

-Neyçün?

Taleh

-Ona görə ki, sən hələ də oxumaq haqqında, mənsə tezliklə sənlə evlənmək haqqında düşünürəm.

Xəyalə onun boynunu qucaqlayıb

-Taleh axı niyə belə fikirləşirsən, məni küsdürmək istəyirsən? deyib üzünü onun üzünə söykədi. Talehsə bu an ayağa qalxıb onu köksünə sıxaraq saçlarından öpüb,

-Əgər sən mənim inciməyimi istəmirsənsə, imtahanları verdikdən sonra gedirik rayona və tezliklə bu haqda valideyinlərimizə deyirik.

Xəyalə

-Bəs sonra

-Taleh

-Sonra isə sənə elçimi göndərib tezliklədə toyumuzu edirik dedi:

Qapının səsi Xəyalənin düşüncələrindən ayırdı. Gülarə idi.

-Gəl Gülü gəl, keç otur, nə yaxşı ki, gəldin elə darıxırdım ki,

-Gülarə

-Xəyalə bacı heç məni demirsiz elə başım sıxılır.

Xəyalə

-Bir problemin yoxdur ki,

Gülarə gözlərini Xəyalədən yayındıraraq

-Heç elə belə, heç bir problemim yoxdur Xəyalə bacı amma… Nazənindən sonra burada yaşamaq istəmirəm. Çıxıb getmək, buradan olduqca uzaqlaşmaq- istəyirəm deyib ah çəkdi.

Xəyalə

-Gülarə inan ki, mənim üçündə burada yaşamaq çox çətindir. Bu ev, sanki məni bir məngənə kimi sıxır, Nazənin ayağı dəyən, nəfəsi toxunan yerlər, ürəyimi didib parçalayır.

Mən səni tək qoymaq istəmirəm düzü mən özümdə sənə görə burada qalmışam. Amma Gülü yaxşı olardı ki, sən ailə qurduqdan sonra burada qalasan, yaşayasan, bu evdə boş

qalmasın onda Nazənin də ruhu şad olar. Mən də ev aldıqdan sonra rahat çıxıb gedərəm burdan.

Bu vaxt Gülarə fikirli-fikirli başını yırğalayaraq ah çəkib dedi:

-Eh artıq bundan sonra mənim üçün ailə qurmaq, yaşamaq boş-boş söz söhbətdən başqa bir şey deyil

Xəyalə təəcüblə

-Sən nə danışırsan ay qız sənin nə yaşın var ki, belə tez həyatdan bezməyinin yəqin ki, bir səbəbi var.

Gülarə

-Eh Xəyalə bacı heç deyiləsi deyil.

Xəyalə

-Məndən söz saxlayırsanmı Gülü bəlkə mən sənə hardasa bir yol göstərə bilərəm. Bəri başdan deyim ki, elə bu sözlərinə görə sən səhf edirsən.

Gülarə tərəddüd içərisində

-Yox-yox Xəyalə bacı, sizdən nə gizlədim, mənim sizin məsləhətinizə həmişə ehtiyacım olub. Hələ inisituta daxil olduğum ilk gündən Camal adlı bir oğlanla tanış oldum.

Bir-birimizə qarşı olan yaxın münasibət getdikcə məhəbbətə çevrildi. Yəni hər ikimiz hiss edirdik. Və beləcə bir müddət aradan keçdikdən sonra o, məni sevdiyini dedi:

Mən inandım. Lakin təəssüflər olsun ki, sonralar bütün bunların yalan olduğunu bildim. Onun mənə qarşı olan sevgisi, münasibəti sən demə heç də ciddi deyilmiş. O,bütün bu vaxt ərzində sən demə məni aldadırmış deyib ağladı.

Xəyalə

-Gülarə, bəs nədən bildin ki, o səni aldadır?

Gülarə

-Son vaxtlar onun hərəkətlərindən, danışığından çox şübhələnirdim. Lakin ona qarşı olan sevgim mənə hər şeyi unutdururdu. Qısqanclıq hissi isə, məni heç cür rahat

buraxmırdı. Elə buna görə də maraq hissi mənim bütün düşüncələrimi alt-üst etdi. Və mən acı həqiqətlərlə üzləşməli oldum. Sən demə o, mənimlə dostluq etdiyi müddətdə belə bir neçə qızla gəzir və onları aldadaraq sevdiyini deyib yaxın əlaqədə olurmuş. Ən dəhşətlisi isə, iki dəfə qurduğu ailə həyatının tezliklə dağılması idi. Mən bunları eşitdikdəsə, ayaqlarım yerə yapışırdı. Sanki, ağlıma sığışdıra bilmirdim bütün olub keçənləri.

Onun xəyanətkar olmağı məni sarsıdır, dəhşətə gətirirdi Xəyalə bacı. İndi mən özümü heç cür bağışlaya bilmirəm. Atdığım səhv addım mənim arzularımı, sevgimi, həyatımı məhf etdi. İndi mən hər şeyə nifrət edirəm. Heç bir kəsə inanmıram, inamımı itiridiyim üçün yaşamaq belə istəmirəm deyib əllərini üzünə qapayaraq ağladı.

Xəyalə, artıq onun qəlbini necə ovundurmaq haqqında düşünürdü.

-Gülarə, özünü ələ al, sən ki, uşaq deyilsən. Belə hadisə təkcə sənin başına gəlməyib. Sən sevin ki, yenə də onu tez tanımısan. Sonra çox gec olardı. Eşidirsənmi, belə xəyanətkar insana görə isə, əzab çəkməyə dəyməz. Sənin gələcəyin hələ qabaqdadır. Vaxt gələr, sənin sevginə layiq olan bir insan qarşına çıxar və sən onunla xöşbəxt olarsan deyib onun saçlarını sığalladı. Lakin Gülarəsə iç dünyasında heç kimə bəlli olmayan bir dünyasını yaşayırdı. Çünki o, Camalı sevirdi.

***

Qışın soyuq buz üzü deyəsən baharın nəfəsinə al-əlvan donlu gözəlliyi qarşısında təslim olurdu. Həmişə olduğu kimi, Xəyalə işdən evə vaxtında gəlirdi.

O, həyətə girdikdə Gülarənin bir oğlanla söhbət etdiyini görəndə, elədə təəccüblənmədi. O,

-Salam Gülarə burada niyə durmusunuz, evə niyə keçmirsiniz deyib onları evə dəvət etdi.

Gülarəninsə qayğılı, narahat olduğu açıq-aşkar bilinirdi. Bununla belə o, özünü yenə də ələ almağa çalışırdı. Bütün bunlarsa Xəyalənin gözündən yayınmırdı.

Xəyalə oğlana yer göstərib

-Buyurun əyləşin dedikdən sonra Gülarənin yan otağa keçməyinə işarə etdi.

Gülarəsə başını aşağı dikib peşman-peşman susurdu.

Xəyalə

-Gülarə bu oğlan kimdir? deyə marağını gizlətməyərək soruşdu -Gülarə onun üzünə baxmadan

-Bu odur, həmin oğlandır – deyə cavab verdi.

Xəyalə təəccüblə

-Bəs sən..? Deyirdin…

Gülarə - Əl çəkmir məndən, yalvarır, hədələyir məndən heç vaxt əl çəkməyəcəyini deyir.

Xəyalə

-İndi nə düşünürsən?

Gülarə

-Bilmirəm Xəyalə bacı. Təkcə onu bilirəm ki, o mənim həyatıma bəla kimi gəldi. İstəsəmdə istəməsəmdə bu bəla mənim başımın üzərində hərlənir. Mənə dinclik rahatlıq vermir.

Xəyalə

-Əgər sən həqiqətən də ondan üz çevirmək istəyirdinsə bu, münasibətin başlanması nə deməkdir?

Gülarə - Xəyalə bacı, inan ki. ürəyim partlayır özümlə bacara bilmirəm. O bəla mənim bütün hisslərimlə, qəlbimə hakim kəsilib elə bil.

Xəyalə – Bəs sonra?

-Bilmirəm…

-Sən onu sevirsən, Gülü sevirsən! Gülarə başını qolları arasına sıxıb ağlayırdı. Xəyalə dərindən köks ötürüb.

-Düz deyirsən gülü. Sevgi bəladır. O, sənin də qismətinə bir cür yazılıb. Sənsə bu hisslərin qarşısında acizsən deyib əllərini onun çiyinlərinə qoydu və

-Dur Gülü, dur yaxşı deyil. Axı o bu gün sənin qonağındır. Ged otur. Mən özüm sizin üçün çay gətirəcəyəm.

Gülarə sanki könülsüz halda ayağa qaxıb qonaq olan otağa keçdi. Gənc onun dinib danışmadığını gördükdə, hövsələsi daralmış kimi,

-İcazə versəydin bir papiros çəkərdim deyib əlində oynatdığı siqaretin içindən bir papiros götürüb damağına qoydu.

Bir iki qullab vurub, qaşlarını dartıb özünə məxsus ədayla

-Görürəm səni çox incitmişəm deyib susdu. Sonra papirosdan bir qullab da vurub gözlərini dolandırıb dedi.

-Gülarə, məni başa düş onsuzda məni heç kəs başa düşmək belə istəməyib. Mən istəməzdim ki, səndə onlardan biri olasan. Mən səni sevirəm, başqa cür sevirəm. Gülarə, inan ki, heç bir sözlə bunu indi sənə izah edə bilmərəm. Amma təkcə onu bilirəm ki, sən mənim aləmimdə tamam başqa bir insansan və mən o insanı heç bir vaxt itirmək istəmirəm.

Gülarəsə, gəncin söylədiyi son sözündən sonra rəngi avazıdı, əsəbi halda özünü saxaya bilməyib dedi:

-Görən bu sənin neçənci sevgilindir? Neçənci istədiyindir? Heç olmasa bunu mənə de. Sən məni aldatmısan Camal eşidirsən? aldatmısan!

Mən səni necə bağışlaya bilərəm axı. Sən məni özünü nə hesab edirsən? Bəli mən səni başa düşürəm. Sənin üçün, həyatda sevməkdən, istəməkdən, yaşamaqdan asan nə var ki, hissiz, duyğusuz, zövq almaqdan savayı. Aldatdığın qızların

hisslərilə oynamaqdan, həyatını zəhərləməkdən savayı. Özümlə birgə, sən adlı həyatda gözümdən düşüb. Sənisə qınamıram axı sən bu yalan həyatın, yalan dünyanın ən layiqli, vətəndaşısan. Nə sənə, nə bu həyata, nə də sevgi adlı, bir məhfuma inanmıram. Hər şey yalandı, riyadı sənin kimi riyakardı.

Gülarənin bənizi ağappaq olmuşdu. O, əsim-əsim əsirdi. Camal onu bu vəziyyətdə görüb, dili, dodağı qurumuş halda kəklədi.

-Gülarə sən, bəlkədə öz fikirlərində haqlısan. Lakin mənə qarşı olan bu iddihamında bu qədər amansız olma. Əzizim eşidirsənmi? mən səni gördüyüm, tanıdığım ilk gündən belə, kim olduğumu sanki anlamışam, və sevgi hissinin nə olduğunu dərk etmişəm. Gülarə, səni tapdığım gündən itirəcəyimdən qorxurdum. Bələkə də bütün olub keçənləri səndən gizləməyimin də səbəbi bu idi. Məni başa düş, məni bağışla əzizim.

Bu vaxt Xəyalə əlində çay padnosu içəri keçdi. Çayı onların qarşısına qoyub özü də oturduqdan sonra bir gəncə, bir də ki, Gülarəyə qınayıcı baxışlarla baxıb dedi:

-Gəlin belə danışaq. Dostcasına, bütün incikliklər kənara qoymaq şərti ilə, öz taleyinizi, gələcəyinizi düşünün və tez də hökm verməyin.

Hər şeydən əvvəl bir-birinizi başa düşmək, hisslərinizə hörmətlə yanaşmaq, və ən azı isə aranızda olan münasibətin əsil sevgi olduğunu bildikdən sonra bir-birinizə qarşı durun. Bax onda həqiqətin nə olduğunu, anlayacaqsınız. Və hər şey siz istədiyinizidən də artıq həll olunacaqdır. İndi isə çayınızı için və mənim sözlərimi unutmayın.

Xəyalənin

Sanki odun üzərinə su ələnmiş kimi Xəyalənin sözü-söhbəti onların qəlbinə qeyri adi bir dinclik, sərinlik gətirmişdi. Bir müddət beləcə, başqa ruhda, başqa mövzuda söhbət

etdikdən sonra oğlan, Xəyaləyə öz təşəkkürünü bildirərək artıq getməyin vaxtı olduğunu deyib ayağa durdu. Gülarə onu qapıya qədər ötürdü. Gənc qapıdan çıxarkən Gülarənin gözlərinə peşman-peşman baxıb dedi:

-Məni bağışla Gülarə: Məni başa düş sənə qarşı olan sevgimə inan.

Gülarəsə daha ona bir söz deməyib geri döndü.

Camalın gəlişi yenidən Gülarənin iç dünyasını alt-üst etmişdi. Onun adını belə dilə gətirmək nə qədər çətin olsa da şirin əzabla ürəyinə hakim kəsilmişdi.

Xəyalə onu bu fikirlərdən ayrılmaq məqsədi ilə, maqnitafonu işə saldı. Otağı həzin bir musiqi sədası qoynuna aldı. Bu ansa sanki Xəyalə özündə sözündə deyildi. O, musiqini dinlədikcə sanki ruhu uçunur, özünü bir anlıq unudur. Talehli dünyasıyla baş-başa qalırdı. Sonrasa o yuxulardan ayrılırmış kimi Gülarənin üzünə sevgi dolu baxışlarla baxıb pıçıldayırdı.

-Eşidirsənmi Gülü…, bax, bir vaxtlar mən çox xöşbəxt idim.

Həyatımdan, sevgimdən zövq alırdım, indisə… o anları musiqi dinləyərkən yaşayıram, və ruhən dinclik tapıram, rahatlanıram.

Xəyaləni bu gözəl, incə, kövrək hisslər sirli, sehirli ecazkar dünyasına qapandırmışdı.

Talehli anlarını musiqinin sözləri sanki yenidən əks etdirirdi.

Yaşayırıq, şərqilərdə
bu sevginin dadını
Talehim duyurmu görən
qəlbimin fəryadını

Ayrılıq ayırmadı,

ürəyimdən adını
Mən sənin ömrünü
yaşayıram sevgilim.

Sən mənim həyatımın acısını duysan da,

-Mənim Talehim, etibarlım, vəfalım. Mənsə səndən sonra yaşadım… Talehim, hər nəfəsimdə ölsəm belə, hər an sənsizliyi düşünmədən, dərk etmədən yaşamadım Talehim.

Xəyalənin gözlərindən yaşlar süzüldükcə o sanki, sarsılır, uşaqlaşır, məsumlaşırdı.

Gülarə onu görüncə

Bu nədir Xəyalə bacı, siz mənə təskinlik verdiyiniz halda… özünüz…

Xəyalə üzündəki yaşları silərək dərindən ah çəkib dedi:

-Gülarə. İnan ki, mən. yaşadığım həyatdan belə zövq alıram bu mənə o qədər xoşdur ki.

Hər söz , hər söhbət, hər musiqi, hər hansı bir xatirə onu mənə anladır.

-Xəyalə bacı, əgər sizin üçün çətin deyilsə onun ölümü haqda danışardınız.

Xəyalə

-İnisitutu bitirdikdən sonra, rayona qayıtdıq. Artıq toya hazırlıq görülürdü. Bu müddət ərzində Taleh tez-tez bizə gəlib gedərdi. Sonra, nədənsə bir neçə gün o gəlmədi. Düzü çox narahat olurdum. Soruşanda onun əllərinin sarğıda olduğunu və bunun üçün gəlmədiyini eşidərkən bunu heç cür ağlıma sığışdırmadım. Beləcə bir ay kimi onlardan bizə heç bir kəs gəlmədi. Sonra o, özü anası ilə bizə gəldikdə bir az üz nahiyəsində əllərində yanıq izləri gördüm. Soruşanda onu, tok vurduğunu bildim nə isə… Gülü sən demə bəlanın bəlkə də ilk nişanəsi, ilk xəbərdarlığıymış bu. Və o gün gözlədiyimiz o

xöşbəxt an gəlib çatdı. Lakin heç özümdə dərk edə bilmədiyim bir hissi yaşayırdım. O gün çox kədərliydim üzüm gülmürdü, qəlbim sevinmirdi. Bir sözlə özümə acığım tuturdu. Bu hərəkətlərimləsə, istər-istəməz hər kəsə qəribə təsir bağışlayırdım. O dəqiqələrsə yaxınlaşırdı. toy günü, Talehlə mən ilk və son xöşbəxt anı yaşadıq. Xəyalə sarsılmış halda bir an susduqdan sonra yenidən sözünə davam etdi.

- Toy günü Qəzaya uğradıq, dəhşətli bir qəzaya Gülü. Şofer də Taleh də bütün qan içindəydilər. Mən özüm də çox ağır yaralanmışdım. Qıçlarım sınmışdı. Başımdan zədə almışdım. Mən heç bir şey hiss etmirdim.

Qəzadan üç gün keçmiş mən ayıldım və eşitdim ki, Talehlə şofer qəza baş verərkən elə ordaca keçiniblər. Bu xəbəri eşitdikdən sonrasa bütün bədənimin ağrılarını hiss etdim. Mən o anı yaşadım Gülü.

Sonralar çox istədim ki, özümə qəsd edim. Atamın əzabını, ögey anamın, sonra atama qarşı olan tənələri, camaat hər şey gözlərimin önündə durdu. Hə beləcə qısa bir ömür yaşadım Talehimlə Gülü.

***

Dan yeri sökülürdü. Günəş yuxusundan oyanaraq gecənin qaranlığını kipriklərindən qırpdıqca, al qırmızı rənglər çilənib qızılı rəngli şəfəqə çevrilərək ətrafa yayılırdı. Günəş gözlərindən yağan təbəssümlə yer üzünə tamaşa etdikcə, yer üzündə göyün bəxtəvərliyinə heyran qalırdı.

Sübh tezdən yuxudan oyanan Gülarə bu gözəlliyə, heyran-heyran baxır sinə dolu nəfəs alırdı. Bu gün də Gülarə həmişə olduğu kimi dərsə tələsirdi. Elə bu vaxt aramsız çağıran telefon zəngi onu bir an ayaq saxlamasına məcbur etdi.

-Alo eşidirəm necə, yox Camal biz ki çoxdan qurtarmışıq…

Məndən əl çək. Bir də yoluma çıxma eşidirsənmi? deyib dəstəyi yerinə qoydu.

İllər-illəri əvəz edirdi. Gülarə artıq beşinci kursda oxuyurdu. O, bir gün dərsdən evə gəldikdə, kiminsə yeyin addımla onun ardıyca gəldiyini hiss etdi.

-Dayan Gülarə

Bu Camal idi. O Gülarənin qolundan tutub saxlayaraq nəfəsi tövşüyə-tövşüyə:

-Məndən niyə qaçırsan.

-Axı məndən nə istəyirsən Camal

Əl çək məndən, biz ki, başqa-başqa adamlarıq. Bizim aramızda elə bir uçrum yaranmışdır ki, əgər biz yenidən birləşsək, hər ikimiz o uçrumun dibinə yuvarlanacağıq. İndisə çıx get. Mən səni bir daha görmək, eşitmək istəmirəm.

Gülarənin sərt baxışları sanki onun iliyinə qədər işləyirdi, didib parçalayırdı. O yoluna yenidən davam etdikdə. Oğlan ona qarşı müqavimət göstərərək

-Səninləyəm Gülarə, dayan bir qulaq as, eşidirsən mən səni sevirəm deyib onu qolundan tutmağa cəhd etdi. Lakin Gülarə inadından dönməyərək yenidən özündən kənar etmək istədi.

-Camal, mən səni təhqir etmək istəmirəm. Əl çək məndən yoxsa-

Camal

-Yoxsa- nə. hə…-hə deyə oğlan qışqıraraq onun qolundan bərk-bərk tutub sirkələdi.

-Yoxsa bu dəqiqə milis çağıracağım. Dedim ki, burax qolumu deyərək var gücü ilə onun üzünə sillə çəkdikdə oğlan dözə bilməyərək onu özünə tərəf çəkib dodaqlarından öpməyə çalışdı Gülarə onun yaxasından itələyib.

-Rədd ol əclaf, mən sənə nifrət edirəm. Səndən iyrənirəm deyərək qışqırdı. Bu zaman oğlan əlləri ilə onun ağzını qapayaraq yaxınlıqdakı ağaclığa sarı çəkərək dedi:

-Sən mənim olmalısan mənim eşidirsənmi, deyərək getdikcə sıxlaşan şam ağaclarının arasıyla sürüdü, və qızın müqavimətinə baxmayıb əynindəki paltarları cıraraq onu zorladıqdan sonra vəhşicəsinə qətlə yetirdi.

***

Neçə gün idi ki, Xəyalənin başı ev-eşiyə sığa bilmirdi. O, Gülarəni axdarmadığı, soraq etmədiyi yer qalmamışdı. Rayona, anasıgilə, xəbər verdikdən sonra isə axtarış üçün cinayət axtarışları şöbəsinə məlumat verməyi qərara almışdı. Və milis işçiləri isə tezliklə onun meyidini elə həmin yerdə, ağacların arasında tapmışdılar.

Bir neçə gün ərzindəsə Gülarənin üz-gözü tamamilə tanınmaz hala düşmüşdü.

Cinayəti törətdikdən sonra elə həmin günün səhəri, Rusiyaya yola düşən Camal isə, Gülarənin ölümündən iki ay sonra milis işçiləri tərəfindən tutuldu və məsuliyətə cəlb olunaraq, cəzasını çəkmək üçün Bakıya gətirildi.

Güllü arvadsa qızının faciəli surətdə ölümündən sarsılaraq, ağır bir xəstəliyə düçar olmuşdu.

O, hər tezdən sübh açılar açılmaz ağlayar.

Qadir oğlum hardasan gəl bacının qatilini öldür. Qızım Gülarə bu sənsən, sən ölməməlisən, mənim balam. Sən sağsan, gəl əlini ver mənə görümkü bu yuxu deyil getmə-getmə deyə qışqıraraq divarları döyəcləyərək tez-tez huşunu itirirdi.

Rza isə, Qadirin yerini-yurdunu bilmədiyi üçün sarsılır, onu bağışlamırdı.

***

Xəyalə bacısı Nəcibə ilə birgə qalırdı. Nəcibə də öz növbəsində imtahanlara hazırlaşır. İnisituta daxil olmaq arzusu ilə yaşayırdı. Bütün bu vaxt ərzindəsə Tərlan tez-tez gələr onlara baş çəkərdi.

Xəyalə, bir dost, bir sirdaş kimi, Tərlana elə bağlanmışdı ki, onu bir gün görməyəndə, onunla söhbət etməyəndə sanki, nəyisə itirmiş adamlar kimi vurnuxardı.

Bir gün də onlar söhbət etdiyi an mətbəxdən nəyinsə yerə düşüb möhkəm səs saldığını eşitdilər. Mətbəxə gəldikdə heç bir şey olmadığını görüncə bir-birinin üzünə maraq dolu təəccüblə baxdılar.

-Sən eşitdinmi Tərlan?

-Hə eşitdim, əməlli başlı, elə bil kimsə qabı yerə çırpdı.

Xəyalə bu sözü eşitdikdə sanki tutulmuş kimi Tərlanın üzünə bir də mətbəxə sarı çevrilib nəzər yetirdi.

-Xəyalə, deyirlər ki, ruhlar öz doğmalarını axtardığı zaman gəzib dolaşarkən, kimisə gördükdə, gəldiklərini bildirmək üçün nişan olaraq belə edirlər. Mənim anam bu vaxt o ruhların adına qazan asar, onların ruhu şad olsun deyə yad edərdi. Bişirdiyi xörəkdənsə ehsan kimi gələnə-gedənə pay verər. Sanki öz borcunu verirmiş kimi ürəyi sakit olardı.

Xəyalə Tərlandan bu sözləri eşitdikdən sonra dili, boğazı qurumuş kimi bir söz deyə bilməyib kresloya çökdü.

Tərlan bu vaxt peşmançılıqla ona yaxınlaşıb

-Bağışla məni Xəyal mən belə demək istəmirdim. Mən sənin qəlbinə toxuna biləcək bir söz olacağını ağlıma gətirməzdim.

-Yox yox Tərlan, sən haqlısan niyə belə düşünürsən. Bunun bir həqiqət olduğunasa mən özümdə inanıram.Xəyalə bu sözləri elə təmkinlə elə aram-aram söylədi ki, sonra dünyasına qapanıb məhrəm hissləri ilə baş-başa qaldı.

-Talehim…, bəlkədə bu sənsən… Məndən incimisən. Nazlı belə etməzdi, yox-yox Rahim dayının ruhu məndən heç zaman inciməz. Yalnız bu sən ola bilərsən ancaq sən Talehim. Tərlanla olan yaxınlığımsa özümü-özümdən uzaqlaşdırır, və heç kim olduğumu anlayıram, ruhsuz, hissiz, duyğusuz, bir varlıq olduğumu dərk edirəm. Lakin bu səs, o an məni özümə qaytardı Talehim mənim, vəfalım, etibarlım, vəfasız olduğumdanmı məndən incidin. Günahkaram, vəfasızam, vəfasızam.

Xəyalə ixtiyarsız olaraq əlləri ilə qulaqlarını qapadı. Sanki bu səs onun beyninə, ruhuna hakim kəsilib hər an onu sarsıdırdı.

Tərlan onun qəlbinə toxunduğunu hiss edib, artıq bir söz belə deməyə cürət etmədi. Və bir qədər keçdikdən sonra

-Xəyalə xanım icazə versəydiniz, mən gedərdim deyib ayağa durdu.

Xəyalə onunla sağollaşdıqdan sonra qapıya qədər ötürüb. Geri qayıtdı. O gün Xəyalə özünü çox narahat hiss edirdi.

O, bu anlarda özünü sakitləşdirməyə çalışaraq bir anlıq hər şeyi unutmaq istəyirdi. Lakin o bədəninin zəiflədiyini, ayaq üstə dura bilməyərək müvazinətini itirdiyini dərk edincə,

çarpayıya sarı gedib sakitcə, uzanmağa çalışdı. Bu an o, ruhunun bədənində cövlan etdiyini duyunca, bədəninin bumbuz olduğunu hiss etdi.

O, ruhunun bədənindən çıxdığını görüncə özündə xoş hissiyatla birgə, yüngüllük hiss etdi. Onun ruhu başı üzərində dayanıb, bir an, yerdə hərəkətsiz qalan bədəninə tamaşa etdikdən sonra, bir neçə dəfə evin dörd bir tərəfində dolanaraq sonra yenidən, əzablarını unutmuş, bədəninə qayıtdı.

Onun donmuş bədənindəki əzaları, yenidən isindi Xəyalə, həzin ilğıma bənzər bir cərayanın bədənimdən keçdiyini duyunca dərindən köks ötürüb gülümsünərək şirin yuxuya daldı.

-Salam əzizim bu sənsən?

-Xəyalə, səni çox sevirəm

-Taleh məndən incimisənmi?

Əzizim, səni xöşbəxt görmək istəyirəm.

-Mən indi sənlə daha xöşbəxtəm Talehim.

-Xəyalə

-Taleh

-Sən necə də gözəlsən Xəyal

-Al məni qoynuna Talehim görürsənmi mənim ruhum necə əzab çəkir.

-Xəyalə sən gözəlsən, mən səni sevirəm.

-Mən sənsiz yaşaya bilmərəm Taleh.

-Gəl ayrılaq.

-Getmə əzizim dayan

-Xəyalə

-Taleh…

Xəyalənin son dəfə söylədiyi söz sanki onun qulaqlırında cingildədi. O, yuxudan ayılırmış kimi öz səsinə diksindi. O, sinəsini əlləri ilə ovuşduraraq, sarsılmış halda xəyalları içində yuxuya daldı.

Bu gecə Nazənin onun yuxusuna gəlmişdi.

Hər tərəf, al-əlvan gül-çiçəyə bürünmüşdü. Əsrarəngiz gözəlliklər göz oxşayırdı. Xəyalə ağ libasda, mələklər kimi uçan Jaləni görüncə sevinərək, ona sarı getmək istədikdə, güllərin arasından Nazənin ona sarı gəldiyini gördü. Nazənin çiçəklərin iri bir dəstəsi əllərində, Xəyalənin qarşısında dayandı.

Çiçəkləri Xəyaləyə sarı uzadaraq

-Al götür Xəyalə, bir gör necə gözəldirlər deyib gülə-gülə onların başı üzərində uçuşan mələklərlə birgə Xəyaləyə tamaşa edən Jaləni göstrərək geri döndü.

-Gəl Xəyalə, deyərək onu çağırdı.

Xəyalə, Nazəninin ona verdiyi çiçəkləri qoxuduqca bihuş olurdu. Və Nazlı məndə burada qalmaq istəyirəm deyib onun ardınca gedirdi. Nazənin onun əllərindən tutub, çilçıraq içində, bir bərq vuran, əfsanəvi gözəlliyi olan, sanki sarayı xatırladan bir guşəyə gətirdi. Xəyalənin ayaqları dəyən yerlərdən, ecazkar səslər, qalxdıqca cənnət quşlarının səsi ətrafa yayılaraq Xəyalənin ruhunu titrədirdi. Füsünkar gözəlliklərlə dolu olan sirlər dünyası onun ruhunu beləcə özünə əsir etmişdi. Birdən Nazəninin ruhu ondan, bu an kənarlaşaraq,

-Xəyal sən getməlisən eşidirsənmi, getməlisən deyərək ona əl edib getdikcə gözdən itirdi. Xəyalə başı üzərinə baxdıqda isə artıq nə Jaləni, nə də ki, mələkləri birgə uçuşan körpəni gördü. O, həyacan içərisində, ürəyinin səsini eşitdikcə gözlərini açırdı.

Xəyalə bu anlarda aldığı təəssüratdan hələdə ayılmırdı.

***

İsti yay günlərindən bir idi. Nəcibə imtahana hazırlaşırdı. Elə bu vaxt qapının zəngi çalırdı. Nəcibə qapını açdı.

Gələn Xəyalə idi.

-Salam Nəcibə

-Salam Xəyalə

-Gözümə bir təhər dəyirsən.

-Yorulmuşam bacı. Bu gün bütün günü testdə olan suallarla tanış olandan sonra, cavablarını öyrənmişəm, şparqalkalar yazmışam. Bir sözlə elə yolulmuşam ki, heç deyiləsi deyil.

-Məni demirsən Nəcibə həm də, elə acmışam ki, nə var yeməyə

-Düzü heç bir şey bişirməmişəm, amma soyuducuda kalbasa, yumurta var. Xörək hazırlanana qədər hələlik ondan yeyib mədəmizin başını aldadarıq.

-Əsil tənbəl yeməyidir. Di tez ol. sən Allah süfrə rahla məndə əlimi yuyum, paltarımı dəyişim gəlirəm. Bir azdan süfrə hazır olduqdan, onlar yeyib içdikdən sonra Xəyalə süfrəni yığışdıra-yığışdıra dedi:

-Nəcibə evimizdən ötrü elə darıxıram ki, burnumun ucu göynəyir.

-Eh məni demirsən, atamdan, anamdan ötrü bağrım çatlayır.

-Nəcibə gəl bu həftə rayona gedək hə, bir azda pay-püş hazırlayım. Bayram qabağı həm onlar sevinsin, həm də ki, biz.

-Yaxşı olar bacı, mənim də ürəyim istəyir.

Xəyalə bir az duruxduqdan sonra yenidən sözünə davam etdi.

-Bilirsən, Nəcibə, artıq qəti qərara gəlmişəm. Ev almağa da ki, kifayət qədər pulum var. Təkcə ata, anamı razı sala bilsəm pis olmaz.

-Bu evdən çıxmaq istəyirsənmi bacı.

-Əlbətdəki. Bilirsənmi Nəcibə, mən artıq burada qala bilmirəm. Hər bir şey, burada yaşayan, mənə əziz olan insanları xatırladır. O ansa sanki daşlar-divarlar dilə gəlib mənimlə

danışır. Mənə əzab verilər. Dözə bilmirəm. Elə bu haqda da atamla məsləhətləşmək istəyirəm. Tezliklə ev alıb onları da bura köçürmək istəyirəm Nəcibə. Sən necə fikirləşirsən? – deyib ona sarı baxdı.

Nəcibə çiyinlərini dartaraq

-Nə bilim bacı, düzü bu mənim də ürəyimcədir. Amma, atamla, anamın bu fikirlə razılaşmağına isə çətin ağlım kəsir ki, razı olsunlar.

-Hər halda onlarla bu haqda danışacağam Nəcibə.

VIII FƏSİL

Xəyalə ilə Nəcibənin gəlişi Durna arvadın özü demişkən, gözünü işıqlandırmışdı. Həmişə olduğu kimi, yenə də onun səsi həyəti başına götürmüşdü.

-A Ruslan, ay gədə hardasan? Get bir qoma odun gətir a bala. Başına dönüm. Bir manqal qala ət doğranıb hazırdı. Sonrasa ərinə eyhamla

-A kişi nə durmusan xan kimi başımızın üstündə, sən də bir iş görsənə deyərək, bayaqdan küllədiyi sacı yanan ocağın üzərinə qoyub, çörək bişirmək üçün yerini rahatladı və eyvanda üstünü örtdüyü xəmir tasını götürüb qoltuğuna vuraraq pilləkənlərlə aşağı endi. O, xəmir tasını yerə qoyaraq, oturub dörd ayağın üstünə bir ovuc urfa töküb xəmiri ərsinlə kəsərək, kündələməyə başladı. Durna arvad canı alovlu işə girişərək hərdən uşaqlarını da gözdən qoymurdu. Həsən kişi isə, gələrək, Durna arvadın yanında oturub fərəh dolu baxışlarıyla, övladlarına tamaşa edirdi.

Həsən də köks ötürərək.

-Deyirəm ay Durna Allaha şükür balalarımız daha, böyüyüb. Onların da iş yiyəsi ailə sahibi olduğu günü görsəydim bir dərdim olmazdı deyirdi.

Durna arvadsa onu məzəmət edici nəzərələrlə süzüb

-Buy aman, Allah, elə neşün deyirsən a kişi. Allah dərd eləmisən, dərd ayrı şeydi. Ağzını xeyirliyə aç. Nə qədər ki, gözümüzün qabağındadırlar ürəyim rahatdı, elə ki hərəsi bir yana getdi, ev-eşik sahibi oldu ondadı tamaşa. Onda mənim halımı soruş –deyib bişən çörəyi oxlovla, sacın üstündən

götürüb, yerdə sərilmiş dəsərxanın üstünə qoydu.

Həsən kişi.

-İstər elə istər belə, yaxşı günləri də pis günləri də bizimdi ay arvad –dedi

Bu vaxt Xəyalə ilə Nəcibə gəlib onların yanında oturdular.

Xəyalə anasınına tamaşa eləyərək Nəcibəyə göz vurub dedi:

-Biz də deyir ki, iş görürük. Əsil iş budur e. Xəmir yoğur, çörək bişir. Özünü əsil evdar qadın kimi hiss etməkdən gözəl nə var ki, Durna arvad elə buna bənd imiş, kimi dərdi təzələndi.

Ağız di bəsdi sən Allah… Allah kəssin belə evdarlığı. Səhər işdə, axam işdə, səhər işdə, axşam işdə. Bir də görürsən ki, gün qaralıb. Nə var, nə var ki, arvadam işim budu. Hayıf deyilmi puluvu verib hazır bişmiş çörəyini alasan. Orda da ki, şəhər öyləri. Bişmiş çörəyin, isti suyun day nə istəyirsən a başına dönüm. Allaha acığ getməsin, budu iş?

Əlim xəmir, qarnım ac, yenə qaldım yalavac. Ağız xanım - xatınnığ başqa şeydi ey…

Xəyalə görəndə ki, Durna arvadın ürəyi söznən doludu, oda elə buna bəndimiş dedi:

-Anacan, görürəm ki, səni belə həyat tərzi yorub. Doğurdan da bundan sonra sizin oturub dincələn vaxtınızdır nəinki, iş-güc görmək, əziyyət çəkmək. Bu haqda mən özümdə çox götür-qoy etmişəm. Bəlkə də bu dəfəki gəlişimin səbəbi də elə bundan ibarətdi. Razı olsanız pis olmaz.

Atamla da bu haqda məsləhətləşməyim də elə bununla bağlıdır.

Həsən kişi yerində qurcalanıb soruşdu:

-Nə məsələdi ki, a bala.

-Atacan yaşadığım evdən çıxmaq istəyirəm. Orda qala bilmirəm. Ev almağa da kifayət qədər pulum var. İstəyirəm bir ev alım sən də, anam da uşaqları da aparım burdan. Gedək orada yaşayaq.

Durna arvad diksinmiş adam kimi əlini saxlayıb

-Harada a bala

-Şəhərdə…

-Bıy, başıma xeyir evimizə-eşiyimizə nə olub ki, a bala təzədən birin də alırsan, özü də hardan-hardan dünyanın o başından. –Sonra üzünü ərinə sarı tutub.

-A kişi sən nə deyirsən hay… Həsən kişi alnından üzü aşağı süzülüb gələn tərini dəsmalla qurulaya-qurulaya asta-asta dilləndi.

Başınnan çıxart bu fikri birdəfəliy at a bala. Sizin nə işiniz var orda. Bizim nə işimiz var orda. Bacın məktəbin oxuyub qurtarsın sizi bir saat da qoymayacağam orda qalmağa. Sənin sənətinin qiymatı yoxdu burda a qızım. Bir də ki, biz bundan sonra orda gedib yaşıya bilmərik ha… təmiz havaya öyrənmiş adamlarıq.

Oranın havasızdığından karobka öylərdə yaşamağından, rəngüz-ruhunuz da saralıb. Elə bil əppəy yeyib, su içmirsüz. Hələ üstəliy bizə də deyirsüz ki, gəl yaşa.

-Atan düz deyir Xəyalə, sənin orda da bir işin yoxdu. Bacın da məktəbin oxuyub qurtarsın çıxın gəlin. Bir də ki, bəxtində açılar gedərsən birinə xöşbəxt yaşayarsan a bala deyib Durna arvad gileylli-gileyli başını dəbərətdi. Sonra üzünü Nəcibəyə sarı tutub dedi:

-Ay qız dur gör o gədə neynədi orda. Mən çörəyi bişirib qurtardım. Manqal hələ hazır olmadı? Deyib axırıncı kündəni yaymağa başladı. Xəyaləsə daha bir söz deməyib susdu.

Durna arvad çörəyi bişirib qurtarana qədər on beş yaşlı Ruslanda manqalı qalayıb əti şişə çəkdi. Qızlar süfrə hazırlayıb yeyib-içdikdən sonra yır-yığış etdilər.

***

Xəyalə ilə Nəcibə pilləkənin üstündə oturub söhbət edirdilər. Onları görən Durna arvad

-A bala sizin yerinizə mən darıxdım. Gedib bir havanızı dəyişsəniz nolar ki. İndi çayda bir həşir var ki, gəl görəsən. Dur ay Nəcibə bacında darıxmasın deyib əlindəki dəstərxanı qatlayıb çörək tasının üstünə qoydu.

Nəcibə elə buna bəndimiş, Xəyalənin qoluna girərək.

-Dur bacı, dur gedək, bir az dincəlib qayıdarığ deyib, ayağa qalxaraq donunun ətəyini arxadan tozunu çırpıb pilləkənləri tez-tez aşağı düşdü.

***

Günün istisi yeri-göyü yandırırdı. Hər yay, çayın kənarında oynayan və istidən nəfəsi tövşüyəndə özünü çaya vuran uşaqların səsi ətrafı başına götürmüşdü. Bir tərəfdən də çayda xalça-palaz yuyan qız-gəlinlərin səs küyü bu mənzərəyə daha da gözəllik bəxş edirdi.

Öz məcrasıyla şaqaraq axan çay, gözləri, könülləri oxşayırdı. Xəyalə, bu yerlər üçün, doğurdan da qəribsəmişdi. O, gəlib çaya getdikdən sonra, Nəcibəyə üzünü tutaraq suda çimişən uşaqları göstərib ürəkdən, güldü və ayaqqabılarını çıxarıb əlinə götürərək Nəcibənin əlindən tutub çaya tərəf dartdı.

-Bir bax gör necə qəşəngdir sən də ayaqlarını soyun Nəcibə di tez ol. Nəcibə güllü donunun ətəyindən tutub ayaqqabılarını çıxardaraq çayın kənarına atıb uşaq kimi sevinclə suya girdi. Beləcə bir müddət suyun içində yun, palaz yuyan qız-gəlinə tamaşa edə-edə, qolu gəldikcə sudan bir-birinin üstünə atıb gülüşürdülər.

Bir azdan Xəyalə qollarını qoynunda çarpazlayıb, soyuqdan dişləri bir-birinə dəyərək.

-Nəcibə üşüdüm, dayana bilmirəm… gəl çıxaq deyib çayın kənarına tərəf addımladı. O, bir qədər aralıda olan qocalmış qoşa söyüd ağacının altında gəlib oturduqdan sonra kövrək xatirələr bir-bir xəyalında canlanaraq onu ötən anlara qaytardı.

***

Nəcibə Xəyaləni çox istəyirdi. O, hələ uşaq ikən hadisələrə düzgün qiymət verməyi bacarır, kimin haqlı, kimin haqsız olduğunu üzünə deməkdən çəkinmirdi. O, illərdə, anasının Xəyaləyə qarşı olan haqsızlığını görür və onu bağışlamırdı. Nəcibə olduqca həssas, sakit təbiətli bir qız idi. Nəcibə zahirən Xəyaləyə çox oxşayırdı. Uca boylu, incə belli uzun saçlı, ala gözlü, bəyaz üzlü, kövrək qəlbli bir qız idi.

Artıq gün, axşama gedirdi. Göyün üzündə ara-sıra buludlar görünürdü. Bir neçə gün beləcə davam eləyən hava bu gün soyuğa meyilli olmuşdu. Günortaya qədər yeri-göyü yandıran isti, sərin mehlə əvəz olduqca, hərdən, çiskin yağışla torpağın tozunu yatırır, insanların ürəyinə sərinlik gətirirdi.

Göyün gurultusu, topa-topa buludların toqquşması isə, deyəsən yağışın başlanmasından xəbər verirdi.

Uşaqlarla birlikdə, şənlənən Nəcibəsə göyün üzünü seyr edə-edə çaydan kənara çıxmağa can atırdı. Elə bu vaxt göy gurultusu şimşəklə əvəz olduqda, uşaqların səs-küyü, ətrafı başına götürdü. Çiskin yağan yağış getdikcə güclənməyə başlayırdı. Nəcibə su içində, bədəninə yapışan donuna baxıb gülə-gülə Xəyalənin qarşısında dayanaraq titrəyə-titrəyə dedi.

-Nə yaxşı ki, sən tez çıxdın Xəyal bir bax deyərək leysan yağan yağışa üzünü tutaraq.

-Gedək bacı indi anamda bizdən nigarandı deyib Xəyaləni tələsdirdi. Elə bu vaxt kiminsə, çayın axarınan üzü aşağı, daşlara çırpıla-çırpıla getdiyini görən Xəyalə yerindən

tez duraraq qız-gəlin qaçan tərəfə boylandı. Sonra isə Nəcibə ilə Xəyalə Onlarla bərabər, çayda palaz yuyan qız gəlinlərlə birgə ölümlə çarpışmada olan gəlini xilas etmək üçün çaya tərəf üz tutdular. Bir az keçmiş, ara verməyən güclü sel axınının ağzından gəlini xilas edib çayın kənarına çıxartdılar.

Xəyalə vaxt itirmədən, bənizi saralmış, huşunu itirmiş gəlinin əlini qolunu ovxalaya-ovxalaya, mədəsinə dolmuş suyu qaytarmağa çalışdı. Bir neçə saatdan sonra, özünə gələn qadın gözlərini açdıqda Xəyaləni başı üzərində görüb, yorğun, baxışlarla, yaşla dolu gözlərini onun simasına dikdi. Onların başına toplaşan qız gəlinlərsə, bir Xəyaləyə, bir də ölümün pəncəsindən qurtulan gəlinə tamaşa edirdilər.

O ansa, Xəyalənin ürəyində, dərin bir yaranı qövr etdirmişdi. Ona anası ilə bağlı xatirələri bir daha yaşatmışdı.

***

Xəyalə ilə Nəcibə evə çatdıqdan sonra Durna arvad bayaqdan bəri onların ardınca deyib söyləndiyi sözləri yenidən təkrar edərək həyəti başına götürmüşdü. O, bir əlini belinə qoyub, o biri əlini havada yelləyərək ,

-Ağız bu nə üst-başdı düşmüsünüz. Buna görə göndərmişdim sizi. Tez olun əyninizi dəyişin –deyərək Nəcibəyə tərs-tərs baxdı.

Axşamdan xeyli keçmişdi. Bayaqdan ara verməyən yağış, getdikcə güclənirdi. Nəcibə divanda oturub kitab oxuyur, Xəyalə isə, yun jaketini çiyninə salıb pəncərədən yağışın yağmasına tamaşa edirdi. Bayaqkı hadisə isə onun, bütün düşüncələrinə hakim kəsilmişdi. Onun ürəyi də od tutub yanırdı sanki. O, bir an, dalğın fikirlərdən ayrılaraq Nəcibəyə üzünü tutub dedi:

-Nəcibə, yaman qəribsəmişəm o illər üçün, ötən xatirələri yad eləmək belə ürəyimi ovundurmur. Bəlkə şəkilləri gətirəsən baxaq –dedi

Nəcibə oxuduğu kitabın səhifəsini itməsin deyə qatlayıb kitabı ortdükdən sonra, stolun üstünə qoyub, şəkilləri götürmək üçün, yan otağa keçdi. İndi o, Xəyalənin hansı hisslər keçirdiyini yaxşı dərk edirdi. Vaxtı ilə, Durna arvadın Xəyaləyə qarşı olan ögey münasibətini, amansızlığını görən Nəcibə dözmür və bağışlamırdı. Yaddaşında hər an ona əzab verən, ən ağır acı ansa, Xəyalə atası ilə anasının birgə olan şəklini qoynunda gizləyib, Durna arvadın görməyəcəyi bir yerdə öpüb oxşaması idi. Bir günsə təsadüfən Durna arvadın bu anı gördükdə

Xəyalənin əlindən şəkli alıb iki yerə böldükdən sonra onun üzünə çırpıb, söyüb, təhqir etməsini Nəcibə heç cürə unuda bilmirdi. Elə həmin vaxt, Nəcibə anasının şəkli cırıb yerə atdıqdan sonra onları yığıb gizlin bir yerdə bir-birinə yapışqanla birləşdirərək gizləmişdi. O, şəkillərlə birlikdə, ayrıca büküb saxladığı həmin şəkilidə gətirib Xəyaləyə verərkən Xəyalə nə deyəcəyini belə bilməyib uşaq kimi kövrəlib hönkür-hönkür ağladı. Sonra isə o, Nəcibəni bağrına basıb üzündən öpdükdən sonra –məni bağışla bacı deyərək şəkilləri də götürüb yan otağa keçərək şirin-acı xatirələrlə baş-başa qaldı.

IX FƏSİL

Üç korpuslu, beş mərtəbəli xəstəxananın görünüşü, kənardan sağlamlığın keşiyində duran tibb işçilərinin, son anda ümüd yeri olan xəstələrin, dünyasını düşününcə, hər bir insanda, xoş təəssürat yaradırdı.

Burada çalışan hər bir insan öz işi, peşəsi ilə fəxr edir, və xəstələrin ağrı-acısına şərik olur, sevinclərindən zövq alırdılar.

Xüsusi hörmətə, ehtirama layiq olan Tərlan həkimsə bu sevincə ikiqat sevinir, xüsusi zövq alırdı. Ən azı ona görə ki, o, Xəyalə ilə bir yerdə çalışırdı, və nə vaxtsa onunla xöşbəxt olacağına inanırdı.

Tərlanla Xəyalənin biri-birinə qarşı olan münasibətini hamı bilir və onların tezliklə ailə quracağı günü gözləyirdilər.

Ən başlıcası isə, Tərlanın anasının oğlunun xöşbəxt olduğu o anı görmək arzusu ilə yaşaması idi.

Bu gün isə, ağır bir aperasiya əməliyyatının uğurla başa çatmasından sonra, bütün yorğunluğunu unudan və bu sevinc hissiylə xoş əhval ruhiyyədə olan Tərlan, özünü daha xöşbəxt hiss edirdi.

O, bu sevinc hissilə xəstələrə bir-bir baş çəkir. Hər biri ilə özünə məxsus tərzdə zarafatlar edir, tezliklə sağalacaqlarına ümüd verərək, onlarla söhbətlər aparırdı.

İş vaxtının sonu olduğundan Xəyalə evə getmək üçün hazırlaşırdı. Tərlan isə hər dəfə olduğu kimi bu gündə onunla birgə çıxmaq istəyi ilə Xəyalənin kabinetinin qarşısında dayanıb onu gözləyirdi.

Günlər ayları əvəz edirdi. Bir günsə, tale öz hökmünü verdi. Xəyalə ilə Tərlanın həyatında yeni bir səhifə açıldı.

Tərlanın valideyinləri Xəyalə üçün rayona elçiliyə yola düşdülər.

Həsən kişi ilə Durna arvad onları adət ənənələrinə uyğun olaraq sevgiylə qarşıladılar.

Bu günü səbirsizliklə gözləyən Tərlanın anası ötənlərdən-keçənlərdən söhbət eləyərək, mətləb üstünə gəlib deyirdi:

-Ay bacı, mən neçə illərdir ki. bu günün həsrətiylə yaşayırdım ki, oğlum Tərlan özünə layiq, ürəyinə yatan, bir insanın qapısını göstərsin. Axır ki. mənim arzum ürəyimdə qalmadı. Sizin qızınız haqqında o qədər ürək açan sözlər eşitmişəm ki, bura gələrkən hələ də yuxuda olduğumu zənn edirdim. Allah-taala cəmi insanlarla birgə bizim də balalarımızı xöşbəxt eləsin. Ürəyimizə dəyməsin. Yəqin siz də mənim oğlum haqqında az çox eşitməmiş olmazsınız axı o, Xəyalə ilə bir yerdə işləyir dedikdə Durna arvad sevinci yerə-göyə sığmayaraq

-Hə elədir ay bacı. Mən sizin oğlunuz haqda eşitmişəm. Təki Allahtala yarıyanlardan eləsin ey… Mən hər dəfə qızıma deyən də ki, ailə qur ay bala, öz evin-eşiyin olsun.

Deyirdi mənə elə söz deməyin. Nə bilim ay bacı qismətdi Allah avand eləsin, peşmaçılıq olmasın. Tərlanın anası, xanımyana bir ədayla qayğılı-qayğılı:

Düz deyirsən Allahtaala bizi daha peşman eləməsin. Tərlanın ilk qisməti puç oldu. Evləndirdim ailə qurdu, bədbəxt gəlinim dünyaya uşaq gətirdikdən qırx gün sonra öldü.

Sonradan bildik ki, zahı olduğu vaxt üstünə həmzaddı bir qadın gəlib. Və onun həmzadı mənim gəlinimin üstünə tökülüb.

Nə deyim qismətdir, yazıya pozu yoxdu. Nə yaxşı ki, körpəsinə heç nə olmadı. Heç olmasa ondan bir nişanə də olsa yadigar qız balası qaldı. Ona da, atası mənim adımı qoydu. Adı Afaqdı deyib kövrək təbəssümlə gülümsünüb köks ötürdü.

-Ay Durna bacı bunu deməkdə məqsədim odur ki. siz də həqiqəti biləsiniz və oğlumun ondan sonra ürəyinə yatan sizin qızınız olduğunu yaxşı biləsiniz. Gəlin Allah xeyir versin deyək, xöşbəxt olsunlar deyin.

Durna arvad onun sözlərini dinlədikcə, bir söz deməyə cürəti çatmırmış kim susaraq başını bulayıb, qadının sözünə cavab olaraq

-Nə deyirəm ay bacı təki siz deyən olsun. bir-birlərini başa düşsünlər, xöşbəxt olsunlar. Ürəklərinin yarası sağalsın. O ki qaldı uşağa. Mən Xəyalənin necə insan olduğunu deməyəcəyəm. Onu siz özünüz görəcəksiniz. O, özü də yetimçilik görüb, anasızlıq nə olduğunu yaxşı bilir. Onun balasını öz balasından artıq istəyərək qayğısına qalacaq –deyib, Durna arvadın peşmançılıq hissiylə gözündən iki damla yaş süzülüb qoynuna töküldü.

Tərlanın anası isə

-Durna bacı, onu da deyim ki, uşağı özüm saxlayacağam. Onlarında ürəkləri istəyəndə gəlib görərlər dedi. Xəyalənin razılığını aldıqdan sonra, hərisini alıb, nişan gətirəcəyi günü təyin edərək şəhərə yola düşdülər.

***

Xəyalə bilirdi ki, nə vaxtsa taleyi ilə barışıb, istəsədə, istəməsədə ailə qurmalı idi.

Lakin bütün bunlardan sonra, o, toy haqqında, kiminsə bir kəlmə belə danışmamasını istəyirdi.

Durna arvad Xəyalənin inadkarçasına, deyilənləri qəbul etməməsinə görə üzülürdü. O, Xəyalədən son dəfə Tərlanla ailə qurmağı haqda eşitdiyi sözlərisə heç cür unuda bilmirdi.

-Anacan, razıyam, amma necə olur olsun bu dəfə mənim üçün toy-nişan olmayacaq. Mənim toyumda, nişanımda,

sevincimdə, məhəbbətimdə Talehlə birgə torpağda dəfn olunub. Bundan sonra, həyatımın mənası yalnız Talehli, Talehsiz ağrılarımdan, əzablarımdan savayı bir həyat olmayacaq demişdi Xəyalə. Bəlkə də elə ona görə ki, canından artıq sevdiyi Talehinin, anasının ürəyinə bir dağ da çəkməsin. Səssiz-səmirsiz birdəfəlik çıxıb getsin. Əzizlərinin belə gözünə görünməyə çalışmırdı Xəyalə. Bütün bu sarsıntılar içindəsə, yalnız susmaqdan savayı çıxış yolu tapmır, heç bir şey haqqında düşünmək istəmirdi o. Bir neçə gündən sonra Tərlan Xəyaləyə qovuşacağı o anın həsrətilə yaşayır, toy gününü səbirsizliklə gözləyirdi. O, Xəyalənin hər vəchlə könlünü açmağa çalışır, gül-çiçəklə, cürbəcür ətirlərlə onu sevindirmək istəyirdi. Xəyalə, Tərlanın xatirini çox istədiyi üçün və qəlbində ona qarşı olan dost, yoldaş, sevgisi ilə dolu ehtiramına görə onun hisslərinə, hörmətlə yanaşır, ürəyinə toxuna biləcək bir hərəkət etməkdən belə ehtiyat edirdi.

Tərlan - Xəyaləm mənim, canım, gözüm, toyumuza çox az vaxt qalıb. Mən o günü səbirsizliklə gözləyirəm. Mənim bundan başqa müqəddəs istəyim, arzum ola bilməz eşidirsənmi

Xəyalə - Tərlan əzizim, mən sənin xatirini dünyalar qədər istəyirəm və sənin xöşbəxt olmağın isə, ən böyük arzumdur. Lakin ürəyimdə bir istəyim vardır ki, o mənə hər an əzab verir. Duyğumu, düşüncəmi sarsıdır. Buna görə də sənin qəlbinə toxuna biləcəyimdən ehtiyat edirəm.

Tərlan - Xəyaləm, mən səni başa düşürəm! O hisslərsə müqəddəsdir. Buna görəsə əzab çəkməkdənsə, o, müqəddəs hislərlə yaşamaq daha gözəldir demişdir. Sonra isə o, Xəyalənin tərəddüd keçirdiyini duyunca

-Əzizim məndən saxladığın istəyinmi var?

-Yox, elə bir istəyim yoxdur amma çox istərdim ki, toydan əvvəl anamın bir də ki, Talehin qəbrini ziyarət edim. Buna ehtiyacım var Tərlan.

-Get əzizim amma tək getmə eşidirsənmi – demişdi Tərlan

Elə, həmin günün səhəri Xəyalə rayona, anasının və Talehin qəbrini ziyarət etmək üçün yola düşmüşdü.

O, yol boyu düşüncələrinə hakim kəsilən hisslər qoynunda, səbirsizliyə qapanaraq, tezliklə çatmağa, can atır, yarı kədər, yarı sevinc dolu gözlərindəki, həsrət yaşları içində Talehinin ruhu ilə baş-başa qalırdı.

Gün axşama gedirdi.

Gəlib çatdıq xanım qız deyə bir səs onu ayıltdı.

-Nə yaman fikirlisiz, deməsəydim bilməyəcəkdiniz. Əgər rayona bələdçiniz yoxdursa sizə bələdçi ola bilərəm. Xəyalə başı üzərində dayanan onu heyranlıqla tamaşa edən gənci görüncə, təlaş hissiylə

-Yox-yox siz nə danışırsınız nə bələdçi, mən burda yaşayıram. Xəbərdarlıq etdiyiniz üçün, sağ olun deyib, tələm-tələsik, avtobusdan düşüb, ətrafa bir an nəzər saldı. Və o, yoluna davam etdi.

O, heç özü də hiss etmədən, addımlarını yeyinlədir.

-Gəlirəm Talehim gəlirəm əzizim deyərək sevgilisinin görüşünə can atırdı. O, bir an içində, qəbirsanlığa necə gəlib çatdığını belə hiss etməmişdi. Əvvəlcə anasının qəbri önündə ayaq saxlayaraq, qarşısında diz çöküb, göz yaşları içində qəbir daşını öpüb oxşaya-oxşaya, nənəsinin və babasının qəbrini yad etdib, sonra, bir qədər aralıda, al-qırmızı lentlərlə təzə-tər qərənfillərlə bəzədilmiş sevgilisinin qəbri qarşısında gəlib dayanaraq bir müddət beləcə tamaşa etdi.

Xəyalə tər çiçəklər kimi əsim-əsim əsirdi. Keyləşmiş vucudunun getdikcə isindiyini hiss edincə, o, Talehin qəbri önündə diz çökərək son vida sözlərini pıçıldadı.

Göylərin gözü dolmuşdu. Küləklər onun tellərini sığalladıqca hərdən ikibir, üçbir atan yağış damlaları üzündən süzülərək yanan sinəsinə tökülərək, sərinlik gətirirdi.

Rüzgar sanki onun səsinə qoşulub onunla birgə inildəyirdi.

-Talehim, əzizim. Bu gün sənin qarşında peşman, günahkar bir insan kimi dayanmışam. Lakin bu həyat mənim üçün quru tablodan başqa bir şey deyildir. Bütün kainatda müqəddəs olan canlı nə varsa, başım üzərində ruh kimi dolaşdı. Talehim yalnız o, hissləri mən sənin simanda dərk etdim.

Mən səndən sonra, bu həyatı yaşıya bilmədim. Talehim. Sənlə birgə varlığım, sevgim, hisslərim bu məzarda dəfn olunub əzizim. İndi mən, cansız, duyğusuz bir varlıq kimi burdan ayrılıram. Ruhumsa, daima sənin məzarının ətrafında gəzib dolaşacaq Talehim. O zaman ruhumun qayıdacaq yeri yoxmuş kimi, çırpınacaq onda, sən ona aman ver Talehim qoy sənlə birgə uyuyum.

Xəyalə sevgilisinin qəbri üstünə başını qoyub için-için ağlayır, yana-yana göynüyürdü. Qəbr daşı üstündə, pərakəndə düzülmüş qərənfillər, onun göz yaşları ilə, birgə yağan yağışın damlaları altında ləçək-ləçək islanıb bir-birinə qısılaraq, titrəşirdilər.

Xəyalə, ikisi bir can olan, varlığına ağı deyərək üzünü göylərə sarı çevirib inildəyirdi.

Sevgimi daş yuxusundan
Kimsə oyadar, oyanmaz
Yalquzaq ruhumun səsi
Mənə qayıdar, qayıdmaz

O, Talehin qəbir üzərinə həkk olunmuş şəkilini görüncə, sanki ilk dəfə görürmüş kimi, dili-dodağı qurudu. Sinəsi göynədi.

Onun donmuş baxışlarındasa Xəyalə nələri eşitmir, nəyi duymurdu. O, artıq Talehin ona dikilimiş sual dolu baxışlarına baxa bilməyib üzünü əlləri ilə qapayaraq hönkürtü içində:

-Baxma mənə, elə baxma əzizim, mənə əzab vermə, eşidirsənmi. Dözə bilmirəm sənin baxışlarına

-deyərək sonra qulaqlarını qapayıb var gücü ilə qışqırdı.

-Yox Talehim mən günahkar deyiləm, mən, səni sevirəm Talehinsə səsi onun qulaqlarında əks səda verirdi.

-Çıx get Xəyalə, -çıx get sən günahkar deyilsən. Sən mənə görə əzab çəkirsən. Mənsə bunu istəmirəm, mənə əzab vermə Xəyalə, əzizim, sən mənə əzab verirsən- çıx get…
O, nəfəsinin təngidiyindən, sinəsini, boğazını ovuşdurub, gözləri hədəqəsindən çıxmış halda- boğuq bir səslə:

-Talehim, mən daha buradan heç bir yerə getməyəcəyəm. Yox…yox mən səhv etmişəm əzizim. Axı mən onu, Tərlanı sevmirəm, eşidirsənmi sevmirəm, mən onu aldadıram, yox-yox mən hamını aldadıram sənidə-sənidə aldadıram. Mən indi sənin ruhunu sevirəm eşidirsənmi…

Bir bax. Sənin bədənin sənə lazım olmadığı kimi, mənim də bədənim mənə lazım deyil. Sənin ruhun gözəldir əzizim, sadiqdir, bədəninsə yox, əslində elə sən də mənə sadiq deyilsənmiş, sən məni sevmirsənmiş, səndə riyakarsanmış. Biz var olarkən yoxuymuş, yoxluqsa gözəlmiş, bax belə…

Ruhun kimi, ruhum kimi. Ver-ver əlini mənə, tut məndən çıxaq gedək, gedək, gedək, gedək, Taleyim, gedək.

Xəyalə əllərini göyə sarı uzadaraq sanki Talehin ruhuna toxunub əllərindən tuturmuş kimi, möhkəm-möhkəm sıxıb, qorxunc, hürkək baxışlarla, qəbirlərin arası ilə qaçırdı. Talehim, sevgilim, əzizim deyə qışqırırdı.

Onun səsi yağan leysanın səsinə qoşularaq əksi-səda verirdi. Və o, getdikcə, bom-boz duman içərisində gözdən itirdi.

X FƏSİL

Gün axşama gedirdi. Durna arvad toyuq-cücəni səsləyərək bir-bir hinə ötürürdü. Həsən kişi, balıq tutmaq üçün tor hörürdü. Nəcibə isə, zivədən təzəcə yığdığı paltarları ütüləyə-ütüləyə dodaq altı züm-zümə edirdi.

Durna arvadın səsi həmişə olduğu kimi yenə də həyəti başına götürmüşdü. O, özünə məxsus çevikliklə həyətdə qalan, stulları döşəkçələri islanmasın deyə götürüb səliqə səhman yaradaraq Ruslanı səsləyirdi.

-Ay Uruslan, a gedə, hardasan çıx malın qabağına a bala. Heyvan gəlib başqa örüşə qatılmasın. Tez ol ayə – deyərək Həsən kişini məzəmmətedici nəzərlərlə süzərək

-Sən də adını kişi qoymusan. Xalxın kişiləri işində-gücündə, işi olmayan da, ot əlaf yığıb daşımağınan başını qarışdırır sənsə, lilli balıq tutmaq üçün tor qurmaqnan. Bizi bəxtəvər eləyəcəksən bu gedişnən deyəsən deyib çatma qaşlarını bir azda düyünləyib, üz-gözünü turşutdu.

Həsən kişi yerində qurcalanaraq

-Darıxma ay arvad, Allah kərimdi, vaxtı gələndə özündə mənə afərin deyəssən. Daha belə əsib coşmayassan dedi:

Durna arvad əlini belinə qoyub islanmış döşəkçənin üstündə oturaraq hirs-hikkəylə əsib coşdu.

A bu dünyanın dərdi sərini bilmək istəmiyən bəxtəvər, Kərimin də quyusu dərindi də, yəqin ki, mınnan da xəbərün yoxdu. Sənə rast gəldiyim gündən evin kişisi də mən oldum arvadıda. Day nə deyəssən… Tapduğun çörəyi də mənim üzümə yetirir Allah onu bil - deyib əlini yaş dizinə çırparaq ayağa durub

-Ağız, gör o Uruslan getdimi deyib toyuq hininin qarşısında çəkilmiş setkalı qapıya qıfıl vurdu.

Həsən kişi söz altında qalmayıb əlini saxlayaraq bozarmış halda dedi:

-A tünbətünün qızı, səni indiyənə qədər çöl-bayır işinə göndərmişəm bəlkə. Evin işini sən görmiyəndə, mən eləmiyəcəm ki, sən nankorun qızı nankorsan, belə şeyləri qammazsan. Xalxın arvadları kimi sən də gedib bağda, işləsəydin ayağının dərisi soyulsaydı, yəqin ki. gəlib oturub ağrı-acuvun dərdini çəkərdün… Yoxsa ki. indi. Mənimlə belə aşıq-aşıq oynamazdun.

Durna arvad elə buna, bənd imiş əllərini havada yelləyərək

-Məniynən davayamı girəssən?

Ayə oyannan bəri ağzımı üstünə açdırma kişi səni biyabır eliyərəm – deyəndə Həsən kişi hövsələsi daralmış halda ayağa durub onun üstünə yeridi və.

-A gorbagor oğlunun qızı deyəsən başuvun yaraları sağalıb, bədənüvün ağrısı yadunnan çıxıb, sən ölmiyəsən, səni gəlib təpiyimin altına salaram, bəsdi deyənəcən tapdalıyaram… deyəndə elə bu vaxt darvazanın qapısı daş çırpılmış kimi açılaraq sanki ətrafa tükürpədici bir səs saldı. Həsən kişi oğlu Ruslanın nəfəsi tövşüyə-tövşüyə, dili-dodağı əsə-əsə dediyi sözü eşidib ayaqları yerə yapışdı.

-Ana, anacan Xəyaləni gətirirlər,

-A bala noolub bir danışsana əməlli başa sal görüm, nə olub axı.

Durna arvad elə bu sözü demişdi ki, həyətə doluşan adamları görüb heyrət içində onlara sarı getmək istəyərkən iki nəfərin qolları arasında yarı huşsüz halda gətirilən Xəyaləni görüb əllərini dizlərinə çırpıb qışqırdı.

- Evim yıxıldı, aybala, sənə nə oldu axı deyərək irəli yeriyib Xəyaləni qucaqlamaq istədikdə yenidən qışqıraraq

-Yox, yox bu ola bilməz deyib üzünə əl atıb cıraraq qana boyadı.

Həsən kişinin isə ürəyindən şiddətli ağrı tutduğundan özünü ayaq üstə saxlaya bilməyib yıxılmasısa, hamını çaşqın vəziyyətdə qoymuşdu.

***

O gün, Xəyalənin qəbirlərin arasında, yağışın altında huşunu itirmiş halda tapılmasını eşidən hər bir kəs, sarsılmaya bilmirdi.

Bu hadisədən artıq bir neçə gün idi ki, keçmişdi. Xəyalə ayılmışdı. Lakin o, həmişə olduğu Xəyalə kimi həyata qayıtmamışdı.

Həkimlərin təklifi ilə onun hələlik sakit bir otaqda saxlanmasına baxmayaraq, heç kəs onun qaldığı otağa keçməyə cürət etmirdi.

O qışqırır Taleh gəlirəm Taleh gözlə məni əzizim - deyərək yumruqlarıyla divarı döyəcləyirdi.

Onun iniltisi ətrafa yayılaraq əksi-səda verdikcə, o, bu məngənədən xilas olmağa can atırmış kimi çabalayırdı.

Tərlansa, həyatının mənası olan Xəyalənin səhətinin əvvəlki vəziyyətdə olması üçün, bilik və bacarığını əsirgəmədi.

Lakin o, buna nail olmadı. O, Xəyaləni, canından artıq sevdiyi nişanlısını şəhər xəstəxanasının pisixoterapiya şöbəsinə gətirdikdən sonra son ümüdünü də itirdi.

EPİLOQ

Yazın ilk günləri idi. Təbiət qış yuxusundan oyanırdı. Bahar ilıq nəfəsiylə torpağı isitdikcə ağaclar tumurcuqlayır, çiçəklər üzə gülürdü. Yenicə soyuq ölkələrdən qayıdan qaranquşlar, bir-birini ötmək həvəsiylə sanki yarışa girişib özləri üçün eyvanların qarşısından yuva qurmağa çalışırdılar.

Evlərin, aynəbəndlərin üstündə, bəyəndiyi yerləri, dimdiklərində gətirdiyi palçıqla nişanlayaraq, həvəslə ot tayasından seçdiyi saman çöplərini sanki palçığın üzərinə naxış vuraraq, çırpınırdılar. Bir-biri ilə, qaçdı tutdu, oynayan uşaqlar, işıq surəti ilə uçuşan qaranquşları göstərərək, sevinclə qışqırşırdılar.

Durna arvadsa baharın gəlişindən həvəslənərək, həyətin yuxarı başında qurduğu xananın qarşısında oturub cəhrəylə yun əyirərək, başı üstündən ötüb keçən qaranquşlara baxırdı.

Həsən kişi isə, nəvələrini başına yığaraq, yaxın keçmişdən, nağıla bənzər bir həyat haqqında onlarla söhbət edirdi.

Elə öz qonşusunun oğlu ilə ailə həyatı quran qızı Nəcibə isə hərdən gələr ata-anasına baş çəkər, onlarla hal-əhval tutardı.

Bu günsə, Nəcibənin, Ruslanın nişanlısı ilə birlikdə anasıgilə gəlişinin səbəbi üç yaşlı qızı və beş yaşlı, oğlunu da götürüb müqəddəs bir ziyarətgaha getməsi idi.

O, atası və anası ilə görüşdükdən sonra

-Anacan uşaqları da götürüb Fidanla birlikdə qəbir üstünə gedirik nigaran qalmayın bizdən. Uzağı bir saata qayıdacağıq dedikdən sonra getmək üçün tələsdilər.

***

Nəcibə əllərində qərənfil güllərini tutmuş ciyərparasına, qoşa ucaldılan qəbri göstərərək

-Xəyalə qızım apar çiçəkləri qoy bu qəbrin üstünə deyib Talehin uyuduğu məzarı göstərdi, sonra üzünü oğluna tutub, Taleh oğlum, sən də əlindəki qərənfili qoy bu qəbrin üstünə deyib Xəyalənin yatdığı məzarı göstərdi. Özü isə, əllərində əsim-əsim titrəyən qərənfil gülünü öpüb oxşayaraq göz yaşları içində, onların qarşısında diz çökərək, qəbirləri üstünə düzdü.

Göyün üzündə getdikcə seyrək buludlar görünürdü. Son günlər ara verməyən yaz yağışı, isə, istər-istəməz gözlərə, könüllərə gözəllik dinclik gətirirdi.

Onlar müqəddəs ziyarətgahdan geri dönən zaman yağan yağış onların ayaq izlərini yuyub apararaq torpağı ovum-ovum edib ətrafa səpələyirdi

24-avqust 1996-2001

Hekayə və povestlər

(onun iç dünyası)

LƏTİFƏ NURAN

SƏS

(hekayə)

O, özünün kim olduğunu bildikdən sonra, sonu görünməz bir yolla addımlamağa başladı. Uçduğunu hiss edirdi, hərdən də ayaqlarının incidiyini.

Gözünü qamaşdıran parıltıların hənirtisindən güclə nəfəs alırdı. O, başını yuxarı qaldırdıqda öz ruhu ilə üz-üzə dayandı. Başı hərləndiyindən dizləri üstə çöküb özünə bənzər bir varlığı əllərə oxşar bir şeylə qapadı. Gözlərinin içindənsə nəfəsi ilə əridiyini hiss etdi, və bir anda gözə görünməz olaraq sakitləşdi. O ruhsa, mələk qiyafəsində onunla danışmağa başladı.

- Sən niyə belə etdin?
- Bəs sən?
- Mən insan olmaq istəyirdim.
- Mənim olmadan?
- Mən insan ola bilmirəm.
- Gözlərimə bax.

Bu an dəhşətli bir səs ətrafa yayıldı. Qayalar yıxıldı, sular susdu, səma quru tabloya çevrildi. Çiçəklər qaraldı, torpaq əriyirdi. Hər tərəfdən səslər qalxmağa başladı.

- A – a- a- a- a- a-a a.

Qulaq batıran bir nərilti eşidildi. Bu an, göz qamaşdıran işığın parıltısından bir körpə doğuldu. O, çığırır, çığırırdı və o bir qədər çığırdıqdan sonra bayıldı.

Onun ruhu bədənindən çıxdıqdan sonra ruhlar şəhərinə üz tutdu. Onu Allahın hüzuruna gətirdilər. Allah ona baxışlarıyla nəzər saldıqdan sonra, gülümsündü. Və onun burada az qalmasını istədi.

Qərinələr arxasından bir səs gəldi, torpaq canlandı, quşlar danışdı, çiçəklər güldü, sular yarışdı, körpənin ruhu bədəninə qayıtdı. O, ayıldı və susdu, özünə baxdı. O, özünü aynada görürmüş kimi heyrət içində özünə toxundu. Gözü, əlləri, ayaqları, bədəni. O, ruhunun xoşlandığını hiss etdi, və gülümsündü. Çabaladı, oturdu, iməklədi, gəzdi. Birdən yadına nəsə düşdü. Onu çağıran səsə tərəf yüyürdü, birdən uçduğunu hiss etdi, qanadlarına baxıb qəh-qəhə çəkdi və ayaqlarının altında çiçəyin ona heyranlıqla tamaşa etdiyini gördü. Ayaqlarını yerə ehmalca qoyub çiçəyə sarı əyilib qarşısında diz çökdü və onu qoxladıqca qoxudu. Gözlərindən süzülən damlalar çiçəyin ləçəklərinin üzərini bəzədi. O, çiçəkləri öpdü, öpdü, dərindən nəfəs aldı, başını qaldırdıqda özünə oxşar bir mələk gördü. Onlar, göz-gözə bir müddət tamaşa etdikdən sonra, əl-ələ tutub çiçəklərlə söhbət etdilər. Onları sığalladılar, oxşadılar.

Yenidən onlar dizi üstə yerə çöküb evcik qurdular, qurdular, qurdular, evciklər uçuldu. Onlar təəcccüblə bir-birinə tamaşa etdilər, darıxdılar, incidilər, küsdülər, əl-ələ tutdular və oynadılar bir-birinə baxmağa başladılar, sonra qəmli təbəssümlə.

- Sən kimsən?
- Ruh.
- Adın nədir?
- Mələk.
- Bəs sən kimsən?
- Ruh.
- Adın nədir?
- Mələk.
- Bura niyə gəlmisən?
- Özümü axtarmağa.

- Bəs sən bura niyə gəlmisən?
- Mən də özümü axtarmağa.
- Niyə ağlayırsan?
- İnsan olmaq istəmirəm.
- Sən niyə gülürsən?
- Mən də insan olmaq istəmirəm.
- Gəl ağlayaq.
- Gəl ağlayaq.
- Gəl gülək.
- Gəl gülək.

Onlar əl-ələ tutub qəh-qəhə içində ağlaya-ağlaya bir-birinə sarıldılar. Kainatı onların səsləri başına götürmüşdü.
Daşlar ovulurdu, torpağın sinəsi yanırdı, küləklər nəfəs almırdı.
Bütün canlılar, bu səsə qoşulub qəh-qəhə içində ağlayırdılar.
Onlar bir-birinə sarılıb damla-damla əriyirdilər.
İnilti içərisində pıçıltılar eşidilirdi.
- Səni çox aradım.
- Mən səndən nigarandım.
- Mən səni yaşayarkən içimdəki körpə səsi səni çağırırdı.
- Mən əzab çəkirəm.
- Mən səndən yaranmışam.
- Mən sənə qovuşmaq istəyirəm.
- Hardasan?
- Hardasan?
- Hardayam?
- Hardayam?
- Mən özümdən ayrı düşmüşəm.
- Mən özümdən ayrı düşmüşəm.
- Tanrım.
- Tanrım.

Bir an yer üzünə tanrının mərhəmət mələkləri enməkdə, xeyirxah ruhlarsa dolaşmaqda olarkən, Yer üzünün bütün yaranışlarıysa canlanmaqda.
- Sən kimsən?
- Ruh.
- Bəs sən kimsən?
- Ruh.
- Adın nədir?
- Bəs sənin adın nədir?
- …..

Onlar bir-birinin gözlərinə baxıb, əl-ələ tutduqdan sonra sonu görünməyən bir yolla addımlamağa başladılar. Min illərin həsrətlisi kimi bir-birinə sarıldılar.
O, ruhunun bədənində əziyyət çəkdiyini anladıqca dili-dodağı əsir, gözlərini qamaşdıran parıltılar bədənini sardıqca susayırdı.
Onu köksünə sıxaraq dodaqlarından öpdü, ruhunu oxşadı, bədənini sığallayaraq qəh-qəhə içində ağlamağa başladı. Sonra o, qarşısında qan içində çabalayan cəsədi görüncə ruhu titrədi. Onun çırpınan ürəyini yedikcə öz qanına susadı. Bir azdan oynaşan parıltılar işığa sarı bir-birini qovurdular.
Onun gözləri yoldaydı… nəfəsi çatmırdı.

XII. 2000

CANLI HEYKƏL

(hekayə)

Mələklər uçuşduqca beşikdə yatmış körpəyə tamaşa edir, baxıb gülüşürdülər. Körpənin ruhu onlarla birgə sevinirdi. Bir azdan körpə ayıldı, mələklərin gəzdiyi yerlərə bir qədər nəzər saldıqdan sonra, məyus halda gəlib üzüqoylu yerində uzandı, sonra qəfil eşidilən bir hənirtidən diksindi və qışqırdı. Bu an beşik qırıldı. Onun gözünün yaşından bir dərya yaranmışdı. O, öz əksini dəryada baxıb gördükdə, sarsıldı, əllərini üzünə qapadı. Sonra o, ağ libasa bürünüb əlinə əsa alaraq dünya adlanan bir diyara üz tutdu. Günəşin istisi yeri-göyü yandırırdı.

Onu görən insanlar heyrət içində ona baxırdılar və yerlərindən tərpənməyə belə qorxurdular. O məqsədinə çatmaq istəyirdi. Onunsa, hər addımında ayağının altından yaşıl otlar cücərirdi. Ətəkləri dəyən yerdən çiçəklər bitirdi, həsrətlə baxdığı bir yerdən sular qaynayırdı. Osa səhraya can atırdı. O, yorulmuşdu, yaxınlıqdakı daşın üstündə oturub, bir az dincəlmək istədikdə, çiçəklərin pıçıltısını eşitdi.

- Gəlir, bir baxın bir baxın deyərək, ona sarı boylanıb tamaşa edirdilər.

Çiçəklərin titrəyib gülüşməsi onun təbəssümünə qarışırdı. Quşlar uçuşurdu, ceyranlar qaçırdı, onun yanına.

Tanrının yaratdığı bütün canlılar heyvanlar belə onun ətrafına yayılan bədəninin ətrini qoxuduqca, bihuş olurdular. Onlar bir anlıq düşünürdülər, bir-birini sevərəkdən susurdular, bir-birini oxşayaraq oynayırdılar. İlanlar uçmaq istəyirdilər, çaylar, sular, dəryalar sevgiylə çırpındıqca balıqlar danışırdılar. Onun nəfəsindən çıxan nurlar, göydə qanadlı ruhlara çevrilib ona həsrətlə tamaşa edirdilər.

O, yorulmuşdu. Oturmaq istəyirdi, tələsirdi. O, oturduğu yerdən qalxarkən, qarşısına çıxan bütün varlıqları son kərə seyr edirmiş kimi yenidən yoluna düzəldikdən bir qədər sonra qarşısına çıxan uçurumu görüb ayaq saxladı.

Bu an, göy yerlə qovuşdu. O, üzüqoylu yerə yıxıldığını gördü. Ovucları arasında sıxdığı torpaqlar suya çevrildikcə bütün əzalarının titrədiyini hiss etdi. O an əcaib bir məxluq qarşısında peyda oldu. O, özünü unutdu…

Sonra o bir azdan yoluna davam etdi. Onun ayağı dəyən yerlərdən alov püsgürdü, çiçəklər yerə yıxıldı, küləklər uladı, dağlar-daşlar nərilti ilə yeriməyə başladı, ağaclar qəddini əydi, ağladı, hönkür-hönkür ağladı.

İnsanların heyrətdən gözləri dondu, üzləri qaraldı.

Torpaq ağız-ağız yarğanlara çevrildi.

Yer üzündə cəhənnəm mələkləri dolaşdı. Göylər qaraldı, ulduzlar yox oldu. Bütün canlı varlıqların inilti səsləri kainatı sardı. Bu səs göylərdə əks səda verdi. O, gəlib viranəliyə çatdı.

Dünya onun başına fırlanırdı. Gözlərdəki qorxu ruhlarını sardıqca insanlar, qurdlar, quşlar canlılar, bir-birinə nifrətlə baxdılar. Onlar bir-birini parçalayıb yedilər.

Göy gurultusu dünyanı lərzəyə gətirdi. Göydən ilanlar yağmağa başladı, dənizin suları yandı, dəryalar qurudu. Hər tərəf viranəyə çevrildi, əzab yer üzünü sardı. Dodaqdan qopan dualar qarğışa çevrildi. Bu an, ildırım onun başı üzərində çaxdı, o, yerlə yıxıldı. Onun ölmüş bədəninə qarğa quzğunlar qondu. Qəh-qəhə səsləri aləmi bürüdü, dünyanı başına götürdü.

Əcaib məxluq bir anda yox oldu. Yağışlar, ara vermədən yağdı, yağdı, yağdı, beləcə əsrlər boyu yağdı. Yer üzündə olan bütün varlıqları yuyub apardı. Dünya boş qaldı. Göy yerə, yer göyə tamarzı qaldı. Həsrətli dili ilə küləklər yeri-göyü yaladı.

Yerdən qalxan buxarlar ruh şəklində göylərə əl açdı, tanrıya yalvardı, ona sığındı, göy üzünün bulannıq aynasını sildi. Hər tərəf solğun görünürdü. Mələklər tanrının qarşısında diz çökərək, dua edirdilər. Tanrı susur, susurdu,.. tanrı dinləyirdi. O, yer üzünə tamaşa edirdi, dərin-dərin nəfəs alırdı.

Təbiət canlanırdı, tanrının ovucu içərisindəydi dünya.
O, kövrək təbəssümlə köks ötürürdü. Yer üzü əvvəlki kimi, canlanırdı. Onun yıxıldığı yerdən, bir körpə dünyaya tamaşa edirdi.

Yer üzündə, yaranmışlarsa, bir-bir gələrək əllərindəki çiçəkləri ona sarı atırdılar və heyrətdən donub qalırdılar.
Mələklərsə yer üzünə enərək bu canlı heykələ heyranlıqla tamaşa edirdi.

Tanrı onun gözlərindən dünyaya baxırdı.
Osa qışqırır, heykəl bədənindən azad olmağa can atırdı.
29.XII.2000

XOCALININ ÖLÜMÜ

(hekayə)

"XX-ci əsrdən sonra doğulan uşaqlar üçün XX-ci əsrin nağılı"

O gecə

Göy üzündə qara dumanlar gəzişirdi. Təhlükə hiss edib diksinirmiş kimi, bir-birilə toqquşaraq o gecə İblisin necə ağrı çəkdiyini və şər balasını dünyaya gətirdiyini görüb hönkürüb ağlayırdı. Tanrırın yer üzünə göndərdiyi məlhəm idi sanki bu göz yaşı.

Torpaq ağız-ağız açılıb yarğana dönərək bu məlhəmi köksünə çəkirdi.
Bir müddət beləcə dolub boşaldıqdan sonra buludların rəngi qaçdı, bozarıb, sozalaraq gözə görünməzliyə qovuşdu. Solğun ay sanki, qorxmuş kimi çəkinə-çəkinə göyün üzünə çıxıb özünü əks etdirirdi.

Yer üzünün adamları bu mənzərədən bixəbər idilər. Qəflət yuxusuna dalmışdılar sanki. İblisin şər balası öz əməlləri ilə onları qəflət yuxusundan oyadırdı.

***

Top, atəş səsindən diksinən evlərin elə o andaca çırağı söndü, gözlərinə qaranlıq çökdü. Gecənin vahiməli səs-küyündən oyanan insanlar, çaşqınlıq içində zülməti yararaq evlərdən çıxmağa can atırdılar. Lakin onların sinələrinə tuşlanan güllələr onları elə o andaca susdururdu.
Ətrafı bir andaca qışqırıq, ah, fəryad səsləri bürüdü. O gecə donan yağışları, güllələri, axan selləri isə günahsız insanların qanları əvəz etdi.

Azğınlaşmış quzğunlar qocaları, körpələri, qadınları, cavanları, qızları, gəlinləri sürüyür, bədənlərini güllələrlə dəlik-deşik edərək nəşələnirdilər. Onlar can verən

insanların, gözlərini çıxarır, qulaqlarını kəsir, üzlərini doğrayıb tanınmaz hala salırdılar.

Erməni cəlladı ananın alnından gülləni tuşlayaraq və bir əli ilə də onun körpəsinin boğazından tutub – bax-bax – deyə qəh-qəhə çəkib, körpəni boğdu və gülləni yenidən körpənin ağzına tuşlayıb atəş açdı. Döyülməkdən ciyəri ağzına gəlib parça-parça qan qusan anaya gözlərindən atəş açıb vəhşicəsinə nərildədi.

Son anda ananın balasına dikili qalan gözlərinin qarasından qanlı yaşlar süzülüb dondu.

İnsanlar işgəncə ilə öldürülürdü. Quzğun canavarlar bu qandan nə doyur nə də usanırdılar. O müdhiş gecədə evlər alov içində yanıb külü göyə sovrulurdu. O gecə çaylar donur, qayalar susurdu, bulaqlar qan ağlayırdı.

O, müdhiş gecədə, dağınıq düşən yaralı insanların ölüm sərgisi, Allahın gözlərində əbədiyyətə qovuşurdu. Təbiət qara geymişdi. Yurdsuz-yuvasız küləklərin səsi ölülərin ruhuna qoşulub can üstə olanların iniltisinə qarışıb yeri-göyü sarsıdırdı.

Gecənin vahiməsinə qarışan qoca-qarının qışqırtısı ermənilərin qəh-qəhə dolu səslərinə qarışıb, göyə əl açan tonqalın alovu ilə ətrafa səpələnirdi:

O, gecə Xocalı od tutub yanırdı. Diri-diri başları bədənlərindən ayrılmış bədənlər; çırpınır, səyriyir, əsirdi. Başlarsa xırıldayaraq ruhunu tanrıya təslim edirdi:

Erməni azğınlarının bununla ürəkləri soyumur, yataqda ikən körpələri, qız və gəlinləri ayaqları altına salıb təpikləyərək ölümcül hala saldıqdan sonra, güllələyərək bədənlərini didib parçalayırdılar.

O, gecə Tanrının qəzəbinə gəlmişdi sanki. Buludlar parça-parça yer üzünə səpələnirdi.

Küləklər özünü yanmış evlərin qapı-pəncərəsinə çırpıb, hirs və hikkəsini ovudur, torpağa hopan qanı öpüb yalayaraq şütüyür,

laləyə dönmüş gözlərə sığınıb yenidən bir dəli uğultuyla göy üzünə çəkilirdi.

Bağrı qana dönmüş dan yeri oyandıqca günəş ana, qan gölünə dönən bu dünyaya solğun-solğun boylanırdı. Və bu yanğıya dözməyərək odunu-alovunu içinə çəkib qürub edirdi. Qana bulaşan çaylar, uçulub sökülən lal qayalar bu səhnənin şahidi idilər. Xocalı qan içindəydi.

Ermənilərin azğınlığı baş alıb gedirdi. Onlar yaralıları, qız-gəlinləri əsir aparırdılar. Qana susamış azğınların amansızlığı ölümə meydan oxuyurdu. Nağıla dönmüş həqiqəti gizlədib ört-basdır etmək üçün rəzalətin, xəyanətin qurbanı oldu. Xocalı. Qanı, canı bahasına satın alındı o gecə.

Ata övlad qatili oldu o gecə.

Namusuna sığınan hər bir kəs əlinə imkan düşdükdə özünə qəsd etdi o gecə.

Düşmənin əlinə keçməmək üçün Qardaş bacını qayadan uçurtdu o gecə.

O gecə, əbədi ölümə hökm oxuyan, ölməzliyi qazandı Xocalı. Onun ruhunun ah-naləsini göyün üzünə səpələyən küləklər bayquş kimi ulayırdı.

Yaralı şəhidlərin ruhları ilə baş-başa verərək, külə dönmüş ocaqlarının başına dolanırdı. Onların axan qanı, tarixin ən dəhşətli mənzərəsini yer üzərində sərgiləyirdi. Təbiətin rəngi qaçmışdı. Rüzgarın nəfəsi ağacların koğuşlarına doluşub sızım-sızım sızıldayırdı.

Əsir düşən insanların əzablarına dözmürdü ruhlar. Meşələrə üz tutub qaçan didərginlərin vahimədən böyümüş göz bəbəkləri onları hara gəldi sürükləyirdi. Ermənilər iyrənc oyunlarının mahir iblis üzlü ifaçılarına çevrilmişdi. Ərləri önündə qadınlarını zorlayır, ataları, qardaşlarının gözləri qarşısında qız-gəlinləri soyundurub namuslarını ləkələyirdilər. Anaların döşlərini kəsib, dırnaqlarını çıxarırdılar. Qocaların

dərisini soyub körpələri tikə-tikə doğrayırdılar. Yaralılaların gözlərinə köz basırdılar.
Qan ağlayan rüzgarın səsinə səs vermirdi Tanrı.
Bu iyrənc oyun davam edirdi.

***

Müsəlmanların ən əziz bayramlarından biri idi, Novruz bayramı.
Onlar, ermənilər də bu bayramı edirdi.
Onlar da şadlanır, sevinirdilər. Erməni qızını gəlin köçürürdülər. Tonqal qalayıb üstündən atılaraq əsirlərə də bunu etməyə məcbur edirdilər. Və sonra isə onlardan bir qadın, bir kişi, bir uşağı tonqala atıb, qəh-qəhə çəkərək mahnı oxuyurdular.

Erməni qızını gəlin köçürürdülər. Kənarda dayanmış yekəqarın, enli burun, erməni dığası, əsir qızlardan birini saçlarından tutub sürüyərək qulağındakı sırğaları dartıb qopararaq gəlinin qulağına taxdırdıqdan sonra, xırıltılı səslə:
- Adət-ənənələrinə görə gəlinin ayaqları altında qurban kəsməliyik, deyib. Gəlinin ayaqları altında
- bu da sənin qurbanın deyib, bıçağı bəri ver ara deyərək, əsir qızın başını gəlinin ayaqları altında kəsib qanını onun alnına sürtdü. Çırpınan cəsədin qanı bir andaca axıb gölə döndü. Ana torpaq onun qanını köksünə dağ kimi çəkdi.
Lal sükutun bətnində çırpınan ağrıların hənirtisi ətrafa yayılırdı. Qurdlar-quzğunlar səs-səsə verib, bu hənirtiyə bir nəfəs qatırdı.

Xocalı soyqırımının, dəhşətli mənzərəsini hər bir insan gözlərini köçürüb yaddaşlarına həkk etmişdilər.
Göy üzündən ələnən ağ donlu qar dənələri yer üzərinə enərək o yerlərin rəngini ruhuna hopduraraq Tanrının onları ziyarət etməsini Tanrıdan diləyirdilər. Tanrı o ruhların dualarını dinləyib susurdu…
1992

SEVGİ EHTİRAS DEYİL

Əbədiyyətə qovuşan sevgi

O, müvazinətini itirmiş vücudunun ağrısını hiss etdikcə, yorğun, keyləşmiş, bum-buz daşa dönmüş ayaqlarını birtəhər sürütdəyərək ot-ələf basmış bağa tərəf ağır-ağır irəliləyirdi. Tövşüyən nəfəsinin onun ürəyini necə yandırdığını hiss etdikcə, əllərindən, ayaqlarından, sinəsindən, qollarından damla-damla sızan qana, qarsımış dodaqlarını qapayıb doya-doya içmək, içmək istəyirdi. O, artıq bağa gəlib çatmışdı. Kol-kos basmış, daşlaşmış, cadar-cadar olmuş torpaq…

Səmanın köksü yanırdı. O, dizi üstə yerə çöküb, titrək əlləri ilə bərkimiş kəsəkləri ovucları arasında götürüb ovxam-ovxam edir, qollarında qalan var gücü ilə yeri döyəcləyir, döyəcləyirdi.

Onun köksündə qopan acı fəryadı bətnində inildəyən körpənin fəryadına qarışırdı. Yer də, göy də ağlayırdı. Səmanın iniltisinə, güllər-çiçəklər solurdu. Onun ahından qətrə-qətrə yanan varlığının hənirtisini hiss etdikcə Səmanın ruhu şirin əzab içində uyumuş bədənini oxşayırdı, inildəyən körpəsini ovundururdu.

O isə… dəli bir çığırtı ilə Allahım, sən hardasan-hardasan – deyə inildəyirdi. O, Tanrısını axtarırdı. Sümüklərinin sızıltısından bütün bədənini döyəcləyir və hər dəfə qan süzülən damlaları dodaqlarına sıxdıqca şirin bir nəşə ilə zövq alırdı.

Səmanın ruhu bədəninə sığmırdı. Belə anlarda bir ahla bədənindən çıxıb yaralarını öpüb oxşayırdı. Səmanın

ruhu dincəlirdi. Bir qədər onun donmuş bədəni üzərində dolandıqdan sonra yenidən yerinə qayıdırdı.

Səma torpağın üstündə üzü üstə uzanıb uyuyurdu.
- Səma… Səma…
Bu səs onun ruhunu oyadırdı. Bu səs onun Tanrısının səsi idi, gəlmişdi, onu çağırırdı.
- Sən hardasan, mənim Tanrım, deyə Səma keyləşmiş vücudunun ağrısını indi-indi hiss edirdi. O, indi yalnız ona əzab verən cismini necə gəzdirəcəyini düşünürdü, düşündükcə də, içində həzin hıçqırtı onu bu ağrılardan ayırırdı.
- Ah, sevgim, yavrum, canım – deyib gözlərindən yaşlar tökərək – ananımı istəyirsən, bu saat deyib dəli bir sıçrayışla yerindən qalxıb qaçmaq, buradan uzaqlaşmaq istəyirdi. Səma bədənini hiss etmirdi, təkcə körpəsinin səsindən başqa.
- Gedək, gedək yavrum yəqin Tanrım ordadır, orda, orda. Ovun bir az, sevgim.
Səma göz yaşlarını içir, köksünün yanğısını söndürmək istəyirdi. Onun Tanrısı isə… hələ dünya yaranmamışdan onu sevirdi, o da onu beləcə axtarırdı. Bəli, kainat yaranmamışdan belə əzəl…

Onların sevgisinə mələklər belə həsəd aparırdı. Uçuşan ruhlar, mələklər onlara toxunmaq istəyirdi. Onlarsa, nur dənələri kimi ötüşür, gözə görünmürdülər. Allahın nəfəsindən yaranmış bu nurlarsa, yalnız yaradana sığınır, nura qərq olaraq gözdən itirdilər. Allah bu yaranışı çox sevirdi, qoruyurdu və bir gün isə məhəbbət Tanrısı onlara ruh bəxş etdi, baxışı ilə oxşadı onları. Mələklər bu yaranışa həsəd apapırdılar. Göylər səltənətində uçuşan

ruhlar Tanrının izni ilə dondan-dona girirdilər, mələklər kimi uçuşurdular…

Yer üzündə isə, bir istək vardı… Əzablar içində bir körpə yarandı, acılar içində bir körpə doğuldu, yaradan sevgi
ağrısı ilə oxşadı o körpəni. O müqəddəs ruhu isə onun əzablar qoynunda yaranmış cisminə bəxş etdi.
Səmanın ruhu sevgisindən ayrı düşmüşdü, o harda idi? Bu sirli qismət görən nə imiş, Tanrım. Səma, məhbəs olan cismini didib-parçalamaq, ayaqlarını yerə döyəcləyib hayqırmaq istəyirdi. O, yalquzaq kimi ulayırdı.
- Tanrım hardasan? – deyə qışqırır, bir fəryad qopur sinəsindən-
- Allahım!

Onun solğunlaşmış bənizinə düşən işıq, sanki ruhunu silkələdi, bədənini sarsıtdı… O neçə il idi ki, belə yol gəlirdi. Fəqət o işıq, o nur, aman Allahım, bu, o idi, ona çatmaq istəyirdi Səma.
- Mən burdayam, Səmam…
- Tanrım…

Səma yüyürür, yüyürürdü. Ona qovuşmağa, bir acı rüzgarasa, Səmanın sevgilisini ondan ayırdı. Fırtınalar qopdu sanki. Səmanı bir dəli rüzgar viranəliklərə sürüklədi. Səmanın cismi sanki alov kimi ruhunu qarsırdı. Səma hamıdan uzaqlaşır, qaçır, qaçırdı. O, sakit bir guşə tapıb, bir az rahatlanmaq istəyirdi. Lakin dincəlmək bilməyən cismi ona əzab verirdi. O, əzablarına bir an dinclik vermək ruhundan aman diləyirdi. Səmanın ruhu bədənindən çıxaraq bu zaman çox uzaqlara uçurdu. O sevgilisinin qeyb olduğu yerdə dolaşıb yenidən Səmanın bədəninə qayıdırdı.

Səma deyəsən özünü yaxşı hiss edirdi. İllərsə beləcə ötüşürdü. Onun ruhu isə, barmaqlıqlar arasındakı cismində rahatlıq tapa bilmirdi ki, bilmirdi. Səma, sərgərdan səfil kimi, bətnindəki körpəsini oxşayırdı. O necə də dəyişilmişdi. Üzü, dodaqları, rəngi solğunlaşmışdı. Üzündən süzülən yorğunluq içində parlayan cizgilər isə sanki nur çiləyir, özündə özünü əks etdirirdi.

Səma sevgisinin axtarışına çıxmışdı. Onu taleyin rüzgarı dondan-dona salırdı, yağışlar isladırdı, küləklər döyürdü. Səma bədənini hiss etmirdi. Onun ruhu əzab çəkirdi. Sevgisinə qovuşmağa can atırdı Səma. İllər bir-birini beləcə adlayıb keçirdi.

Soyuq bir qış gecəsi, yeri-göyü kəsən sazaq…

Səma sübhün doğulmasına tamaşa edirdi. O nəfəsinin kəsildiyini hiss edirmiş kimi, sıxılmağa başladı. Tanrı kimi tənha idi Səma.

- Səma, sən hardasan? – bu səs, bu səs onun səsi idi. Səmanın ruhunun səsi idi o səs. Səmanın Tanrısının səsi idi o səs. Səmanın ruhu isə yaralı cismini sərgərdanlığa sürükləyirdi.

Tanrım, sən hardasan? – o nursa ona yetməkdə idi. Səmanın nəfəsi təntiyirdi. Bu, o idi. Səma onu tanıyırdı. O isə, aman Allah…

Səma baxışlarıyla onun ruhunu oxşayırdı, cisminə bir ilğım bəxş edirdi, ruhu titrəyirdi. O isə, Səmanı hiss edirdi, fəqət dərk etmirdi.

- Səma, sən niyə bu qədər mənə doğmasan, sən kimsən, mən səni tanıya bilmirəm… Sən mənim bütün varlığıma, hakim kəsilirsən, mən özümü tanıya bilmirəm. Səma, sən kimsən, sən niyə bu qədər mənim ruhumu sarsıdırsan. Mən səni sevirəm. Sən kimsən Səma, mən getməliyəm, mən qorxuram. Səma, məni kimsə çağırır- mən heç bir şey

başa düşə bilmirəm. Mən səndən ayrılmaq istəmirəm. Səma, Səmaaaa…

- Aman Allahım…

Səmanın köksündən qopan yanğın onu külə döndərir, naləsi yeri-göyü lərzəyə gətirirdi.

Səma üzü üstə yerə düşüb, sürüklənən ruhunun acısını dadırdı. «Ana» deyə oxşayırdı torpağı, daşları, qayaları. Otları

çiçəkləri. «Ana» deyə oxşayırdı göyləri, yerləri, asimanı, «ana» deyə oxşayırdı qanı sızan köksünü…

Səmanın ruhu yalquzaq kimi dolaşır sevgisini axtarırdı. O, Tanrının ruhunu özündə saxlayan varlığı arayıb, didib-parçalayıb, doya-doya yemək istəyirdi. Bətnindəki körpəsinin səsinə dözmürdü Səma. Onun körpəsi qocalmışdı. O, anasını axtarırdı, sevgisini yaşamaq istəyirdi.

Onun köksü od tutub yanırdı, təşnə kimi:

- Aman Allahım, sən hardasan Tanrım, axı hardasan mənim Yaradanım?

Göz yaşlarını yana-yana içirdi Səma. Səma başını qolları arasına söykəyib, hərəkətsiz halda oturmuş, yarı huşsuz vəziyyətdə göylərə tamaşa edirdi.

Qocalmış körpəsinin iniltisinə dözə bilmirdi Səma. Səmanın gözlərindən süzülən yaş dənələri parlayıb, bir anda nur işığına qarışırdı. O səs Səmanı çağırırdı:

- Səma… Səma… Səma…
- Yaradanım, Tanrım sən hardasan?
- Səma heyrət içində donaraq:
- Allahım, bu sən deyilsən – dedi.

Səma yaradanına sığınırdı, körpəsinin hıçqırığını kəsmək üçün, onu ovundurmaq üçün.

Yaradansa, onun müqəddəs varlığını oxşayırdı, ruhunu öpürdü, körpəsini ovundururdu. Onun donmuş gözlərindəki ağrılarsa, ürəyinə bir acılı-şirinli rüzgar şərbətini içirirdi. Səmanın ruhu inildəyirdi:
- Səni çox sevirəm Tanrım.
Sən hardasan...?

XƏYALLARDAN BOYLANAN HƏQİQƏTLƏR

… A- a-a ah a- a- a- ah – ah bilmirəm… Mən, mən gələrəm, gələrəm, gələrəm, gə-lə-rəəəm, aah – aaah!
- Aman Allah, bu necə yuxudur, səhər açılıb ki… Bütün tər içindəyəm, alnım saçlarım… İşıq zərrələri düşür. Yəqin dan yeri sökülür, günəş indi çıxır. Hə, günəşin şüalarıdır: İlahi günəş, necə də bəxtəvərdir. Sübh şəfəqinin doğulduğunu bildirir. Hər kəsin gözünə könlünə nur saçır. Yox-yox təkcə hər bir kəsinmi? Bütün canlıların, canlıların…, canlıların?..., Torpağın, daşın, ağacların, güllərin…
- Torpağın daşın, ağacların, nə dedin yəni onların canı var?
- Əlbətdəki, bu nə şüursuz sualdı?, zərrələrin, mikrobların belə canı olduğunu bilmirsən?, Düzdür onlar şər – yəni iblis ruhludurlar. İnsanın canına, qanına, nəfəsinə keçdikdən sonra necə zəhərlədiyini bilmirsən? Eləcə də quşların, heyvanların, həşaratların, bilirsənmi bütün varlıqların hamısının canı var. Yəni şər ruhlular şər kimi xeyirxah ruhlarsa xeyir kimi təsir bağışlayır və özünü göstərir, bildin.
Durum yuxumu danışım, bu necə yuxu idi. Mən gedirdim, güllər, çiçəklər sonra qaranlıq, amma necə gözəl güllər idi, içində qərənfillər də var idi. Mən qərənfili çox sevirəm, yəqin ona görə də yuxuma girib. Bəs, niyə qaranlıq. Mən hara gedirdim hə? Hə bildim, yadıma düşdü harasa uzaq bir yola çıxırdım. Hələ qarşımda ağappaq bir at da var idi. O mənə baxır elə bil nəsə deyirdi. Hə eşidirdim o mənə deyirdi.
Yaxşısı budur durum əl-üzümü yuyum. Su necə soyuqdur, üşüdüm. Yuxuda da beləcə üşüyürdüm. İndi deyəndə ki, mən qəribə bir yuxu görmüşəm. O dəqiqə deyəcəklər ki, ey xəyalpərəst səndən başqa bu evdə heç yuxu görən yoxdur. Sonra isə, nə bilim daha nələr…
- Yaxşı olar ki, sən heç o yuxunu danışmayasan.

- Nə dedin, sən kimsən? Axı sən kimsən? Qəribədir, bayaqkı səsdir. Axı nə üçün danışmayım?
- Gəl söhbət eləyək.
- Mən? Səninlə nə söhbət?
- Gördüyünü, eşitdiyini, hiss etdiyini, ümumiyyətlə hər şeyi, böyüdüb şişirtmə.
- Qəribədir, mən neyləyirəm ki, bəs nə etməliyəm?
- Nəticə çıxar.
- Necə nəticə çıxarım? Axı nəyi bilirəm, nəyi bilmirəm, başa düşmürəm nə istəyirsən, axı sən kimsən?
- Niyə hirslənirsən?
- Hə düz deyir, niyə hirslənirsən.
- Sakitləş, düz deyirlər sənə hirslənmək olmaz.
- Aman Allah, bəs bunlar kimdir, nə dedin, Siz nə dediz? Bəs hanı mənimlə bayaqdan söhbət etmək istəyən?
- O susur, yəqin küsüb ya da ki, qorxur.
- Nədən qorxur? Mən ona nə dedim ki?
Deyəsən o mənə yaxşı bir söz deyirdi, hə nəsə məsləhət vermək istəyirdi.
- İndi nə fikirləşirsən?
- Bu gün çox gözəl bir gündür. Düşünürəm ki, yarımçıq qalmış əsərimin üzərində işləyim.
- Gözəl.
Doğurdanmı, görən uğurlu alınacaqmı?
- Əgər özünə inamın varsa əlbətdə ki, bütün planların uğurla başa çatacaq.
- Hə düzdür, bəs niyə belə narahatam, hə o yuxu məsələsi, lap səfehəm, bəs niyə hirslənirəm, ürəyim də sıxılır.
Görürsən. Mən ki demirəm, özün-özünə bu sualı verirsən.
- Hə sənin səsindi, tanıdım sən nə dəymə-düşərsən, az qalır ki, məni özündən asılı vəziyyətdə saxlayasan.

- İstəyərdim, amma ki, əslində mən səndən asılı vəziyyətdəyəm.
- Sən mənə çox qəribə-qəribə sözlər deyirsən hələ üstəlik sənin tərəfdarların da çıxır. İndi də deyirsən ki, özün-özünə deyirsən. Özüm kimdir, özümə deyən kimdir. Bəs mən kiməm? Məndən asılı olan sən kimsən?
- Görürəm söhbətimiz yaman şirindir.
- Ürəyim yaman sıxılır. Sanki, əl ilə tutub əzirlər… Durum bəlkə bir işə başlayım, ya da ki, lap bezdim, bir az çıxım təmiz havaya.
- Yaxşı olar bir az fikrim dağılar.
- Bəlkə gəzintiyə çıxasan. Hə pis olmaz.
- Bilmirəm, nə edəcəyimi belə sanki unutmuşam.
- Çıx-çıx, yaxşı olar inan.
- Düz deyir çıx, əhvalın tamam bam-başqa olacaq mənə inan.
- Doğurdanmı? Onda nə edim, hansı paltarımı geyinim.
- Güllü donunu geyinsən pis olmaz.
O sənə çox yaraşır.
- Darıxma səbirli ol.
- Bir az tez qayıt.
- Əlbətdə ki, bütün işlərim tökülüb qalıb.
- İndi yol boyu söhbət etsək pis olmaz.
- Aman Allah, bu hisslər, düşüncələr, bilmirəm, belə getsə mən dəli olacağam deyəsən. Bəs bu səslər, daxilimdən, beynimdən, ruhumdan gələn bu səslər nədir belə axı kimdir onlar. Bütün bu səs-küydən insanlardan sanki uzaqlaşmaq istəyirəm, sakitləşmək istəyirəm. Ah ürəyim yaman sıxılır, ürəyim? Yox bu səslər başımdadır, başımda? Yox, beynimdə, duyğumda, ruhumda varlığımda, hisslərimdədir bu səs.

Hə gəlib çatdım, bir az oturub dincəlim, bəlkə bir an da olsa təbiətin gözəlliyi, bütün bunları mənə unutdura, duyğularıma rahatlıq bəxş edə.

1 səs: Yaxşı olar.
2 səs: Hə düz deyir yaxşı olar.
1 səs: O qadını görürsən?
- Hə necə bəyəm?
3-cü səs: Eh guya ki, bilmir.
4-cü səs: Daha danışma.
- Əl çəkin məndən axı nə istəyirsiz, qoyun rahat nəfəs alım. Mən tək qalmaq istəyirəm, tək-tək eşidirsiz? Ah aman Allah, bu nədir? Yoxsa mən ağlayıram? Görən nə deyər bəs hə, mənə nə olub axı?
2-ci səs: Özünü bir az ələ al…
- Odur özüdür ki, var sən deyən qadın.
2-ci səs: Yadına düşdü?
- Deyəsən xatırlayıram, yox-yox, bəlkə də səhv edirəm, bənzətdim, elə bil hardasa görmüşəm.
3-cü səs: Yaxşı fikirləş.
- O mənə doğma bir insan təsiri bağışlayır. Elə bil ki, bir yerdə uzun müddət yaşamışıq.
2-ci səs: – Tanıdınmı?
- Yox, tanımadım.
2-ci səs: – Amma mən onun ruhunu tanıyıram.
3-cü səs: – Mənim üçünsə oxunmuş kitab kimidir.
4-cü səs: - Elə sənə də tanışdı.
5-ci səs:. – Əlbətdə ki.
- Axı bütün bunlar mənim nəyimə lazımdır?
2-ci səs: – Bəsdir daha bizi bezdirmə, nə özünü nə də bizi səfeh yerinə qoyma.
3-cü səs: – Bəlkə bizi sınayır?
4-cü səs Məyər sənin gözlərin həqiqəti görmür.
- Hansı həqiqəti.

2-ci səs: Gözlərindən baxan ruhunun, o qadının gözlərindən boylanan ruhunun səslərini necə aydın eşitməsini, görüb dərk etmirsən?
- Dərk edirəm, hə dərk edirəm, amma məni narahat edən sizsiz.
3-cü səs: – Axı nə üçün?
- Məni düşünməyə qoymursuz.
2-ci səs: – Yaxşı düşün o qadının ruhu sənin ruhuna nə deyir?
- Eşidərəm aman Allah, eşidirəm. O deyir sanki, dili var danışır.
3-cü səs: – Nə deyir.
- Salam deyir o mənimlə danışır.
Onun ruhunu hiss edirəm, eşidirəm.

Yəqin sən məni tanıyırsan qızım, yoxsa ki, sən mənə belə doğma mehriban baxışlarla baxmazdın. Mənimdə xəyalıma gəlir. Elə bil səni hardasa görmüşəm, qaşların, gözlərin. Hə, gözlərin mənimlə danışır.
- Elədir ki, var, sizin gözlərinizdən baxan ruhumuz mənə hər şeyi gördüyüm qədər aydın danışır… Çox kədərlisiz.
Səs – Çox üzgünəm qızım, dərd məni elə hala salıb ki, sanki, taqətdən düşmüşəm. Özümə yer tapa bilmirəm.

Bilmirəm hara gedim. Elə bil ki, dünyam uçulub. Nəfəs belə almaq mənə çətindir. Xəstəlik də ki, məni lap əldən salıb. Yuxularım da ərşə çəkilib, elə hey özümlə danışıram.
- Necə danışırsan?
Səs Daxilimdəki səslərlə dərdlərimi bölüşürəm.
- Bölüşürsünüz?
Səs – Onlar da mənə gah təsəlli verir, gah da ki, incidir, rahatlığımı əlimdən alırlar.
- Yox-yox belə deyildir. Onlar səni düşündürür, yol göstərir. Axı o səslər həqiqəti söyləyirlər.

Səs – Bəs elə isə niyə bütün həyatım boyu əzab çəkmişəm. Niyə mənim, hərəkətlərim indi məni günahlandırır, təqib edir, hər an belə məni sarsıdır.
- Yəni o səslərin içində xeyirxah ruhlar olmayıb? Bütün ömrünüz boyu sizi günah işlərə sövq ediblər?
Səs – Düzü bilmirəm ki, necə deyim, olub çox olub, çox zaman mən özüm onlara qulaq asmamışam.
- Bəs sonra?
Səs – Qızım sonralar onların yerini şər ruhlar almışdı.
- İlahi, məni o şər ruhlardan qoru, onların nəfəsindən hifz et.
2-ci səs: Sən dua edirsən?
- Hə.
3-cü səs – Nə üçün?
- Günah işlətməkdən qorxuram.
4-cü səs – Niyə görə.
- Yoxsa ki, o əzablı sarsıntılara məruz qalaram. O, dəhşətin acısını düşünməkdən belə qorxuram.
2-ci səs Bəs elə isə bizimlə nə üçün razılaşmırsan?
- Siz?
2-ci səs – Hə mənimlə
3-cü səs – Mənimlə də
1-ci səs – Hər birimizlə
4-cü səs – Mənimlə də
5-ci səs elə mənimlə də.
- Yaxşı bəs siz kimsiz?
1-ci səs – İndi deyərəm, mən sənin ruhunun ilk səsiyəm.
- Necə yəni ilk səsi.
1-ci səs. – Yəni duyğularından oyadan, tanrı dərgahına qayıdan, röyalarında səni tanıdığın və tanımadığın ruhlarla görüşdürən, danışdıran, gördüyün həqiqətlərin ruhuna varan, yanlış fikirlərdən səni ayıldan. Əqidəni düzgünlüyə yönəldən. İdrakına şüuruna aydın fikir, qavrayış, fəhim, əqlinə təkan

verən güclü hisslər bəxş edən bir ruh səsiyəm. Əgər məni qəbul etməzsən, yerimi mənim tam əksim olaraq səni düşündürən, hisslərinə hakim kəsilən ruh əvəz edər və səni özünə tabe edər.
- Necə?
- 2-ci səs – Nəfəsi ilə.
- Bəs sən kimsən?
2- ci səs – Mənmi?
- Hə sən.
2-ci səs. – Mən də həmin ruhun nəfəsiyəm. Sənin varlığına hopan, hisslərinə hakim kəsilən, gözündən baxan, səsindən çıxan ruhunu oxşayan, səni tanıdan, sənə həyatda gördüklərini tanıtdıran, fikirlərinin həqiqət və ya yanlış olduğunu təsdiqləyən Tanrıya qaytaran. Gördüyün, eşitdiyin, daddığın, yediyin, qoxuduğun, gəzdiyin, bütün varlıqların hissiyatını dərk etdirən insanlara baxdıqda onların doğma olduğunu anladan, düşündürən. Əzalarının ağrı-acısını sənə daddıran. Büdrədiyin anda, etdiyin səhvlər üçün səni mütəəssir etdirən. Allahın varlığını xatırladaraq hər an naşükür olmamağa çağıran, ürəyində, beynində, varlığında, şüurunda, idrakında fəhminin gücü ilə düşündürən. Qeybin səsi, ruhunun nəfəsiyəm. Mən sənəm, öz ruhunam. Mən o nurun zərrəsiyəm.
- Bəs mən kiməm?
1-ci səs – Sən özün isə ruhlarını daşıyan canlı cismsən. Sən insansan. Varlığını hərəkəti ilə tənzimləyən isə ruhdur.
- Hansı ruh.
2-ci səs – Sənin ruhun indiki öz simanı əks etdirən ruh, o ruhların canlı səsi. O səslərin gözlə görünən canlı səsi.
- Bəs o səslər kimin səsləridir.
3-cü səs – Onlarmı?
4-cı səs – Mənmi?
5-ci səs – Bizmi?

3-cü səs. Biz sənin daxilindəki, ən dərin, gizli hisslərin, sirli səsləriyik.
- Sizin səsiniz bir-birindən güclə ayırmaq olur.
3-cü səs – Gizlinmi deyirsən? O mənəm.
4-cü səs – Sirrinimi deyirsə o da mənəm.
5-ci səs. Əlbətdəki, mən də onlarlayam.
3-cü səs – Mən ona görə gizlinəm ki, sirlərə varım.
4-cü səs – Mən ona görə sirliyəm ki, gizlinə tapınım.
4-cü səs - Mən sənin gizlənən ruhunam və duyğularına, hissiyatına, gizlindən gələn ruhların, siqnallarını çatdırıram ki, gizlin saxlayasan. Mən səni gizlində idarə edirəm. Sənin açıqlanan, açıqlanmayan hisslərinin dərinliyindən sənə xəbər verirəm. Mən zərrəciklər kimi parlayıb sönürəm. Hərdən xəyallarından gerçəkliyə dönürəm, şübhə edirsən. Sonra həqiqət olduğunu anlayıb susur, gizlin saxlayırsan və bu hisslərlə yaşayırsan. Sənə keçmişin və gələcəyin həqiqətlərindən danışıram. Mən sənin varlığındayam, mən sənin ruhundayam, mən sənin heysiyyətindən, şüurundayam. Gizlin xəyallarında, gizlin düşüncələr indəyəm. Mən sənin ruhunun bir zərrəsiyəm. Röyada ikən qaranlıqlar içindən gələn ruhların gizlin səsiyəm və ağılasığmaz keşməkeşli yollarının xatirələrinin xəyalıyam. Sənin ruhunun şirin duyğularıyam. Sənin gizlin hisslərini yaşadan və hərdən həqiqətə çevrilən gizlin xəyallarının ruhuyam.

5-ci səs – Mənsə ona görə sirliyəm ki, ruhunun sirlərini sirrimdə saxlayıram. Ona görə sirliyəm ki, bütün varlığını idarə edirəm. Mən o nurlu ruhun bir damlasıyam. Qanında işləyirəm, damarlarında dövr edirəm, əzalarını hərəkətə gətirirəm, beynini düşündürürəm. Mənim sirrimə nə qədər varsan da, yenə də sənin üçün sirr olaraq qalacağam. Çünkü mən bütün bəşər övladına bəxş olunmuş sirrəm. Mən sənin ruhunam, idrakını, beynini, ağlını düşündürən hissəm. Gözlərinin işığıyam, dilinin

tərpənişi, varlığının davranışı, daxilinin müammalı çalarlarını başqa ruhlar üçün sirli edən sirrəm. Qulağında eşidilən və eşidən səsəm, mən duyğularının özüyəm. Fəqət başlanğıcdan gələn səsəm. Mən sənin bütün cizgilərinin tərpənişiyəm, səsinin oyanışıyam, səsinə təkan verən nəfəsinin sirli ruhuyam. Mən qeybin sirriyəm. Mən həyəcanlarında döyünən ürəyinin özüyəm. Beynindən keçən ultra səs, gözlərini qapayan hərəkətəm. Bunların hamısı mənim ruhumun sirri ilə bağlıdır. O sirr nurdan doğan zərrələrin hərəkət tərcümanıdır. Nəhayət ruhunun sirrimdə qeybinin aşkar olunduğunu bildirən ruham. Mən sənin ruhunam və əzəli sirr olan, ruhuna dönən haqq ruhunun səsiyəm, sirli səsi.
Mən dönüşəm, mən qayıdışam, doğulmayan, doğmayan ruhdan gələn nəfəsin sirriyəm. Mən qeybdən xəbər verən, fəqət gözə görünməyən həqq ayanam. Mən sənin daxilində müvəqqəti məskən salan nurun zərrəsiyəm. Mən sirli ruham.

- Onda mənim varlığım neyçün, hərəkətim, bütün bunlar doğulmağım davamım, həsrətimin mahiyyəti mənası, düşüncələr. Axı bütün bunların anlamı nə üçün? Mən nə üçün yaranmışam, mən kiməm? Hardan gəlmişəm. Sonum haradır. Mənim adım nədir? Mənim daxilimə ruhlar necə dolur. Hardan gəlir, məni necə ram edir? Bəs, bəşəri duyğularım məni nə üçün narahat edir. Mənim düşüncələrimin hisslərimin sonluğu yoxdursa, yaşamağım neyçün. Bütün bunlar sirdirsə qeyb harda, sirrlərin siri nədədir?
5-ci səs – Sən həyatsan, canlı torpaq hava su olan, istisi soyuğu, barı-bəhəri, davamı olan həyat. Sən bəşəriyyətə bənzər bəşər övladısan. Bəşəriyətdən səni təkcə bir söz ayırır. Canlı həyat, canlı insan. Sən canlı insansan, gəlişini özünü dərk etmək, ruhunu hiss etmək duymaq daxilindəki dünyanı kəşf etmək və axarını öyrənmək. Bu axarın hara getdiyini bilmək nə üçün doğulduğunu, nə üçün yaşadığın bilməkdir. Düşüncələrin bəşəri

həyatla daxilini ayırd etmək, hisslərinə qulaq asıb, nəticə çıxarmaq, mənasını araşdırmaq ona cavab verməkdir. Onda yaranışını dərk edərsən, mahiyyətini anlayarsan ziddinə gedərsən, özündə-özünü doğarsan, yetişdirərsən, böyüdüb kəşfini üzə çıxararsan və gəlişinin mənasını gedişinin dünyasını dərk edərsən.

Ən böyük möcüzə sən özünsən. İstəsən daxilindəki sirlərin sirrinə vararsan. O möcüzəni taparsan. O sənin olar. Sonra sən onun gəlişinə və gedişinə görə nigarançılıq etməzsən. Sənin insan adını müqəddəsləşdirən varlığına can sonra isə o sirli ruhundan bəxş edən tanrını dərk edərsən. Ən nəhayət bəşəri düşüncələrin səni niyə narahat etməsi duyğularının önündə açıqlanar. Özünü dərk etdikdən sonra, həyatı və həyatını varlığın kimi tanıyarsan. Hisslərin kimi, həyatındakı anlarını da ülvüləşdirərsən. Xəyalında paklığa açıqlanan yol sənin daxilində və zahirində özünü əks etdirər.

Əzəli sonsuzluğu bilmədiyin kimi əbədi sonsuzluğunda səni narahat etməz. Çünkü sən məhz bu həyatda yalnız özündə tapılan sirri aşkarlamaq üçün gəlmisən. Sən yerinə qayıtmalısan, o yer isə əbədi ülvülüyə qərq olmuş nur və ruhdur. O sirri xudadır. Sən onu və onun sirlərini paklığınla anlayarsan, duyarsan, hiss edərsən. Sən həqiqət qovuşarsan və həqiqiliyini dərk edərsən. Daxilindəki kainatı seyr edərsən, başa düşərsən. Qaranlıq sirlər qəlbinin gözləri qarşısında açıqlanar. İşığa doğru boylanarsan. O işığın ruhunu hiss edərsən, nurunun şəfəqindən çilənən zərrələrini görərsən. Sən o nurlu zərrələrin mahiyyətinə vardıqdan sonra öyrəndiyini aşkar edərsən. Çünkü sənin daxilində o ruhun müqəddəs damlası var. Xəyalın həqiqətə çevrilər, həyəta dönər, başqa bir həqiqətə, o bu həyatda yoxdur. Sən orda rahatlıq taparsan. Sən orda rahat düşünə bilərsən. Sən orda özünə yiyələnə bilərsən. O həyatın

varlığını gözlərin önündə görərsən və yaşayarsan. Həqiqi, əbədi həm də sirli bir həyat.

Fəqət o həyat sənin bu canlı həyatına bənzəməz. O sənin ruhunun və ruhlarının həyatına çox bənzədiyini dərk edərsən. Sən ruhən bu şirin röyada uyuyarsan…

- Ondadamı daxilimdən gələn səslər mənimlə danışacaqmı?

5-ci səs: – Onlar sənin ruhunla bərabər o sirrə tamaşa edəcəklər. Sən öz həyatını, ruhlarının həyatını görəcəksən. Heyrət edəcəksən, düşünə bilməyəcəksən. Çünkü bütün düşüncələrin gözlərin önündə olacaqdır. O ruhların səslərini, özlərini apaydın görəcəksən. Sən o həyatdan qayıtmaq istəmədiyin anda əfsus yenə də qayıdacaqsan.

- Hə, indi səni başa düşürəm.

1-ci səs – Eləmi? Necə?

- Ah gör neçə saatdı burada oturmuşam.

2-ci səs – Gedəkmi?

3-cü səs – Gedək.

4-cü səs - Gedək.

5-ci səs – Gedək.

- Yaxşı, bəs o yuxu nə idi hə?

2-ci səs – Yenə də yuxu. Cismini hiss etdiyin kimi, ruhunun da gərdişini hiss etmirsən. Axı canımın ruhu olduğu kimi, ruhunun da hissləri var.

- Mən istədiyim ruhlarla görüşmək istəyirəm.

3-cü səs – İstə! Ürəkdən istəməyi bacarırsanmı.

4-cü səs – İstə! İstəsən istəyərsən.

5-ci səs – İstəyini görməkmi istəyirsən?

2-ci səs – Çox istə.

- Elə istəyirəm ki, … Ah başım…

2-ci səs

Bir yerə söykən ya da otur.

Ruh – Bu sənsən?

- Hə, gəldim ki, səni görüm.
Ruh – xoş gəlmisən, inana bilmirəm.
- Mən səni sevirəm – bilirsən?
Ruh – Əlbətdə ki, amma, istəmirəm…
- Axı neyçün?
Ruh – Mən sənin ruhunu xoşbəxt görmək istəyirəm. Çünkü onun əzablarına dözə bilmirəm.
- İndi mən çox xoşbəxtəm.
Ruh – Mən də səni gördüyüm üçün.
- Bura necə də gözəldir.
Ruh – Hə, amma sən getməlisən.
- Nə üçün?
Ruh – Ruhunda ruhumu yaşatmaq üçün.
- Yox, yox. Mən sənin yanında qalmaq istəyirəm, al, məni qoynuna səni köksümə sıxmaq istəyirəm.
Ruh – Sən getməlisən, məni cismən unutmalısan.
- Heç olmasa əlini ver, bir söz de…
Ruh – Sənə qal deyə bilmərəm, sən məndən çox-çox uzaqlarda yerlərdə qalmalısan.
- Axı neyçün?
Ruh – Ruhumuzun əzab çəkməməsi üçün.
- Yox…,
Ruh – Yox…,
- Başım hərlənir. Mən hardayam, bəs bura haradır.
2-ci səs: – Özünü ələ al.
3-cü səs: – Eşidirsənmi?
4-cü səs: – Bizi unutmamısan ki?
5-ci səs: – Cavab ver! Eşidirsənmi?
2-ci səs: – Gedək, gedək unut hər şeyi.

3-cü səs: – Gedək, səssiz düşüncələrə dal.
1-ci səs: – Sənə sakitlik lazımdır.
Gedək…

II hissə

- Eh dünya, bu dünya doğrudan da fani imiş…
Səs – Əlbəttə ki, sən də uymusan o sözlərə, nə bilim əl belə dedi, ayaq belə yeridi. Eh, bilmirəm, bu boş xəyallar hardan dolur beyninə. Bir də görəcəksən ki, hər şeyi itirdin.
- Nəyi itirə bilərəm ki?
Səs – Ürəyinin bütün istəklərini yəni rahatlığını, şənliyini, fərəhini, zövqünü. Eh səni başa salana qədər…
- Mən nəyi başa düşmürəm ki?
Səs – Özünü avamlığa qoyursan, bəlkə də, nə bilim? Bilirsən gəl açıq danışaq. Bu dünyada nə halal var, nə dəki haram. Hamısı boş şeydir, bu dünya kimi fanidir. Ağıllı insanlar heç bilirsən nə edirlər? Necə yaşayırlar? Eh…
- Nə edirlər ki, necə yaşayırlar ki?
Səs – Məsəl üçün kef edirlər. Yaşamağın, özü də necə yaşamağın dadını çıxarırlar. Sənin kimi öz-özünə danışmırlar. Gördüklərin götürürlər. Hər yerdə həmişə birinci olmağa çalışırlar. Hər kəslə öz xeyri üçün ülfət bağlayırlar. Və yeri gələndə çətin məqamda aradan çıxırlar. Yoxsa ki, hi-hi bu nə dedi, o nə dedi, mən nə edim. Belə sözlərə qulaq assan hardasa itib batarsan. Səfeh… hi-hi-hi…
- Axı sən kimsən! Nə demək istəyirsən?
Səs – Mən kiməm? Mən bu gördüyün dünyanın ağrı-acısını, istisini, soyuğunu bilməyən və heç ondan asılı olmayan, sənin kimi, bütün bunları dəyərsiz bilən bir kəsəm. Sənsə gözünü yaxşı-yaxşı sil, ətrafına nəzər yetir. Onda görərsən ki, sənin kimi axmağa çox az təsadüf edərsən.
- Mən nə etməliyəm ki?
Səs – Nə etməliyəm, nə etməliyəm, səfeh! Gördüyün nə varsa hər şey fıpıldaqdı, yalandı, istifadə qaydalarıdı. Bu

qaydalardan sən də istifadə et, ay bədbəxt yoxsa ki, itib batarsan.
- Əl çək, lənətə gəlmiş, sən məni nəyə sövq edirsən, bununla nə demək istəyirsən? Mən düz yoldayam, mənə sənin məsləhətin lazım deyil!
Səs – Hi – hi – hi – hi düzə bax, düz yolda olana bax hi - hi – hi - , düz yolda qalana bax. hi - hi – hi – düzdə qalanda görəcəksən.
Heyif deyil ən gözəli…, eh.
- Nədir sənin gözəl dediyin ey.
Səs – sən məni lap öldürdün gülməkdən, qoy özümə gəlim… Ah o gözəl şey, əyri yol. Bilirsən necə gözəldir? Tutaq ki, bax sən dediyin yəni düpbədüz yoldasan. Mən isə əyri dediyin əyrim-üyrüm yolda. Mənzil başına çatmaq istəyirik. Tələsirik. Mən dolanbac, sənsə dümdüz yolla, hansımız tez çatarıq hə? Cavab ver, sualıma hə? Hi – hi – hi – hi.
- Sən iblissən, sən fırıldaqçısan.
Səs – Oh, necə gözəl sözlər, fırıldaq, iblis. Məgər bütün insanların getdiyi yolun adı bu, deyil? Sənsə yenə də özündən deyirsən, eyb etməz, nə isə. Gəl mənə qulaq as…O üzü bəri gələn adamla tanış ol. Başındakı səfeh fikirləri də at qırağa. Həyatla yaşa, ona de ki, başqa yerdən yəni başqa bir diyardan gəlmisən, buraları heç tanımırsan da, mənə evinizdə qalmağa bir gecəlik yer ver. Bax onda görəcəksən ki, o dəqiqə, o an o insan, səni necə qarşılayacaq. Hörmət, keyf, nə deyim daha nələr, tanışlıq, ünvan, hətta bir də onlara gəlməyini təklif edəcək. Hələ üstəlik cibinə pul da qoyacaqlar. Bir də ki, həmişə elə et ki, dost-tanış içində hörmətli olasan. Bilirsən necə? Onların gözündə özünü elə göstər ki, onlar üçün sən hər şey edə bilərsən, et amma öz xeyrinə, bildin. Elə et ki, hər şeyin yaxşısı sənin olsun. Sonra onlardan üz çevir. Onsuz da onlar gəlib səni özləri tapacaqlar.

- Ah məkirli, hiyləgər, nadan, yaramaz səs. Sən mənim daxilimə necə girmisən? Məni rahat burax. Mən səni eşitmək belə istəmirəm.
Səs – Eh, sən necə adamsan dostluq etdiyin səslərə də əvvəl belə deyirdin. İndi də mənimlə başlamısan ki, əl çək, məndən. Eyb etməz mənimlə də razılaşarsan. Görürəm çox əsəbisən.
- Onlarla sənin aranda yerlə-göy qədər fərq var. Sənin dediklərin riya, nadanlıqdan başqa bir şey deyildir.
Səs – Məni hirsləndirmə, gördüklərin riyadır, eşitdiklərin yalandır. Barı öz bildiklərini de, mən də bilim.
- Lənətə gələsən. Əl çək məndən, əl çək mənə əzab vermə. Ah.. – ah…
Səs – Görürsənmi, bu həyat başdan-başa fanidir, dediyin kimi, yalandır. Onu ki, mənim sözlərimdən sonra düşünməlisən.
- Yox, yox bu belə deyil, bu belə deyil. Nəticə çıxarmaq lazımdır. O mənə düzünü deyirdi. Əgər nəticə çıxarmasam, mən özümün qurbanı olacağam.
Səs – Necə, az imkansız məxluq. Sən biz olmasaq necə nəticə çıxara bilərsən. Hə? Hi – hi – hi – hi.
- Mən imkansız, çarəsiz məxluq deyiləm. İblis! Eşidirsənmi? Mənim varlığımın mənası var. Mənim həyatımın mənası var. Bu həyatda fani deyildir. Eşidirsənmi? Mən bu həyatı öyrənmək üçün yaradılmışam. Daxilimdəki səslərin kim olduğunu bilmək üçün doğulmuş dəyərli bir insanam. Məni yaradan Tanrım fanilik üçün yaratmamışdır.

Hə indi səni deyəsən, lap yaxından tanıdım. Sən şeytansan. Sənin özün kimi sözlərin də yalandır. Yox, sən məni yolumdan çıxara bilməzsən!
Səs – Sən məndən asılısan.
- Yox lənətə gəlmiş sən məndən asılısan.
Mən istəsəm səni hirsimin atəşi ilə yandıraram.
- Mən sənin bütün hislərinə qalib gələrəm. Səni məhv edərəm.

Səs – Görürsənmi məni eşitdikdən sonra həyatı başa düşdün.
- Hə səni eşitməyim yaxşıdır.
Səs – Sən məndən sonra nəticə çıxartdın.
- Sən məndən oğurlamaq istədiyin fikirlərini, mən səndən oğurladım.
Səs – Bəs belə. Səni heç vaxt rahat buraxmayacağam.
- Mənsə sənin öyrətdiyin dərslərdən, özümü imtahan edəcəyəm.
Səs – Ah sən nə yamansanmış.
- Ah sən necə yanansanmış.
Səs – Sən mənim odumda yanmağımdan qorxursan.
- Əgər belə odlusansa məni nə üçün ram etmək istəyirsən. Hə, niyə dinmirsən? Yoxsa qorxursan?
Səs – Ha – ha – ha – ha – ha – ha səni qorxudacaqlar. Ha – ha – ha – ha – ha – ha səni sarsıdacaqlar.
- Axı kimdir onlar?
Səs – Səninlə qarşılaşan insanların qəlbindəki səslər.
- Mən onlara uymayacağam.
Səs – Tək qalacaqsan, tək, tək!
- Yox mənim dostlarım var, mən tək deyiləm.
Səs – Onlar yalançıdırlar.
- Yalan deyirsən, sən yalan deyirsən.
Səs – Sən onları tanımırsan.
- Yox mən onları tanıyıram, onların qəlblərinin səsini eşidirəm, ruhlarını görürəm.
Səs – Bəs neyçün bir yerdə olmursunuz.
- Bu necə sualdı, axmağın sualı da axmaq olur. Tək yaranan insan əbədiyyətə də tək qovuşur. Anasından övladından ayrı bir dünya yaşayır, öz dünyasına qovuşur.
Səs – Yaxşı bəs o dostlar neyçün? Bax görürsənmi sənin ən yaxın dostun mənəm mən sənin ürəyinin içindəyəm. Hər an sənin yanındayam, sənə yol göstərirəm, dara düşdükdə məsləhət verirəm. Düzdür sən hərdən şıltaqlıq edirsən məni

düzgün başa düşmək istəmirsən amma eyb etməz sonra hər şey öz yoluna düşər.
- Yox! Sən mənim dostum ola bilməzsən.
Səs – Yaxşı bəlkə mən sənin özünəm?
- Sən mənim özüm ola bilməzsən!
Səs – Neyçün?
- Çünkü mən sənlə danışıram. Mən səni hiss edirəm, səni qəlbimdən, başımdan, duyğumdan, fikrimdən belə çıxarıram. Səni məhv edirəm.
Səs – Mən yenidən doğuluram, elə deyil.
- Mən sənə qulaq asmıram.
Səs – Sən mənimlə söhbət edirsən.
- Mən sənə nifrət edirəm! Sən mənim nifrətimin səsinə qulaq asırsan.
Səs – Axı mən sənə həyatda olan həqiqətləri deyirəm, dostlarının riyakar olduqlarını deyirəm. Susursanmı?
- Onlara yazığım gəlir.
Səs – Niyə?
- Bədbəxtdirlər.
Səs – Ha – ha – ha – ha – ha – ha. Sən bu sözləri onlara desən, onlar sənə gülərlər.
Haha- - ha – ha. – Görərsən ki, bədbəxt sən özünsən.
- Axı neyçün?
Səs – Çünkü sənin onların xoşbəxt həyatından xəbərin yoxdur. Onlar bu dünyada cənnəti qazanmışlardır.
- O dediyin haramların cavabını ödəyəndə necə?
Səs – Öldürdün məni gülməkdən hi- hi – hi – hi.
Hamı sənin kimi nağdını qoyub nisyəni gözləyir ki, səfeh hi- hi – hi.
- Bəs həqiqət, bəs insanlıq, bəs mənəvi vicdan.
Səs - Sən yıxılanda sənə heç kim yaxınlaşmaz, çünki deyərlər ki, sən hardan çıxdın yolumuza ay maymaq.

- Sən nə üçün hər şeyi öz əqidənlə ölçüb biçirsən.
Səs – çünkü insanların əksəriyyəti bu fikirdədir.
- Çıx onların qəlbindən barı özünü düşün.
Səs – Bəs mənim evim hara olar. Bir də ki, sən özünə cavabdehsən bildin. Nə də buna gücün çatmaz.
- Mən sənlə mübarizə aparacağam.
Səs – Sən mənim qarşımda olmasa da öz qarşında uduzacaqsan.
- Nəyi?
Səs – Həyatını.
- Sən səfehsən, mən sənin ucuz hisslərinə heç bir vaxt aldanmayacağam. Sənin şər istəyinə deyil, xeyirxah ruhların səsiylə və ən nəhayət öz ağlımla bu xoşbəxtliyə nail olacağam.
Səs – Səni bu xoşbəxtlik içində həmişə kədərləndirəcəyəm.
Mən sənə qalib gələcəyəm, eşidirsənmi? Qalib gələcəyəm… Ah başım hərlənir, ürəyim sıxılır.
1-ci səs – Özünü ələ al.
- Bu sənsən? Ah…
2-ci səs – Darıxma, səbirli ol, bir azdan hər şey öz yoluna düşər.
3-cü səs – Sən həqiqətin özüsən.
4-cü səs – Biz sənlərik.
- İlahi, sənə şükürlər olsun.
Səslər – Amin, amin, amin, amin Allah!

III hissə

- Sən kimsən.
- Sən kimliyini bilirsənmi?
Mən? Hə!, yox, yox bilmirəm.
- Mən sənin ruhunam.
- Bəs mən kiməm?
- Sən yeni yaranış.
- Sən hardasan?
- Mən sənin ruhundayam.
- Mənim ruhum hardadır bəs?
- Sənin ruhun, ruhlar aləmində.
- Nə dedin? Bəs sən? Bəs mən? Kimin? Mənim ruhum? Bəs neyçün mənə qayıtmamış? Axı sözlərinin səbəbi nə?
- Aman Allah ah, yoxsa ki, mən dəli oluram.
- Əzab çəkməkdən qorxursanmı?
- Yox, yox artıq əzab çəkmək istəyirəm.
- Neyçün?
- Ruhumun ağrısını dadmaq üçün.
- Ruhunun ağrısını hiss edirsənmi?
- Hə.
- Nədən.
- Əzab çəkdiyimdən.
- Əzab çəkən hansı ruhundur?
- Öz ruhum.
- Neyçün?
- Günahlarımı bilmək və onları yumaq üçün.
- Axı sən günahlarını necə yuya bilərsən?
- Ruhumun çəkdiyi əzabların göstərdiyi nəticə ilə.
- O nəticə sarsıntılardımı?

- Yox, yox, əsla yox. Bu sarsıntılar məni saflaşdırır. Önümdə həyatın mənasını, yaşamağın, mahiyyətini, özümü, ruhumu, və ruhumun qovuşduğu yeri Tanrını dərk etdirir.
- Tanrınımı?
- Hə Tanrını…
- Ha – ha – ha – ha – ha – ha…
- Sən gülürsən, yadıma düşdün. Səni görmüşəm. Lakin mənə xəyal kimi gəlirsən. Xəyal kimi? Yox, yox, duyğularımda danışan ruhum ah. Tanıdım sən mənim ruhumsan. Bəs mənim daxilimdəki səslər, ruhlar kimdir? Mənim cismim hardadır? Sən hardasan? Nə üçün mən sənə çata bilmirəm? Sən mənim varlığımdan nə üçün kənarsan?
- Özünü üzmə, sakitləş və dərk etdiyini, dərk etdiyin kimi daha dərindən dərk et!
- Dərk edirəm, görürəm, hə görürəm. Bəs daxililimdəkilər? Daxilimdəkilər o Tanrı ruhunun səsləridir. Hə o ilahi səslərdir.
- İlahi səslər?
- Hə, ilahi səslər. Onlar məni saflığa çağırır. Onlar mənə yol göstərir. Fikirlərimin açıqlanmasına kömək edir. O ilahi nurundan ruhuma bəxş edir.
- Bəxş edirmi?
- Hə, gördüyüm, hər şeyin mənasını mənə açıqlayır.
- Bəs o şər istək nə üçün idi?
- Yox, yox o iblis idi. O səs ilahidən gələ bilməz. O səs ordan qovulmuşların səsidir. Bütün insanların ürəyində yuva qurmağa can atan bir səsdir. O ruh deyildir. Yox, yox, yox…
O, öz günahının alovundan yanan bir səsdir və hər kəsi öz alovu ilə yandırmaq istəyən bir nəfəsdir. O məni də öz oduyla ram etmək istəyir. Lakin bu heç bir vaxt ola bilməz. O məni ram edə bilməz.

Çünkü məni ilahi səslər, xeyirxah ruhlar qoruyur. Onun istəyi isə cəhənnəm əzabından başqa bir şey deyildir.

- Cəhənnəm əzabından qorxduğun üçünmü belə edirsən?
- Əsla yox, mən özümdən qorxuram.
- Qarşına çıxan əzabları dəf edə biləcəksənmi?
- Bilmirəm, amma Allahdan ömrümün sonuna qədər demədiyim bir istəyə görə qarşısında diz çöküb yalvaracağam. Dua edəcəyəm. Məni günah işlətməkdən qorusun. Ruhumu günah içində yandırmasın. Bütün varlığımla nuruna can atan ruhumun yalvarışlarını eşitsin. Mən onun dərgahına günahkar kimi qovuşmayım.
- Sən öz dünyasında, səfil dolaşan dərvişə bənzəyirsən.
- Mən daxilimdə dolaşan ruhların dərdlərini dinləyirəm.
- Onların dərdləri nədir axı?
- İnsan xoşbəxt olduğu qədər də bədbəxtdir.
- Sən necə, bədbəxtsənmi, ya da xoşbəxt.
- Mən xoşbəxt olduğum qədər bədbəxt çarəsiz bir insanam.
- Neyçün?
- Çünkü, xoşbəxtlikdən belə xoşbəxt ola bilmirəm.
- O hansı xoşbəxtlikdir ki, elə?
- İlahi ruhunun dərk olunmasının qarşısında dönüklük gördüyüm zaman.
- Buna görəmi sən əzab çəkirsən?
- Ruhum ölü bir cism gəzdirir.
- Belə nə üçün düşünürsən?
- Mən heç bir şey yarada bilmədiyim halda yaradandan danışıram.
- Bəs nə etməlisən?
- Mən hələ heç nə bilmirəm.
- Bəs bu hisslər hardan?
- Cismimdə dolaşan zərrələri hiss edirəm.
- Onlar nə deyir?
- Ruhumu axtarmağa çağırır.
- Sən onları görürsənmi?

- Hə.
- Bir şey bilirsənmi?
- Bilirəm, hələ bir söz deyə bilmərəm.
- İndi nə haqda düşünürsən?
- Sənin haqqında
- Qəribədir.
- Sən hardasan?
- Məni sənin baxışlarındayam.
- Səni nə üçün görə bilmirəm?
- Sən hiss edirsən.
- Düzdür bəs başqaları?
- Onlar məni gördükdə qorxur və çaşırlar.
- Axı, neyçün?
- Sən özün bunu bilirsən, məndən soruşma.
- Demək mən özüm…
- Hə…hə…
- Daha danışma.
- Neyçün?
- Mən səni artıq görürəm. Qoy indi mən sənin öyrətdiklərini oxuyum.
- Bunlar sirdir.
- Hə əlbəttə ki.
- Sirr olsun.
- Yalvarıram, yalvarıram, yalvarıram…

***

1-ci səs – Musiqini xoşlayırsanmı?
- Bu sənsən, nə yaxşı gəldin. Bilirsənmi musiqi mənim həyatımdır.

Səs – Ah-ah-hi-hi-hi-həyatım, həyatım. Musiqi sənin necə həyatın ola bilər ki ? Hi-hi-hi boş-boş sözlər. Səfeh hi-hi-hi-hi-hi.
- Ax iblis, bu sənsən. Lənətə gəlmiş sən hardan çıxdın. Cadugər.
Səs – Oh cadugər, kahin. Necə də gözəl sözlər. Bax onlar hər şeyi bilirlər. Əgər istəsən, sənin dəliliyinin haqqında da bir neçə söz də deyərlər.
- İlahi, yalvarıram. Özün mənə kömək ol, daha dözə bilmirəm. Gücüm çatmır, mən necə də aciz bir insanammış pərvərdigara… Allahım sən özün o iblisin şərindən məni hifz et. Yalvarıram sənə İlahi.
2-ci səs – Sən ağlayırsan?.., özünü ələ al. Duyğularını, fikirlərini tənzimlə. Daha narahatlığa səbəb olan bir şey yoxdur. Bir də belə fikirləşsən özünü aldatmış, məni küsdürmüş olarsan.
– Məni bağışla.
2-ci səs – Bir az sakitləş.
……..
2-ci səs – Musiqini eşidirsənmi?
- Hə, necə də gözəldir… musiqi haqqında bayaq nə isə bir söz soruşurdun deyəsən?
- Eləmi?
1-ci səs – Əlbətdə.
- O mənim ruhumun sədasıdır sanki. Musiqini dinləyərkən xəyallarım canlanır, məni qanadlarına alaraq dərkedilməzliyə aparır sanki. Ruhən sakitləşdirir. Kədərimi ovudur.
2-ci səs – Sən hansı janrı sevirsən.
- Bütün musiqilər gözəldir. Lakin mənim ruhumu oxşayansa sanki sirli-sehirli bir səsə bənzəyir. O səs isə simfoniyadır. Klassikadır, muğamdır. Onu dinləyərkən dünyam dəyişir, bambaşqa olur. Ruhum cismimdən çıxır, sanki kainatı dolaşır.

Sonra isə yenidən özümə qayıdıram. Həqiqəti dərk etmək istəyirəm, düşünürəm.
2-ci səs – Sənin sözlərin də ilahi bir musiqini xatırladır.
- Mən musiqini sevirəm, lakin ona çata bilmirəm.
3-cü səs. Sevdiyin daha nələr var həyatda.
- Bu sənsən. Həyatmı? Ah həyat..! Həyat mənim anlamımda tablonu xatırladır. Mənim sevdiyimsə zahiri, ruhi dünya ilə dolu olan sənət əsərləridir. Mən onları oxuduqca, yaxud da tamaşa etdikcə varlığımı unuduram. Ruhumun tamlığınınsa yalnız orda bərqərar olduğunu hiss edirəm. Həyatın acı həqiqətlərini isə məs. Onları daha dərindən dərk edirəm. Lakin insan ruhunun cismani əzabları mənə əzab verir. Özümü unutdurur, dərk olunmayan sirlərə calandırır. O ansa mənim köməyimlə ruhlar gəlir mənim ruhumu özümdən qoparır. Onlar ruh dili ilə ruhlar aləmindən danışırlar. Mən oradan ayrılmaq istəmirəm. O cizgilər beynimdə nəfəs alır, ruhumla qovuşduğumu hiss edirəm. Tanrının möcüzələrini qeybindən gələn səsləri eşidirəm. Mən bu həyatda uyuyuram, uyuyuram.
3-cü səs - Sənin ilahi baxışın, ilahi möcüzələrini önündə açıqlayır. Sən o səslərdən gələn nura bənzəyirsən.
- Ürəyim hər an darıxır, heç özüm də bilmirəm o anlarda nə edim. Ülvü bir kədər, qüssə, qəm qoynuna alır məni. Elə hey düşünürəm və düşünmək istəyirəm. Gözlərimi İlahinin əlçatmaz, ünyetməz mavi səmasına dikilir. Qəlbim titrəyir, o an ağlamaq istəyirəm. Gözlərim bulud kimi dolur, leysan kimi yağır, ahım soyuq külək kimi nəfəsimdə titrəyib əsir.
4-cü səs. Nə üçün axı?
- Canım kimi həyat məni sıxır.
4-cü səs – Həyatın və həyatının cansızlığını nədə görürsən.
- İmkansızlıqda.
4-cü səs. Axı insan həyatı zəngindir. Hansı imkansızlıqdan danışırsan?

- Mənəvi yoxsulluqdan.
4-cü səs – Ah…
- Görürsənmi. Məni də beləcə dərd sarmışdır. Şər ruhlu insanlar, xeyirxah ruhlu insanlara acı çəkdirirlər. Həyat həqiqətləri də bu imkansızlıq qarşısında sarsılır. Dağ-daş yanır, otlar, çiçəklər solur. Hər şey bu imkansızlığın qurbanı olur. Məhv olur. Şər ruhların nəfəsi məni sarsıdır, daxilimi qarsır, rahatlıq vermir. Hər yerdə nalə, əzab, üzüntü və beləcə şər ruhlar öz həyatının yaşayır. Bu həyat özü boyda dərd daşıyır. Yaradılmış yaradanı unudur. Ondan üz döndərir. Bir canlı yarada bilməyən, canlı varlığı məhv edir. Bu həyatın dərdi deyilmi.
Mən əzab çəkirəm. Həyatın yaşamını zəhərləyən insan deyilmi? Öz rahatlığı naminə bir başqasının rahatlığını əlindən alan insan deyilmi. Hər bir insan qəlbində bir həyat susur, yanır, məhv olur. Bu faciə deyilmi.
5-ci səs. Özünü ələ al.
- Bu sənsən…hə həmişə sən mənə təsəlli verirsən.
5-ci səs – Sənə ruhən sakitləşmək lazımdır.
- İstəsəm də sakitləşə bilmirəm.
5-ci səs – İstəsən sakitləşə bilərsən.
- Necə?
5-ci səs – Sevgi haqqında düşün. Anana həyatda, bütün doğmalarına, dostlarına, tanışlarına, torpağa, daşa, gülə, çiçəyə. Bütün canlı nə varsa ona. Quşlara, heyvanlara gözlərin önündə nə varsa hamısına.
- Anamı sevdim, ana sevgisini bütün sevgilərdən üstün gördüm. Bu hisslər gözlərim önündə açıqlandı sanki. Atamı sevdim, ata sevgisi müqəddəs, şirin, əlçatmaz, ünyetməz oldu mənim üçün. Onun böyüklüyünü, qüdrətini dərk etdim. Tanrımı düşündüm. Ruhuma can atdım. Çox istədim, fəqət o mənə yaxın olduğu qədər də uzaq idi. həyatı sevdim, mənim ona,

onun da mənə kədər dolu məhəbbəti qaldı. Yaşamağı sevdim, fəqət yaşantılarımın şirinli-acılı əzablarını daddım. Dostlarımı sevdim, onlar məni sevdiyim qədər sarsıtdılar…
Torpağı sevdim, torpağın sevgisi mənim məhəbbətimdən güclü, ülvü, pak, müqəddəs idi. o ilahi sevgiyə layiq idi. o mənsizliyi düşünmürdü. Mənim canlı varlığım belə ona əziz və doğma idi. torpaq məni belə sevirdi.
Daşları sevdim. Onlar məhəbbətin əzabından, daşlaşmış ruhlarının sevgisindən danışırdılar. Öz dünyalarından xəbər verirdilər.
Gülləri, çiçəkləri sevdim. Onların sevgisi mənim məhəbbətimdən kövrək, məsum, qəlb oxşayan idi. çünki onlar torpağın sevgisi, hərarəti ilə böyümüşdülər. Onlar hər biri müqəddəs sevgi rəmzi idilər. Sevgiləri çox qısa ömür sürər, sonra həsrətindən ləçək-ləçək solub saralırdılar.
İnsanları sevdim. Yaxşılı yamanlı. Bütün canlıları sevdim. Heyvanları, quşları. Onların həyatında bir qəriblik, tənhalıq vardı. Onların öz dili vardı, mənimlə söhbət edirdilər. Bu dil sevgi dili idi. həyata, yaşamağa qarşı olan bir sevgi dili. Mənsə düşünür, düşünürdüm. Ruhum bədənimdən çıxmışdı sanki. Varlığım quru bom-boş cismimi gəzdirirdi sanki. Sevgi hissi mənim qəlbimdə, beynimdə sızlayırdı. İlahi sevgiyə qovuşmaq üçün çırpınırdı ruhum. Mən varmıydım, yoxmuydum bilmirəm… Bəs bu istəklər nə idi belə. Bəlkə mən varıydım. Bəs indi? Qüssəli tənhalıq alırdı məni qoynuna. Mən ölmüş bir varlıq idim. Bütün bunlarısa mənə ruhum danışırdı.
5-ci səs. Sən nə üçün ölmüsən.
- Məni sevmədilər.
5-ci səs. Axı nə üçün.
- Məni başa düşmədilər.
5-ci səs – Nə üçün başa düşmədilər.
- Çünki onların ruhən məndən çox-çox uzaq idilər.

5-ci səs. Kim idi onlar.
- sevdiyim insanlar, doğmalarım belə. Onlara çatmaq istəyirdim. Onlarsa məndən uzaq-uzaq olurdular. Məndən qaçırdılar…
5-ci səs. Hara qaçırdılar?
- Əzablar içinə, onların ruhlarını aldadırdılar. Şər ruhlar görürdü ki, mən onları çağırırdım, yalvarırdım, eşitmirdilər. Mən əzab çəkirdim, mən beləcə ölürdüm.
5-ci səs. Axı ölüm nədir?
- Mən onlardan uzaqlaşırdım. Mən onlardan küsürdüm, inciyirdim. Fəqət müqəddəs ruhlar məni onlarla danışmağa qoymurdu, məni susdurub ruhumu həbs edirdilər.
5-ci səs – Necə həbs edirdilər?
- Heç bilirsənmi, o necə gözəl hissdir.
5-ci səs – Onun gözəlliyi nədə idi ki?
- Bilirsənmi, mən rahat nəfəs alırdım. Mən bilmədiyim, heç ağlıma gətirə bidmədiyim sirlər haqqında düşünürdüm, kəşf edirdim.
5-ci səs. O insanlar haqqında düşünürdünmü?
- Onlar artıq mənə can atırdılar.
5-ci səs – Necə?
- Ruhlarının necə əzab çəkdiyini görürdüm.
5-ci səs – Necə görürdün?
- Onlar daş kimi susub yaddaşsız ruhlarının əzablarını dadaraq, laqeydliyini düşünərək sarsılmış halda çırpınırdılar.
5-ci səs – Sən onlara nə deyirdin?
- Mən artıq onlara heç nə deyə bilmirdim. Onlara yazığım gəlirdi.
5-ci səs – Sən sakitləşməlisən, sən ayılmalısan.
- Məyər mən yatmışam ki.
5-ci səs. Yox-yox sən ölmədiyini dərk etməlisən, özünə qayıtmalısan.

- Yox-yox, mən özümə qayıtmaq istəmirəm.
5-ci səs – Axı neyçün?
- Əzab çəkməkdən, yaşamaqdan qorxuram.
5-ci səs – Sən artıq əzab çəkməyəcəksən.
- Necə, düzmü deyirsən?
- Bəs mənim xatirələrim, düşüncələrim.
5-ci səs – Onları unut.
- Yox-yox nə danışırsan, onları unutsam yaşamağımın mənası olmaz. Mən, gözü bağlı kor kimi məngənədə yaşamış olaram.
5-ci səs – Bəs onda…
- Odlarda yanmağa, alışaram, qorxmaram. Pərvanə tək onların başına dolanaram. Yana-yana odları yandıraram, kül edərəm.
5-ci səs – Bəs əvəzində.
- Müqəddəs ruhlarla ruhlarımız qovuşar. Əbədiyyətə kimi asimanda parlayar., ulduz kimi bərq vurar.
5-ci səs. Gözəl duyğulardı.
- Duyğularmı?
5-ci səs – Yox-yox bağışla! Gözəl həyatdı.
- Ah, yorulmuşam, başım da hərlənir. Sanki nəfəsim çatışmır.

Hə, nə yaxşı ki gəlib çatdım. Bir az dincəlim, sonra isə, yaxşı olar ki, musiqiyə qulaq asım. Deyəsən yuxum gəlir. Yox-yox deyəsən bu heç yuxuya oxşamır. Yoxsa mən, ah, başım hərlənir. Gözüm heç nə görmür. Yoxsa mən, yoxsa mən, mən… uzanım bir az, yox mən… mən, mən, ö-lü-rəm…bəs anam, anacan, heç kimə heç nə deyə bilmədim…
Ruh - ……..
- Yox mən yaşamaq istəmirdim. Nəsə demək istəyirdim.
Ruh - ……
.....
- Mənə möhlət ver, mən nəsə demək üçün yaranmışdım.
Ruh - ……
…….

- Ah…ah….aah…aaa-aaaa……
qorxuram, qorxuram, qorxuram.
Ruh -…….
……
- Mən günah işlətməkdən qorxuram. Mən nəsə demək istəyirdim.
Ruh - ……..
…….
- Hə.., hə.., hə, ah, ah, ah. Mən yaşamaq istəmirdim, nəsə demək istəyirdim.
Ruh - …….
- Aman allah, bu nədir? Yoxsa mən dəli oluram. Əlim, ayağım, bədənim.., mən neyçün yaşayıram, axı neyçün yaşayıram? Bu nədir mən ağlayıram.
Səs – Sən neyçün əzab çəkirsən?
- Mən yaşamaq istəmirəm.
Səs – Axı, neyçün?
- Bilmirəm, yox-yox, bimirəm. Ruhum əzab çəkir.
Səs – Neyçün?
- Bilmirəm… ah aman allah.
Səs – Özünü ələ al.
- Nəsə bir söz demək istəyirəm. Yaşamağımın mənasını bilmək istəyirəm. Ruhum o sözlərlə ovunmaq istəyir.
Səs – Ovuda bilirsənmi?
- Bilmirəm.
Səs – Sən nə isə bilirdin.
- Mən ruhumun qarşısında çox acizəm. O məndən güclüdür.
Səs – Sən doğrudan da nəsə deməlisən.
- Əlbətdə ki, əlbətdə, yoxsa yaşamaq mənim üçün əzaba çevrilər.
Səs – Sən nəyi sevirsən?

- İlk yaranışı. Kainatın, həyatın, insanların, quşların, heyvanların, bəşəriyyətin, məhəbbətin yaranışını. Təmizliyi, paklığı qədər ülvi əzəli sevirəm. Hər zərrə belə varlığın əzəlini sevirəm.
Səs – Bəs neyçün əzəlinin.
- Çünkü o pakdır, ruh qədər müqəddəsdir, ülvüdür.
Səs – Gördünmü, necə görmək istərdin?
- Yaranışımı..? körpə varlığı kimi müqəddəs, səsi kimi əvəzedilməz, baxışı kimi nurlu, üzü kimi məsum, təbəssümü kimi sirli sehrili, qığıltısı kimi həyatla dolu, həyəcanlı. Oyanışı kimi həzin, duyğulu, anlayışı kimi pak və təmiz qüsursuz, ləkəsiz, ürəyinin döyüntüsü kimi canlı mənalı…Əgər, insanlar, bütün canlı nə varsa, ilk yaranışı kimi, paklığını saxlayarsa, bax onda, bütün xilqət müqəddəsləşər. Dünya daima paklaşar, doğular, yaşayar.
Səs – Bəs sonu necə?
- Sonumu? Onda sonu da müqəddəs qəbul olunar. Yox əgər bu hisslərim, istəklərim arzularımın əksinə olarsa onda hər şey əzablar içində yanar. Əbədi sonsuzluğadək alovlar içində alışar. Müqəddəs ruhlar qarşısında imkansız olarlar…
Səs – Həqiqətən də bu belədir.
- Bu belə də olmalıdır.
Səs – Sən yaşayırsanmı?
- Hə, deyəsən yaşayıram.
Səs – Neyçün yaşadığını bilirsənmi?
- Hə hardasa, danışmaq, düşünmək istəyirdim.
- Bəs indi?
- İndi də istəyirəm. Qəlbim, ruhum, hisslərim bu istəklə dopdoludur.
Səs – İstədiyini yaşa, yaşat.
- İlahi mən necə də xoşbəxtəm…
Səs… Gələcəyəm.

- Gözləyəcəyəm….
Səs…….
-……..

***

- Sənsən… bilirdim ki, bu axşam gələcəksən.
Ruh varlıq – Nədən bilirdin?
- Hisslərimdən.
Ruh varlıq – Məndən ötrü niyə bu qədər əzab çəkirsən?
- Heç özüm də bilmirəm. Sevirəm səni…
Ruh varlıq – Axı sən mənim nəyimi sevirsən. Mən ki yoxam və bilirəm ki, varlığım qədər yoxluğum sənə əzab verir. Məni düşünmə yalvarıram.
- Sən nə dediyinin fərqinə varırsanmı? Sən həqiqət olduğunu neyçün danırsan?
Ruh varlıq – Mən səni incitdiyimi hiss edirəm.
- Mən sənsiz yaşaya bilmirəm. Mən sənsiz bir heçəm, başa düşürsənmi?
Ruh varlıq – Sən mənə əzab verirsən.
- Aman Allahım…… axı neyçün.
Ruh varlıq – Deyə bilmərəm əzab çəkirəm.
- Mən sənin nə demək istədiyini yaxşı bilirəm. Bir də ki, mənim üçün elə belə də yaxşıdır. Sən mənim bu an necə xoşbəxt olduğumu görmürsən?
Ruh varlıq – Axı sən necə xoşbəxt ola bilərsən, nə üçün məni də, özünü də aldadırsan.
- Sən mənim ruhumdasan, mən ruhən xoşbəxtəm, sənin də bu hissi keçirməyini dərk edirəm.
Ruh varlıq- Yox əsla bu belə deyil. Sənin cismani əzabın kimi, mənim də ruhumun "sən" adlı əzabı var.
- Nə demək istəyirsən?

Ruh varlıq – Sənin sevginin ağırlığını daşıya bilmərəm. Sənə təsəlli verə biləcək bir söz belə deyə bilmərəm.
- Sən məni incitməkmi istəyirsən?
Ruh varlıq – Yox-yox bu belə deyil, mən belə demək istəmirəm.
- Onda hər şeyi unut. Məni sevirsənmi?
Ruh varlıq – Sən məni sarsıdırsan.
- Yoxsa məni sevmirsən?
Ruh varlıq – Bu, belə deyil. Artıq hər şey gecdir. Günahkar olaram.
- Allahım mənə niyə bu qədər əzab verirsən?
Ruh varlıq – Allahım mənə niyə bu qədər əzab verirsən?
- Bizim səsimizi Tanrı eşidirmi?
Ruh varlıq – Hə eşidir.
- Bəs bizim əzablarımıza son qoyacaqmı?
Ruh varlıq – Bilmirəm.
- İlahi mənə rəhm et, məni günaha batırma.
Ruh varlıq – O günaha batmış varlıq qarşısında əsir olduq.
- Axı, günahımız nə idi?
Ruh varlıq – O mənim günahım idi.
- Axı neyçün.
Ruh varlıq – Çünki, sən paksan, mən sənə layiq deyiləm.
- Sən səhv edirsən. Sənin ruhun pakdır, müqəddəsdir.
Ruh varlıq – Axı sən mənim hansı müqəddəsliyimdən danışırsan?
- Çünkü sən, mənə yaşamağı öyrətdin. Sevməyi, dərk etməyi, bir sözlə ən ülvü hissləri öyrətdin.
Ruh varlıq – Yox,- o mən deyiləm.
- Sənsən, sənsən, daha bir kəlmə belə söz eşitmək istəmirəm.
Ruh varlıq……..
……..

Ruh varlıq – Mən sənin paklığın önündə davam gətirə bilmirəm.
- Mənsə sənsizliyin.
Ruh varlıq – Mən səni sevirdim.
- Mən də səni sevirdim.
Ruh vardlıq – Bəs indi.
- Əvvəlkindən də daha çox sən mənə uzaq olduğun qədər yaxınsan.
Ruh varlıq – Məni unuda bilərsənmi?
- Unutmaqmı?, özümü unutmuş olaram. Həyatımı, düşüncələrimi, gələcəyəimi unutmuş olaram. Ən nəhayət, səni itirərəm, səni itirməkdənsə qorxuram, qorxuram, qorxuram.
Ruh varlıq – İlahi, özün bu kədəri bizə unutdur.
- Yəqin onda, daha mənimlə bir yerdə kədərli söhbət etməzsən.
Ruh varlıq – Bir azdan dan yeri söküləcək.
- Getməkmi istəyirsən
Ruh varlıq – Daha vaxtdır. Mən gedim.
- Niyə belə küskünsən
Ruh varlıq – Məni unutmaq istəmirsən?
- Yalvarıram getmə.

Ruh varlıq……..
- İlahi bu nədir mən göz yaşı içində boğuluram. Ah..aaah….

***

Səhər açılıb ki, İlahi. Həyat necə də gözəldir. Günəşin şəfəqləri kainata nur saçır. Səmaya tamaşa etdikcə xoşbəxtlik içində itib batıram. Kədərimi unuduram. Mən səni əbədiyyətə qədər masmavi qalmağını istəyirəm, ey səma… Səni sənliyindən çıxmamağını istəyirəm. Sən də məni beləcə istəyirsən, eşidirəm. Sən səma dilində danışırsan. Sənin səsin

işıq səsidir. Baxışın nurdur. Mənsə bir zərrəyəm. Sənin hərarətin mənə həyat verir. Nura qərq edir. sən çox sirli sehirlisən. Səni oxumaq olmur, səndən doymaq olmur. Fəqət mən səni eşidirəm. Sən pak olduğun qədər müqəddəssən. Göy üzündə gəzinib qeyb olan ulduzlar sənin ruhundur. Mən sənin ruhuna həsrətlə tamaşa edirəm. Sənin sirli, müəmmalı gözəlliyin var. sənin ruhların hər an bir ruhdan danışır. Gözlərim önündə ecazkar, füsünkar, bənzəri olmayan mənzərə yaradır. Hər bir qeybindən bir ruh, bir əsər bəxş edirsən. Sən hər dildə danışırsan. Torpaq dilində, ağac dilində hə-hə bu belədir, dağ, daş, ağaclar, quşlar, heyvanlar, sular, güllər, çiçəklər və bütün canlıların dilində danışırsan. Sən məhəbbətdən danışırsan. Hələ uşaq vaxtlarında, dumanlı ruhlarının söhbətinə qulaq asar, sonra isə çəkdiyin cizgilərə, rəsmlərə tamaşa edərdim. Onda uşaq aləmindən məhəbbətlə danışardın, indi isə bir başqa dünyadan, bir başqa sevgidən, və misilsiz əsərlər yaradarkən mənimlə danışırsan. Səma da kainat kimidir. Onun da ömrü vardır. O da canlıdır, yaşayır. Kədərlənir, qüssələnir, ağlayır, yəni yağış yağır. Doluxsunur, dərin-dərin nəfəs alır. Öz ruzigarını yaşayır. Yer üzündə əzab çəkən insanların ruhları ona əzab verir, qaralır, boğulur, qəzəblənir, şimşək çaxır. Göylərin gözləri dolur, boşalır. Heyrətə gəlir, dolu yağır. Səma da canlıdır. O, hər şeyi görür, dərk edir. hər kəsin gözünə öz ruhu kimi dolur. Ona doğma yad görünür. Mənim səmam. Sən ülvü hisslərlə dolusan. O hisslərə toxunmaqmı olar? O paklığı ləkələməkmi olar? Əsla yox. Mən sənin qədər pak olmaq istəyirəm. Mənim səmavim. Sənin kimi sirli sehirli müəmma dolu nağıl danışmaq istəyirəm. Mən sənin kimi təmiz olmaq istəyirəm. Ayın kimi, ulduzların kimi zülmətləri yararaq nur saçıb xoşbəxtlikdən səadətdən danışmaq istəyirəm. O nur ki, zülmətdə daha aydın görünür, daha aydın eşidilir, daha aydın hiss edilir. Mən sənin günəşin kimi

parlamaq, qəlblərə nur kimi dolmaq istəyirəm. Mənim səmam. İstəyirəm ki, sənin məhəbbətin kimi mənim də məhəbbətim pak və müqəddəs olsun. Göylərdən çilənən yağmurun kimi dağların, daşların, güllərin, çiçəklərin, insanların ruhuna yağam. Onların daxilindəki ləkələri yuyum. Duyğularına bahar nəfəsi kimi dolum. Ruzgarlarında titrəyim, nəfəsləri ilə onların qəlblərinə dolum, dərdlərinə sənin kimi şərik olum. Kədərli duyğuların təmizləyim, ülviyyət haqqında düşündürüm. Mən sənin kimi müqəddəs olmaq istəyirəm. Mənim səmavim. Ürəyimə dolduğun genişliyin qədər geniş ürəkli olum. Sən məni sevdiyin, həyat bəxş etdiyin qədər mən də səni sevirəm. Mənim istəyim, mənim nurum. Sən mənim ruhumda, duyğumda dolandığın kimi, mən də sənin ruhunda dolanmaq istəyirəm. Mənim işığım, nurlu səmavim.

2-ci səs – Özünü necə hiss edirsən?

- Bu sənsən, nə yaxşı ki, gəldin. Yaxşı bəs sən, sənə əzab vermirəm ki?

2-ci səs – Deyəsən daha əzab vermək istəmirsən.

- Bilirsənmi özümü nə qədər xoşbəxt hiss edirəm.

2-ci səs – Neyçün.

- Heç özüm də bilmirəm. Elə bil ki, kədərli hisslər bir anda sovrulub itdi.

2-ci səs – Mən də xoşbəxtəm.

- Eləmi?

2-ci səs – Əlbətdə.

- Bəs sən.

3-cü səs – Mənmi? Mən də o qədər məmnunam, amma işləsən yaxşı olar.

- Hə, düz deyirsən.

3-cü səs – Çalış ötənləri kədərlə xatırlama, sadəcə xəyallarda yaşat o anları yeni bir xatirəylə.

4-cü səs – İndi nə düşünürsən?

- Yeni bir əsər üzərində işləyəcəyim haqda.

5-ci səs. Bəlkə o əsər sirlər aləmindən xəbər verəcək?

- Çox istərdim, amma buna mənim qüdrətim çatmaz. Sirlər yalnız Tanrıya məxsusdur. Lakin həyat haqqında düşünürəm. Elə bir həyat ki, ondakı insanlar pak, müqəddəs olsun. Onların üzərində işıq, gözlərində nur, varlıqlarında müqəddəs həyat eşqi, əməllərindcə saflıq, düzgünlük, təmizlik olsun. Fikirləri səma kimi aydın, nəfəsləri ruh qədər pak olsun.

5-ci səs – Bəs, başqa varlıqlar necə?

- Dağmı, daşmı, ağaclarmı, quşlarmı, heyvanlarmı, torpaqmı, sularmı…? Ah… bilirsənmi onlar əsrarəngiz gözəlliyi, azadə yaşamı bir-birinə müqəddəs baxışı ilə ruhumda canlanır. Sanki, hər tərəf zərdən, zinətdən nur biçimli don geyinmişdir. Dağlar asimana vüqarla tamaşa edir, qayalar əzəmətli qürurla bu paklıqdan başını uca tutur. Bütün aləmsə al-yaşıl dümağ rəngində əlvan boyalarla bəzədilmişdir. Hiss edirsənmi? Bax orda ağaclar torpağın şirin mehr dolu yuxusu ilə boy verib al-əlvan rəngə boyanacaqdır. Quşlar isə müqəddəs pak ruhların sevincindən şaqaraq nəğmələrlə oxuyub ötüşəcəklər. Bütün canlılarsa ayaq saxlayıb bu nəğmələri dinləyəcəklər. O an hər şey bambaşqa gözəl bir biçimdə olacaqdır. Torpaq sevgidən ovum-ovum ovulacaq, xoş ətirli gül-çiçəklər boy verib asimanın həzin ruzgarı ilə titrəyəcəklər. Bütün canlılar bir-biri ilə sevgi ilə danışacaqlar bu əsrdə. Bilirsənmi, bütün canlılar, heyvanlar, quşlar, güllər, çiçəklər, suda, quruda yaşayan nə varsa öz dillərində danışacaqlar bu müqəddəslikdən.

Qurd quzuyla sevişəcək,
Gül çiçəklə öpüşəcək,
Ruh mələklə gəzişəcək,
Bu əsərdə bu aləmdə…

Bilirsənmi? Və sonra bilirəm ki, mənim çəkdiyim bu əsər lövhəyə sığmayacaq, pak ruhlardan danışacaqlar, söhbət açacaqlar müqəddəs ruhlar və mələklər. Onlar əbədi əzəli bir ömür sürəcəklər. Həyatda belə olacaq eşidirsinizmi, təmizləşəcək, müqəddəsləşəcək.
5-ci səs – Mən inanıram ki, o əsər yaranacaqdır.
- Doğurdanmı, buna mənim gücüm çatacaqmı?
5-ci səs. Hər bir zərrə nura çevrilə bilər əgər inansan. Axı, zərrə ruhun nurundan yaranan işıq damlasıdır.
- Hə əlbətdə ki.
5-ci səs – Yoxsa yenə də xəyallar aləminə qapıldın?
- Nə bilim. Bu xəyalların həqiqətə çevrildiyini görsəydim…, eh, nə bilim.
5-ci səs. Sən onları görəcəksən.
- Ömür vəfa versə.
- Ah əlbətdə ki, Tanrım rəva görsə.
5-ci səs. Sən duyğuların qədər paksan.
- Mən o paklıqdan danışmaq istəyirəm.
5-ci səs. Sən o paklığa qovuşacaqsan, indi isə…
- Sən gedirsənmi?
5-ci səs – Hə.
- Axı mən sənsiz nə edərəm?
5-ci səs – Mən sənin daxilindəyəm. Nə vaxt istəsən mənim haqqımda düşün.
- Bəs siz.
1-ci səs – Əlbətdə ki, bizdə səninləyik.
2-ci səs – Sənin qəlbində.
3-cü səs – Sənin ruhunda.
4-cü səs – Sənin özündə.
Səs – Əlbətdə, əlbətdə hi-hi-hi-hi məni də unutma… mən də sənin başındayam, ağlındayam.

- Ax sən iblissənmi? Səni öz odunda yandıracağam, yalanlarında boğacağam, iftiralarında susduracağam.
2-ci səs – Onu unut.
Səs ruh – Onu unut.
Səs ruh – Onu unut.
2-ci səs – İndi isə yalnız müqəddəs hisslər haqqında düşün.
- Hə düzdür, işə başlasan yaxşı olar. Bu nədir tablo, fırça, bəs rənglər hanı, hə buradadı. Nə yaxşı oldu. Yaşıl, mavi, ağ rənglər mənə daha çox lazım olacaq. Az qala unutmuşdum. Bəs qırmızı rəng. Mən rəngləri, al-əlvan rəngləri daha çox sevirəm. İlahi… rənglər də səslərə bənzəyir. Elə səslər ki, ecazkar qüvvəyə malikdir. sanki insanı susdurur, varlığını özünə əsir edir. musiqi kimi qəlbə yol tapır, düşündürür. Bütün kainata, varlıqlara gözəllik bəxş edən rənglər deyilmi? Əlbəttə ki, xeyirxah ruhlu rənglər, bunsuz mümkün deyil.

Gözəllik! Ah sən nə qədər ülvü, nə qədər ecazkarsanmış. Torpaqdan boy verən xeyirxah ruhlu əlvan gözəlliklər. İnsan gözəlliyi daxili, bətni gözəllik. Aldığı nəfəsin, dünyaya baxışının paklığını bənzərsizliyi, müqəddəsliyi bu, gözəllik deyilmi? Müqəddəs gözəllik, mən sənə səcdə edirəm. Sənə məftun oluram. Sən bütün saf niyyətləri özündə cəmləşdirən varlıqsan. O varlıqsa müqəddəs ruhun nurundan kainata bəxş olunan həyat eşqidir. Ey pak ruhum. Sən tək və müqəddəssən. Sən əvəz olunmayan, doğmayan və doğulmayan Tanrının şəfqətindən yaranmısan. Yalnız sənin ruhun buna qadirdir. Həyatı, bütün kainatı nura qərq etməyə, pak ruhları əbədiyyətə qovuşdurmağa. Allahım, sənə həmd və səna olsun. Sənə çox şükürlər olsun, amin!

Ruhlar. Amin…….amin!
Səslər. Amin…….amin!

PROLOQ

Ölümündən iki saat qabaq Vanqa mənimlə görüşməli idi. Görüşdük. Sual verdi, suallarına cavab verdim. Mənim ruhumü özünə təslim etmək istədi. Ona dedim:

- Mənimlə bərabər «***Lailahəilləllah***» kəlməsini de.

O, bunu qəbul etmədi.

Ayan

(povest)

I hissə

Mariya evdən tələsik çıxdığına görə, deyəsən qapını kilidləməyi yenə də unutmuşdu. Onsuz da hər şeydən xoflanan Mariya üçün bunun nə demək olduğunu yəqin ki, özündən başqa heç kim bilməzdi.

O, yaddaşının küncündə itib batmışdı. İşdən yorğun, bir az həyəcanlı qayıdan Mariya, keyimiş bədəninin təsirindən, qayğılı baxışla dünyasına dalırmış kimi bir anlıq ayaq saxlayıb, taqətsiz halda duruxduqdan sonra diksinirmiş kimi əl sumkasını açıb açarı çıxardı. Qorxmuş adamlar kimi, astaca açarı qapıya saldı, açar Mariyanın əlinə bərkidilmişdi sanki. Mariya bir də cəhd elədi, açar yerimədi. Qapı açıq idi. O, içəri girib evin ortasındaca donub qaldı.

- Bu nədir, yoxsa…

Hər şey öz qaydasında idi. Mariyanın qoyub getdiyi səliqə-səhman, hətta səssizlik belə… Çünki Mariya hələ də yerində donub qalmışdı.

O, daxilində baş qaldıran hisslərin fərqinə varmağa başlayırdı.

- Bu mənim evim deyil…!

Görən burada nələr baş verib.
Sonra isə o, çaşqın addımlarla otaqları gəzməyə başladı. Ona elə gəlirdi ki, ayaqlarının altından yer qaçır, daş-divar üstünə yeriyirdi. Səssizlik qışqırırdı.
- A- a- a- a- a-a.
- Ha – ha – ha – ha – ha – ha…
- Dayan Mariya, dayan gəlmə.
- Sən kimsən! – deyə Mariya gözləri böyümüş halda evin qapısına sıxılıb tir-tir əsdi.
- Biz səni gözləyirik, eşidirsən.
Sən bizi unutmusan, artıq sənə dözmək çox dözülməzdir.
- Yooooooox….
Mariya əlləri ilə qulaqlarını bərk-bərk qapayaraq qışqırdı. Sonra isə pərdələri çəkdi, televizoru işə saldı, qaz piltəsini yandırdı və.
- Hər şey öz qaydasındadır. Heç bir şey olmayıb, hər şey öz yerindədir.
Bu bir qarabasmadır, lənət şeytana. Bəs bu vicdansız harda qaldı, gəlib çıxmadı- deyə öz-özüylə danışdı.
- Saata baxdı. Ona on dəqiqə qalırdı.
- Görəsən hansı dərənin dibinə düşüb gəlib çıxmaq bilmir. Yoxsa, bir hadisə baş verib. Axı o indiyə kimi gəlməliydi. Axı o. Cəmi iki günlüyə getmişdi.
İlahi bu nədir? Pəncərəni döyən kimdir? Küləkdir, başqa bir şey deyil, yəqin indi dayanar, əl çəkər, bir sözlə mən indi nə etməliyəm. Paltarımı soyunmalıyam, geyinməliyəm, çay qoymalıyam və sairə.

Saatın əqrəbi gəzdikcə otağı özünə məxsus səsiylə ovsunlayırdı. Mariya başını qaldırıb ətrafa baxmağa belə cürət etmirdi.
- Yenə gələcəklər, danışacaqlar, yox bütün bunlar hamısı cəfəngiyatdır. Bəs sonra nə etməliyəm?

Bu zaman qapının səsi onun fikrini yayındırıb, bir anlıq, hər şeyi unudurdu.
- Yəqin Mişadı, buna bir bax indi gəlib çıxır. mənim günümə bax – deyib qapıya tərəf tələsdi.
Qapını niyə qırırsan?! – deyib acıqla.
- Kimdir?
Gələn səs Dusiya xalanın səsi idi.
Mariya qapını açıb narahatlığını gizlətməyə çalışaraq.
- Gəl içəri Dusiya xala – dedi.
- Yox qızım, gecdir. Mənə bir az çörək lazım idi. Ona görə səni narahat etdim.
- Mariya:
- Mən bu dəqiqə deyib mətbəxə keçdi və bir çörəyin yarısını kəsib Dusiya xalaya verdi və onunla sağollaşdıqdan sonra içəri keçdi.
- Deyəsən hər şey öz qaydasına düşür. Əsəblərim, hisslərim, indi mən yaxşı şeylər haqqında düşünməliyəm. Bəs ərim, bu əclaf harada qaldı axı. O bilmirmi ki, mən tək-tənhayam. Yox, bəlkə başına bir iş gəlib. Zəng vurum, yox gecdir qalsın…

Əqrəblər öz işindəydi, yerini də tez-tez dəyişdikcə səsinin sehri Mariyanı ovsunlayırdı. Getdikcə bərkiyərək Mariyanın qulaqlarına dolurdu.

Nə evin ab-havası həmişəki kimiydi, nə də Mariyanın ruhu. O bunu inkar etsə də bu beləydi.

II hissə

Həmişə olduğundan fərqli olaraq diqqətini heç bir şeydən yayındırmayan Mariya səhər tezdən qapını kilidlədikdən sonra dönə-dönə yoxlayıb oradan uzaqlaşdı.
O bu gün çox qayğılı, həm də çox əsəbi idi.
O bunu biruzə verməsə də, iş yoldaşları ilə davranışı səmimiyyətdən çox süniliyi nəzərə çarpdırırdı.
- Mariya ərinə nə qədər zəng vururdusa da ondan bir xəbər çıxmırdı ki, çıxmırdı. Onun narahatçılığı daha da artmağa başlayırdı.
- Bəlkə onun başında bir iş var.
Mariya bir də zəng vurdu. Sonra isə o bir başqa nömrəni yığaraq:-
- Anna xala, Mişadan bir xəbər yoxdur ki, o gəlməliydi. Axı o harada ola bilər? - dedi
Mariya əlində telefon donub qalmışdı və sonra telefonun ekranına qeyri-adi bir siqnal səsi –işarə daxil oldu, o:
- Bu nədir? Bu nə deməkdir Mən başa düşə bilmirəm – deyib təəccüblə yerində donub qaldı.
Artıq gün axşama doğru dönürdü.
Mariya evə tələsirdi.

Havanın gün kimi dəyişkən olması heç də Mariyanın xoşuna gəlmirdi. Külək ağacların tozunu çırparaq küçələri silib süpürürdü. Bir az şıltaq, bir az da ağıllı küləklər, Mariyanın əvvəl saçlarını qarışdırır baxılmaz hala salırdı, hərdən də mehrli nəfəsi ilə onun telləri ilə oynayıb sığallayırdılar. Külək öz həzin nəğməsi ilə onun ruhunu sakitləşdirməyə çalışırdı. O gah Mişanı düşünür gah da ki, özünün -əvvəlki Mariyanın hisslərini yaddaşında axtarmağa çalışırdı. Küləyin ona gətirdiyi soyuqluğu isə ciyərlərinə çəkdikdən sonra daha da dözülməz olurdu.O, qapıya çatdıqda tələsik açarı çıxarıb açmağa çalşdı, gah irəli gah geri fırladaraq, qapını özünə sarı çəkdi.

- Mən açdım, yox, açıq idi, mən özüm açsaydım, bəs necə olmuşdu. Mən ki, onu səhər bağlamışdım. Hə deyəsən mənim başıma doğrudan da hava gəlir. Bəs nə edim aman Allah…

Küləkdən sonra gələn yağışın ətri onu bir az sakitləşdirmişdi. O qeyri-adi baxışlarla ətrafa boylanaraq evə daxil oldu. Otaqları bir-bir gəzərək nəzərdən keçirdi.
- O gəlmədi, qapı açıq idi, bəlkə polisə deyim. Hə bu dəqiqə.
Mariya elə o dəqiqə də əlləri titrəyə-titrəyə dəstəyi götürüb nömrəni yığdı. Hər şeyi olduğu kimi danışdıqdan sonra dəstəyi üstünə qoydu. Elə həmin andan başlayaraq Mariyanın evi nəzarət altına alındı. Mişanın isə axtarışı elan olundu. Lakin buna baxmayaraq, hər şey olduğu kimi qalırdı.

Mariya getdikcə sanki dəli olmağa başlayırdı.
Hər gün qapı açıq olurdu. Mişadan isə xəbər belə çıxmırdı.
Mariyanı bu qarışıq fikirlərdən telefonun səsi ayırdı. O, tez dəstəyi götürüb həyəcanla:
- Sənsən, Elik gəl tez gəl, uşaqları da götür gəl yalvarıram, qorxuram, artıq mən tək qalmaq istəmirəm, bacarmıram.
O ağlayırdı, o, öz səsindən belə ürpənirdi.
Hə siz gəlin sonra görək nə olur.

Mariyanın qardaşı həmin günün səhəri ailəsi və uşaqları ilə Mariyagilə gəldilər. Bu hadisədən bir neçə həftə ötürdü. Hər şey yoluna düşürdü. Mariyanın qorxusu həyəcanı aradan qalxırdı. Mişadansa hələ bir xəbər yox idi. Qarlı çovğunlu bir qış axşamı idi, küçədə şaxta bir-birinin ardınca qaçan adamların əlini üzünü kəsib tökürdü. Parkdan az bir kənarda yerdə hərkətsiz halda yıxılıb qalmış qaraltı görünürdü. Onun zarıltısı ətrafa yayılaraq küləyin səsinə qoşulub qeyri-adi səs yayırdı. Onun yanından ötüb keçən adamlar gah marağını boğa bilmir ona yaxınlaşıb baxıb keçir, gah da ki, laqeyidcəsinə ötüb keçirdilər. Bu kimdir yıxlıb qalıb yolun üstündə deyə orta yaşlı qadın öz-özünə deyinirdi və ona yaxınlaşaraq, -Ay bədbəxt səni

kim bu hala salıb, bu şaxtada axı burada nə vaxta kimi qalacaqsan.Sənin bir yiyən yoxdumu deyib, yaxınlaşaraq ona titrəyən əlləri ilə toxundu. Yıxılıb qalmış adamdan isə səs çıxmırdı. O, yaxınlıqda polis məntəqəsinə xəbər vermək üçün yolu addayıb keçdi. Sonra yenə öz-özünə deyindi.
- Bu gecə burada qalsan, səhərə sağ çıxmazsan. Orada sənə bir yer verərlər, sonrasınsa özün bilirsən deyib məntəqəyə daxil oldu.

* * *

Çöldə ölü sükut hökm sürürdü, şaxta ağacları, skamyaları, yolu, hər şeyi, sanki, bütün təbiəti dondurmuşdu. Sakitcə qaranlıq gecədən baxan ay yerindən tərpənmirdi. Mariya divanda özünə sıxılmış halda oturub gözlərini məchul bir nöqtəyə zilləmişdi.
Onu qardaşı Elikin söhbəti onu fikrindən yayındırırdısa da o sanki əhəmiyyət vermir, danışmağa belə qorxurdu.
- Mariya məni eşidirsən?
Mariya zəif bir səslə – özünü yorma Elik. Heç buna cəhd də etmə. Burdan nə sən gedəcəksən nə də mən… Qal burda, özün də görürsən ki, artıq mənimki, məndən keçib. Həmişəlik qalın. Elik görürəm ki, mən tək qala bilmirəm, belə yaşıya bilmirəm. sonrasınısa Allah bilər. Elik təkidlə onunla razılaşmayaraq:
- Başa düş Mariya, bir halda ki, burada yaşamaq sənin üçün çətindir. Bizimlə gedək. Sonra hər şey öz qaydasına düşər. Başından fikirləri çıxararsan sonra…
- Elik təkrar etmə, eşidirsən, səni eşitmək belə istəmirəm, - deyib qulaqlarını əlləri ilə bərk-bərk tutdu.
- Görəsən bunun sənədi-filanı varmı? Özüdür ki, var. Mişadır, iki ay bundan qabaq itən adam. Ayılar, hər şeyi özü danışar

yəqin. Heç içib eləyənə də oxşamır. Eşidirdi Mariya, bunların hamısını eşidirdi.
- O gəlib Elik bilirsən. Mişa gəlib – deyə sevincək divandan yerə atıldı.
- haradan bilirsən, bunu. Mariya kim deyir?
- Hə eşidirəm, onun kimliyini araşdırırlar, yəqin biləndən sonra evə gətirəcəklər.
- Axı sən haradan bilirsən - deyə Elik marağını gizlətməyərək – gəlib onun yanında oturdu.
Görürəm. Elik, eşidirəm.
- Bəlkə sənə görücülük verilib. Axır vaxtlar nə deyirsən hamısı düz çıxır. Təki bu da həqiqət olsun. Mariya deyib bacısının başını sinəsinə sıxdı.
- Dəqiqələri sayıram, Elik, bax indi o bu dəqiqə qapıdan içəri girəcək.
Söz Mariyanın ağzından qurtarmamış qapı döyüldü… gələn…, o, idi.

***

Sazaq yeri-göyü yandırırdı. Küləyin uğultusu ətrafa yayıldıqca, donmuş ağacları sirkələyir, Mariyanın pəncərəsini əvvəlki kimi döyəcləyirdi.
Lakin Mariya daha qorxmurdu. Onu düşündürən yalnız əri idi.
- Mişa düzünü de heç nə xatırlamırsan? Heç olmasa bir söz de. Hərdən sənə inanmağım gəlmir, axı bu necə ola bilər.
- Mariya, əsil həqiqətdir. Mən hər şeyi unutmuşam. O bir yuxu idi, görürdüm. İndi isə hər şeyi unutmuşam, inan mənə.
- Sən getmişdin, Mişa anan gilə getmişdin… Bəs sonra….
- Yadımda heç nə qalmayıb, yuxudan ayılmağımı isə yaxşı xatırlayıram,

- Bəs sən bu uzun müddət ərzində haradaydın? Bu ki ağıla batan bir şey deyil.
- Mən nə etməliyəm Mariya, kimə desəm mənə inanmaz. Mən özüm də bilmirəm ki, bu haqda necə düşünüm. Yaddaşım pozulub sanki, bir söz belə qalmayıb.
- Nə isə Mişa. Nə deyim bəlkə də elə belə yaxşıdır. Biz ki, bir yerdəyik, demək hər şey öz qaydasındadır.
- Yox Mariya, deyəsən mənə indi nəsə aydın olmağa başlayır. Bəs sənin başına gələnlər… İnanıram ki, bunlar bir-biri ilə əlaqəli bir məsələdir.
Mən də elə fikirləşirəm.

***

O, saat 10:00 da işdə olmalı idi. Bir az gecikirdi deyəsən. Amma o nədənsə bunun fərqinə varmırdı. Bir neçə gün belə davam etdikdən sonra Mişa müdiriyyət tərəfindən çağırıldı.

Nə baş verdiyini başa düşə bilməyə çalışan Mişa kabinetə daxil oldu.
- Salam.
- Xoş gəlmisən Mişa, düzü uzun bir vaxtdan sonra sənin yenidən işə qayıtmağını səhətində baş verən dəyişikliklərdən sonra nəzərə alıb qəbul etdim. Axı sən mənim ən nümunəvi, həm də işini yaxşı bilən bir işçim idin… Lakin indi sənin haqqında xoşgəlməz sözlər eşidirəm, bəlkə bu haqda özün bir söz deyəsən, yoxsa məni eşitmirsən?
Mişa çaşqın halda.
- Ola bilsin ki siz düz deyirsiniz, amma məni nəyə görə çağırdığınızı başa düşmək, daha doğrusu bilmək istəyirəm.
- İşçilər səndən narazı olduğunu deyirlər.
- Mən ki, heç kəsə bir pislik etməmişəm.

- Sən özünü son vaxtlar çox qəribə aparırsan, bunu bilərəkdən edirsən, yoxsa ki, necə?
- Bunu mənim özümə niyə demirlər?
- Sənin hərəkətlərin hamını təəccübləndirir.
-Bu mənim üçündə maraqlı olardı.
- Nə isə. Mixail sən bir az-çox fikirləş və hər şeyin əvvəlki kimi olduğunu dərk et, səni nə narahat etsə mənə de.
O nə deyəcəyini bilməyərək, duruxmuş halda kabinetdən çıxdı.

Mariya işdən bir az tez qayıtmışdı. O, Mixailin gəlişini səbrsizliklə gözləyirdi. Çöldə aramsız sulu qar yağır, hərdən də pəncərəyə çırpılaraq onu sanki xəyallardan ayırmağa çalışırdı.
Qapı nəhayət ki döyülü.
Mixail üst-başı su içində evə daxil oldu.
- Paltarını dəyiş tez ol. Bəs niyə belə gec gəldin Mişa?- deyib onun boynuna sarılaraq başını çiyninə qoydu.
- Mariya əzizim. Hə de görüm nə bişirmisən, deyə Mişa xörəyin ətrini içinə çəkdi və Mariyanı sinəsinə sıxaraq üzündən öpdü.
Onlar bir az söhbət etdikdən sonra şam yeməyi yeyib yatağa uzandılar.
- Miş.
- Hə.
- Nə fikirləşirsən?
- Düzünü desəm inanarsan.
- Əlbəttə.
- Mən heç bir şey haqqında düşünə bilmirəm. lakin hər an narahatam, özümə yer tapa bilmirəm.
- Miş – düzünü de, sən məndən yenə də nəsə gizlədirsən?
- Sənə hər şeyi danışmaqdan qorxuram, Mariya.
- Əgər deməsəm mən doğurdan da, qorxmağa başlayacam. Miş, əzizim, səni nədir narahat edən axı?
- Mariya gəl yataq, bu haqda sonra.

- Miş.
- Mariya.
Mişa onu qolları arasına alıb öpüb, oxşadı.
- Başımı tovlama Miş, mən səni sevirəm.
- Mən də səni sevirəm Mariya.

***

Həmişə olduğu kimi Mariya güzgünün qabağında özünə baxır, qayğılı baxışlarla gözlərini süzdürürdü.
- Nə baş verir görən, nə baş verir axı…? O sanki özündən belə ürpənirdi-
- Ah əllərim-ayaqlarım elə bil mənimki deyil. Bu necə hissdir axı. Bəs Mişa. Mişa da getdikcə mənə yadlaşır. Onu itirdiyimi hiss edirəm. Axı necə… «O tək qalmaq istəyir» - ola bilməz… Bu fikir mənim ağlıma hardan gəldi axı? İndi onun mənə daha çox ehtiyacı var. Bəs mənim, elə mənim də… ona çox ehtiyacım var.
Gün axşama doğru gedirdi.
Mişa işdən tez qayıtmışdı. Mariya mətbəxdə yenə də yeni bir sürpriz hazırlayırdı və hərdən də səsi gəlirdi.
- Mişa bilisən, sənin ən çox sevdiyin xörəyi bişirirəm. Tap görüm adını hansı yeməkdir?
Miş eşitmirsən məni?
Mixail doğurdan da, eşitmirmiş kimi, yorğun-yorğun:
- Mariya, bilirsən, mən əvvəlki kimi olmaq istəyirəm… əvvəlki kimi…
Mariya ərinin xırıltılı, bir az da yorğun səsini eşitdikdə təəccübdən yerində donub qaldı. Əvvəl nə deyəcəyini bilmədi, sonra isə mətbəxdən çıxaraq tutulmuş halda qalan, divanda sakitcə oturub gözlərini bir nöqtəyə zilləyən Mixailə baxdı.

Gəlib yanında oturaraq, ona diqqətlə acizanə tamaşa etdi. Sonra –
- Nə dedin Mişa? Necə əvvəlki kimi, məyər indi nə olub ki?
- Bilmirəm Mariya.
- Mişa bəlkə sənin əsəblərin pozulub, həkimə getmək lazımdır.
- Yox, Mariya.
- Bəs səni narahat edən nədir, Mişa?
Mən bir psixoloq tanıyıram. Gedərik onun yanına, ümid edirəm ki, o, sənin bütün narahatçılığının səbəbinin həllində sənə kömək olar. Ama sən mənim qəlbimi yenə də qırırsan, mənə düzünü demirsən. Hərdən mənə elə gəlir ki, biz tamam başqa bir insan olmuşuq. Bizə təsir edən hansı qüvvə ola bilər axı. Bəlkə… bəlkə…, sən Mişa düzünü de kiməsə vurulmusan? Bunu mənə deməkdən çəkinirsən, düzünü de. Mişa, bəlkə sənin həyatında kimsə var? Nə qədər etsəm də, şübhələr məni, rahat buraxmır, düzünü de, Mişa?
Mariya ani olaraq əllərini üzünə qapayaraq hönkürtü ilə ağladı.
- Məni başa düş Mişa – deyib yan otağa keçdi.
Bayaqdan bir başqa adamı xatırladan Mişa elə bil yuxudan ayıldı. Mariyanı sakitləşdirmək və könlünü almaq üçün, yanına gəlib, qolunu onun boynuna saldı, sonra isə saçlarını öpüb oxşayaraq-:
- Bağışla, məni Mariya, mən sənin qəlbini incitmək istəmirəm. Bir də ki, bu fikirlər sənin ağlına haradan gəlib, sənin bu fikirlərin məni diksindirdi. Mənə əzab verən düşüncələri belə məhv etdi, Mariya. Mən səni sevirəm…
O ki, qaldı sənin şübhələrinə, inan ki, əsassızdır. Sənin keçirdiyin o hissin əzabınasa həyatımı belə qurban verməyə hazıram. Mariya, sən mənim sevdiyim yeganə qadınsan.
Axı sən bayaq deyirdin ki, mənim sevdiyim yeməyi bişirirsən. Təkcə doymadığım bir şey var, o da sənsən, Mariya.

Mişa onun üzündən süzülən göz yaşlarını titrəyən barmaqları ilə silərək, baş-başa bir an qaldıqdan sonra
- Sən məni acından öldürmək istəyirsən, gedək – dedi.

***

Soyuq bir axşam idi. Təbiət üşüyürdü. Onun soyuq nəfəsi insana qeyri-adilik bəxş edirdi. Bu qeyri adiliyin içərisində bir səs də var idi. O səs Mariya ilə danışırdı.
- Nə gözləyirdin, o da olacaq. Sən hər şeyə hazır olmalısan. Özündən asılı olmayan hərəkətlərinə görə pis olma, onlar labüddür.
Təkcə sən bizimlə ol, ruhunu bizə təslim et.
- Mən nə vaxta qədər gözləməliyəm. Sarsıntılar mənə əzab verir, sakitləşmək istəyirəm.
- Dincəlsən daha yaxşı olar.
Mariya möcüzələr aləmindəydi sanki, qəlbindən keçən nə vardısa yaşayırdı o anı.
- Bu nədir, ilahi, - deyə o sevinir rahat nəfəs alırdı. Hərdən də beynindən ötən qəmli bir anı yaşıdıqda isə kədərlənirdi.
- O gəlir indi, Mişa… Bəs niyə həyəcanlıdır. Ona bu əzabı verən kimdir axı. O, məni istəyir, bəs kimdir ona mane olan-?
Qapının zəngi çalındı.
- Salam Mariya,
- Salam əzizim,
Mişa artıq Mariya ilə müqayisədə tamam başqa bir dünyada olduğunun fərqinə vardıqca özünü ələ almağa çalışır və eyni zamanda bir-birinə yaxın olduğunu hiss etdikcə ağılasığmaz dərəcədə üzüntü keçirirdi. İçindəsə-:
- Bu ola bilməz, - bu ola bilməz – deyə qışqırır, özündən qaçmağa çalışırdı.

- Hər şey Allahın buyurduğu kimi olur. Mişa, siz seçilmiş insanlarsınız.
- Bunu ona necə deyə bilərəm axı?
- O sənin işin deyil. Siz başqa-başqa insanlarsınız.
- Biz bir-birimizi sevirik, bu, ola bilməz… Mən nə etməliyəm?
- İnsanlarla ünsiyyətdə, çalışın səmimi olun, onlar kimi düşünməyə çalışın, yaşamağa cəhd edin.
- Hər şey bizim düşündüyümüz kimi olacaq.
Bir səhər Mixail yuxudan ayıldı. Həmişə Mariyanın ondan tez oyandığına öyrəşən Mişa təəccüblə ətrafa baxdı.
- Nə baş verir, aman Allah… Mariya, Mariya səhər çoxdan açılıb, durmaq fikrin yoxdur?
Mişa yerindən qalxaraq Mariyaya diqqətlə baxdı. O, yatmışdı, bir qədər bu vəziyyətdə qaldıqdan sonra onun durmayacağına əmin olduqdan sonra paltarını geyinərək hamamxanaya keçdi. Bir azdan üst-başını qaydaya saldıqdan sonra evdən çıxdı.
- O hələ çox yatacaq, Mişa…
- Bilirsən ki, onunku həkimlik deyil.
- Biz hələ ki, bu dünyada yaşayırıq.
Artıq on gündən çox olardı ki, Mariya yatmış vəziyyətdə xəstəxanaya yerləşdirilmişdi. Həkimlər onun səhhətində baş verə biləcək elə bir ciddi şey görmürdülər. Lakin bu müəmmanı da başa düşmək çox çətin idi. Təkcə ona görə ki, onun üz cizgiləri dəyişilirdi.
Mixail işdən yorğun halda çıxıb xəstəxanaya tərəf yol aldı.
- Mixail, o ayıldıqdan sonra sən ona hər şeyi başa salarsan, deyərsən ki, sizin bir yerdə olmağınız mümkün deyil.
- Yox, yox, bu ola bilməz, bu mənim üçün ölümə bərabərdir.
- Biz onun yaddaşını itirsək necə?...
- Yox, təkcə bunu etməyin.

- Onda hər şeyi biz dediyimiz kimi də et.
- Aman Allah, bacarmaram, bu necə ola bilər, axı?
- Bu hər ikiniz üçün çox təhlükəlidir.
- Nə baş verə bilər axı?
- Sən bizim qanunlarımızı bilirsən. Kim səhvə yol versə…
- Mən insan olaraq yaradılmışam… belə də yaşayıb, düşünmək istəyirəm…
- Məyər biz yaradılmamışıq?
Mişa artıq xəstəxanaya çatmışdı. Mariya, hələ də yatırdı.
- Mən Mariyanı görmək istəyirəm.
- O hələ yatıb.
- Bunun nə əhəmiyyəti var axı?
- Qoy olsun, mən onu görmək istəyirəm.
- Beş dəqiqədən sonra gələ bilərsiniz, - deyə həkimdən icazə aldıqdan sonra tibb bacısı ona bildirdi.
Mariyanın üzündə həyat cizgilərindən əsər-əlamət belə yox idi. Onun bütün əlamətləri, Mişaya tanış idi.
- Qəzəbini boğ, Mişa, onsuz da biz heç bir şeyə nail ola bilməyəcəyik. Bütün bunlar bizim üçün deyil.
- Səsin niyə dəyişilib.
- sən bunu bilirsən, daha heç bir şey soruşma… dinlə…
Mixail, üzüntülərinin bir andaca yox olduğunun və bir də düşüncələrinin musiqi sədalarına hakim kəsildiyinin fərqinə vardı.
- Eşidirsən?
- Hə.
- Çox gözəldi.
- Sənlə olmaq hər şeydən gözəldi, Mariya.
- Get Mişa, əzizim, əzab çəkməmək üçün get.
- İndi mən özümü çox tənha hiss edirəm, Mariya. Bilirsənmi bu mənim üçün nə qədər çətindir.

- Sənin onun həyatından getməyin, onun yaşamağı deməkdir, Mixail! Sən bunu bilməlisən…!
Bu səs onu yuxudan ayıltdı sanki. O Mariyanın üzünə son dəfə həsrətlə baxdıqdan sonra palatadan çıxdı.

***

Bir neçə gün olardı ki, Elik bacısına baş çəkmək üçün onlara gəlmişdi. Mişa ilə söhbət zamanı çaşqın halda qalan Elik, təəccübünü gizlədərək:
- İndi nə fikirləşirsən,, Mişa. Bütün bunlar nə deməkdir? Aranızda nə baş verib? Bütün bu anlaşılmazlığa nə ad vermək olar.
- Aramızda heç bir şey olmayıb Elik, biz bir-birimizi sevirik. Sadəcə olaraq qeyri adiliklərlə üzləşməli olmuşuq. Bunu da heç cürə izah edə bilmirəm. bacarmıram. Desəm belə, məni heç kim başa düşməz.
- Mənə de Mişa…
- Fikrimi çatdırmaqda çox acizəm. Təkcə onu deyə bilərəm ki, mən əvvəlki insan deyiləm. Elik, indi başa düşə bilərsən məni. Doğmalarımın belə məndən çox-çox uzaq və yad olduğunu hiss edirəm. Amma bilirəm ki, eyni zamanda bu mənim həyatımdır. Onlar mənim doğmalarım olublar vaxtı ilə.
- Necə yəni vaxtı ilə.
- Görürsənmi dedim ki, bu qeyri mümkündür.
- Sən ətraflı danış Mişa.
- Sonra, Elik, sonra, hər şeyi götür qoy edərik.
- Xətrinə dəyməsin sən də Mariya da elə bil birdən-birə ruhi xəstəliyə tutulmusunuz. Mən buna yalnız belə ad verə bilərəm.
- Kaş belə olaydı, heç bir şey haqqında qara qorxunc fikirlərlə oturub durmayaydım.
- Yəni sənin hisslərin dəlilikdən betərdi.
- Hə, Elik, hə… Ondan da betər.

***

Son günlər həkimlər Mariyanın səhətinin normal olduğunu deyirdilər. Ayılacağını isə yalnız "Allahın işidir" - deyib susurdular. Bu belə idi, həqiqətən də belə idi.
Mixail özünə yer tapa bilmirdi.
- O gün işdən çıxdıqdan sonra Mixail bir daha geri dönmədi.

Soyuq hava səngiyirdi, təbiət getdikcə mülayimləşirdi. Göy üzünün şaxtası sındıqca sanki buz parçası əriyib damla-damla yerə tökülürdü. Bulud parçalandıqca duman yavaş-yavaş sökülür, soyuq yağışlar küləyin ilıq nəfəsi ilə istiləşirdi. Torpağın üzü yavaş-yavaş soyuğun təsirindən çat verirdi.
Təbiət getdikcə rəngini dəyişirdi…
Sevincdən quşların səsi ətrafa yayılırdı. Ağacları külək yaxşıca silkələdikdən sonra, sevinclə çubuq barmaqlarını bir-birinə vurub, qışın soyuğunu canından çıxararaq bir-birini döyəcləyirdilər. İynə sapını götürüb Ana təbiət rüzgarın əliylə yaşıl xalısını toxuduğunu gördükcə, Ağacların sevincdən çırtlayıb tumurcuqlayırdılar.
Tanrının nəfəsi yer üzünü bəzədikcə bütün varlıqlar cana gəlməyə başladılar.

***

Mariyanın rəngi getdikcə dəyişir, bədəni istiləşərək üzündə həyat əlaməti əks olunurdu.
Baş həkimin otağına həyəcanla daxil olan tibb bacısı sevinclə –
- Bilirsiniz, həkim o ayılır, Mariya ayılır.
Mariya göz qapaqlarını qaldıraraq ətrafa bir qədər nəzər yetirdikdən sonra başını bir az yana əyərək – :
- Mişa, Mişa sən hardasan deyə qapıya sarı boylandı.
- İndi gələr xanım, sizə həyəcanlanmaq olmaz.
- O gəlməyəcək.

- Yox, xanım, o elə bir neçə saat bundan qabaq getdi. Yəqin axşama, ya da sabaha mütləq gələr.
- O gəlməyəcək.
Mariyanı bir neçə gün xəstəxanada qaldıqdan sonra evinə apardılar.

Mariya hələ uşaq ikən anasını itirmişdi. Bir qardaşı ilə xalasının himayəsində böyümüşdülər. O, anasını itirdiyi anlarda keçirdiyi hissləri yaşayırdı. Tək-tənha qalmışdı Mariya… nə edəcəyini bilmirdi. O yataqda uzanmış halda gözlərini məchul bir nöqtəyə dikərək ağlayırdı.
Elik ailəsi, uşaqları ilə birlikdə, Mariyanın səhhəti qaydasına düşənədək yanında qalacağını bildirdikdə Mariya narazılıqla demişdi:
- Yox Elik, çıxın gedin. Mən tək qalmaq istəyirəm. İndi mənə hər şey əzab verir.
- Mariya sənə nə əzab verir axı?
- İnsanlar, biz başqa adamlarıq. Elik, başqa-başqa adamlar.
- Mən sənin qardaşınam. Sən bunu necə inkar edə bilərsən?
- Belədir həyatda belədir, əslində isə yox… Biz, biz bambaşqa insanlarıq. Biz hər birimiz bunu bilməliyik.
Elik Mariyanı daha incitməmək üçün fikrindən əl çəkib – nə deyir, qoy elədə olsun…
Sonra isə, onun bu halı keçirməyinin xəstəliyi ilə əlaqələndirərək daha bir söz demədi.
İndi Mariya hər şeyi başa düşür. Mixailin nə üçün getməsini qəbul edirdi.
- Mişa, bilirəm ki, biz yenə də görüşəcəyik… amma necə bunu bilmək istəyirdim. Mariya hər şeyi eşidir, bilirdi.
- Mən fikirləşmək istəyirəm.
- Heç bir şey haqqında fikirləşməyə ehtiyac yoxdur. Mariya, səhərdən sən öz iş yerinə qayıtmalısan və sənlə ünsiyyətdə olan insanların hisslərini yaddaşına köçürəcəksən. Mariya əvvəl

olduğu kimi, adi həyat yaşamına qayıdaraq, ona necə tapşırılıbsa, elə də edəcəyini bildirdi.
Mariyanın iş yoldaşları həmişəkindən də artıq səmimiyyətlə qarşılayaraq, onunla hal-əhval tutdular.
- Hər şey yaxşı olacaq, Mariya, biz sənə arxa, dayaq olacağıq.
Mariya soyuq təbəssümlə onlara öz razılığını bildirdi.
- Mən getmək istəyirəm, daha dözə bilmirəm.
- Hara?
- Bilmirəm, bilmirəm, mən ki öz hisslərimi yaşaya bilmirəm, bu mən deyiləm. Çıxıb getmək, uzaqlaşmaq, hər şeydən azad olmaq istəyirəm.
- Sən buna məhkumsan…
İndi nə etməliyəm?
- Gözlə.
Mariya başını qolları üstünə qoyub, düşüncələrə qərq olmuşdu. Bu an-:
- Mariya, əzizim bir danış görək, bəsdir özünə qapanıb qaldın. Sən tamam başqa bir insan olmusan – deyib Nailya onun yanında oturub marağını gizlətməyərək susdu:
- Sən nə haqda soruşursan, Nailya?
- Mariyanın gözlərinə baxdıqda peşmançılıq hissi ilə susdu.

***

Günəşin avazımış şüaları pəncərənin üstündə gəzişdikcə Ayanın qəlbini qəribə narahatçılıq bürüyürdü. Onun düşüncələrinə bir başqa qayğılar hakim kəsilirdi. Küçələri silib süpürən çərşənbə yeli, ağacların koğuşuna girib yarpaqlarla, otlarla təzə çiçəklərlə gizlənqaç oynayırdı. Baharın gəlişinə əvvəl təbiət özü sevinirdi. Bu anlarda təbiət dondan-dona girməyi çox xoşlayırdı. O tərəf-bu tərəfə tələsən adamların paltarlarından tutub sallaşır, taqətsiz yeriyən qocalarınsa

kürəyindən itələyib aparırdı. Şıltaq küləyin ardından onların özbaşınalığına dözməyən buludlar başbaşa toqquşaraq yağış barmaqları ilə onları döyəcləyib suyu çıxana qədər sakitləşdirməyə çalışırdı. Sonra isə yorulan mavi səmaya üzünü bozardaraq çiskinli yağmuru ilə onları öz hökmü altına alırdı. Ana təbiət bütün kainatı öz qayğısıyla qoynuna alırdı.

Ayan qeyri ixtiyari bu mənzərəyə tamaşa etdikcə gah gülümsünür, gah da ki, qayğılı baxışlarla susurdu.
Neçə gün idi ki, aramsız yağan yağışlar səngimək bilmirdi.
Hər, tərəfi soyuq xəstəlik bürümüşdü sanki. Yolda ağır qəza baş vermişdi. Qəza nəticəsində bir qadın ağır yaralanmış, bir kişi isə yerindəcə keçinmişdi. Bir tərəfdənsə biri elə hey qışqırırdı.
- Bu sui-qəsd idi, mən öz gözlərimlə gördüm onları, qəsdən vurdular.

Bir an içində küçədə yağışın əlindən qaçıb canını qurtarmağa çalışan adamlar, indi qəza baş verən tərəfə yığışırdılar. Polis və təcili yardım maşınlarının səsi bir-birinə qarışmışdı.

Mərhumun və yaralının fotoşəkilləri çəkildikdən sonra tibb işçiləri, onları təcili yardım maşınına yerləşdirərək oradan uzaqlaşdılar.

Polis mayorunun göstərişi ilə bayaqdan bu bir sui-qəsddir deyən şəxsi isə polis məntəqəsinə
apardılar.

***

Üç gün idi ki, qəza nəticəsində baş vermiş hadisəyə görə istintaq işi qaldırılmışdı. Alınan məlumata görə, mərhum aldığı kəllə-beyin zərbəsindən dünyasını dəyişmişdi.

Üstündə heç bir sənəd olmadığına, görə, onların kimliyi araşdırılırdı. İstintaqın gedişi zamanı şahid qismində saxlanılan şəxsin iddiası isə dəyişilmişdi.

- Vətəndaş Quliyev sizin verdiyiniz məlumata görə, bu hadisə sui-qəsd zəminində baş vermişdi, bunu siz necə izah edib, açıqlaya bilərsiniz?
Saxlanılan şəxs – Bilirsinizmi yoldaş rəis, mən nə baş verdiyini belə xatırlaya bilmirəm. Hər şeyi unutmuşam. Hətta bu haqda fikirləşmək istədikdə belə sanki mənə kimsə əzab verir, və nə haqda danışacağımı belə unuduram.

Bütün bunlara sübut olaraq, sorğu-sual zamanı onun huşunu itirib yerə yıxıldığının hamı şahidi olurdu və hər dəfə də onun ən azı iki saatdan sonra özünə gəldiyini heç kimi tanımadığını müşahidə edirdilər. Bir sözlə, onunla nə həkimlər, nə də müstəntiqlər bacarmır, bu müəmmadan baş açа bilmirdilər.

Bu hadisənin üstündən bir ay idi ki, ötmüşdü. Bu cinayət işi heç bir izin olmadığına görə müəmma olaraq qalırdı.

Tanya yenicə köçdüyü iki otaqlı evi səliqə-səhmana salırdı. Elə bu an qapının zəngi çalındı – gələn Dusiya xaladır, yəqin deyib qapını açdıqda qarşısında qorxunc sifətdə olan bir qadını görcək bir addım geri çəkilib, həyəcanla!
- Elik, gəl tez gəl, bu kimdir - deyib, tir-tir titrədi.
Qadın vahiməli bir səslə:
- Mənə Mariya lazımdır, deyib qaşqabaqlı halda Elikin üzünə baxdı.
Elik – Siz kimsiz? Mariyanı hardan tanıyırsınız? O buradan çoxdan köçüb, burada yaşamır. Bəlkə siz onun haqqında nəsə bilirsiniz? Xahiş edirəm danışın.
Siz mənim bacımı necə tanıyırsınız?
Qadın – Üz-gözünü turşudaraq dodağının altında mızıldanıb kinayə ilə gülümsünüb heç bir söz deməyərək ordan uzaqlaşdı. Qorxu və həyəcandan Elikin dodaqları gömgöy olmuş, bənizi isə saralmışdı.

Bu uzun müddət ərzində isə Mariyanın harada olduğundan hələ də xəbər tutmayan Elik sarsılmış halda nə edəcəyini bilmirdi. Onun yerinə isə bir başqa işçi götürmüşdü.

- Onun yaxşı işləyə bilməməsi isə, hər an kollektiv tərəfindən Mariyanın tez-tez xatırlanmasına səbəb olurdu. Osa – :
- Axı mən əlimdən gələni edirəm, deyib – gileyləndiyi an qarşısında dayanan qadının sərt baxışlarını görüncə daha da əsəbi halda-:
- Siz kimsiniz, axı mənə mane olursunuz? – dedikdə üzünü yana çevirməyə macal tapmamış qadının vahiməli nəzərlərindən yayına bilmədi.
Səhəri gün, işçilər Mariyanın yerində işləyən qızın iflic olmasından və onun təcili xəstəxanaya çatdırılmasından danışırdılar.

***

Təbiət öz işindəydi. Baharın gəlişinə küləklər küçələri silib süpürür, ağacların tozunu təmizləyərək təzə açan yarpaqlarla oynayıb qaçırdılar. Hayasız quşların səsindən qulaq batırdı. Küçədə oynayan uşaqların ardınca uçub əllərindən tökülən qoğal ovuntularını dənləmək üçün bir-birilərilə yarışırdılar. Özündən müştəbeh olan, təzəcə uçmağı bacaran dikbaş bala sərçə, onların üstünə hoppana-hoppana yüyürüb qanadını belinə vuraraq cik-cik cikildiyir, gah da yerindən tərpənməyərək ona baxıb gülüşən uşaqlar görüncə yerindəcə key kimi donub qalırdı. Tələsən küləksə bala sərçənin tükünü gah pırpızlaşdırır, gah da hamarlayıb tumarlayırdı.

Elə bu vaxt sanki qaranlıq gecədən qopub gələn, qara örtüklü bir qadının səsi ətrafı başına götürdü. O, elə hey qışqıraraq bu sözü deyirdi:

- Hamı bunu bilsin, hamı… Siz tək və tənhalığa məhkum olaraq yaradılmısınız. Sizin heç kiminiz yoxdur, özünüzdən savayı. Sizin xeyirxah niyyətlərinizdən savayı heç bir köməyiniz, yardımçınız olmayacaq. Sizin bir xilaskarınız var, eşidirsinizmi? O da sizin öz əməllərinizdir. Sizi tək və tənhalığa məhkum etmiş varlığı düşünmədən ona sarı getməlisiniz, əks halda siz ölümə, əbədi ölümə məhkum olub cəhənnəmə atılacaqsınız?! Bunu mən sizə deyirəm… Mən… Mariya…

Onu eşidən hər bir kəs, bu qadın ağlını itirib deyə gülür, gah da yox onun dediklərində bir həqiqət var deyib çaşqın halda susurdular.

Hərdən də, bəlkə bir kimsəsi yoxdur - deyə ona çörək və pul verməyə çalışırdılar. Osa, acı bir təbəssümlə:

- O hanı deyə qışqırırdı.

***

Səs-küydən diksinən Ayan yuxulu gözlərini ovuşduraraq, pəncərəni örtmək istədikdə ona tərəf zillənən bir cüt odlu gözü görüb yerindəcə donub qaldı.

O qadınsa var gücü ilə qışqıraraq əllərini Ayana tərəf uzadıb-:

- Bu sənsən, bu sənsən, eşidirsən, - deyib odlu baxışlarını onun bədənində gəzdirdi, və sonra baxışlarını onun məsum gözlərinə dikdi

- bu sənsən, bu sənsən, - deyib üzüquylu yerə sərildi.

Ayan elə bu an tələsik evdən çıxıb, pilləkənlərlə bir göz qırpımında aşağı düşərək onun yanına gəldi.

Qadının başını qolları arasına alıb, əlləri ilə onun üzünü sığalladı. Gözlərini onun ölmüş gözlərinə dikdi. Bir qədər belə qaldıqdan sonra,

- Aman Allah deyib, hönkürtü ilə başını onun çiyninə qoyub, hərəkətsiz halda qalan qadını köksünə sıxdı. O, ətrafa nəzər

salaraq, qadının başına toplaşan insanların ona təəccüblə baxdığını görüncə yerindəcə çaşıb qaldı.

- Mənə niyə belə baxırsınız, görmürsünüz? Heç sizin insafınız yoxdur, gəlin kömək edin, eşitmirsiniz, deyirdisə də insanlar heç nə olmamış kimi, bir-bir oradan uzaqlaşırdılar. Ayan isə heyrət içində bir özünə və bir də sinəsinə sıxdığı qadına baxmaq istədikdə nə baş verdiyini indi anlayıb huşunu itirirdi.

***

- Onlar bizim dediklərimizin əksini etdilər, Ayan! Və cəzalandılar. İndi növbə sənindir. Sən özün hər şeyi çox gözəl bilirsən.

- Düzdür və həqiqətdir, bu dünyada insan kimi düşünüb yaşamaq çox çətindir, əzablarla dolu bir hissdir.

- Bəs bu?

- Bu mənim həyatımdır, sevdiyim və sevildiyim bir dünyamdır.

Onun yuxusu gəlirdi. Bir az otaqda gəzdikdən sonra çarpayıya uzanıb gülümsündü.

- Mən səni sevirəm… mən sənlə olmaq, sənlə yaşamaq istəyirəm. Amma təəssüflər olsun ki, bunu sənə deyə bilmirəm. sən necə insansan, axı sən məni düşünməyə belə qoymursan. Mən səni gördükdə ağlımı itirirəm… Nəfəsim çatmır, sanki. Sənə bütün bunları necə deyim. Yox-yox sən elə bil bunları bilirsən, bəs hardan? Mən bunu hiss edirəm, bəs niyə məni şübhələr didir?

Ayan bu sözləri eşitdikcə məmnunluq hissi keçirir, əllərini üzünə, boynunda, saçlarında gəzdirərək qeyri ixtiyari olaraq, gözləri təbəssümlə dolurdu. Sonra isə sərtləşərək:
- Sənin fikirlərin mənim üçün maraqlı deyil. Sən əzab çəkməlisən, bildin – deyib – gözlərini yumaraq yatmağa çalışırdı.

III hissə

Hamı iş başında idi. Yalnız bir nəfərdən başqa. Bütün işçiləri öz hökmranlığının altında saxlamağa qadir olan bu qadın elə bunu tələb edirdi.
Qızlar, bilirsiniz, bizim sexə yeni bir işçi gəlib.
Yerdən gələn səslər bir-birini əvəz etdi;
- İcazəsiz…?
- Bunu onun özündən soruşsan pis olmaz.
- Heç görmüsüz ki, mən kimdən nəsə soruşum…?
- Bunu yəqin ki, təzə gələn adam bilməlidir.
- Ay qız eşitmirsən…? Yoxsa qulaqların o söz… - deyib bərkdən qəh-qəhə çəkdi.
Ona qoşulub bütün işçilər səs-səsə verib gülüşdülər.
Ayan özünü itirmiş əsəbi halda, ətrafa belə baxmayaraq, öz işini görürdü.

Ona qarşı olan tənələr getdikcə kəskin şəkil alırdı. O, başını qaldırıb yuxarı baxdıqda həmin qadının onun saqqız çeynəyə-çeynəyə üzünə baxdığını görüb, qəzəb və kin dolu baxışları ilə onun gözlərinin içinə baxdı. Sonra yenə öz işinə davam etdi. Qadınsa-:
- Ay qız, burada eşitdiklərin sənə aid deyil. – Deyib ona sərt bir nəzərlə baxıb əl uzatmaq istəyən anda səndələyərək arxası üstə yıxıldı və bir anın içində dodaqları göm-göy, üzü boğulmuş halda çabalayaraq canını tapşırdı. Bu hadisədən heyrətə gələn işçilər ona yaxınlaşdıqda, qadının gözlərinin qanla dolu olduğunu görüb dəhşətə gələrək – yox bu ola bilməz - deyərək donub yerindəcə qaldılar. Ayansa nifrət dolu baxışlarını onlardan yayındıraraq ordan uzaqlaşdı.

***

O bu axşam çox rahat idi, hər şey öz qaydasınca gedirdi.
- Sənin mükafatın var.
- Nədir o elə...
- Gözlərini yum.
Ayan qeyri-adi təbəssümlə dolu gözlərini yumdu və dərindən nəfəs alaraq dodaqlarını uşaq kimi, bir-birinə bərk-bərk kilidlədi.
- Bura mənim xoşuma gəlir. Bəs mənim bədənim hanı. Mən elə burda qalmaq istəyirəm. Bu nədir belə ilahi?
Bu ki bir qəsrdir, toxunulmaz bir yer. Mən bura necə gəlib çıxdım?
- Qoxu…
- Bu mənim ən çox sevdiyim, kitabdır.
- Onlar çox nadir, dünyada olmayan bir kitablardır.
- Bunlardan mənim xəbərim varmı?
- Bu qəsr sənin qəsrindir. Sən yenə də bura qayıdacaqsan.
- İlahi necə də gözəldir…
- Qoxu.
- Ahhh.
- İndi isə getmək vaxtıdır.
O, bir işıq surəti ilə geri döndü. Sonra isə dərindən rahat nəfəs alaraq, yuxuya daldı.

***

Ayan yenicə işə başlamışdı. Onu narahat edən səslər bir an düşüncələrinə rahatlıq vermirdi.
- Buna bir bax, gəldiyi heç bir ay deyil, əməlli-başlı müdirin gözünə girib. Bu sənə çox baha başa gələcək. Burada yalnız mənim sözüm keçə bilər. Bəs onda nə edim. Onun fikrini işindən necə yayındırım. Bəlkə dəzgahı… bu lap əla fikirdi.

2-ci səs – Lənət şeytana bu qızda nə var ki, mən bütün günü onun haqqında düşünürəm, bu kimdir axı fikir məni bir an belə rahat buraxmır?
3-cü səs – O qeyri-adi bir insandır. O, necə də maraqlıdır, mən onu sevməyə başlayaram. Bu necə hissdir, axı mən qadınam…
Ayanı işindən bir səs ayırdı.
- Ayan, səni bir dəqiqə olar?
- Axı mən buranı belə bir vəziyyətdə qoyub çıxa bilmərəm.
- Heç bir şey olmaz əzizim… bir də ki nə də olsa sən təzə işçisən, mən bunu səndən daha yaxşı bilirəm… bildin. Bax beş dəqiqəlik mən onu söndürürəm, sonra yenidən quraşdırarıq – deyib özünə məxsus bir eqaist iddiası ilə irəli yeriyib Ayanın əlindən tutub kənara çəkdi və dəzgahı söndürmək istədikdə, yüksək dərəcəli təzyiq cərəyanla toqquşub onu yerə çırpdı. Elə bu an işçilərin səsi bir-birinə qarışdı.
- Sən etdin – vicdansız, sən etdin onu sən öldürdün. Sən onu yanına çağırmasaydın belə bir hadisə də baş verməzdi.
- Qızlar müdürə xəbər verin, təcili yardım çağırın.
- Ax səni lənətə gələsən deyib onun üstünə atılmaq istədikdə, dəzgahların arası ilə birləşən cərəyanın təzyiqindən toquşan enerji bir anda sexi öz ağzına aldı və güclü partlayış sexi darmadağın etdi.

Ayan üzüquylu yerə uzanmış halda qalmışdı. Onu xilas edicilər görüncə sevinclərinin həddi-hüdudu yox idi. Çünkü sağ-salamat qalan on nəfərdən biri o idi.

***

Yay gəlmişdi. O, öz hərarətini təbiətin bir parçası olan insanların qəlbinə hopdurur, ruhuna qəribə rahatlıq bəxş edirdi. Ayansa bu anlarda tamam başqa bir duyğular öz qanadına almışdı.

- Mən əzab çəkirəm.
- Sənə əzab verən yalnız o insanlardır ki, onlar yaşamağa layiq deyillər. Ayan, sən bunu yaxşı bilirsən. Sənin arzuların, istəklərin, onların düşüncələrindən belə çox fərqlidir. Çünkü sən seçilmişlərdənsən.
- O səslərdən uzaqlaşmaq istəyirəm.
- Bəs sənin missiyan? Heç onların içində sənə həyat bəxş edən, yaşadan yoxdur?
- Əlbəttə ki, var. Yox mən belə demək istəmirəm. Hərdən özümü də hiss etmək, dinləmək istəyərdim, yeri gəlmişkən – bu nədir mənim haqqımda qızğın mübahisə gedir.
- Mən o qızı sevirəm, mən bunu ona necə deyə bilərəm.
- Çox sadə… götür telefonu, zəng vur, vəssalam.
- Bu ola bilməz.
- Neyçün?
- Çünkü o çox qəribə qızdı.
- Bunun tanış olmağa nə dəxli var ki?
- Onu gördükdə bədənim ürpənir, başlayıram tir-tir titrəməyə.
- sən lap ağ elədin a, insan sevdiyi bir şəxsin gözəl, cazibədar olduğundan heyranlıqla danışır. Sənsə gör nələr deyirsən.
- Düzünü bilmək istəyirsənsə mən ondan çox qorxuram…
- Əstəfürulla de, birdən ağzın-zadın uçuqlayıb eləyər.
Ayan özündən qeyri-ixtiyari olaraq başını bulayıb güldü və dərindən bir köks ötürdü.
Sonra o, qonşusunun onlara gəldiyini görüb, bir az evə əl gəzdirib qapını açdı.
- Gəlin Rahilə xala, keçin içəri.
- A qızım demiyəsən ha, bilirdim gəlməyini.
Ayan gülərək-:
- Rahilə xala, söhbət elə.
- Ay qızım, nə deyim axı, mən…
- Hara tələsirsən? Sənə nə qədər pul lazımdır de..

- Allah səndən razı olsun qızım, heç bilmirəm sənə necə minnətdarlığımı bildirim.
Ayan özü üçün ehtiyat saxladığı puldan Rahilə xalaya verib. Onu yola saldıqdan sonra rahat nəfəs aldı.

Ayan hər şeyi bilirdi. Onun ruhunda, qəlbində sirli, sehirli bir cazibə qüvvəsi vardı ki, hər bir insana təsir edir və olduğu kimi özünü ehtiva edirdi. Onun gözlərindən axan məni, insana ilahi varlığın möcüzələrindən söhbət açırdı.

***

- Ayan, sən getməlisən, eşidirsənmi?
-Bilirəm orada mənim üçün çox çətin olacaq.
- O, Ayan kimdir elə, gəlsin görək mənim qarşımda duruş gətirə biləcəkmi?
- Çalış onun haqqında yaxşı şeylər düşün yoxsa…
- Yoxsa nə? O cindir, yoxsa şeytandır… ha, ha, ha, ha….
Ayan qapını döydukdən sonra içəri daxil olduğu an onlar hər şeyi çoxdan unutmuşdular. O, bir qədər mütəəssir halda durduqdan sonra otaqdan çıxıb yoluna davam etdi. Yol boyu ona verilən tapşırıqların nəticəsini araşdırdıqdan sonra məmnunluq hissi ilə üzünü göyə tutub əllərini havada yelləyərək, ürəyinin, ruhunun səsi ilə mən səni eşidirəm… Sən məni eşidirsən…? - Deyə qışqıraraq torpağa diz çökdü və iki damla yaş əbədi ayrılığa məhkum olunmuş gözlərindən süzülərək torpağa qarışdı.

07. 01-02. 2006

Epiloq.

O ruhunu mənə tapşırdı.
Mən onu dinləyirdim.
- Sən yalnız mənim fikrimi qəbul edəcəksən - dedi.
Mənsə, mən yalnız Allahın əmrinə tabeyəm.
O iki dəfə bu sözü təkrar etdi.
Mənim ruhum kənardan durub mənə baxırdı, əzab çəkirdim.
- Yox! Məni yaradan gözə görünməzliyin canlı varlığıyam. Sənin istəyini qəbul etmirəm. O üçüncü dəfə təkrar etdikdən sonra yanaraq külə döndü. O, bir ovuc kül mənim gözlərimə dolaraq bu dünyanın yaşam hissini görməmək üçün məni kor etdi. Lakin mən hər şeyi əvvəlcədən hiss edir, hər bir insanın iç dünyasını görüb, gələcəyini dərk edirdim. Bunu mən bilirdim ki, Allah da baxıb buna görə sevinirdi.

SON

ŞAHİD
(hekayə)

«Əbədiyyətin nuru olan, iyirmi yanvar hadisəsinin günahsız qurbanları olan şəhidlərə həsr olunub. Allah rəhmət eləsin. Qoy sizin ruhunuz azadlıq deyilən həqiqətə qovuşsun, əziz şəhidlərimiz».

Baş alıb gedən küləklər, sanki bir eşqin cazibəsinə düşmüş kimi irəli, geri, gah da sağa, sola vurnuxur, hərdən də şütüyərək uçan yarpaqların ardınca yüyürdülər. Gah şıltaq, gah qəzəbli, gah da mülayim zümzüməsini ətrafa yayırdılar. Sonra isə göy gurultusundan diksinərək yağan yağışların sədaları altında yerə sərilirdilər.
Yel qanadları ilə daşları, kəsəkləri yuyub təmizləyir, xiyabanda yan-yana düzülən şəhid taxtalarını qəbirləri sığallayıb oxşayırdılar.

Gəlişimdən xəbərsiz kimi mənim heç telimə də toxunmurdular. Yəqin məni yağışa qısqanırdılar. Üzümdə gümüşü əksini göstərən yağış damlaları yerə düşüb səs saldıqca, ətrafımda sakitcə dolaşan ruhların hənirtisini hiss edirdim.
Şəhid səsi – Salam.
Mən – Diksindirdin məni.
Şəhid – Sən canlı ruhsan!
Mən – Kimə bənzədirsən bənzət, təki mənimlə görüşmək sizin üçün xoş olsun.
Şəhid səsi – Anamı istəyirəm. Çox, lap çox istəyirəm
Mən – Məyər anan səni görməyə gəlmir?
- Əlbətdə gəlir, amma o burdan getdikdən sonra əzab çəkir. Onun heç bir zaman əzab çəkməyini istəmirəm, nə edim?

- Yuxusuna gəl, onun əzab çəkdiyinə görə əzab çəkdiyini və özünü xoşbəxt hiss etdikdə sənin də xoşbəxt olduğunu de.
- Bu kömək edər?
- Əlbəttə, mənim balam.
Şəhid səsi – Bəs mənim necə?
- Səni üzən nədir ki?
O gecə anamı incitdim. Mənim ondan həmişəlik ayrılacağımı sanki duyurmuş kimi, getmə dedi, sözünə baxmadım. Bu bir qismət imiş. Bunların o gecəki rəzaləti, dinc insanlara divan tutmasını, tankları üstünə sürməsini unuda bilmirəm. - Nə etmək olar. Sən üzülmə. Allah xəyanəti bağışlamır, bu qisası da qiyamətə saxlamayacaq.
- Mənə o günün xəbərini gətirəcəksənmi?
- Əlbəttə, buna əmin ola bilərsən. Sən də məni gözləyəcəyinə və üzülməyəcəyinə söz ver.
- Yağış çoxdan kəsilib, bəs sənin gözlərindəki o yaş nədir?
- Bu yağışın son damlalarıdır əzizim, bax onu bu dəqiqə silərəm. Bir bax, buludların arxasından günəş gizlin-gizlin baxır, guya ki, bizim ondan xəbərimiz yoxdur.
- Kaş ki, mənim bütün bunlardan heç xəbərim olmayaydı.
- Axı sən niyə belə deyirsən.
- Sənin üzündəki yaşını silməyin körpəmi günəşin baxışları isə sevgilimi mənə xatırladır.
- Məni bağışla.
Damarımda qanımın donduğunu hiss edirdim. Keyləşmiş, buza dönmüş əllərimi, nəfəsimlə isidib ovuşduraraq dizi üstə çöküb, bir məzarın üstünə əllərimi sərdikdə, ovcumun yandığını və hərarətin bütün bədənimə keçdiyini hiss etdim. Sonra isə başımı qaldırdıqda.
- Aman Allah bu nədir?
Qəbr daşının üzərindəki şəkildən baxan gənc mənə baxıb gülümsünürdü.

Ani olaraq mənim də dodağım qaçdı, sonra isə gözümdən süzülən yaş buz kimi əllərimin, ordanda daşın üzərinə düşdü:
- Bu nədir, mən səni isindirirəm, sənsə məni üşüdürsən.
- Yox, yox bu belə deyil, mən bu dəqiqə.
- Xətrinə dəymək istəməzdim. Mənə görə ağlamağa dəyməz.
- Bu nə sözdür.
- Bəli bu bir həqiqətdir, axı, mən nə etmişəm ki, heç bir düşmən belə öldürməmişəm, öldürsəm belə mən sənin göz yaşlarına dəymərəm.
- Sən nələr düşünürsən? Bu ki,…
- Yox, mən düz deyərəm. Biz o gecə heç bir şey edə bilmədik.
- Sən haqlı deyilsən, eşidirsənmi, günahkarlara haqq qazandırmaq olmaz. Ən azı ona görə ki, bizim millət xəyanətin qurbanı oldu. Neçə min insanlar günahsız yerə bu xəyanətin qurbanına çevrildi. O gecə, iyirmi yanvar gecəsi isə əli yalın insanlara divan tutuldu. Axı biz hardan biləydik ki, onlar bizi bu rəzalətlə qarşılayacaqlar. Öz evimizdə, ocağımızda bizi qətlə yetirəcəklər. Axı biz hardan biləydik ki, özlərinin gələcəyi naminə öz içimizdən olan satqınlar, mənfur ermənilərə verdiyi fürsətin qurbanı olacağıq.

Sizcə doğurdan da, göz yaşlarına deyil, torpaqlarımızı yad tapdağından təmizləyəndən sonra, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, bir sözlə, zəbt olunmuş yurd-yuvamızda bitən gül-çiçək dəstələrinə layiqsiniz… Bu da sizin qanınızı aldıqdan sonra olacaq. Əslində isə, bizim sizin qarşınızda əliboş, peşman olmağıza haqqımız yoxdur. Siz buna layiq deyilsiz.

***

Bayaqdan sakitcə bizi dinləyən rüzgar, bir anda qəzəbli halda özünü daşlara, ağaclara çırparaq hirsini, hikkəsini səsiylə, uğultusuyla çıxarırdı. Buludlarsa bir-birinə çırpılaraq yer üzünə sınıb tökülürdü.

Hərəkətsiz halda ürəyimin acılarını dinləyirdim. Ürəyimin səsinə səs verib inildəyən səslər ruhumu sarsıdırdı. Mənimlə baş-başa qalıb bu ağrıları ovundurmağa çalışırdı.
Pilləkənlərlə aşağı enib, özümə gəlmək üçün səkinin üstündə oturub şəhidlər sarayını seyr edirdim.

Bu qara toy kimin ola?
Qulağıma vağzalı səsi gəlirdi. Gəlin maşını qırmızı qərənfillərlə bəzədilmişdi. Bəy gəlinə baxır, onun həyəcandan allanan yanaqlarını görüb pəncərədən ətrafa boylanırdı. Gəlin maşınısa sürətlə şütüyür sanki, onlar muradına çatdırmaq üçün tələsirdi.
Qəflətən tankdan açılan atəş maşınının şüşələrini, dəlik-dəlik etdi. Sonra, tank onların maşınının üstünə yeriyib elə ordaca onları qətlə yetirdi.

O müdhiş gecənin mənzərəsi, gözlərimin önündəydi, - ilahi, bu necə dərddir. Aman Allahım bəzədilmiş məzar gül-çiçək içində itib batmışdı. Bəylə gəlinin şəkli önündə qırmızı lentlə bağlanmış toy güzgüsü ilə şamdanlar onlara bir yaraşıq verirdi.

Dilim tutulmuşdu, ruhum əzab içində hıçqırırdı.
- Bizi təbrik etmirsən…? Gəl-gəl yaxına gəl bu çiçəklərdən götür bizim sevgimizdən sənə yadigar olsun. Bir bax gör bizim üçün dərilmiş güllər necə sevinir, bir-birinə sıxılıb bizim kimi. Onlar da, ədəbi ayrılmayacaqlarına görə sözümüzü təsdiq edərək başlarını yellədirlər. bir bax, bizim bəxt güzgümüz sınmayıb, bu da o deməkdir ki, biz əbədiyyətə qovuşmuşuq və xoşbəxtik…

Ayaqlarım sustaldığına görə müvazinətimi itirib onların qarşısında diz çökdüm və əbədiyyətə qovuşan, sevgi nağılını dinləmək üçün, başımı onların məzarı üstünə qoyub gözlərimi yumdum.

Sinəmin göynərtisi məni rahat buraxmırdı. Əslində isə, ürək adlı bir yara, mənə əzab verirdi. Ovuclarım arasında köksümü sıxıb bu yaraya məlhəm axtarırmış kimi, keyləşmiş vücudumu ayağa qaldırmağa çalışırdım.
- Xalacan, məni eşidirsən?
- Ah bu sənsən.
- Mən burda qalmaq istəmirdim… dostlarımdan ayrılmaq istəmirdim, mən burada çox darıxıram.
- Əziz balam qəm yemə, bax bundan sonra hər gün gəlib sənlə görüşəcəyəm, eşidirsən? Dostların necə, onlar gəlmirlərmi?
- Gəlirlər xalacan, – amma mən də böyümək, onlar kimi arzularımla yaşamaq istəyirdim.
- Canım mənim, sən niyə belə üzülürsən. Bir de görüm sən heç, əbədiyyət adlı bir söz eşitmisənmi?
Əbədiyyət? Nədir o elə? O, məni arzularıma çatdıracaqmı?
- Əlbəttə, mənim balam. Bax biz insanlar, təkcə biz yox, bütün bəşər övladı, əbədiyyətə qovuşacaqlar. Fəqət, həyat yolu çox keşməkeşlidir. Hər bir insanın qismətinə düşən ömrü yaşayıb qədərinə qovuşacaq. Ən müqəddəsi isə budur ki, Allah-talanın yaratdığı insanlar içərisində ən sevimlisi şəhidlər olacaq.
- Şəhidlərmi?
- Bəli, mənim balam, şəhidlər.
- Məyər biz əbədiyyət deyilən yerdəmi yaşayacağıq?
- Əlbəttə.
- Bəs onda mənim dostlarımda o əbədiyyətə qovu-şacaqlarmı?
- Yox-yox xalacan, mən belə demək istəmirdim. Onların böyüyüb arzularına çatmağını istəyirəm. Bağışla məni xala,

əgər dostlarım böyüyüb arzularına çatsa, mən də sevinərəm. Axı onlar hər dəfə bura gələndə onların mənə görə necə kədərləndiyini görürəm. Mən onları xoşbəxt görmək istəyirəm.

Mən, balaca qızcığazla söhbət edə bilmirdim. Aman Allahım, mənə dözüm ver.

Buludlar göz yaşlarını, məzar daşlarına çırparpaq, çilik-çilik olurdu. Təbiətin ürəyi elə dolmuşdu ki, elı hey ağlayır, bir an belə ara vermir, üzü gülmürdü.

Sanki mən özüm də, məzar daşına dönmüşdüm. Lakin mən, məzalıqdan çıxıb, ruh kimi dolaşırdım, şəhidlər xiyabanını.

Şəhid səsi – Qızım, sən bilirsən, biz ulu şəhidlərimizin qəbrində uyuyuruq.

- Nə bilirəm.

- İndi onlar daha çox əzab çəkir, qızım. Bizim unutqanlığımıza görə. Biz özümüz-özümüzü eşitmədikdən sonra kim bizim səsimizi eşidəcəkdi ki? İblislər dünyaya meydan oxudular. Hər zaman olduğu kimi.

- İnan ki,o gün çox uzaqda deyil. Tarixin bizə verdiyi dərsdi bu müsibət. O gün tezliklə gələcək, ulularımızın və sizin qanınız alınacaq. Mən buna inanıram, siz də inanın və əzab çəkməyin.

Yağışa qoşulub üzümdən axan göz yaşlarım məni üşüdürdü.

Deyəsən yağış səngiyirdi. Soyuq külək ilıq mehlə əvəz olunurdu.

- Sanki, salxım söyüdlər başını məzarların üstünə əyərək, ana əllərinə bənzəyən, titrək barmaqları ilə, məzar daşlarını, sığallayıb layla çalırdı.

Gün batırdı. Axşam Azanın səsi, şəhidlərin səsinə qovuşaraq, göy üzünü dolaşıb bir anda nura qərq olaraq qeyb olurdular.

Hə, deyəsən, mən də özümü onların içində səs kimi hiss edirdim. Lakin mənim səsim şahid səsi idi. Şəhidlərin səsini,bütün dünyaya yaymağa can atan şahid səsi…

1992

SON

MÜNDƏRİCAT

Müəllif haqqında ---------- *2*
Ön Söz ---------- *3*
Roman ---------- *9*
Hekayə və povestlər ---------- *178*
Səs ---------- *179*
Canlı Heykəl ---------- *184*
Xocalının ölümü ---------- *187*
Sevgi ehtiras deyil ---------- *192*
Xəyallardan boylanan həqiqətlər ---------- *197*
Ayan ---------- *237*
Şahid ---------- *267*

LƏTİFƏ NURAN ƏLİHƏSƏN QIZI

TƏNHA KÖLGƏLƏR

(Roman)

Bakı- 2007

Çapa imzalanmışdır 21. 10. 2007.
Formatı 60x84 1/16.
Şərti ç/v 17, 25.
Tiraj 300.

“MSV NƏŞR”
Məhdud Məsuliyyətli Cəmiyyətinin
mətbəəsində çap edilmişdir.
VÖEN: 1700529441.